MARK ENDEVELD

# BÖYÜK
# MANİPULYATOR

*Emmanuel Makron və onun gizli şəbəkələri*

Əsərin orijinal adı:
**Le grand manipulateur**

Müəllifin orijinal adı:
**Mark Endeweld**

Nəşr olunduğu il:
**2019**

Nəşriyyat evi:
**Stock**

Nəşr olunduğu şəhər:
**Paris**

Nəşr olunduğu ölkə:
**France**

Azərbaycan dilinə tərcümə:
**2024**

Fransız dilindən tərcümə edən:
**BTQ**

ISBN 978-2-234-08656-2
© Éditions Stock, 2019

# MÜNDƏRİCAT

**PREZİDENT ZƏHƏRİ**........................................................................6
*Şəbəkələr və kölgədə olan adamlar*..........................................................7
*Kiçik və böyük sirlər*..........................................................................10
*"Şeytanın təbəssümü"*..........................................................................13

**İKİ ALEKSANDR**................................................................................16
*Çağırılmayan yeri dar edən qonaq həyasızlıq edir*.........................................20
*Əsli Kabildən olan xaç atası işə başlayır*....................................................25
*Çox təşəbbüskar bir patron*.....................................................................33
*Londondan üçüncü adam*..........................................................................38

**PREZİDENTİN CASUSU**..........................................................................42
*Jue-le-Tur şəhərciyindəki turist*...............................................................47
*Moris adasında Ukrayna oliqarxı ilə xüsusi missiyalar*...................................52
*Siyasi Elmlər tramplini*...........................................................................55
*Foş prospektində hər şeyə qarışan qadın*.....................................................58

**SARKOZİNİN FANTOMU**..........................................................................64
*Holland Daxili İşlər Nazirliyini təmizləyə bilmir*..........................................68
*Sarkozi və Makron – obyektiv müttəfiqlər*.....................................................70
*Kabinet direktoru axtarışı*.........................................................................73
*Kollomb ona edilən etibarı doğrultmur*..........................................................75
*Əxlaqsız cütlük*......................................................................................77
*Sarkozinin hiyləsi haqqında şayiələr*............................................................80
*Makron piyadalarını Ədliyyə Nazirliyində yerləşdirir*......................................85

**VİTSE-PREZİDENT**................................................................................89
*Sarkozist Luvrierdən kiçik məsləhət*............................................................90
*San-Lui-dö-Qonzaqın kölgəsində*.................................................................93
*Bernard Arno 2012-ci ildə: "Biz ona kömək etməliyik!"*....................................95

*Brijit onu Jak Attali ilə tanış edir*......................................................99
*Hakimiyyətə aşiq olanlar*......................................................101
*Narkotik kimi bir şey* ......................................................103
*Şayiələrə qarşı mübarizə*......................................................105
*Yelisey sarayında pərdəarxası müharibə*......................................................109
*Barışıq qonaqlığı*......................................................112

**SEÇKİ KAMPANİYASININ PULLARI**......................................................**114**
*Maliyyələşdirmədən həbsxanaya*......................................................117
*Banklar onların ümidlərini doğrultmur*......................................................121
*Sanballı adamların sığorta müqavilələrinə dəstəkləri*......................................................125

**YA ARXAMCA ADDIMLA, YA DA GƏBƏR**......................................................**128**
*Lankaster hotelində gizli görüşlər*......................................................130
*Rəqiblərə qarşı mübarizə*......................................................132
*Hakimiyyətdə olan homoseksuallar Hollanddan narazıdırlar*......................................................134
*Parisin köhnə meri ilə təzə meri arasında müharibə*......................................................136
*Frank-masonlara tərəf baxış*......................................................139
*Baş qərargahın sevinci*......................................................143
*Makron fəhlələrin probleminə dırnaqarası yanaşır*......................................................146

**BARONLAR GERİ QAYIDIR**......................................................**149**
*Kollomb özünün Liondakı şəbəkələrini təklif edir*......................................................151
*"Köhnə dünyadan" dəstək*......................................................154
*Qocaların orta yaşlılardan qisası*......................................................157
*Aveyronun Makron sektoru*......................................................160
*Ferrand və Brotayn regionu*......................................................162
*Axşam məsləhətçisi Mişel Şaras*......................................................166

**YELİSEY SARAYININ KLANI**......................................................**169**
*"Yalançı" Attali*......................................................173
*Mərkəzləşmə proseduru və onun ziyanı* ......................................................175
*Özünə güvənib hökmranlıq edən texnokrat*......................................................178

*İqtisadiyyat Nazirliyinin yalançıları*...181
*Planş bandası Puatiye şəhərinin bandasına qarşı*...184
*Hermandın vəsiyyəti*...187
*"Müşketyorlar" və "Kardinalın mühafizəçiləri"*...190
*Yelisey sarayının döyüş otağı*...192
*Lüdovik Şaker*...195
*Mayın ikisində hazırlanan videolar*...197
*Yelisey sarayının "təslim olanları"*...200

**VƏZİFƏ PAYLANIŞI**...**205**
*Müdafiə Nazirliyində böyük manevrlər*...207
*Hamı "dövlət daxilindəki dövlətə" qarşı çıxır*...210
*"Şef" Makron mövqe tutur*...212
*Sənayeçilərə qarşı şiddətli və kəskin tənqid*...214
*Hərbi sənaye kompleksi*...216
*Lö Drian dərd çəkir*...218

**AFRİKA ƏLAQƏLƏRİ**...**220**
*Afrika haqqında kiçik məsləhət*...221
*Əlcəzair yenidən oyuna girir*...223
*Xarici İşlər Nazirliyi oyundankənar vəziyyətdədir*...225
*Liviya ilə bağlı müəmmalar*...227
*Afrika biznesi davam edir*...228
*DGSE (Xarici kəşfiyyat) Afrikada*...230

**MEDİA STRESSDƏDİR**...**231**
*Yazılı mətbuat da kənarda qalmır*...234

**HAQQ-HESAB SAATI**...**237**
*Benalla qalereyanı əyləndirir*...240
*Brijit Makron hikkəsindən partlayır*...243

**SON SÖZ**...**246**

## ÖN SÖZ

# PREZİDENT ZƏHƏRİ

2018-ci ilin yazında, hələ "Benalla məsələsindən" əvvəl, Yelisey sarayındakı murdar və üzücü ab-havadan şikayətlənən məsləhətçilərindən birinə Emmanuel Makron belə cavab verir: "sən də Brijit kimi birdəfəlik başa düş ki, Respublika prezidentinin ətrafı həmişə zəhərli olur". Həm qəribə, həm aydın, həm də fatalizmlə dolu bir həqiqət... sanki V Respublikanın ən gənc prezidenti seçki kampaniyasında özünü "yeni dünya"nın daşıyıcısı kimi təqdim edən bu adam, gücü tükənmiş bir rejimi, eləcə də əvvəldən mövcud olan qanunları dəyişdirmək niyyətində deyilmiş. Onun cavabından təəccüblənən həmsöhbəti, prezidentdən bu zəhərə qarşı dərman olub-olmadığını soruşur. Dövlət başçısı bu sualı cavabsız qoyur.

Hər şey prezidentin seçki kampaniyasından başlandı. Şübhə yoxdur ki, bu iddialı adamın bəxti gətirir. Belə ki, heç bir siyasi karyerası olmayan, hətta heç bir partiyaya belə daxil olmayan Emmanuel Makron, ən yüksək pilləyə qalxmaq üçün bütün Respublika şəbəkələrindən məharətlə istifadə etdi. Düzdür, onun tərəfdarları Makronu mediada "yeni dünya yaradacaq, güclü potensialı olan, ölkəyə yeni siyasi və iqtisadi amillər gətirəcək bir namizəd" kimi təqdim etsələr də, bu adam hakimiyyətə gəlmək üçün əslində, "köhnə dünya"nın klassik kanallarından istifadə etdi. Heç kəsə heç nəyi sübut etmək niyyətində olmadığını iddia edən, öz sözlərinə görə "hər şeyi həmişə özü tək edən" gənc bankir, əslində, prezident kürsüsündə əyləşmək üçün min oyundan çıxdı, yüzlərlə adamı məharətlə manipulyasiya etdi, onlarla adama şirin vədlər verib, nəhayət, istədiyinə nail oldu.

# ŞƏBƏKƏLƏR VƏ KÖLGƏDƏ OLAN ADAMLAR

Müxtəlif lobbilər, cəmiyyətə və ictimai fikrə təsir etməyi bacaran xüsusi agentlər, əyalət şəhərlərindəki baronlar, media kralları, hətta frank-mason lojaları... Hamısı ona öz köməklərini təklif etdilər. Makron onların hər birini böyük təbəssümlə qarşıladı, onlardan ustalıqla istifadə elədi, bəzilərini isə sadəcə olaraq manipulyasiya etdi. Bu siyasi hoqqalarda onun arvadı Brijit Makron mərkəzi rol oynadı, xüsusilə sağçılar partiyasının üzvlərini öz tərəflərinə çəkməkdə. Bütün təsir şəbəkələrindən səmərəli istifadə edən bu "həyasız" namizəd, rəqiblərini tamamilə zərərsizləşdirə bildi. Professional bir bankir kimi Makron insanlardan kapital kimi istifadə edir: kimləri harada və nə vaxt investisiya etməyi, kimlərdən harada və nə vaxt istifadə etməyi gözəl bacarır. Necə ki, vaxtilə Manuel Valls HAVAS şəbəkəsindən, Fransua Bayru Modem partiyasından, Fransua Hollandın keçmiş müdafiə naziri Jan-İv Lö Drian Sosialist Partiyasından istifadə etdiyi kimi.

Hakimiyyətə gəlmək üçün Makron, demək olar ki, utanıb-qızarmadan hər şeydən və hamıdan sui-istifadə etdi. Vaxtilə onun prezident kampaniyası üçün vəsait toplayan yaxın bir adamı deyir ki, "prezident olmazdan əvvəl, Makron eynilə Don Juan kimi özünü bizim hamımıza sevdirdi, hamımıza şirin vədlər verdi, istədiyinə çatandan sonra isə hamımızı – katolikləri, müsəlmanları, milyonerləri, yüksək vəzifə sahiblərini, bir sözlə, ona kömək duranların hamısını tamamilə unutdu. Qısası, hamımızı yaxşıca doladı".

2017-ci ildə gənc prezidentin qələbəsində, bütün bu şəbəkələr böyük rol oynadılar. Ortaya məntiqi bir sual çıxır: necə olur ki, Sarkozi sisteminə qarşı çıxmaqla prezident seçilən Fransua Hollanddan sonra siyasi kölgədə qalanlar, din xadimləri, iş adamları, mədəniyyət və incəsənət adamları, hətta cəmiyyətin böyük bir qismi, bu adamı hakimiyyətə

gətirmək üçün dəridən-qabıqdan çıxdılar? Makronun keçmiş tələbə yoldaşlarından birinin sözlərinə görə "onlar Sarkozi ilə Dominik Stros-Kanın əxlaqsızlıqlarını bir-biri ilə qarışdırıb ortaya bunu (Emmanuel Makron) çıxardılar".

Yelisey sarayında, prezidentin ətrafındakılar bir ağızdan təsdiqləyirlər ki, "Makron öz xeyirləri üçün Fransadan istifadə edən bəzi ölkələr, xüsusilə bir sıra Afrika ölkələri ilə əlaqələri qırmaq istəyir. Əslində, onlar bu mifologiyanı, reallığı gizlətmək üçün yaradıblar. Özünün siyasi partiyası olmadığından, prezidentliyə namizədliyini irəli sürən Makron, əvvəllər yaxınlıq etdiyi iki böyük ənənəvi partiyadan kömək istəmişdi. Ancaq eyni zamanda hər yerdə təkrar edirdi ki, o, nə sağçı partiyası, nə də solçu partiyası ilə yaxınlıq etmək fikrində deyil. Etiraf etmək lazımdır ki, onu dəstəkləyən şəbəkələr genişdir: onların arasında böyük beynəlxalq ticarət orqanizmləri, Afrikanın bəzi fransızdilli ölkələri, silah sənayesi, gizli kəşfiyyat xidmətləri, xüsusi təhlükəsizlik servisləri, dövlət üçün işləyən tikinti, telekommunikasiya və kommunal şirkətləri var. Təbii ki, bunlardan geniş ictimaiyyətin xəbəri yoxdur, daha dəqiq desək, onların çoxunu heç ictimaiyyət tanımır. Bizim apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, yuxarıda adı çəkilən ölkə və şirkətlər Makronun prezident kampaniyasında maliyyə çətinliklərinin olduğu bir vaxta meydana çıxdılar. Rəsmi məlumata görə, prezidentliyə namizəd Makron, Yelisey sarayını fəth etmək üçün onun kampaniyasına lazım olan məbləğin xeyli hissəsini, özlərini "yeni iqtisadiyyatın" sütunları sayan məşhur iş adamlarının köməyi ilə topladı. Ancaq bu bəs eləmədi.

Təbii ki, seçki kampaniyasına keçirilən pullar, Milli Kampaniya Hesab Komissiyası tərəfindən, eləcə də siyasi maliyyələşdirmə komitəsi tərəfindən təsdiq olunmuşdu. Ancaq 2018-ci ilin noyabr ayında onun seçki komissiyasının maliyyələşdirilməsində bir neçə qanun pozuntuları olduğunu sezən ədliyyə sistemi istintaq işi açdı. Məhkəmə bir il əvvəl prezidentliyə namizəd olan Makronun "Hərəkətdə!" hərəkatına keçi-

rilən 144 000 avronun haradan gəldiyi ilə maraqlandı. Açığını deyək ki, bizim bu barədə verdiyimiz suallar, çox vaxt həmsöhbətlərimizi narahat etdi... Emmanuel Makron iqtisadiyyat naziri olan vaxt, onun kabinetinin keçmiş üzvlərindən biri bizə belə cavab verdi: "mən bu barədə danışmaq belə istəmirəm… çünki onların hamısı xəstədir!". Bəziləri bizim suallarımızdan yayındılar, bəziləri bizimlə söhbətdə, hətta mobil telefonlarından belə istifadə etməkdən qorxdular. Nə səbəbə?

... Düzdür, prezident onları qorxudur, onlara hədə qorxu gəlir, onları manipulyasiya edir, amma o da həqiqətdir ki, bu adamların çoxu hər şeydən əvvəl makronizmdən məyus olan adamlardır. Onlar bizneslərini qorumaq üçün məcbur olub yavaş-yavaş silahlarını çıxarmağa başlayırlar. Çünki Makronun ən yüksək səviyyəyə qəfil gəlişi, onun göz qamaşdıran performansı, sağçılar və solçular arasında indiyədək mövcud olan kiçik vərdişləri pozdu, o cümlədən maliyyə səviyyəsində. Keçmiş bankir kimi Makron onu da yaxşı bilir ki, siyasət həm də pul məsələsidir. Hakimiyyətdə uzun müddət qalmaq, dövləti uzun müddət öz nəzarəti altında saxlamaq üçün o, indiki və gələcək düşmənləri ilə soyuq müharibə aparır. Benalla məsələsindən əvvəl, eləcə də sarı jiletlilərin sosial qarşıdurmasından çox-çox qabaq, Nikola Sarkozini dəstəkləyən bir nəfər qorxu və həyəcan içində bizə demişdi ki: "Makron düz on il hakimiyyətdə qalacaq... Bir sıra siyasi çətinliklərlə qarşılaşmağına baxmayaraq, o, hakimiyyəti əlində saxlamaq üçün hər şeyə əl atacaq və heç kəsə onun yolunu kəsməyə imkan verməyəcək...".

## KİÇİK VƏ BÖYÜK SİRLƏR

Emmanuel Makronun hakimiyyətinin bünövrəsi müəmmalardan, sirlərdən və məxfi əlaqələrdən qurulub. Bu bünövrə ona əvvəllər bir-birinə zidd olan şəbəkələri manipulyasiya etməyə geniş imkan verir. Makron hakimiyyətə gələndə keçdiyi yolları, cığırları silib yox etməkdə, eləcə də ona hakimiyyətə gəlməkdə kömək edən adamları özündən uzaqlaşdırmaqda çox mahirdir. Bundan başqa, Makron onun hakimiyyətə necə gəldiyini araşdıran jurnalistlərin işini də çətinləşdirməyi ustalıqla bacarır. Onun ətrafındakı qeyri-rəsmi məsləhətçilər nəinki çoxdur, onlar hətta bütün nəzarətdən kənardadılar. Prezident seçkiləri kampaniyası zamanı bu namizəd ancaq Teleqram proqramından istifadə edirdi – klassik mesaj proqramlarına və elektron poçtlara etibar etmirdi. Onun sevdiyi idman növü? Çevrəsindəki adamları, kontaktda olduğu siyasətçiləri yalandan tərifləyib göylərə qaldırmaq və beləliklə ona lazım olan məsləhətləri almaq. Ətrafındakı işçilərdən biri etiraf edir ki: "bir də gördün prezident gecə saat birdə, ya ikidə zəng vurub səndən nə isə soruşur, ya müəyyən bir mövzuda sual verir, bəzən mübahisəli məsələlər olanda, yazılı şəkildə açıq-aşkar izahat istəyir. O bu hərəkəti böyük şirkətlərin rəhbərlərinə, yüksək vəzifəli məmurlara, keçmiş həmkarlarına və institut yoldaşlarına, eləcə də bəzi jurnalistlərə qarşı edir. Təbii ki, özündənrazı, tərifi sevən insanlar, Makronun tərifləri qarşısında əriyib, onun xahişlərini yerinə yetirirlər... ancaq onların Makrona işi düşəndə, prezident heç onların zənglərinə belə cavab vermir".

Makron prezident olandan Yelisey sarayında sirr və müəmma kultu ara vermədən davam edir. Emmanuel Makron senatorların narazılığına baxmayaraq, öz komandasındakı "qeyri-rəsmi məsləhətçilərin" sayını artırır. Belə ki, prezidentin komandasındakı səkkiz "missiya icraçısının" adları heç bir rəsmi siyahıda və rəsmi orqaniqramda qeyd olunmayıb. İndiyə qədər onların nə işlə məşğul olduqları hamı üçün sirr olaraq

qalır. Bu müəmmanı artıq hamı, eləcə də prezidentin mətbuat orqanı da qəbul edib və buna təbii baxırlar. 2017-ci ilin iyul ayında prezidentin mətbuat şöbəsinin direktoru Sibet Ndiay L'Express jurnalına verdiyi müsahibədə açıq-aydın demişdi:

"Tam səmimiyyətimlə etiraf edirəm ki, mən prezidenti qorumaq üçün çox vaxt yalan danışıram..." (?)

Prezident seçkilərindən az sonra tarixçi Patrik Buşeron qeyd etdi ki, Makron siyasi fəaliyyətə özünün bandası – hakimiyyətə və hakimiyyətdə olanlarla dostluğa can atan gənclər bandası ilə başladı. Ancaq cəmi iki ildən sonra, Makronun prezident olmasında əsas rol oynayan və seçki kampaniyasında ona dəstək verən "klan" Benalla məsələsindən sonra dağıldı. İlin əvvəlindən könüllü istefa verənlərin, eləcə də işdən xaric olunanların sayı artdı. İstər-istəməz ortaya belə bir sual çıxır: bu cür hərəkət sistemdəki əxlaqsızlığı və pozğunluğu gizlətməyin bir yoludur, yoxsa bu əxlaqsızlıqları və pozğunluqları sifariş edən adamı qorumaq üçündür? Çünki o vaxt Aleksandr Benallanın missiyası yalnız təhlükəsizlik məsələləri ilə məhdudlaşmırdı. O, prezidentliyə namizəd Emmanuel Makronun səyahətlərini, xüsusən də xarici ölkələrə olan səfərlərini təşkil edirdi. Makron seçki kampaniyasını maliyyələşdirməkdən ötəri tez-tez Londona, Nyu-Yorka, Beyruta və Əlcəzairə səfər edirdi. Təbii ki, prezidentliyə namizəd olan bir şəxsin yanında daima fırlanan bir adam seçki kampaniyasının çox sirlərini bilir. Ona görə də Benalla məsələsi ortalığa çıxanda, qorxudan prezidentin qarnına ağrı dolmuşdu; 2016-cı ildən bəri "Hərəkətdə!" hərəkatını yaratmaqda ona dəstək olan, indiyə qədər onunla irəliləyən "klan"ı başından eləməyə çalışırdı.

Makron yaxşı bilir ki, ona hakimiyyətə gəlməkdə kömək edənlərlə heç olmasa üzdə yaxşı olmalıdır. Vay o adamların halına ki, onlar Makronun qoyduğu qırmızı xətti keçib ona yaxınlaşmağa can atırlar. Necə ki vaxtilə ona vasitəçilik edən, onun seçki kampaniyasına pul toplayan Aleksandr Djuri... Makron prezident olandan sonra Əlcəzairə səfər edəndə, bu adam dəvətsiz-filansız, özünü Fransa səfirliyində prezidentin şərəfinə verilən ziyafətə soxmuşdu... Bir müddət sonra isə o,

London aeroportunda, ingilis polisi tərəfindən həbs olundu. 39 yaşında prezident seçilən Makron indi hakimiyyətə gəlməyində ona kömək edən, necə deyərlər, onun nə vaxtsa asılı olduğu adamlarla özü arasında sərhəd qoyur. Özünün etiraf etdiyi kimi hakimiyyətə "oğurluqla" gələn bu adam, prezident olmaq üçün Monteburqun və Villpəntin çevrəsindəki adamlardan, vaxtilə Sarkozini, Şirakı dəstəkləyən Jan-Pier Raffaran, Jan-Lui Borlo və onun keçmiş yol yoldaşı DSK (Dominik Stros-Kan) kimi şəxsiyyətlərdən ustalıqla istifadə etdi. Seçki kampaniyası zamanı Fransua Hollandın keçmiş maliyyəçiləri də ona xeyli kömək göstərdilər. "Pis qoxu hiss edən kimi Makron tez onlardan uzaqlaşır. Ancaq bu, o demək deyil ki, o, daha bu adamlardan istifadə etmir", – deyə onun çevrəsindəkilərdən biri bizə etiraf etdi.

Amma bu araşdırmalarımızın ən böyük sürprizlərindən biri odur ki, Makron kampaniya dövründə, hər şeydən əvvəl, 1990-cı illərin ortalarında prezident Mitteranla (solçu) Baş nazir Balladürun (sağçı) birgə hakimiyyətində iştirak edən siyasətçilərə arxalanırdı. Dövləti həmişə idarə edən Sosialist və Respublika partiyalarını, eləcə də onların üzdə olan rəhbərlərini uzaqlaşdırmaq üçün Makron keçmiş nəslin nümayəndələrindən ustalıqla istifadə etdi, daha doğrusu, Fransua Mitteranın hakimiyyətinin sonunu görən nəsildən.

Eyni zamanda, bu adam, Mitteranın və Balladürun şəbəkələri arasındakı iri beynəlxalq müqavilələri də öz əlinə alıb, İqtisadiyyat Nazirliyinin kölgəsində öz bildiyi kimi "fırlatdı".

Gələcək prezident, seçki kampaniyasında Sarkozistlərdən və ya Hollandçılardan kömək alsa da, V Respublikanın sirlərini yaxşı bilən köhnə şəbəkələrdən də məharətlə istifadə etdi. Belə bir şəraitdə heç də təəccüblü deyil ki, Aleksandr Benalla kimi və ya Mitteranın hakimiyyətinin ilk illərində onun siyasi rəqiblərinin telefon danışıqlarına qulaq asmaqda günahlandırılan və cəzalandırılan Yelisey sarayının jandarm qrupunun keçmiş rəisi Kristian Pruto kimi şübhəli adamlar onun ətrafında peyda oldular. Onların ikisi də Yeliseydə prezidentin təhlükəsizliyini yenidən təşkil etmək üçün icraçı rəhbər seçildilər.

## “ŞEYTANIN TƏBƏSSÜMÜ”

Rotşild bankında işləyəndə, Emmanuel Makron Əlcəzair Mərkəzi Bankının keçmiş direktoru Abderrahman Hacı-Nacerlə tanış olmuşdu. Keçmiş bank direktoru bu cavan oğlanı ilk dəfə ortaq bir dostu ilə nahar zamanı görmüşdü. Yeməkdən sonra Əlcəzairli iqtisadçı Fransanın gələcək prezidenti haqqında belə bir ifadə işlətmişdi. “Onun üzündə şeytan təbəssümü var!”. Bu təbəssümün arxasında ideal kürəkən obrazı bağışlayan Emmanuel Makron onun düşmənlərinin o qədər də fərqinə varmadığı bir sərtlik və zalımlıq gizlədir. 2017-ci ilin mart ayında, prezident seçkiləri kampaniyasının qızğın çağında Manuel Vallsın ona qarşı ikiüzlülük etdiyini başa düşən gələcək prezident, yaxın dostlarından birinə demişdi: “hiss olunur ki, o, məni başa düşmür. Eybi yox, indi biz ona, real döyüş sursatı ilə hücum edərik”. Fransua Hollandın “mülayim və ürəyiyumşaq Emmanuel” adlandırdığı bu adam – düzdür, bəzən tabeliyində olan qeyri-rəsmi məsləhətçilərindən hansınasa bir qutu şokolad hədiyyə edə bilər – əslində, kinli, başqalarına yuxarıdan aşağı baxan, həyasız, verdiyi salamı da məqsədlə verən bir adamdır. Makron prezident seçiləndən sonra onun əsl təbiəti haqqında danışanların sayı az da olsa, artıb. Düzdür, onlar prezidentin necə xarakterli bir adam olduğunu nə kamera qarşısında, nə də mikrofon önündə açıqlamırlar. Ancaq öz çevrələrində, yaxın dostlarının yanında etiraf edirlər ki: “Makron özünü insanlara şirin satır, onlardan istifadə edir, sonra da əlini sildiyi kağız dəsmal kimi onları kənara atır”. “Makron ona kölgə salan adamları – istər, dostu olsun, istərsə də, düşməni – tapdalayıb əzir”, – deyə onun keçmiş həmkarlarından biri etiraf edir. “Makron kimisə irəli çəkməkdə, kimisə səhnəyə çıxarmaqda əla mütəxəssisdir. Lakin sonra irəli çəkdiyi, səhnəyə çıxartdığı adamın başına bir güllə vurub onu məhv edir”, – deyə onun başqa bir keçmiş həmkarı təşviş içərisində pıçıldayır.

Fransanı “Nümunəvi Respublika” kimi təqdim edən Emmanuel Makronun cəlbedici görüntüləri və gözəl çıxışları arxasında, onun yarat-

dığı bulanıq siyasi super-prezidentlik, Qərb demokratiyasından seçilən, respublika monarxiyasına daha çox bənzəyən bir sistem dayanır.

Bu arxaik siyasi mexanizmlər, prezidentin lap yaxın çevrəsindəki adamlar tərəfindən tamamilə qəbul olunub və mükəmməl bir şəkildə həyata keçirilir. Aleksandr Benalla – murdar hərəkəti ilə bütün ölkədə böyük qalmaqala səbəb olan bu adam da – prezidentin yaxın çevrəsinə daxildir. "Əslində, Yelisey sarayında hər şey, sizin prezidentlə nə qədər yaxın olub-olmadığınız üstündə qurulub. Məsələn, prezident sizi görəndə gülümsəyirmi, sizi adınızla çağırırmı və sairə... Bu şah sarayına mənsub olan bir fenomenidir". Bu sözləri Arian Şeminin və Fransua Krüqun may ayının 1-də baş verən skandal haqqında yazdıqları məqalədən bir neçə gün sonra prezidentin keçmiş "missiya icraçısı" Le Monde qəzetinə verdiyi müsahibəsində deyib. Bu məsələ (Benalla məsələsi) sadəcə bir "yay serialıdır" deyə prezidenti dəstəkləyənlərdən biri, bu skandalı minimuma endirməyə cəhd edir. Bu hadisə həm prezidentin özünü, həm onun çevrəsini, eləcə də bütün dövlət qurumlarını əməlli-başlı vəlvələyə salmışdı. Biz bu məsələ barəsində sonrakı səhifələrdə ətraflı danışacağıq.

İyulun sonunda, mayın 1-də baş verən hadisənin ortaya çıxmasından bir müddət sonra indiyə qədər bu məsələ barəsində heç bir fikir bildirməyən dövlət başçısı Latın Amerikası Evindəki toplantıda ona sadiq adamların qarşısında Aleksandr Benalla haqqında danışıb ona haqq qazandırandan sonra gurultulu alqışlar altında qətiyyətlə əlavə edir: "bu məsələdə yeganə cavabdeh ancaq və ancaq mən özüməm. Nə istəyirlər qoy mənə eləsinlər". Bir neçə həftə sonra bu sözləri deyən adam Avropa1 radiosunun mikrofonu qarşısında jurnalistlərdən xahiş etdi ki, onun keçmiş həmkarına (Benalla) qarşı bir az "mərhəmətli" olsunlar. Nə səbəbə prezident əvvəl dediyini indi inkar edir?

Məsələ burasındadır ki, istintaq zamanı ortaya çıxdı ki, Aleksandr Benalla prezidentliyə namizəd Makronun seçki kampaniyası zamanı istifadə etdiyi bütün gizli şəbəkələrin sirrini bilir. Ona görə də o vaxt prezidentliyə namizədin Çad ölkəsinə səfəri ilə bağlı qalmaqallı

məsələlərin, eləcə də onun şübhəli Fransa-Afrika əlaqələrinin qəflətən ortaya çıxması, dövlət başçısının danışıq tonunda bəzi dəyişikliklər yaratdı. Prezidentin mətbuat xidməti ölkəyə çatdırdı ki, Aleksandr Benalla Yelisey sarayında "heç vaxt nə rəsmi, nə də qeyri-rəsmi vasitəçi olub". Göründüyü kimi hakimiyyətdə olan şəxs, heç üzdə də olsa, özünün keçmiş missiya icraçısına dayaq durmur. Ancaq buna baxmayaraq, birbaşa hakimiyyətə ünvanlanan bir çox suallar cavabsız qalır: "nəyə görə Yelisey sarayı mayın 1-də baş verən qalmaqallı məsələdən sonra prezidentin keçmiş köməkçisini müdafiə etdi? Aleksandr Benallanın evindəki seyf niyə yoxa çıxdı? Onu kim və nə üçün aradan götürdü? Hansı səbəblərə görə bu adamda iki diplomatik pasport və iki xidmət pasportu olub? Niyə həm prezidentin özü, həm də onun bəzi yaxın əməkdaşları Aleksandr Benalla prezident sarayından birdəfəlik gedəndən sonra onunla əlaqə saxlamaqda davam ediblər?".

Ümidvarıq ki, əlinizdəki bu kitab sizə bu cür çoxsaylı sualların cavablarına aparan yeni-yeni yollar göstərəcək.

2019-cu ilin fevralında senatorların mətbuatda nəşr olunmuş hesabatlarından məlum oldu ki, Aleksandr Benalla ilə bağlı bu skandal, prezident sarayında baş verən "əsas disfunksiyaların" üstünə çox güclü və gözqamaşdırıcı bir işıq salır. Mediapart saytı üzə çıxardı ki, Vəncan Qras və onun "şilləvuranı" Aleksandr Benalla rus oliqarxları İsgəndər Mahmudov və Fərhad Əhmədovla 2,2 milyon avro müqabilində təhlükəsizlik müqavilələri imzalayıblar!

Bu ifşaların qarşısında prezidentin yaxın köməkçiləri və onun mətbuat xidməti bütün günahları keçmiş "missiya icraçısı" Aleksandr Benallanın boynuna qoydular – hər şeyin günahı ondadır. Mediada onların bu texnikasını "yeganə fiksasiya nöqtəsi" adlandırdılar. Benalla serialında hər gün yeni faktların ortalığa çıxması nəticəsində, dövlət başçısının cavabdehliyi onun yaxın və sadiq adamları tərəfindən tədricən kənara qoyuldu.

17-ci əsrdə qələmə alınan Saray Adamı əsərinin müəllifi Baltasar Qrasian yazırdı: "İnsanı dostlarına görə mühakimə edərlər".

# İKİ ALEKSANDR

Fransa prezidentinin təyyarəsi Əlcəzairin hava limanında yerə enir. Airbus sürətini azaldır, aerodromla yavaş-yavaş irəliləyib, nəhayət, dayanır. Aşağıda Əlcəzairin məmurları, o cümlədən Baş nazir Əhməd Uyahya qırmızı xalçanın qarşısında dayanıb Emmanuel Makronu qarşılamağa hazırlaşırlar. Amma dəqiqələr keçir, ancaq təyyarədən heç kim çıxmır. Fransa prezidenti tələsmir. Əlcəzairin rəsmi nümayəndələrinin sifətində səbirsizlik və narahatlıq oxunur. Çünki Makronun 2017-ci il 6 dekabr tarixində Əlcəzairə etdiyi rəsmi səfər cəmi-cümlətanı iyirmi dörd saat davam edəcək. Bu möhtərəm qonağın vaxtı çox məhduddur. Nəhayət, xeyli keçəndən sonra Fransanın prezidenti, onun ardınca Fransız deleqatsiyasının üzvləri təyyarədən çıxıb, körpü-pilləkənlərlə yavaş-yavaş aşağı enirlər. Bu gəlişin ab-havası əvvəlki Fransa prezidentlərinin bura səfərindən tamamilə fərqlənəcək. Əlcəzairin hökumət nümayəndələri ilə görüşdən sonra Makron saat 14:00-da Fransa səfirliyində iki ölkənin iyirmiyə yaxın yazıçısı, ziyalısı, iş adamları və kommersiya liderləri, eləcə də QHT rəhbərləri ilə nahar edir. Masanın ətrafında Bualem Sansal və Kamel Daud kimi adlı-sanlı yazıçılar, eləcə də milyarder Ksaviye Niel kimi şəxsiyyət var. Fransanın Xarici İşlər naziri  Jan-Yv Lö Drian, Daxili İşlər naziri Jerard Kollomb və İctimai hesablar komitəsinin sədri Jerald Darmanan da prezidenti müşayiət edirlər...

Səfirliyin divarları arasında gözəl atmosfer və yaxşı əhval ruhiyyə var. Prezident hamı ilə həvəslə söhbət edir və qonaqlarla selfi çəkdirir. Nahar məclisi o qədər maraqlıdır, prezidentin başı söhbətlərə elə qarışıb

ki, köməkçisi bir neçə dəfə ona yaxınlaşıb xəbərdarlıq edir, artıq getmək lazımdır. Çünki günortadan sonra Əlcəzairin 80 yaşlı prezidenti Əbdüləziz Buteflika paytaxtdan bir neçə kilometr aralıda yerləşən Zeralda iqamətgahında onu qəbul etməlidir. Ancaq Makron tələsmir, əksinə, xoşuna gəlir ki, onu gözləsinlər. Prezidentlə söhbətə gecikməyinə baxmayaraq, o, Əlcəzair paytaxtının küçələrində əhali ilə planlaşdırılan görüşdən imtina eləmir və kameraların qarşısında izdihamın içində camaatla söhbət edib, onlarla şəkillər çəkdirir. Fransanın vaxtilə Əlcəzairi müstəmləkə etməsi barədə ona sual verən bir gəncə Makron ötkəm bir tonla cavab verir: "nə mənim beynimi xarab eliyirsiz? Siz də, sizin nəsliniz də gələcəyə baxmalısınız".

Bu kiçik cümlə dərhal Fransanın və Əlcəzairin mediasında böyük əks-səda verir.

Əvvəlcə, Əlcəzair tərəfi ümid edirdi ki, bu dövlət səfəri iki gün çəkəcək. Üstəlik, birinci xanım Brijit Makron da bu səfərdə iştirak etməliydi. Ancaq bu rəsmi səfərdən bir neçə həftə əvvəl Malidəki terrorizm məsələləri ilə bağlı Əlcəzairlə Paris arasında mübahisə düşdü. Ona görə də səfərin müddəti iki gündən iyirmi dörd saata endirildi. Səfərdən bir neçə saat əvvəl Əlcəzair tərəfi cəhd etdi ki, bəzi fransız jurnalistlərinin vizalarını bloka salsınlar. Ancaq buna müvəffəq ola bilmədilər. İki "dost" dövlətin arasındakı münasibətə bax da... – bilmirsən güləsən, ya ağlayasan... "Heç nəyi şişirtmək lazım deyil... belə şeylər tez-tez olur", – deyə fransız diplomatlarından biri aranı sakitləşdirməyə çalışır. Ola bilər, amma onu da unutmaq lazım deyil ki, bir neçə ay əvvəl, 2017-ci ilin iyununda əlcəzairlilər Parislə onların çoxdankı rəqibi Mərakeş arasındakı "isti" münasibəti həzm edə bilməmişdilər. Belə ki, Fransa prezidenti Makron Mərakeş kralının "xüsusi dəvətinə" müsbət cavab vermişdi. Yelisey sarayının mətbuat xidməti Əlcəzair tərəfin "könlünü almaq" üçün belə bir xəbər yaymışdı ki, bu çox "qısa formatda" olan bir səfərdir: "prezident Makron və xanımı Brijit kral ailəsi birlikdə Ramazan ayının son günündəki iftar yeməyində iştirak edəcək – vəssalam".

Əlcəzairdə protokolu pozaraq özünü belə "kobud" aparmaqda Makronun bir məqsədi var: Onlara özünün kim olduğunu bildirsin. Göstərsin ki, burda şef kimdir! Xaricdə, xüsusilə də Əlcəzairdə özünü belə aparmaq, iki ölkə arasında dinc münasibətlər yaratmağın, bəlkə də, ən yaxşı yolu deyil. Bundan başqa, əlcəzairlilər on il əvvəl, 2007-ci ilin dekabrında Nikola Sarkozinin ölkələrinə rəsmi səfərini hələ də nifrətlə yad edirlər. O səfərlə bağlı acı xatirələr hələ də unudulmayıb.

Belə ki, o vaxt Raşida Dati, Fadel Amara, Smain və Didier Barbelivien (?) kimi adamların müşayiəti ilə Əlcəzairə səfərə gələn yeni seçilmiş prezident Sarkozi protokola o qədər də diqqət etməmişdi. Ona görə də Əbdüləziz Buteflika Sarkozinin beş illik hakimiyyəti dövründə onun bu hərəkətinə görə Fransa prezidentinə qarşı kin saxlayacaq. O vaxt Nikola Sarkozini ən çox Əlcəzairin iki düşməni – Müəmmər Qəddafi və Mərakeş kralı Məhəmməd VI maraqlandırırdı. Onu da qeyd edək ki, Fransa ilə onun vaxtilə müstəmləkəsi olan Əlcəzair arasındakı münasibətlər heç vaxt sadə olmayıb...

Bu dəfə əlcəzairlilər Fransua Hollandın hakimiyyəti dövründə olduğu kimi Fransadan qisas almaq istəyirlər. Makron sosialist prezidentin (Holland) keçmiş əməkdaşı deyilmi? 2017-ci ilin mayında Əlcəzairin nazirlərindən biri demişdi ki: "bunun (Makron) ipinin üstünə odun yığmaq olar". Əlcəzair çoxdandır Fransanın keçmiş İqtisadiyyat naziri (Makron) ilə maraqlanır. 2015-ci ilin sonunda Əlcəzairin yüksək rütbəli məxfi xidmət generalı "Mahfud" təxəllüslü Nurəddin Mekri İqtisadiyyat naziri Makronun çox gizli şəkildə prezident seçkilərinə hazırlaşdığını sezmişdi. O vaxt əlcəzairlilər prezidentliyə namizədliklərini irəli sürən iki nəfərlə daha çox maraqlanırdılar: Alan Jüppe və Emmanuel Makron.

Bəs 2017-ci ilin dekabrında, cəmisi iyirmi dörd saatlıq Əlcəzair torpağına ayaq basan Fransa prezidenti bu ölkənin rəhbəri Əbdüləziz Buteflika ilə görüşməyində nə məqsəd güdür? Bu qısa səfər zamanı Emmanuel Makron vaxtının çox məhdud olmasına baxmayaraq, Əbdüləziz Buteflikanın qardaşı və məsləhətçisi, rejimin güclü simalarından biri

olan Səid Buteflika ilə də görüşür. Protokol rəhbəri daş atıb başını tutsa da, özünü hamının gözünə soxmağı sevən Emmanuel Makron fikrindən dönmür.

Qardaşlarla görüşdən sonra Makron əylənməyə gedir. Axşam saat 19:00-a yaxın Fransa nümayəndə heyəti Əlcəzair paytaxtının Əl-Biar adlanan hissəsində yerləşən, Zeytun Villası adlanan səfirliyə qayıdır. Fransa səfirliyinin geniş həyətində qurulan böyük bir çadırın altına, xüsusi dəvət olunmuş beş yüzə yaxın qonaq – əlcəzairlilər, fransızlar, franko-əlcəzairlilər, siyasi və iqtisadi xadimlər, eləcə də incəsənət adamları yığışıb.

Bu bayram tədbirini təşkil edən Fransanın Əlcəzairdəki səfiri Ksaviye Driankurt adlı diplomatdır. Fransa Milli Administrasiya məktəbinin məzunu, Xarici İşlər Nazirliyində Alan Jüppenin müşaviri olan bu adam, Nikola Sarkozinin hakimiyyəti dövründə də bu vəzifədə işləmişdi. 2014-2017-ci illərdə Əlcəzairdə səfir olan təcrübəli diplomat Bernard Emie də vaxtilə Baş nazir Alan Jüppenin, sonra da prezident Jak Şirakın müşaviri olmuşdu. Şimali Afrika və Yaxın Şərq üzrə yüksək mütəxəssis olan bu şəxs, Əlcəzairdə xeyli əlaqə qurmuşdu. Məhz elə buna görə də Makron prezident seçiləndən az sonra onu Fransanın Xarici Kəşfiyyat Xidmətinin (DGSE) rəisi təyin etdi. Bernard Emienin bu çox həssas vəzifəyə rəhbər seçilməsini, prezidentə Fransua Hollandın hakimiyyəti dövründə təhlükəsizlik xidmətinin rəhbəri olan Bernard Bajolet tövsiyə etmişdi. Bu adam həm də Hollandın dostu idi. Ksaviye Driankurt və Bernard Emie bir-birlərinə yaxşı münasibət bəsləyirlər və hər ikisi Əlcəzairi əlinin içi kimi tanıyır. Təbii ki, bu iki nəfərin yaxın münasibətdə olması ümumi iş üçün faydalı ola bilər, həm də ki "ailənin" sirri "evdən" bayıra çıxmaz...

... Diplomatlarla xarici kəşfiyyat casusları arasındakı bu qəribə yaxınlıq iki ölkə arasındakı gərgin münasibətə yaxşı işarədir.

## ÇAĞIRILMAYAN YERİ DAR EDƏN QONAQ HƏYASIZLIQ EDİR

Ancaq bu təcrübəli adamlar Fransız səfirliyində baş verəcək bir gözlənilməz görüşün qarşısını ala bilmirlər. Qonaqlığın qızğın çağında Emmanuel Makron V Respublikanın ən məşhur personajlardan biri olan Aleksandr Djuri ilə üz-üzə gəlir. Beynəlxalq müqavilələrin imzalanmasında (silah satışı, təyyarələr) həmişə yaxından iştirak edən, xüsusilə Dominik dö Villpənt və Nikola Sarkozi ilə çox yaxın olan, indi də Makronla yaxınlıq etməyə can atan bu iş adamının cibində rəsmi dəvətnamə də var. Ancaq Le Canard enchaîné qəzeti bir müddətdən sonra aşkara çıxaracaq ki, dəvətnamədə onun familiyası səhv yazılıb. "Fransa Respublikasının Prezidenti Emmanuel Makron cənab Aleksandr Djuridən acizanə surətdə xahiş edir ki, onun Əlcəzairə səfəri münasibətilə təşkil edilən qəbulda iştirak etsin".

Otuz ildən bəri ancaq başqalarının kölgəsində hərlənən bu iş adamı dövlətin bütün sirlərindən yaxşı xəbərdardır. O, indiyə qədər bütün prezidentlərlə – istər, sağçı olsun, istərsə də, solçu – dil tapa bilib. Amma tədqiqat aparan jurnalist Pier Peanın yazdığı kimi, Aleksandr Djuri Sarkozinin dövründə V Respublikanın ən vacib fiqurlarından birinə çevrildi.... Ancaq Holland prezident seçiləndən sonra isə Aleksandr Djurinin siyasi həyatında çətinliklər başladı. Hamının "Müsyö Aleksandr" çağırdığı bu adam əvvəllər banditizmlə məşğul olub, sonra isə, daha doğrusu 1980-ci illərin sonundan, bandit karyerasını Fransa-Afrika şəbəkələrində, xüsusən də Elf kimi məşhur neft şirkətinin yüksək vəzifəli şəxsləri Andre Tarallo və Alfred Sirven ilə davam etdirdi. Bu minvalla hakimiyyətin dəhlizlərinə ayaq basan bu adam Jak Şirakın keçmiş kabinet direktoru, Kooperasiya naziri olan Mişel Russanın da köməyindən xeyli istifadə edib.

Dövlətin yüksək vəzifəli məmurlarından biri etiraf edir ki: "Aleksandr Djuri son dərəcə güclü, arxalı, həm Fransada, həm də xaricdə nüfuzlu çevrəsi olan bir adamdır. Əlcəzairdə onun ən yaxın dostu 2010-cu ildə vəfat edən general Larbi Belkheir idi. Mərhum general onun üçün çox qapılar açmışdı. Amma onun çevrəsinin döyünən ürəyi Afrikada – Cibuti ölkəsidir. Məhz bu ölkədə Aleksandr Djuri 2002-ci ildə bankir Vahib Nacerlə tanış olur və qaynı vəkil Mohamed Arefin sayəsində bir sıra böyük miqyaslı maliyyə planları həyata  keçirir. Nacer Fransa ilə Səudiyyə Ərəbistanı arasında bağlanan məşhur "Savari II" silah müqaviləsinin həyata keçməsində əsas rol oynayan personajlardan biridir. Ancaq məsələ burasındadır ki, 60 yaşında olan Aleksandr Djuri 2017-ci ilin iyun ayından beynəlxalq axtarışdadır – iki Fransız prokuroru Serj Turner və Od Büresi onun həbsinə qərar veriblər. Aleksandr Djuri 2007-ci ildə Liviya tərəfindən Sarkozinin prezident kampaniyasının maliyyələşdirilməsində ittiham olunur. Əslən Kabil olan, cibində Fransız və Əlcəzair pasportları gəzdirən bu adamın bir tərəfi də Qabonludur. Qətər, Cibuti, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, İsveçrə və təbii ki, Əlcəzair kimi ölkələr arasında işgüzar səfərlər edən Aleksandr Djuri, hələ ki, Fransaya qayıtmaqdan çəkinir.

Bu axşam Fransanın Əlcəzairdəki səfirliyindəki bu rəsmi qəbulda

Aleksandr Djurinin iştirakı nədənsə heç kimi təəccübləndirmir. Bir ilə yaxındır Fransa mətbuatı ölkədə car çəkir ki, 2016-cı ilin sentyabrından Liviyanın Sarkozinin seçki kompaniyasını maliyyələşdirməsi kontekstində ittiham edilən bu adam, Fransız ədalət məhkəməsinin çağırışını qulaqardına vurub ölkəyə qayıtmır. 2016-ci ilin noyabrında Le Monde qəzeti onun haqqında iki səhifəlik məqalə çap edir. Elə həmin ay, 2016-cı ilin noyabrında Dominik dö Villpənt "France2" telekanalındakı bir verilişdə ötkəm bir səslə etiraf edir ki, Aleksandr Djuri onun dostu olub və dostu olaraq da qalır. "Mənim onunla çox yaxın münasibətlərim var. Bilirəm ki, onun vəziyyəti çox yaxşıdır. Onunla belə maraqlanmağınız mənim üçün xoşdur. Bir adamla dostluq etmək o demək deyil ki, onunla

biznes qurursan..." Onun bu sözlərindən sonra studiyada gərginlik hiss olunur.

Le Canard enchaîné qəzeti 8 dekabr nömrəsində Aleksandr Djurinin Əlcəzairdə Fransa səfirliyindəki rəsmi qəbuldakı iştirakını bütün ölkəyə yayır. Bu məqalədə də, bundan sonra çap olunan məqalələrdə də qeyd olunur ki, Emmanuel Makron Aleksandr Djurinin bu qəbulda iştirakına çox pis baxıb. "Prezident çox narazı görünürdü, hətta əsəbiləşmişdi". Bir neçə həftədən sonra Ksaviye Driankurt polisin korrupsiya ilə mübarizə aparan əməkdaşlarına etiraf etdi ki, "biz qəbuldan sonra hotelə qayıdanda, Makron maşında mənə dedi ki, o gədə hələ mənimlə şəkil də çəkdirmək istəyirdi".

Fransa səfirliyindəki qəbuldan sonra Əlcəzairin Baş naziri prezident Makronu və fransız deleqa siyasını rəsmi şam yeməyinə dəvət edir. Bu axşam yeməyi 70-ci illərdə tikilmiş məşhur El Orassi hotelinin restoranında təşkil edilir. Qəribə burasındadır ki, Əlcəzairin ən görkəmli bir yerində ucalan bu hotel, həmçinin Aleksandr Djurinin "baş qərargahıdır". Əlcəzairə gələndə Djuri həmişə bu hoteldə qalır. Buna görə də qətiyyən təəccüblü deyil ki, Fransa prezidentinin Əlcəzairin dövlət nümayəndələri ilə nahar etdiyi böyük salonda Aleksandr Djuri də gözə dəyir.

Fransanın Əlcəzairdəki səfirinin versiyasına görə "axşam yeməyinə dəvət olunan qonaqların dəvətnamələri – içində də cənab Djurinin dəvətnaməsi olmaqla – əvvəlcədən hazırlanmışdı. Lakin bu siyahı günorta naharına dəvət olunan qonaqların siyahısından fərqli olaraq Yelisey sarayı tərəfindən təsdiq olunmamışdı". Yeri gəlmişkən, Yelisey sarayı o vaxt Le Canard enchaîné qəzetinə izahat vermişdi ki: "Onu (Djuri) səfirlik özü dəvət etmişdi [...] birinci dəfə deyil ki, bu cənab nəyin bahasına olursa, olsun, prezidentə yaxınlaşmağa can atır [...] Onun israrı Makronu qəzəbləndirir". Xarici İşlər Nazirliyinin diplomatlarından (Əlcəzairdəki qəbulda iştirak edənlər də daxil olmaqla) aldığımız versiya isə tamamilə fərqlidir. Onların dediyinə görə, iki siyahı – nahara və axşam yeməyinə

dəvət olunan qonaqların siyahısı Yelisey sarayına göndərilmişdi və bu iki siyahının ikisini də prezidentin Əlcəzairə səfərini təşkil edənlərdən biri – Aleksandr Benalla təsdiqləmişdi!

Polisin qarşısında Əlcəzairdəki Fransız səfiri Driankurt Yelisey sarayının versiyasını detalları ilə izah edərək əlavə edəcək ki, əslində, Aleksandr Djurinin yaxın dostu olan Xarici İşlər Nazirliyinin baş katibi 64 yaşlı Moris Qurdolt-Montayn ondan şəxsən xahiş etmişdi ki, Djurini də prezidentin şərəfinə verilən axşam yeməyinə dəvət etsin.

Moris Qurdolt-Montayn balaca adam deyil, Xarici işlər Nazirliyinin tanınmış bir fiqurdur. Alan Jüppenin keçmiş kabinet rəhbəri, 2002-2007-ci illərdə Jak Şirakın məsləhətçisi olan bu adam, şəxsən Emmanuel Makron tərəfindən Xarici İşlər Nazirliyinə baş katib təyin olunub, yeri gəlmişkən bu Makronun prezident kimi verdiyi ilk qərarlardan biridir. Bu vəzifədə o, Xarici İşlər Nazirliyi ilə Yelisey sarayı arasında tarazlıq saxlayan əvəzolunmaz bir diplomat kimi tanınır. Məmurlardan birinin dediyi kimi, Moris Qurdolt-Montayn əsl nazirdir. Çevrəsindəki diplomatların karyera qazanmasında böyük rol oynayan bu adamın Aleksandr Djuri ilə dostluğu tez bir zamanda ört-basdır edildi və unuduldu.

Aralarındakı yaş fərqinə və baxmayaraq, Moris Qurdolt-Montayn ilə Emmanuel Makron bir-birini mükəmməl tanıyır. Xarici İşlər Naziri Jan-Yv Lö Drianın ətrafı tərəddüd etmədən israr edir ki, Moris Qurdolt-Montaynın nazirliyin baş katibi təyin edilməsində, nazirin heç bir rolu yoxdur. Onu bu strateji posta dövlət başçısı şəxsən özü təyin edib. Onların ikisinə də yaxın olan bir diplomatın dediyinə görə, "Moris Qurdolt-Montayn və Emmanuel Makron çox intim dostdurlar. Onlar tez-tez zəngləşir və fikir mübadiləsi edirlər". Düzdür, Moris Qurdolt-Montayn diplomat karyerasında Hüber Vedrin və Dominik dö Villpənt kimi şəxsiyyətlərlə də işləyib. Onu həmişə müdafiə edən bu iki güclü adam Makronun prezident kampaniyası zamanı nəinki gələcək prezidentə dəstək olmuşdular və təbii ki, onun qulağına Moris Qurdolt-Montayn haqqında pıçıldamışdılar. Amma üçüncü bir adam da onun Xarici İşlər

Nazirliyinin baş katibi təyin olunmasında böyük rol oynayıb – keçmiş diplomat, həm də Emmanuel Makronla çox yaxın münasibətdə olan Filip For. (Moris Forun oğlu) Dominik dö Villpəntin dostu olan bu adam bir vaxtlar Xarici İşlər Nazirliyinin katibi olanda, Moris Qurdolt-Montayn Yelisey sarayında Jak Şirakın məsləhətçisi idi. Mitteranın vaxtında,ələlxüsus da onun ikinci mandatı dövründə indi Makrona sitayiş edən bu adam, bütün çevrəsini və şəbəkələrini səfərbər etmişdi ki, onlar prezident seçkilərində Jak Şiraka yox, Eduard Balladürə səs versinlər. (Çünki onun rəsmi məsləhətçisi idi) Yelisey sarayında onun kontaktı Mişel Şarass idi.

Bütün bunlara görə – polemikaya baxmayaraq – Moris Qurdolt-Montayn rahat yata bilər. Düzdür, bir neçə həftə sonra mətbuatda xəbər yayılır ki, bu adam 2017-ci ilin sentyabrın axırlarında həyat yoldaşı Amanda Qalsvorti (Mitteran, Şirak və Sarkozi kimi prezidentlərin keçmiş tərcüməçisi) ilə Əlcəzairə şəxsi səfəri zamanı, El Orassi hotelində, Aleksandr Djuri ilə nahar edib. Sonra isə onlar bir yerdə, Tipasa adlanan məşhur arxeoloji bir regiona ekskursiyaya gediblər. Onun başqa bir dostu – Milli İnvestisiya Fondunun prezidenti, Əlcəzair müəssisələrinin maliyyələşdirilməsində əvəzsiz rol oynayan Asen Haddad da bu ekskursiyada iştirak edib. Ancaq bütün bu söz-söhbətə və skandala baxmayaraq, Moris Qurdolt-Montayn öz vəzifəsində qalır.

Bəzi keçmiş tanışlıqlar heç vaxt unudulmur. Makron necə bunu bilməyə bilər? Moris Qurdolt-Montayn diplomatik bacarığından necə istifadə edəcəyini yaxşı bilir. 2006-cı ilin aprelində bu diplomat, o vaxt Parisin prefekti Bernard Skorasininin məşhur Bristol restoranında təşkil etdiyi naharda da iştirak edib. Daxili İşlər Nazirliyi ilə Yelisey sarayının iki addımlığında yerləşən bu adlı-sanlı restoranda, ondan başqa stol arxasında Nikola Sarkozi, Aleksandr Djuri və Clod Jan əyləşmişdilər. Prezident seçkilərinə bir neçə ay qalmış, bu adamlar Şirakın və Sarkozinin tərəfdarları arasında yaxın münasibət yaratmağa çalışırdılar.

## ƏSLİ KABİLDƏN OLAN XAÇ ATASI İŞƏ BAŞLAYIR

Aleksandr Benalla qonaqların siyahısını təşkil etsə də, Emmanuel Makronun 2017-ci ilin dekabr ayındakı Əlcəzairə ikinci səyahətində şəxsən iştirak etmir. Halbuki bir neçə ay əvvəl prezidentin seçki kampaniyasının qızğın çağında, Makronun Əlcəzairə birinci səfərində onun yanında idi. O, vaxt gələcək prezidentin "şillə vuranı" cibində xidməti pasport gəzdirirdi. Bu tip pasportlar adətən diplomatik pasport almaq hüququ olmayan, ancaq hökumət adından xarici ölkələrə xüsusi missiyalara göndərilən məmurlara verilir. Aleksandr Benalla hansı xüsusi missiyalar üçün xarici ölkələrə gedirdi? Əlcəzairə ilk səfərində hələ prezidentliyə namizəd olan Makron, iki gün ərzində – 2017-ci ilin fevralın 13-də və 14-də – Əlcəzairdə xeyli işlər görür. Makron çox yaxşı bilir ki, hər hansı bir seçkidə Əlcəzair mənşəli fransızlar böyük rol oynayır. Eyni zamanda, Əlcəzairdə yaşayan franko-əlcəzairlilər də onları səfərbər etməkdə böyük rol oynaya bilər. Yaxşı təcrübə mübadiləsidir. Kampaniya zamanı büdcədə pulun az olduğu vaxt, bu təkandan istifadə etməmək axmaqlıq olar. Görünür əlcəzairlilər də Makrona, onun əlcəzairlilərə yanaşdığı kimi yanaşırlar. O vaxt prezidentliyə namizəd, əsl dövlət başçısı kimi qarşılandı. Prezident olandan sonra da Makron, Əlcəzairin hökumət başçıları ilə görüşlərini davam etdirir: Baş nazir Abdelmalek Sellal, Təhsil naziri Nuria Benqebri, Dini İşlər naziri Mohamed Aïssa, Xarici İşlər naziri Ramtan Lamamra və Sənaye naziri Abdeslam Buşureb və sairə.

Səfərin ikinci günü, fevralın 14-də – Əlcəzairin Echorouk News kanalına verdiyi müsahibəsində Emmanuel Makron Əlcəzairin Fransa tərəfindən müstəmləkəçiliyini "bəşəriyyətə qarşı cinayət" adlandırır və əlavə edir ki, bu müstəmləkə sözün əsl mənasında "barbarlıq" xarakteri daşıyıb. Bu sözlər çox ağır sözlərdir və ən başlıcası da odur ki, onun

əvvəl dedikləri ilə ziddiyyət təşkil edir. 2016-cı ilin noyabrında, Le Point jurnalına verdiyi müsahibədə Makron müstəmləkəçiliyi tənqid etmişdi, ancaq onu da əlavə etmişdi ki, müstəmləkəçilik, müstəmləkə altında olan ölkələrə həm də sivilizasiya elementləri gətirib. Təbii ki, 2017-ci ilin fevral ayında onun Əlcəzairdə müstəmləkə haqqındakı bəyanatları yerli camaatın xoşuna gəlir. Onu da qeyd edək ki, bu məsələdə Əlcəzair və müstəmləkəçilik üzrə mütəxəssis, tarixçi Benjama Storanın da əməyi az deyil. Hollandın prezidentliyi dövründə Əlcəzairdə doğulan bu köhnə Trotskist dəridən-qabıqdan çıxmışdı ki, o, 1945-ci ilin mayında Əlcəzairin Setif şəhərindəki qırğını əlində əsas tutub Fransanın Əlcəzairi müstəmləkə altında saxlamasını tənqid etsin. O vaxt Fransız ordusu tərəfindən, təxminən 45000 əlcəzairli qətlə yetirilmişdi. Amma Sosialist Partiyasının keçmiş birinci katibi və ovaxtkı prezident, çıxışlarında hərdənbir bu mövzuya yüngülcə toxunsa da, heç vaxt ciddi şəkildə Fransanın bu qırğındakı cavabdehliyini etiraf etməmişdi.

Bu səfərdə onu müşayiət edəcək nümayəndə heyətini Makron özü seçmişdi: diplomatik məsləhətçi Oreliyen Leşevalliye; (bir müddət sonra bu adam Yeliseydəki prezident kabinetinin üzvü olacaq). Fransua Hollandın keçmiş dostu, Əlcəzairi əlinin içi kimi tanıyan və Makrona bu ölkədə kimlərlə əlaqəyə girməyi məsləhət görən advokat Jan-Pyer Minard; İqtisadiyyat Nazirliyində işləyəndə onun kabinet direktoru olan Sofi Ferraççi; Raffaranın keçmiş naziri, Hollandın vaxtında Fransanın Əlcəzairdəki xüsusi nümayəndəsi olan Nikol Qedi və hətta onun mətbuat xidmətinin rəisi Silvan Fort. Əlcəzairə gedən nümayəndə heyətinin fotolarında Makronun cangüdəni kimi fəaliyyət göstərən Aleksandr Benalla da görünür. Bu adam hətta Makronla birlikdə çox məxfi görüşlərdə də iştirak edəcək...

Amma bu yüksək riskli səfərin əsl təşkilatçısı keçmiş diplomat, Ardian investisiya qrupunun rəhbərlərindən biri Fransua-Ayssa Tuazidir. Bu məşhur investisiya şirkəti üçün Fransua-Ayssa Tuazi yaxın şərq və cənubi Asiya bölgələrində aktiv olan milyardlarla avro idarə edir.

Bir müddət sonra bu investisiya şirkətinin filiallarından biri – makler sığorta şirkəti – Emmanuel Makronun prezident kampaniyasının maliyyə təminatında həlledici rol oynayacaq. Seçki kampaniyasına pul toplayanlardan biri etiraf edir ki, "Tuazi gələcək prezident Makronun seçki kampaniyasında çox böyük rol oynadı". Makronun bandasına qoşulmazdan əvvəl bu adam, solçular partiyasından olan Arno Montburqa və sağçılar partiyadan olan Brüno Lö Merə kömək etmişdi.

Resurslarla dolu bu adam nəinki Makrona Əlcəzairə səfər etməyi məsləhət görür, həm də onun əlinə bu ölkədəki "bağlı qapıların açarlarını" da verir. Ona görə də bu səfəri Fransua-Ayssa Tuazi şəxsən özü – seçki kampaniyasının təşviqat qruplarından xəlvət hazırlayır. Onun adı heç bir təşkilat orqaniqramında görünmür. Ancaq bu "səhv" tez bir zamanda "düzəlir": 14 iyul 2018-ci ildə – Fransanın milli bayramı günü Fransua-Ayssa Tuazi prezident tərəfindən Fəxri Legion medalı ilə təltif olunur. Makron Tuazinin keçdiyi həyat yolunu çox bəyənir və bunu hamıya etiraf edir. Onun əsilləri Kabildən olan, Əlcəzair Fransanın müstəmləkəsi olanda Fransanın siyasətini dəstəkləyən valideynləri Əlcəzair müstəqillik qazanandan sonra, Fransaya köçüb Normandiyanın Drö şəhərində məskunlaşıblar. Sadə bir zəhmətkeş ailəsindən çıxan Tuazi, tədricən dövlət səviyyəsində ən yüksək pillələrə qalxacaq. Hamı ilə ünsiyyət qurmağı bacaran, hamı ilə dil tapan bu adam öz bacarığı sayəsində Xarici İşlər Nazirliyində müxtəlif funksiyalarda çalışandan sonra Xarici İşlər naziri Filip Duste-Blazinin xüsusi müşaviri vəzifəsinə təyin olunur. (2005-2007-ci illər arasında Dominik dö Villpənt Baş nazir olan vaxt) Bu illər ərzində Tuazi həm Parisdə, həm də Əlcəzairdə özünə yaxşı çevrə toplayır və hər yerdə sözü keçən bir şəbəkə yaradır. Tuazinin əmisi oğlu əvvəllər Journal du dimanche qəzetində ştatdankənar müxbir kimi çalışan, sonra isə "Tout sur Algérie" (Əlcəzair haqqında hər şey) saytının nəşriyyat direktoru keçən Lun Qemaş onun üçün bir çox qapıları açır. Fransada Tuazi müxtəlif təbliğat işlərinə də qatışır – Azad Siyasi Fikirlər İnstitutunun banisi Klod Bebearlə, eləcə də onun kimi

Normandiyanın Drö şəhərində böyüyən xalası qızı Kler Tassadi Hudla bir sıra məsuliyyətli işlər görür. Yeri gəlmişkən, bu qadın (Kler Tassadi Hud) yeddi il ərzində Paris Şurasının seçilmiş üzvləri üçün xüsusi missiya icraçısı kimi çalışandan sonra Siemens və Pitney Bowes kimi müxtəlif beynəlxalq qruplarda insan resursları direktoru kimi bütün dünyanı gəzir... Fransaya qayıtdıqdan dərhal sonra Kler Tassadi Hud, Emmanuel Makronun seçki kampaniyasına qoşulur və hətta ondan çox-çox əvvəl kampaniyada çalışan komanda üzvlərinə kömək əli uzadır. Kler kampaniyanın daxilində müxtəlif qruplara rəhbərlik edəndən sonra Parisin məşhur və adlı-sanlı məhəllələrində "Hərəkətdə olan analar" adlı təbliğat qrupu yaradır. Makronların cütlüyünə yaxın olan Kler Tassadi Hud prezident seçkilərindən sonra boya-başa çatdığı Drö şəhərində Makronun yaratdığı LREM partiyası tərəfindən deputatlığa namizəd versə də, seçkilərdə uğur qazanmır.

Filip Duste-Blazinin və Dominik dö Villpəntin yaxın dostu olan Fransua-Ayssa Tuazi prezidentliyə namizəd Makronu Əlcəzairə səfərində onu müşayiət edən nümayəndə heyətinin tərkibinə lobbiçi Abdu Malaşı da daxil edir. Xarici İşlər Nazirliyində Tuazinin Moris Qurdolt-Montayn və əvvəllər Qətər və Səudiyyə Ərəbistanında Fransanın səfiri olmuş Bertran Bezanseno kimi dostları var. Ərəbistan yarımadasının, eləcə də ərəb mədəniyyətinin gözəl bilicisi kimi tanınan bu keçmiş diplomat, həm iş adamı Mazen Al Savvaf, həm də Kral Abdallahın dövründə qılıncının dalı da, qabağı da kəsən Ben Ladenin yaxın qohumları ilə də işləyib. (Fransua Hollandın prezident olduğu ilk illərdə) Elə həmin vaxtlar Ayssa Tuazi Səudiyyə Ərəbistanına tez-tez səfər edən, Məhsuldarlıq naziri Arno Montburqla tanış olur. Amma onun müəllimi, onun məsləhətçisi tamamilə başqa bir adamdır –Aleksandr Djurinin yaxın dostu, Sarkozinin dövründə Müxtəliflik və Bərabərlik Şansı komissiyasının komissarı olmuş franko-əlcəzairli iş adamı Yezid Sabeq.

Makronda həmişə belədir – simvollar heç vaxt biznesdən çox da uzaqda dayanmır. Seçki kampaniyası ərəfəsində Əlcəzairə səfəri za-

manı prezidentliyə namizəd Makron hamıdan gizlin orada bir neçə iqtisadiyyatla məşğul olan məmurla görüşür. Foto və tele-kameralardan, eləcə də mətbuatın gözündən uzaqda təşkil olunan bu gizli görüşlər xüsusi əhəmiyyət kəsb edir. Nəticədə, yerli hökumətə sadiq olan Əlcəzair Ticarət və Sənaye Palatası (CACI) Makronun bura səyahətini təşkil edən adamlarla əlaqəyə girir. Fevralın 14-də El Orassi hotelinin terrasında Əlcəzair Biznes Liderlərinin Forumu Təşkilatının (FCE) nümayəndələri ilə onların səhər yeməyi təşkil edilir. Əlcəzairin çox məşhur iş adamı Əli Haddad dayanmadan dişlərini ağardır. Böyük bir tikinti sektorunun başında duran Əli Haddad Əlcəzair prezidentinin qardaşı Səid Buteflikanın çevrəsində olan adamlardan biridir. Bu səhər yeməyi zamanı əlcəzairlilər gülür, zarafat edir, əylənir, məzələnirlər. Adama elə gəlir ki, onlar Makronun iqtisadi inkişaf layihələrini o qədər də ciddi qəbul etmirlər.

"Praqmatik" Emmanuel Makron isə qayğısız görünür, hamıyla söhbət edir və onunla şəkli çəkdirmək istəyənlərə mane olmur. Bu görüşdən sonra Makron yerli mətbuata uzun bir müsahibə verir. Bu müsahibədə prezidentliyə namizəd iddia edir ki, əgər prezident seçilsə, Əlcəzairlə bağlı bir sıra iqtisadi öhdəliklər götürəcək, xüsusilə bərpa olunan enerji sahəsində: "Bizə lazımdır ki, Əlcəzairə, onun müxtəlif sahələrdəki iqtisadi inkişafına kömək edək. Biz bu məsələ ilə bağlı təşəbbüs qaldıran ilk ölkəyik. Biz istəyirik ki, Fransa bu texnologiya sahəsində dünya liderliyini əlinə alsın...". Əslində, bu səfərdən bir neçə həftə əvvəl "Afrika üçün Enerji" fondunun prezidenti Jan-Lui Borlo və vitse-prezidenti Yamina Benqiqi Əlcəzairə bir neçə dəfə səfər edib, bu mövzuda ölkənin səlahiyyətli nümayəndələri ilə söhbət aparmışdılar. Prezidentliyə namizəd Əlcəzairə səfərə hazırlaşanda, onlar ikisi də təbii ki, Makrona və arvadı Brijitə tövsiyyə etmişdilər ki, bu haqda mütləq yerli mətbuata informasiya versinlər.

Fransa və Əlcəzair arasında elə şeylər var ki, onlar haqqında ehtiyatla və hər şeydən əvvəl kiçik bir çevrədə danışmaq lazımdır. Məsələn en-

erji problemləri. Bu məsələ iki ölkə arasındakı, bəlkə də, ən böyük problemdir... təəssüf ki, əvvəlki ölkə liderlərimiz bu problemi görməzliyə vurublar. Başqalarından fərqli olaraq Makron bu məsələyə çox ciddi yanaşır. Hələ Yelisey sarayında baş katibin müavini vəzifəsində çalışandan hiss etmişdi ki, bu strateji sektorun əsas üstünlüyü ondadır ki, onunla nə media, nə də publika maraqlanır. Bu gün Fransada istifadə olunan qazın cəmi 10%-i Əlcəzairdən gəlir. 1980-ci illərin əvvəllərində Fransa Əlcəzairdən 30% qaz alırdı. 1982-ci ildə Əlcəzair Fransanın yeni sosialist hakimiyyəti ilə 20 illik qaz müqaviləsi bağlayır və prezident Fransua Mitteran Əlcəzair qazına bazar qiymətindən 30% artıq pul ödəyir! O vaxtlar "Fransanın Qazı" şirkətinin çiçəkləyən dövrü idi. İndi Emmanuel Makron Əlcəzairdən daha çox qaz almağı planlaşdırır ki, rusların qazına möhtac qalmasın. 1990-cı illərin əvvəllərində Əlcəzair Mərkəzi Bankının sədri olmuş, tanınmış ekonomist və bankir Abderrahman Hacı-Nacer 2015-ci ildə müsahibələrinin birində etiraf etmişdi ki, Fransa ilə Əlcəzair arasındakı diplomatik soyuqluq, Fransa və Əlcəzair tamaşaçılarını əyləndirmək üçün bir kinodur. Bu iki dövlət bir-birinə düşmən deyir, amma aralarında yaxşı biznes var.

2017-ci ilin sonunda "Franko-Əlcəzair Birgə İqtisadi Komitəsi" (COMEFA) təşkilatının yaranmasından bir neçə gün sonra, eləcə də Parisdə Fransa və Əlcəzairin Baş nazirlərinin sədrlik etdikləri "Yüksək səviyyəli hökumətlərarası komitə" (CIHN) iclasının nəticəsi olaraq Fransanın Total qrupu, Əlcəzairin milli Sonatrach şirkəti ilə Timimun qaz yatağının istismarı üçün nəhəng qaz müqaviləsi rəsmiləşdirir. Bu müqavilə dörd aylıq danışıqlardan sonra həmin ilin aprelində imzalanır və tərəflər qaz yatağının istismarına 1,5 milyard dollar sərmayə ayırırlar. Bu iki neft şirkəti (Total və Sonatrach) hətta günəş enerjisinin inkişafı və gələcəkdə birgə beynəlxalq layihələr üçün qlobal müqavilələr də planlaşdırır. İllərdən bəri bu iki şirkət arasında davam edən ticarət mübahisələrindən sonra, nəhayət, Total Əlcəzairə qalib kimi dönür. Digər tərəfdən başqa bir məşhur fransız şirkəti Engie də aralarındakı illər boyu gərginlikdən son-

ra Sonatrach ilə bir neçə müqavilə bağlayır. Yəni illər boyu davam edən soyuq iqtisadi münasibətlərdən və onlarca nəticəsiz mübahisələrdən sonra, nəhayət, 2017-ci ilin aprelində Fransa ilə Əlcəzair arasında bloka düşmüş maliyyə əlaqələri iki tərəfin razılığı ilə blokdan çıxır.

Ancaq bu biznes uğurları Əlcəzairdəki siyasəti vəziyyətlə ziddiyyət təşkil edir. Əbdüləziz Buteflikanın səhhətinin ağırlaşması, onun 2019-cu ildə beşinci dəfə prezident olub-olmayacağının qaranlıq qalması namizəd Makronun Əlcəzairə səfərini bir az dolaşdırır. Çünki

bu saat Əlcəzair hakimiyyəti bir neçə klana bölünüb və bu klanlar bir-birini didirlər. Daha dəqiq desək, hazırda hakimiyyətdə olan ərəblərlə ölkənin iqtisadiyyatını əllərində saxlayan kabillər arasında müharibə gedir. Digər tərəfdən, prezidentin qardaşı Səidin başçılıq etdiyi Buteflika klanı nəyin bahasına olursa olsun, hakimiyyətdə qalmaq istəyir. Bəlkə də, elə buna görə Makron prezident olandan sonra Buteflikanın klanı ilə ünsiyyəti azaltdı. Bəzi həmsöhbətlərimizə inansaq bu ünsiyyətin azalması Əlcəzairdə hamının zövqünü oxşamır. "Yaddan çıxarmaq lazım deyil ki, Djurini səfirlikdə əlcəzairlilər Makronun əlinə verdilər", – deyə onlardan biri replika atır.

Yaxşı, bəs Makron əkdiyini biçmir? Seçki kampaniyası dövründə, hələ prezidentliyə namizəd olanda Əlcəzairə səfəri zamanı hamının xoşuna gəlməyə çalışanda, bəyəm gələcək dövlət başçısı odla oynamırdımı? Biz gördük ki, namizəd Makron necə həvəslə FCE (Əlcəzair Biznes Liderlərinin Forumu Təşkilatı) rəhbərliyi ilə görüşdü. Özü də o, çox yaxşı bilirdi ki, FCE Əlcəzairdə müasirliyin simvolu deyil... onu nə Əlcəzairin hökumət orqanlarında baş verən qohumbazlıq, yerlibazlıq, nə də korrupsiya narahat elədi. "Yeni siyasi dünya" yaratmaq istəyində olan namizəd Makron, Aleksandr Djurinin yaxın dostu Əli Haddad başda olmaqla bütün şübhəli adamlarla görüşdü.

Həmin gün, həmin səhər, həmin hoteldə, bir az əvvəl Emmanuel Makron başqa bir səhər yeməyində də iştirak edir. Kiçik, məxfi bir görüş. Masanın ətrafında Əli Haddad və Fransua Tuazi. Fotoqraflardan

və kameralardan uzaq olan bu görüşü Aleksandr Djuri təşkil etmişdi. Üç fərqli şahidin dediyinə görə, əlcəzairli biznesmen Aleksandr Djuri həmin gün, həmin hoteldə Fransanın gələcək prezidenti ilə görüşüb. Ancaq 2019-cu ilin fevral ayında ona bu salı verəndə, Aleksandr Djuri seçki kampaniyası zamanı namizəd Emmanuel Makronla görüşməyini boynuna almadı. Bizim sualımıza "heç vaxt" deyə cavab verdi. Sonra da əlavə etdi ki, "mən Tuazini-filanı tanımıram. Kim kimi manipulyasiya edir?". Bir neçə gün əvvəl Aleksandr Djuri İngiltərə məhkəməsinin onu Fransaya transfer etmək qərarından sonra "France3" telekanalında çıxış etdi. Axırda da bəyan etdi ki, "bu mənim son müsahibəm deyil. Mən saat 20-də canlı yayıma çıxacam […]. Həqiqət Hərəkətdədir..." (!) Daha sonra Fransa səfirliyindəki o axşamkı qəbulda iştirakına görə Əlcəzairdən "qovulmasından" təəssüfləndiyini bildirdi. Doğrudanmı bu adam Makron prezidentliyə namizəd olanda, onunla görüşmüşdü? "Köhnə ənənələrlə" davam edən siyasəti tənqid edən "yeni siyasi dünya" yaratmağa çalışan bir namizəd üçün belə bir şey skandal olardı. Və ya bəlkə, hamının "Müsyö Aleksandr" çağırdığı bu adam gələcək prezidentlə kontakta girməyə cəhd etmişdi ki, onu bilərəkdən pis vəziyyətdə qoysun? Fransa səfirliyində keçirilən o başıbəlalı qəbuldan əvvəl, Aleksandr Djuri 2017-ci ilin noyabrında Əbu-Dabi şəhərində Makronla görüşməyə çalışmamışdımı? O vaxt, orada, Luvr muzeyinin açılışı münasibəti ilə təşkil olunan qəbulda Aleksandr Djurinin Makronla görüşməyə can atması uğursuzluqla nəticələnmişdi. "Kim kimi manipulyasiya edir?", – deyə Djuri çox haqlı bir sual verir. Bu sualın arxasında daha həssas bir sual gizlənir...

## ÇOX TƏŞƏBBÜSKAR BİR PATRON

Əslində, Əlcəzair səfərindəki bu görüş, prezidentliyə namizədin yeganə məxfi görüşü deyildi. Bir gün əvvəl, fevralın 13-ü axşamı Makron, Əlcəzairin ən böyük iş adamlarından biri, əsli Kabildən olan milyarder İssad Rebrab ilə şam edir. Bu adam ilk Əlcəzair özəl qrupu olan, 2017-ci ildə dövriyyəsi 2,7 milyard avro təşkil edən Cevital cəmiyyətinin sahibidir. Bu axşam yeməyində Fransua Tuazi də iştirak edir. Əslinə qalsa, Makron ilə Rebrabı bir-birinə təqdim edən üçüncü bir adama ehtiyac yoxdur, çünki onlar nəinki tanışdılar, hətta bir-birlərini çox gözəl tanıyırlar. Makron yaxşı bilir ki, son vaxtlar İssad Rebrab qərara gəlib ki, Fransada, eləcə başqa ölkələrdə sərmayə qoyub, rəhbərlik elədiyi qrupu daha da inkişaf etdirsin və eyni zamanda öz ölkəsində bir az rahat nəfəs ala bilsin. Məsələ burasındadır ki, Əlcəzairin məxfi xidmətinin keçmiş rəhbəri, hamının Tufik çağırdığı general Mohamed Medienin yaxın dostu olan Rebrab, 2015-ci ildən Buteflika klanı tərəfdən hücumlara məruz qalıb. Bu klan heç bir əsas olmadan ona ölkədə çoxsaylı layihələrini həyata keçirməyə imkan vermir. Hələ bu harasıdır, Əlcəzair mətbuatında bu iqtisadi lider, bəzən hakimiyyətə qarşı "müxalifət" kimi mübarizə aparan bir şəxs kimi də təqdim edilir.

Makron və Rebrab 2012-ci ildə tanış olublar. Birinci, o vaxt Yelisey sarayında baş katibin müavini kimi həm iqtisadi, həm də sənaye layihələrini izləyirdi. Məhsuldar Bərpa naziri Arno Montburq ilə birlikdə Fransua Hollandın yaxın əməkdaşı, (Makron) daha çox təcili köməyə ehtiyacları olan sənaye şirkətləri ilə məşğul idi. O vaxtlar "Floranj" polad zavodunun sıxıntı içində olan fəhlələri haqqında mətbuat hər gün qalmaqallı məqalələr yazır, eləcə də "Brotayn" toyuq fermasının işçiləri kimi. Bu Makron üçün lap göydən düşmə bir xəbərdir, çünki əlcəzairli milyarder İssad Rebrab deyir ki, bu qalmaqallı işlərlə məşğul olmağa

hazırdır. Ancaq bir neçə ay davam edən danışıqlardan sonra "Brotayn" toyuq ferması Səudiyyə qrupuna qatılmağı üstün tutur. Fransada investisiya etmək arzusunda olan milyarder İssad Rebrab bu məğlubiyyəti qəbul etmir. 2013-cü ilin iyun ayında bu iş adamı Saône-et-Loire departamentində yerləşən pəncərə istehsal edən Oxxo şirkətini alır. Daha sonra əlcəzairli milyarder Fransada bir nömrəli məişət texnikası istehsal edən, İspaniyanın Fagor firmasının filialı olan FagorBrandt qrupu ilə maraqlanır. Bu dəfə onun bəxti gətirir. 2014-cü ilin aprel ayında Nanter ticarət tribunalı FagorBrandt məişət texnikası qrupunun İssad Rebrab tərəfindən 200 milyon avroya satın alınmasını təsdiqləyir. Bu da lap yerinə düşür, çünki bu alqı-satqı qrupun 1800 fəhləsindən 1200-nü məcburi işsizlikdən xilas edir. Ancaq Əlcəzairdə hakimiyyətdə olan qüvvələr bu işdə də həmyerliləri İssad Rebraba problem yaradırlar, ona 200 milyonu birbaşa Əlcəzairdən Fransaya keçirməyə mane olurlar. Ona görə də İssad Rebrab məcbur olub bu məbləği əvvəl İsveçrəyə, oradan isə Fransaya keçirir.

O vaxtdan İssad Rebrab Fransada çox məşhurlaşır. Elə həmin il prezident Fransua Holland onu başqa iş adamları ilə birlikdə Yelisey sarayına dəvət edir. Makron İqtisadiyyat naziri keçəndə, təbii ki, Fransanı bu qədər çox sevən milyarderlə əlaqəni kəsmir. 2017-ci ildə dövlət başçısı seçilən Makron prezident kampaniyası zamanı Əlcəzairdə yenidən görüşdüyü bu adama diqqətini daha da artırır... Onu da qeyd edək ki, Makron Yelisey sarayında hər iş adamını şəxsən qəbul etmir. 2018-ci ilin noyabr ayında Fransanın şimal-şərqində yerləşən Şarlevil-Mezier şəhərində keçirilən "Birinci Dünya müharibəsinin xatirə həftəsi" zamanı dövlət başçısı fürsətdən istifadə edib gələcək Cevital zavodunun yerləşəcəyi bir binanın açılışını da edir. İssad Rebrabın iştirak etdiyi bu təntənəli mərasimdə prezident elan edir ki, 250 milyon avro sərmayə qoyulan bu zavod gələcəkdə 1000 nəfəri işlə təmin edəcək. Qəribədir

deyilmi? Necə deyərlər heç hənanın yeridir? Birinci Dünya müharibəsi qurbanlarının anım həftəsində, zavod açılışından danışmaq nə dərəcədə təqdirəlayiqdir? 2019-cu ilin yanvarında Emmanuel Makron İssad Rebraba bir də xüsusi hörmət göstərib, onu Versal sarayında keçirilən Choose France sammitinə dəvət edir. Yüz əlli nəfər fransız və xarici iş adamının toplaşdığı bu məclisdə Rebrab bir neçə imtiyaz sahibləri ilə birlikdə prezidentlə bir stol arxasında oturur.... Diplomatik baxımdan Makronun bu hərəkəti çox təəccüb doğurur, çünki hamı bilir ki, milyarderlə indiki Əlcəzair hökuməti arasında münasibət çox soyuqdur.

Fransada gördüyü işlərdə İssad Rebraba 2012-ci ildən başlayaraq o qədər də adlı-sanlı olmayan, ancaq çox bacarıqlı bir iş adamı olan Fərid Belkaçemi kömək etdi. Əvvəllər Parisdə və Londonda bizneslə məşğul olan bu franko-əlcəzairli adamın çox böyük bir çevrəsi – özü kimi peşəkar iş adamlarından ibarət dostluq şəbəkəsi var. Kasıb bir ailədən çıxan Fərid Belkaçemi (atası Montrey şəhərində zibilyığan olub) sərvətini 1980-ci illərin ortalarında baş verən "maliyyə partlayışı" zamanı Parisin birjalarında qazanır. 2008-ci ildə məşhur La Tribune qəzeti onun bacarığına və istedadına həsr olunmuş geniş bir məqalə çap edir. Bir müddət Fransa Kredit Kommersiya (CCF) təşkilatında çalışandan sonra Fərid Belkaçemi əmlak işi ilə məşğul olan Viel Tradition şirkətinə qatılır və çox keçmir ki, orada Avropa zonasındakı əmlakçılar qrupunun prezidenti seçilir. Prezident olduğu müddətdə Belkaçemi London, Brüssel, Milan, Münhen, Frankfurt, Lozan və Lüksemburq şəhərləri arasında xeyli işgüzar və məhsuldar səfərlər edir. Sonra karyerasını Credit Agricole və Natixis banklarının filialı olan CACEIS qrupunda davam etdirir. Daha sonra peşəkar futbolçuların agenti kimi fəaliyyət göstərməyə başlayır. Bu agentliyi Fərid Belkaçemi təkbaşına, heç kimin köməyi olmadan yaradır. Keçmiş əmlakçı həqiqətən də, beynəlxalq biznes planetində bir çox nüfuzlu şəxsiyyətlərlə yaxından tanışdır,

xüsusilə Londonda, eyni zamanda, Aralıq dənizinin hər iki tərəfində və Orta Şərqdə fəaliyyət göstərən iqtisadi lider İssad Rebrabla. O, həmçinin franko-əlcəzairli iş adamı Mehdi Dazi ilə də yaxın dostdur. Mehdi Dazi isə Vivendi şirkətinin müşahidə şurasının keçmiş üzvü və Abu Dhabi ailəsinə məxsus olan Emirates International investisiya şirkətinin keçmiş baş direktoru olub. Hal-hazırda isə bu adam, Kayman adalarında məskunlaşan Dar Benian Real Estate şirkətinin meneceridir.

Belkaçeminin qabiliyyəti tək maliyyə və ya idmanla məhdudlaşmır. O, həm də bir çox siyasi liderləri də yaxından tanıyır. Məsələn, sağçılar partiyasından olan İv Jeqo və Jan-Lui Borlo. Solçular partiyasından isə Jan-Mari Lö Qen, Arno Monteburq, Yamina Benqiqi, eləcə də Flör Pellera. Təbii ki, o şəxsi telefon kitabçasını, həmyerlisi Issad Rebrabın qarşısında geniş açıb. Le Point jurnalında çap olunan bir məqalədən bunu da öyrənirik ki, bu əlcəzairli iş adamı, nəinki Yelisey sarayı ilə yaxın əlaqədədir, həm də Fransanın müxtəlif partiyalarından olan siyasi liderlərin yaxşı tanıdıqları bir sahibkardır. 2016-cı ilin qışında, Fərid Belkaçemi məntiqi olaraq Emmanuel Makrona yaxınlaşır və Fransua Tuazi kimi prezidentliyə namizədin Əlcəzairə səfərinin təşkilində ona yaxından kömək edir.

Futbol dünyasında, xüsusən də Qətər və PSG arasında əlaqələr yaradan Belkaçemi, bir zamanlar franko-əlcəzairli vəkil Kərim Aşui ilə də yaxın olub. Aleksandr Benallanın dostu olan bu vəkil, əvvəllər xeyli peşəkar cinayətkarları və böyük banditizmlə məşğul olan oğruları müdafiə edib. Buna görə də bu adam mətbuatda "oğru-quldurların vəkili" kimi təqdim olunur. Nəticədə bir sıra "etik pozuntulara" yol verdiyi üçün o Paris ədalət orqanlarından xaric edilir. (Hal hazırda bu adam Əlcəzairin ədalət orqanlarının Fransa respublikasındakı filialı kimi fəaliyyət göstərir) Belkaçemi və Kərim Aşui 2013-cü ildə Müsəlmanların Məhkəmə Müdafiə Liqası qrupu (LDJM) yaradır, ancaq Belkaçemi az sonra bu liqadan könüllü olaraq çıxır. Niyə, nə səbəbə? Onun

liqanın açılışına yaxın dostunu – fransalı yəhudi deputat Meyer Habibi dəvət etdiyinə görə.  Müsəlmanlar, bu açılışa bir yəhudinin dəvət olunmasını ona bağışlamırlar.

Belkaçemi həm də Dransidən olan imam Hassen Şalqumi ilə də dostluq edir. Şalqumi də Meyer Habib kimi Makronun namizədliyini dəstəkləmişdi.

Onu da qeyd edək ki, Fərid Belkaçemi Fransa-Afrika şəbəkələrini də yaxından tanıyır. Jan-Lui Borlo kimi, o da fransalı yəhudi Filip Hababu Solomon ilə çox yaxındır. Qətərin Müdafiə Nazirliyi üçün işləyən bu adam Le Monde qəzetində "şəxsi diplomatiya üzrə  mütəxəssis" kimi təqdim olunur. Bu kiçik çevrədə Fərid Belkaçemi 2018-ci ilin payızında yəhudi dostu Filip Hababu Solomonu  Aleksandr Benalla ilə tanış edir. Belkaçeminin istəyi odur ki, Filip Hababu Solomon Yelisey sarayından kənarlaşdırılan Makronun keçmiş  cangüdəni Benallaya dəstək olsun.

## LONDONDAN ÜÇÜNCÜ ADAM

Fərid Belkaçemi ilə Aleksandr Benallanın dostluğu çox maraq doğurur. Onlar bir-birlərini çox yaxşı tanıyırlar, özü də çoxdan. Hələ 2012-ci ildə Benalla Arno Monteburqun cangüdəni olanda, bu iki nəfər bir neçə ay ərzində tez-tez görüşmüşdülər. Və onu da unutmaq lazım deyil ki, mətbuatda yazılanlardan fərqli olaraq, Benalla Sosialist Partiyasındakı xidmət şəbəkələri sayəsində nazir Arno Monteburqun cangüdəninə çevrilmir. Onun nazirlik kabinetində tez bir zamanda belə bir "pilləyə qalxmağı" Benalla ilə onun keçmiş rəhbəri Fransua Hollandın yaxın dostu Erik Plümer arasında ciddi mübahisə yaradır. Məsələ burasındadır ki, bir neçə nazirliyin yerləşdiyi Solferino küçəsində hamının yaxşı tanıdığı Plümer heç cürə qəbul edə bilmir ki, niyə mühafizə xidmətinin başqa təcrübəli üzvləri dura-dura məhz onun keçmişdə qanadının altına aldığı gənc və təcrübəsiz Aleksandr Benalla nazirin cangüdəni olur? "Mən bu xəbəri sonradan bildim, o, artıq rəsmi olaraq Arno Monteburqun cangüdəni təyin olunandan sonra. Mən çox narazı qaldım. Aleksandrla görüşüb ondan tələb elədim ki, mənə bu məsələni izah etsin. Mən Aleksandrı çoxdan tanıyırdım və onunla yaxın idim. Sonra aramız kəsildi, neçə illər ondan xəbərim olmadı". Erik Plümer onu da xatırlayır ki, "2017-ci ilin payızında Aleksandr artıq Yelisey sarayında olanda, özü mənimlə yenidən əlaqəyə girdi. O vaxt mənim vəziyyətim yaxşı deyildi, məni nazirlər kabinetindəki işimdən qovmaq istəyirdilər...". Bundan başqa, Arno Monteburqun özünün ilk dəfə dediklərindən fərqli olaraq, Aleksandr Benalla onun nazirlikdəki kabinetində bircə həftə yox, üç ay qaldı və keçmiş nazirin sözlərinə əsasən, yol hərəkəti qaydalarını kobud şəkildə pozub hadisə yerindən qaçdığına görə nazirlikdən uzaqlaşdırıldı…

Məhz o zaman – 2014-2015-ci illərdə – Aleksandr Benalla Velours International şirkətinin filialı olan Velours özəl kəşfiyyat qrupunun

əməkdaşına çevrilir. Bu şirkət banal bir cangüdənlər şirkəti deyil, onun missiyaları daha genişdir. 2018-ci ilin oktyabrında Benalla yarızarafat yarıciddi, demişdi ki, "o vaxt media məni iri əzələləri olan, ancaq başında heç nə olmayan axmaq bir ərəb gədəsi kimi təqdim edirdi". Onu da qeyd edək ki, hər şeydən əvvəl bu şirkətin Əlcəzairlə yaxın əlaqəsi var. Əvvəllər dediyimiz kimi onun rəhbərlərindən birinin – keçmiş fransız polis məmuru Uali Aberkanın əsli Əlcəzairdəndir. Bundan başqa, Velours şirkətinin müştərilərindən biri Issad Rebrabın Cevital qrupu idi. Məhz elə bu səbəbdən, Aleksandr Benalla franko-mərakeşli olmasına baxmayaraq, Əlcəzairi çox yaxşı tanıyır. "O çox asanlıqla istənilən adamı inandıra bilirdi ki, onun əsli Əlcəzairdəndir. Təbii ki, bu yalan idi. O mənimlə Əlcəzair haqqında daha çox danışırdı, nəinki Mərakeş haqqında. Le Monde qəzetində onun çıxardığı hoqqalar haqqında məqaləni oxuyandan sonra mən başa düşdüm ki, onun əsli Mərakeşdən imiş", – deyə onu tanıyanlardan biri bizə etiraf etdi. Digər dumanlı bir element də var: 2015-ci ilin sonunda, Velours Mərakeşdə filial müəssisə açır. Velours MENA adlanan bu şirkətə Aleksandr Benalla ilə Joze Buyye rəhbərlik edirlər. Joze Buyye kim olsa yaxşıdır? Vaxtilə Arno Monteburqun cangüdənlərindən biri, özü də keçmiş jandarm! Bu məsələdən sonra, medianın bütün diqqəti Mərakeşə tərəf döndü. Lakin Əlcəzairdə Emmanuel Makron keçmiş sosialist nazirinin, xüsusilə İssad Rebrab və onun ətrafındakıların şəbəkələrindən istifadə etdi. Aleksandr Benalla da təbii ki, onlara yaxın idi...

Bu əlaqə lətifə kimi görünsə də, Emmanuel Makronun bir-birindən fərqli personajlarla, eləcə də onun Əlcəzair şəbəkələri ilə əlaqələrini şübhə altına alır. 2018-ci ilin oktyabr ayında gündəlik qəzet Libération yazır ki, Aleksandr Benalla və franko-əlcəzairli Aleksandr Djuri Londonda görüşüblər. Əvvəlcə, Benalla bunu inkar edir, ancaq bir müddət sonra, Mediapart saytına müsahibəsində etiraf edir ki, həqiqətən də, payızda, bir neçə dəfə onunla Londonda görüşüb.

Benalla Libération qəzetinin jurnalistinə onu da deyib ki, "mən, həqiqətən də, Djuri ilə Londonda görüşmüşəm... ancaq sizin qəzet bizim görüşümüzün tarixini səhv yazdığından, mən bilərəkdən bunu inkar etdim ki, sizin məqalənizdəki xəbərin yalan olduğunu hamı bilsin". Benalla bir müddət sonra Mediapart saytına verdiyi müsahibəsində də özünə haqq qazandırır.... Gördüyünüz kimi, bu iki Aleksandr bir-birini çoxdan tanıyırmış. Görəsən, Emmanuel Makronun Əlcəzairə səfəri zamanı onlar El Orassi hotelində də görüşüblər?

Djuri Londonda olarkən gələcəkdə başına nələr gələcəyini götür-qoy edir. Tale ona nə bəxş edəcək? Bir neçə aylıq prosesdən sonra nəhayət, Britaniya Ədliyyə Nazirliyi 2018-ci il yanvarın 7-də Londonun Heathtow hava limanında həbs olunan Aleksandr Djurini 2019-cu ilin fevral ayının sonunda Fransaya transferi ilə bağlı qərar verir. Bu adamı Fransanın Ədliyyə Nazirliyi 2017-ci ilin dekabr ayından (onun Fransanın Əlcəzairdəki səfirliyindəki qəbulda iştirakından sonra) "çirkli pullar yumaqda" və "korrupsiyada", eləcə də "dövlət əmlakının mənimsəməsində" ittiham etdiyi üçün bütün Avropa ölkələrində axtarışa vermişdi. Djuri onu aeroportda həbs elədiklərinə görə ingilisləri apelyasiya məhkəməsinə verir. Apelyasiya məhkəməsi qərar çıxarana qədər o, Londonda polis nəzarəti altında qalır. Dekabrın sonunda Benallanın diplomatik pasportları ilə bağlı skandal ortaya çıxanda, nə qədər müəmmalı görünsə də, nə qədər ağlasığmaz olsa da, bu iki Aleksandr Londonda yenidən görüşürlər. Prezident Makronun şəxsi himayəsi altında olan bu iki şübhəli şəxs Londonun Belqraviya rayonundakı məşhur Goring hotelində bir neçə dəfə görüş təyin edirlər. (Bu hotel o qədər məşhurdur ki, hətta İngiltərə kraliçası belə tez-tez ora çay içməyə gəlir) Burda daha bir faktı, qətiyyən banal olmayan bir faktı da qeyd etmək lazımdır. İki Aleksandrın Londondakı bu görüşlərində üçüncü bir personaj da iştirak edir... O da kim olsa yaxşıdır? Əlcəzairin çox strateji Milli İnvestisiya Fondunun (FNI) baş direktoru Aleksandr Djurinin yaxın dostu Ahsan Haddad! Onun Milli İnvestisiya Fondu (FNI), Əlcəzairin Milli Bankı

(BNA) ilə birlikdə Əlcəzair rejiminin İsveçrədə yerləşən Əlcəzair Xarici Ticarət bankını (BACE) idarə edir!

Elə bu ərəfədə Le Canard enchaîné qəzeti öz səhifələrində prezident Makronun onun keçmiş cangüdəni haqqında dediklərini çap edir. "Benalla hamıya sübut etməyə çalışır ki, guya mənimlə çox yaxındır. Ona görə də mənə düşmən olan bəzi şəbəkələr, onun dediklərini əllərində bayraq edib mənə yerli-yersiz hücumlar edirlər. Benalla onların dəyirmanına su tökən bir axmaqdır...". Hiss olunur ki, Makron öz adının bəzi xoşagəlməz adamlarla bir yerdə çəkilməsini istəmir. O da təəccüblüdür ki, "mənə düşmən olan bəzi şəbəkələr" deyən Emmanuel Makron əvvəllər tez-tez bu şəbəkələrdən öz xeyri üçün bolluca istifadə edirdi, xüsusilə Əlcəzairdə. Benalla məsələsinə gəlincə isə Yelisey sarayında, eləcə də nazirlər kabinetində çox adam "Makrona düşmən olan" bu şəbəkələrlə əlbirdirlər... istər, solçular olsun, istər, sağçılar.

# PREZİDENTİN CASUSU

Bu adamın adı heç bir rəsmi görüşlərdə çəkilmir, heç bir orqa-niqramda onun şəkli yoxdur. Ona polisdən nə çağırış gələcək, nə də Senatın araşdırma komissiyası ona "Benalla məsələsi" ilə bağlı suallar verəcək. Bununla belə, Le Monde qəzeti Aleksandr Benallanın mayın 1-də nümayiş zamanı çıxardığı oyunlar barədə çap etdiyi məqalədə 38 yaşlı Lüdovik Şakerin də adını çəkəndə, Yelisey sarayının divarları titrəyir, prezident də, onun klanı da panikaya düşür. Özü də bu panika Benalla məsələsi ilə bağlı panikayla müqayisədə daha böyükdür. Bu da o deməkdir ki, bütün bu problemlər, həqiqətən də dövlət səviyyəsində, dövlət başçısı və onun ətrafındakı adamlar tərəfindən yaradılıb... nə qədər acınacaqlı görünsə də, bu hadisə yay aylarında televiziyada gedən seriala bənzəyir. Lüdovik Şakerin sadəcə olaraq bircə dəfə qəzetdə adının çəkilməsi prezident sarayının mətbuat xidmətində zəlzələyə səbəb olur.

Çünki Emmanuel Makron prezident seçiləndən bəri Şaker onun siyasi sisteminin mərkəzində baş rol oynayır. "O, prezident aparatının döyünən ürəyidir", – deyə Müdafiə Nazirliyinin yüksək rütbəli bir məmuru etiraf edir. O vaxta qədər demək olar ki, heç kimin tanımadığı bu gənc, admiral Bernard Rojelə tabe olan "missiya icraçısıdır".

Kimdir Bernard Rojel?

Respublika Prezidentinin müdafiə kabinetinin rəisi, milli müdafiə

sisteminin çox məsul bir fiquru, dövlət başçısı ilə paralel Milli Ordunun ali baş komandanı, quru və hava qoşunlarının, eləcə də dəniz donanmasının baş komandanlıqları arasındakı əlaqə qrupunun rəhbəri. Ona bu çox çətin və məsuliyyətli işdə yüksək rütbəli zabitlər, hər üç ordunun generalları, eləcə də xarici kəşfiyyat zabitləri kömək edirlər. Bir sözlə, Yelisey sarayının ali baş komandanlığı ayrıca bir qaladır və burada "Fransa dövlətinin müdafiə sirri" saxlanılır... Üstəlik, "dövlətin ən əsas müdafiə sirri!". Dövlət müdafiə sirrinin saxlanıldığı belə bir gizli yerə "missiya icraçısı" təyin olunması V Respublika dövründə görünməmiş bir hadisədir. Yaxşı, hələ bu bir yana... bəs ehtiyatda olan sadə bir hərbiçi Lüdovik Şaker niyə belə bir məsul vəzifəyə təyin olunub? Hansı səbəblərə görə senatorlara onun haqqında sual verməyə icazə verilmir? Nə üçün Benalla məsələsi barədə təhqiqat aparan komissiya onu istintaqa çağırmağı "ağlına belə gətirmədi?".

Bizim bu suallarımız qarşısında bəzi həmsöhbətlərimiz Lüdovik Şakerin rolunu minimuma endirməyə çalışdılar, "biz heç vaxt onu (Lüdovik Şaker) Yelisey sarayındakı mühüm iclaslarda görmürük", "onu sadəcə olaraq Makronun seçki kampaniyası zamanı göstərdiyi xidmətlərinə görə bu vəzifəyə təyin etdilər..." Doğrudur, o da həqiqətdir ki, yeni Milli Kəşfiyyat koordinasiyasının və terrorizmlə mübarizə qrupunun direktoru (CNRLT) Pier Buske dö Florian onu (Lüdovik Şaker) öz şöbəsinə götürmədi. Buna baxmayaraq, prezident seçkilərinin ikinci turuna bir neçə gün qalmış bir nəfər strategiya eksperti Atlantico informasiya saytına verdiyi müsahibəsində Lüdovik Şakerin adını çəkinmədən qeyd edir və əlavə edir ki, "onun (Lüdovik Şaker) bu vəzifəyə keçməyini Makron hələ kampaniya zamanı qərara almışdı..." "... o, Makrona yaxın adamdır, həm də Çini və çinlilərin şəbəkələrini yaxşı tanıyır. Olsun. Amma nə səbəbə o bu vəzifəyə təyin olunub? Bu otuz-otuz beş yaşlarında olan təcrübəsiz gənc bir oğlan islamçı terroristlərə qarşı mübarizə aparan gizli informasiya xidmətlərinin ağırçəkili professional agentləri kimi mübarizə aparmağı bacara biləcəkmi? Və ya Ame-

rika gizli agentləri ilə bu mövzuda gündəlik dialoqa girib strateji qərarlar qəbul etməyi bacaracaqmı?", – deyə bu "strategiya eksperti" ironiya ilə replika atır.

Makronun yaxın dostu... 2018-ci ildə Şaker quru qoşunlarının ehtiyatda olan komandiri təyin olunur. Müdafiə Nazirliyinin kəşfiyyat qrupunun ağırçəkili agentlərindən biri bizə bu məsələni başqa cür təqdim edir. Bu adam Yelisey sarayındakı "ikimərtəbəli müdafiə sisteminin" varlığından danışır. Birinci mərtəbədə rəsmi idarəçilər, o cümlədən Nazirlər Kabinetinin direktoru, Patrik Strzoda; ikinci mərtəbədə isə "vaxtilə Makronun seçki kampaniyasını təşkil edən altı nəfərdən ibarət qara kabinet...". Bu sözlərin müəllifi həm Lüdovik Şakeri hədəfə alır, həm də təbii ki, Yelisey sarayının baş katibi Aleksi Kohleri. Bu sonuncu, Makron prezident seçiləndən sonra dövlət müdafiə sistemini mərkəzləşdirməyə qərar vermişdi.

"Təhlükəsizlik və müdafiə məsələlərində Makron ağlına nə gəlir onu da eləyir...". Başqa bir həmsöhbətimiz bizə izah etdi ki, "Lüdovik Şaker seçki kampaniyası zamanı Makronun bu həssas mövzulara giriş qapısı idi...". O vaxt Lüdovik Şaker müdafiə problemləri üzərində işləyən qrupa daxil idi. "Neynəmək olar... V Respublikada həmişə qaranlıq bir sahə olub. Və bu dövlət üçün zəruridir", – deyə kəşfiyyat qrupunun başqa bir fiquru prezidentə haqq qazandırmağa çalışır.

Sözün əsl mənasında, çox müəmmalı bir adam olan Lüdovik Şaker prezidentin adından dövlətin bir neçə yüksək vəzifəli şəxslərinin yanına gedib onlardan "məxfi müqavilələr" imzalamağı tələb edir. Qəribə və sirli bir adamdır bu Şaker. Bəzilərinə o hətta özünü "xüsusi təyinatlı qrupun keçmiş üzvü" kimi təqdim edir. WikiLeaks tərəfindən aşkar edilən sənədlərdən bəlli olur ki, "Hərəkətdə!" hərəkatının daxilində Lüdovik Şaker özünü "44-cü piyada alayının keçmiş hərbiçisi" kimi qələmə verir. Kəşfiyyat agentləri yaxşı bilirlər ki, 44-cü alay DGSE (xarici kəşfiyyat) üçün kadrlar hazırlayır. Deməli, belə çıxır ki, keçmişdə Lüdovik Şaker casus olub. Bu informasiyanı sözügedən şəxs nə təkzib, nə də təsdiq

etdi. Biz ancaq onu bilirik ki, Şaker Yelisey sarayına gələndən sonra onun DGSE (xarici kəşfiyyat) ilə əməkdaşlığı dayandırıldı. 2018-ci il sentyabrın 5-də xarici kəşfiyyatın rəhbər işçilərindən biri olan Jan-Dominik Merşe L'Opinion gündəlik qəzetinə verdiyi müsahibəsində qeyd edir ki, "Yelisey sarayının missiya icraçısı Lüdovik Şaker, artıq DGSE-də (xarici kəşfiyyat) işləmir". Şaker də öz növbəsində bu uğursuzluğu daha yaxşı "həzm" etməkdən ötəri bəzi həmsöhbətlərinin qarşısında öyünməkdən çəkinmir və DGSE-də (xarici kəşfiyyat) olduğu vaxtlarda ona tapşırılan missiyalardan həvəslə danışır.

Kölgədə olan bu adamın tərcümeyi-halı xeyli suallar doğurur. Nim şəhərindən bir neçə kilometr aralıda, Aveyron departamentinin San-Jan-dü-Brüel adlanan kiçik bir kəndində doğulan bu adam 1990-cı illərin sonunda, 18 yaşında paytaxta gəlir. Elə həmin il Parisin 19-cu rayonunda kunq-fu ustası Lianq Çao ilə tanış olur. Parisin Villett məhəlləsinin yaxınlığındakı idman sarayında onunla məşq edir və tezliklə Lianq Çaonun sevimli şagirdinə çevrilir. Buna görə gələcək prezidentin seçki kampaniyasındakı yoldaşları ona "ninja" ləqəbi verəcəklər. Lianq Çao ilə tanışlıqdan sonra Şaker Asiya ilə çox maraqlanır və Çin Mandarin dilini öyrənməyə başlayır. Çox keçmir ki, o, Milli Beynəlxalq Əlaqələr və Dillər İnstitutunun, eləcə də Şərq sivilizasiyaları (INALCO) və CELSA ünsiyyət məktəbinin diplomlarını alır. Məhz elə o zaman bu adamda müdafiə məsələlərinə qarşı maraq oyanır. Beləliklə, cəmisi 24 yaşında Şaker mütəmadi olaraq IHEDN-in (Milli Müdafiə Araşdırmaları İnstitutu) kurslarında iştirak etməyə başlayır və özünə yaxşı çevrə toplayır. Müəllimlərinin dediyinə görə, o, çox parlaq və istedadlı bir tələbə olub. Çünki cəmisi bircə il sonra Şaker Parisdəki Siyasi Elmlər İnstitunun ictimai əlaqələr üzrə magistr dərəcəsini alır.

Bütün bu diplomlarla silahlanan cavan oğlan 2007-ci ildə ilk dəfə olaraq Çinə yola düşür. Orada, daha doğrusu, Fransanın Şanxaydakı baş konsulluğunda müqavilə ilə universitetlərarası rəsmi əlaqələr üzrə baş icraçı kimi fəaliyyətə başlayır. Jurnalist Frank Renonun sözlərinə görə,

“o, (Lüdovik Şaker) Çini yaxşı tanıyırdı və fəaliyyət göstərdiyi sahə, onun, əslində, kim olduğunu və nə mənsəbə qulluq elədiyini ört-basdır etmək üçün yaxşı bir pərdə idi...”. Konsulluğun əməkdaşlarından biri onu da qeyd edir ki, “o, (Lüdovik Şaker) xüsusi bir missiya üçün Şanxay şəhərindən çıxanda, biz onun hara getdiyini və getdiyi yerdə nə işlər gördüyünü bilmirdik...” Şaker tez-tez Konsulluğun təhlükəsizlik şöbəsinin rəisi ilə bir yerdə olur. Bundan başqa, o, konsulun əmri ilə “adanın başçısı” təyin olunur. Yəni ölkə (Çin) böhran vəziyyətinə düşərsə, fransız vətəndaşlarının qayğısına qalmaq, onlara ölkədən (Çin) çıxıb vətənlərinə qayıtmağa kömək göstərən qrupun rəhbəri. Onda qəribə bir vərdiş də var: Şaker həmişə üstündə kunq-fu bıçağı gəzdirir. Məhz o dövrdə gənc Lüdovik bir yerdə yaşadığı bolqar qızı ilə mülki nikah kəsdirməyə qərar verir. 2010-cü il Ümumdünya Sərgisindən bir neçə ay əvvəl, o, Şanxayda, Fransa-Çin şəbəkələri ilə də əlaqəyə girir, xüsusilə Pekində yerləşən fransızların Çindəki Mədəniyyət Mərkəzinin müşaviri Fransis Nizet ilə yaxından tanış olur. Sağçılar partiyası ilə Fransa Demokratik Partiyası arasında var-gəl edən Nizet, sağçılar partiyasından Makronu ilk dəstəkləyən Reno Dütrey ilə yaxın dostdur. Çində olanda, Şaker, həmçinin Jan-Pier Raffaran (keçmiş Baş nazir) və Tur şəhərinin ovaxtkı meri – öz şəhərini Çində tanıtmaq üçün tez-tez ora səfər edən Jan Jerman ilə də görüşür.

## JUE-LE-TUR ŞƏHƏRCİYİNDƏKİ TURİST

Jue-le-Tur Centre-Val de Luire bölgəsində, İndre-et-Luara departamentində, Tur şəhərinin cənub-qərbində yerləşən şəhərcikdir. Əhalisi, təxminən, 39 000 nəfərdir.

2009-cu ilin yayında Lüdovik Şaker Fransaya qayıdır və tezliklə Jue-le-Tur şəhərciyinin meriyasında kabinet müdiri təyin olunur. Nəyə görə? Lüdovik Şaker hara, meriyada kabinet müdiri olmaq hara? Bu təyinatdan təəccüblənən meriyadakı məmurlar heç nə başa düşə bilmirlər. Onların həm özlərinə, həm də bir-birlərinə verdikləri suallar cavabsız qalır. Əvvəla, Lüdovik Şakerin yerli hakimiyyət orqanlarında heç bir təcrübəsi yoxdur. Bundan başqa, onun heç Sosialist Partiyasına mənsub olduğunu sübut edən kartı da yoxdur. (Lüdovik Şaker sosialist də deyil). Məsələ burasındadır ki, bu təyinat Jue-le-Tur şəhərciyinin meri sosialist Filip Le Bretonun şəxsi qərarıdır. Turizm və aqlomerasiyanın iqtisadi inkişafı üzrə vitse-prezident olan Filip Le Breton bu cavan oğlanla harada və necə tanış olduğunu, onu bu vəzifəyə nə üçün təyin etdiyini heç kimə açıqlamır. Ancaq iclasların birində qısaca qeyd edir ki, onun (Lüdovik Şaker) daşdan keçən bir CV-si var. "Hobbisi də balıqçılıqdır", – deyə heyrətə düşən müavinlərinin qarşısında hələ zarafat da edir.

Tezliklə hamı hiss edir ki, bu Lüdovik Şaker adi bir kabinet müdiri deyil. "Biz çox tez başa düşdük, o, klassik müdir deyil. Hamımızda belə bir təəssürat yarandı ki, o turistdir, bura gəzməyə gəlib. Öz işinə o qədər də can yandırmırdı. Hiss olunurdu ki, bu adam tamamilə başqa bir işlə məşğuldur...", – deyə meriyanın keçmiş müavinlərindən biri etiraf edir. Bu hiss meriyanın bütün işçilərində var, çünki orada çalışdığı iki il ərzində Lüdovik Şaker ayda bir dəfə iki-üç gün harasa yoxa çıxırdı. Məsələn, bir dəfə heç kimə izahat vermədən on beş gün ərzində Pakistana, onun Əfqanıstanla sərhədlərinə yaxın bölgələrinə səfər edir. Bu səfərdən sonra Pakistanın milli geyimində meriyaya qayıdan kabinet

müdiri onu təəccüblə süzən həmkarlarına elə də açıqlama vermir. “Bizə dedi ki, baqajını itirib”, – deyə onun keçmiş həmkarlarından biri ironiya ilə gülümsəyir.

Çin dilində təmiz danışmaqla yanaşı, Lüdovik Şaker ərəb dilini də mükəmməl bilir. “Onun əsli Əlcəzairdəndir”, – deyə onunla meriyada işləyən əməkdaşlardan biri qətiyyətlə iddia edir. Şaker Yəmən mənşəli bir addır və Yaxın Şərqdə, eləcə də Məğribdə çox yayılıb. Bu cavan oğlan İslamın bütün ənənələrinə əlinin içi kimi bələddir. Bir vaxtlar o, DGSİ-nin (xarici kəşfiyyat) nəzdində Rabier rayonundakı böyük məscidin fəaliyyəti ilə məşğul olub.

Onun Jue-le-Tur şəhərciyindəki fəaliyyəti haqqında yuxarıda deyilənlərdən başqa məlumat əldə edə bilmədik. Meriyada onunla bir yerdə işləyən əməkdaşların dediyinə görə, Şaker, demək olar ki, heç vaxt öz işi haqqında heç kimə heç nə danışmırdı... şəxsi həyatı haqqında isə daha az danışırdı. Onun başqa bir hobbisi Wuxia assosiasiyasının nəzdində kunq-fu dərnəyi açıb, çin döyüş sənətini gənclərə öyrətmək idi. O, tez-tez gənc şagirdləri ilə böyük ustadı Lianq Çao arasında görüşlər təşkil edirdi. Onun Asiyaya olan sevgisi böyükdür. Meriyadakı kabinetinin divarından Çin qılıncı asılmışdı. O həm də mütəmadi olaraq Tur şəhərinin restoranlarında təşkil olunan “Şanxay axşamları” tədbirində iştirak edir və Çindəki təcrübəsini hamıyla bölüşürdü.

“Lüdovik çox qapalı bir adam idi”, – deyə onunla hərdən Tur şəhərində qeyri-rəsmi görüşlərdə iştirak edən köhnə bir polis məmuru təəssüratlarını bizimlə bölüşdü. O vaxtlar Tur şəhəri, xarici casuslarla mübarizə aparan fransız agentlərini çox maraqlandırırdı. DCRI (daxili kəşfiyyat) əsli Tayvandan olan, Tur şəhərinin meriyasında Fransa-Çin münasibətləri üzrə müşavir Liz Han ilə bağlı araşdırmalar aparır. Yeri gəlmişkən, bu qadın həm də Tur şəhərinin meri və şəhər universitetinin keçmiş prezidenti Jan Jermanın məşuqəsidir. Tur həm də çox vacib bir sənaye mərkəzidir – orada Fransa və İtaliyanın birgə istehsal etdiyi çip STMikroelektronik zavodu, eləcə də Hutchinson və Michelin şirkətlərinə

məxsus kauçuk zavodları yerləşir... Bütün bu şirkətlər, Tur şəhər universitetinin tədqiqat laboratoriyaları ilə birgə fəaliyyət göstərirlər. Taleyin ironiyasına bax ki, elə həmin vaxt Le Canard enchaîné qəzeti "Çin nikahları" ilə bağlı məqalə dərc edir və bu məqalə ölkədə böyük skandal yaradır. İstintaq nəticəsində məlum olur ki, bu qondarma "nikahları" təşkil edən Tur meriyasında müşavir kimi çalışan, eləcə də Turun meri Jan Jermanın məşuqəsi Liz Handır. Bu qadın ədalət məhkəməsi tərəfindən mühakimə olunacaq və bu skandalda adı mətbuatda hallanan Tur şəhərinin meri Jan Jerman bütün bu biabırçılıqlara dözməyib intihar edəcək.

Bu kontekstdə, 2011-ci ilin yayında Lüdovik Şaker Jue-le-Tur şəhərini tərk edir. Görəsən, Turan bölgəsində işləyəndə bu adam fürsətdən istifadə edib özünə siyasi şəbəkə yarada bilibmi? Bu cavan oğlan ürəyində "makronçudur", baxmayaraq ki, camaatın içində solçular partiyasına mənsub olduğunu təsdiqləyir... eyni zamanda isə kənarda özünə sağçı partiyasından çevrə yığır. (!) Bu da təəccüblü deyil, çünki Turan torpaqları əsl şəbəkə zonasıdır, ona görə ki, burada neçə illərdir frank-masonlar at oynadır. Lap əvvəllərdən bu Turan torpağı sağçılar bölgəsi sayılıb – özü də həmişə. Əsasən də 1974-1981-ci illərdə Fransanın prezidenti olmuş Valeri Jiskard d'Estanın siyasətini dəstəkləyib. Tur şəhərinin intihar edən keçmiş meri Jan Jerman, Lion şəhərinin meri Jerard Kollombun yaxın adamı idi, özü də frank-mason gizli cəmiyyətinə mənsub olduğunu heç kimdən gizlətmirdi. Hələ bu harasıdır, o, frank-mason olmağını Sosialist Partiyasının üzvü olduğundan daha yüksək tuturdu. Jan Jerman həm də əvvəllər Nikola Sarkozinin seçki kampaniyasının xəzinədarı olan Filip Briand ilə yaxın təmasda idi. Onunla həm sözləri, həm də işləri yaxşı tuturdu. Bundan başqa, Jan Jerman uzun müddət qonşu Puatu-Şarant bölgəsinin prezidenti olan Jan-Pier Raffaran ilə də yaxın idi. İkisinin də Asiyaya, xüsusən də Çin tarixinə və mədəniyyətinə böyük maraqları vardı. Tur şəhəri, eləcə də Jan-Pier Raffaranın keçmiş naziri Fransua Leotardın da məskənidir. (Fransua

Leotard – fransız siyasətçisi. İyirmi ilə yaxın Var bölgəsinin deputatı və Frejus şəhərinin meri olub. 1986-1988 illərdə Mədəniyyət naziri, 1993-1995 ci illərdə isə Müdafiə naziri olub)

Və nəhayət, 2011-2012-ci illər arasında bu bölgəyə 1993-1994-cü illərdə Fransa Sosialist partiyasının baş katibi Mişel Rokard ilə Dominik Stros-Kanın şəbəkəsinin döyünən ürəyi olan Marisol Turan rəhbərlik etmişdi. Xatırladaq ki, sonralar onların ikisi də Makronu dəstəklədilər...

Bir neçə ildən sonra tamamilə təbii olaraq Lüdovik Şaker "Hərəkətdə!" hərəkatının birinci rəsmi məvacibli işçisinə çevrilir. Bu işi ona dostu, həm də Emmanuel Makronun xüsusi müşaviri olan İsmael Emelien təklif edir. Adam Plovraytın yazdığı kitabdan öyrənirik ki, Şaker 2015-ci ilin sonunda “Fransanın İraqdakı ordusundakı müvəqqəti işindən” sonra Parisə qayıdıb və gələn kimi də Makronun gələcəkdə prezident olmağını arzulayan adamlara qoşulub.

(Adam Plowright, The French Exception Emmanuel Makron! The Extraordinary Rise and Risk, icon Books, septembre 2017!)

O zaman hamıdan gizlin İsmael Emelien, İqtisadiyyat naziri Emmanuel Makron və onun kabinetinin direktor müavini Jülіən Denormandi ilə birlikdə "Hərəkətdə!" hərəkatının təməlini qoyur.

Gizli görüşlər paytaxtın 11-ci rayonunda yerləşən, adətən Paris burjuaziyasının yığışdığı Sqare Gardette barında təşkil olunur; ancaq həmişə yox, çünki bu məxfi qrup çox ehtiyatlı tərpənir, ona görə də istəmirlər onları burda tez-tez görsünlər. “O vaxt hamımız bir az paranoyak idik”, – deyə Lüdovik Şaker özü etiraf edir. Söhbətlərinin tam məxfiliyi təmin etmək üçün Lüdovik dostlarına tövsiyə edir ki, telefonla danışanda o vaxt hələ az tanınan Teleqram proqramından istifadə etsinlər. Sonrakı aylarda Lüdovik Şaker yenicə doğulan bu hərəkatın ("Hərəkətdə!") “baş katibi”, daha sonra isə Makronun seçki kampaniyası zamanı onun “əməliyyat direktoru” olur. Bu vəzifələr bir az “dəb-dəbəli” səslənsə də, onların real məsuliyyəti var. Şaker, əsasən, Makronun strateji görüşlərini təşkil edir.

Aleksandr Benallanı da işə götürən bu adamdır. 2016-cı ilin dekabrında, seçki kampaniyasının təhlükəsizlik komandasını tərtib edəndə, Lüdovik Şaker Benallanı, Makronun cangüdəni götürür. O vaxt təbii ki, prezidentliyə namizəd olan Makronun təhlükəsizliyini dövlət polis təmin edir. Ona görə də özəl təhlükəsizlik şirkətindən istifadə etmək lazım gəlir. Ancaq kampaniyanın xəzinəsi hələ ki, boşdur, təhlükəsizliyi təmin edən agentlərə pul çatışmır və elə bu səbəbdən, onların birinci müraciət etdikləri təhlükəsizlik şirkəti, prezidentliyə namizədi qorumaqdan imtina edir. O vaxt yalnız bircə nəfər – GIGN-in keçmiş üzvü Kristian Qedon, demək olar ki, pulsuz-parasız prezidentliyə namizəd Makronun təhlükəsizliyini qorumağa razılıq verir. (GİGN – Milli Jandarmeriyanın Müdaxilə Qrupu) Onun bu fədakarlığının ödənişi yaxşı olacaq. Emmanuel Makron prezident seçiləndən sonra Kristian Qedon, əvvəllər GIGN-in üzvü olduğuna görə Yelisey sarayının GSPR qrupuna daxil ediləcək. (GSPR – Respublika Prezidentinin Təhlükəsizlik Qrupu)

Bu kontekstdə Aleksandr Benalla nəinki özünü prezidentliyə namizədə sevdirməyi bacarır, hətta özünü namizəd üçün əvəzolunmaz bir şəxs kimi göstərir. Benalla Makronu bütün xarici səfərlərində müşayiət edir və namizədlə yaxınlıqdan istifadə edib, Vənsan Qras adlı dostunu da seçki kampaniyasında işə düzəldir. Benalla Ör departamentində ehtiyatda olan jandarm kimi bəzi missiyalar həyata keçirəndə Vənsan Qras onun rəhbəri olub. 2017-ci ilin əvvəllərində Benallanın ayağı o qədər yer alır ki, o utanıb-çəkinmədən prefekturaya müraciət edir ki, Emmanuel Makronun ölkə daxilindəki səyahətlərini müşayiət etdiyinə görə ona odlu silah gəzdirməyə icazə versinlər. Le Monde qəzeti yazır ki, Benalla odlu silahı nəinki özü üçün, eləcə də Makronun təhlükəsizlik xidmətinin beş başqa üzvü, o cümlədən dostu Vənsan Qras və Lüdovik Şaker üçün də tələb edir.

## MORİS ADASINDA UKRAYNA OLİQARXI İLƏ XÜSUSİ MİSSİYALAR

Lüdovik Şaker və Ismael Emelien 2007-ci ilin əvvəllərində Kair şəhərində eyni evdə kirayə qalanda tanış olmuşdular. (Bax: Arian Şömən və Fransua Kruq "Benalla məsələsindən sonra Yeliseyin kölgədə olan adamları işıqlandılar". Le Monde, 20 yanvar 2019) Elə ilk görüşdən onlar dostlaşırlar. İkisi də çox iddialı, ikisi də eyni zövqə malik adamlardır. İkisinin də gizli, müəmmalı, standart olmayan işlərə maraqları var. O vaxtlar Emmanuel Makronun gələcək xüsusi müşaviri Ismael Emelien Siyasi Elmlər İnstitutunda keçirdiyi vaxtının bir hissəsini ərəb dilini öyrənməyə sərf edir. O, bütün bölgələri gəzir və hətta atasının elektrik avadanlıqları biznesinin bir şöbəsini də Suriyada açmaq üçün ora da səfər edir. Onun Qrenoblda yaşayan atası Jan-Paskal Emelien, həqiqətən də öz biznesi ilə Yaxın Şərqi fəth etmək istəyir. (Bax: Sofi de Dezert, «Prezidentin adamları: Makronu Yeliseyə gətirən dostlar", Vanity Fair, dekabr 2017) Şaker isə Şanxaydakı fransız konsulluğuna yola düşür.

İki ildən sonra Emelien Bollore qrupuna aid olan rabitə və lobbiçilik agentliyi Havas şirkətində işə götürülür. Çox tez bir zamanda Havasın rəhbəri Stefan Fuks ona çətin sənədlər etibar edir. Gənc Emelien tez-tez EDF-in prezidenti (EDF – Fransanın Elektriki) Henri Projliodan məsləhət almağa gedir. Məhz elə o zaman, bu adamla Emmanuel Makron ilk dəfə görüşüb tanış olurlar. 2009-cu ilin sentyabrında onların ikisi də siyasi məsləhətçi Jil Finşelşteynlə birlikdə Jan-Jores Fondunun təşkil etdiyi "İllik Tərəqqi Forumunda" iştirak etmək üçün Çiliyə səfər edirlər.

Qısa bir müddətdən sonra yenə də Jil Finşelşteynlə birlikdə Emelien Havas tərəfindən Moris adasına göndərilir ki, oranın Baş naziri Navin Ramqoolama ikinci dəfə Baş nazir seçilməkdə kömək etsinlər. Moris adası, həqiqətən də xüsusi bir ərazidir. Emelien orada əvvəllər

Havas şirkətində siyasi məsləhətçi kimi çalışan Veolia şirkətinin icraçı direktoru, uzun illərdən bəri Moris adasının Baş naziri Navin Ramqoolamın məsləhətçilərindən biri olan Loran Obadia ilə də tanış olur. Obadia siyasətlə kəşfiyyat arasında var-gəl edir. (Sarkozinin fantomu fəslinə bax) Bu adam həm də tez-tez Moris adasına gələn Aleksandr Djuri, eləcə də "cənab Şarp" ləqəbi ilə tanınan İrlandiyalı iş adamı Toma Fransis Qleeson ilə yaxındır.

La Lettre A qəzeti xatırladır ki, (La Lettre A – Fransanın siyasi, ictimai, iqtisadi və mediatik yeniliklərindən xəbər verən gündəlik qəzet. 1978-ci ildə yaranıb. Hal-hazırda ancaq saytda çıxır) bu iki dost Moris adasında Airbus şirkəti ilə Air Mauritius aero kampaniyası arasındakı danışıqlarda birlikdə iştirak ediblər. (Bax: "Elfdən Airbusa qədər. Aleksandr Djurinin Londondakı sirli dostu kimdir?» La Lettre A, 19 mart 2018-ci il)

Moris adasından sonra Havas artıq bərkdən-boşdan çıxmış İsmael Emelieni iki dəfə Venesuelaya göndərir ki, Nikola Maduronun prezident seçilməsinə çalışan yerli komandaya kömək əlini uzatsın. Bu adam Emmanuel Makrondan olduqca uzaq siyasətçidir... hələlik.

Amma Havas şirkətində İsmael Emelienin tərcümeyi-halında bir cümlə çatışmır. Stefan Fuks ilə birlikdə gənc məsləhətçi Ukraynanın "YES" (Yalta Avropa Strategiya Konfransı) forumunda da yaxından iştirak edib. Fransız rabitə agentliyi tərəfindən dəstəklənən "YES" forumunun məqsədi boru kəmərləri üzrə ixtisaslaşmış Interpip şirkətinin sahibi, Ukraynalı oliqarx Viktor Pinçukun imicini yüksəltməkdir. Bu ukraynalı milyarder 2004-cü ildə Ukraynada "narıncı inqilab" nəticəsində hakimiyyətdən qovulan prezident Leonid Kuçmanın kürəkənidir. Qayınatası prezidentlikdən çıxandan sonra Pinçuk birmənalı şəkildə Qərb klanına yaxınlaşıb. O, Yaltadakı forumuna Dominik Stros-Kan, Toni Bler və Bill Klinton kimi siyasi xadimləri dəvət edib. Yeri gəlmişkən, keçmiş Ukrayna prezidentinin kürəkəni həm də Klinton Fondunu maliyyələşdirir. Pinçuk öz yaşında olan digər oliqarxlarla da dostluq edir: bankir Mixail

Fridman və İsveçrənin Zuq kantonunda məskən salan Viktor Vekselberq ilə. Onların hər ikisi keçmiş beynəlxalq trayder Mark Riş ilə yaxın əlaqədədirlər. Amma Pinçuk da nəhəng iş adamıdır, o Rusiyadan olan oliqarxları da yaxşı tanıyır, məsələn, adları Benalla ilə bağlı skandalda hallanan Fərhad Əhmədov və İsgəndər Mahmudovu. Birincisi onun Fransada birbaşa qonşusudur, hər ikisi  Aralıq dənizi sahilində yaxın Provans-Alp-Kot d'Azür regionunun Alp-Maritim departamentində, Nis ilə Monakonun arasında yerləşən San-Jan-Kap-Ferrat şəhərində villa alıb orada yaşayırlar. İkincisi isə Kuzbassrazrezugol kömür şirkətinə nəzarət edir, bu şirkətə 2013-cü ildən Pinçuka mənsub olan Interpip şirkətinə rəhbərlik edən Ukraynalı iş adamı Oleq Rozenberq də sərmayə qoyub. Şərq oliqarxlarının dünyasında, Rusiya ilə Ukrayna arasındakı münaqişəyə baxmayaraq biznes davam edir. Yaxşı deyiblər, təki pulun olsun... pul olan yerdə düşmənçilik ikinci plana keçir.

## SİYASİ ELMLƏR TRAMPLİNİ

Şaker ilə Emelien növbəti dəfə Siyasi Elmlər İnstitutunun dəhlizlərində görüşəcəklər. Jue-le-Tur şəhərciyindən birdəfəlik ayrıldıqdan sonra Şaker, 2011-ci ilin payızında Parisin San-Qiyyom küçəsində yerləşən Asiya, Afrika və Orta Şərq arasında münasibətlər məktəbində mübadilə və tərəfdaşlıq şöbəsinin rəhbəri təyin olunur. Onu bu işə götürməyə məktəbin direktoru Rişar Dezkuanq qərar verir. Bir neçə ay sonra direktor Nyu-York şəhərində qəfildən dünyasını dəyişir. Şaker internet bloqunda keçmiş məktəb direktorunu bu sözlərlə yad edir: "Rişar Dezkuanqun [...] mənim karyerama çox böyük köməyi olub. O, ətrafına həmişə gəncləri yığardı. Yadımdadır ki, bir dəfə mənə dedi, Lüdovik, bax, əslində, sənin kimi insanlar prezidentliyə namizəd olmalıdırlar... mənim kimi insanlar da sizlərin məsləhətçisi olmalıdır..."

Siyasi Elmlər İnstitutunda Lüdovik Şaker makroniyanın gələcək nomenklaturasının mərkəzində dayanır. Məsələ burasındadır ki, 2007-ci ildə bu məşhur institut Eduard Filipin mer olduğu Lö Havr şəhərində Asiya kampusu açıb. Gələcək Baş nazirin (Eduard Filip) həyat yoldaşı Edit Çabr da, o vaxt bu kampusun icraçı direktoru vəzifəsində çalışıb. Bundan əlavə, Jan-Pier Juyer (Fransua Hollandın prezidentliyi zamanı Yelisey sarayının Baş katibi, eləcə də Emmanuel Makronun məsləhətçisi) Siyasi Elmlər İnstitutunun idarə heyətinin nüfuzlu üzvlərindən biridir. Rişar Dezkuanqun gözü gənc Makronu çoxdan tutmuşdu, 2000-ci illərin əvvəllərində, Makron bu institutda sadə bir tələbə olanda, ona "metod konfransını" istiqamətləndirməyi tapşırmışdı... Məktəbin keçmiş tədqiqat direktoru, sonradan Montayn İnstitutunun baş direktoru keçən Loran Biqorn da Makrona yaxın adamdır. Göründüyü kimi, San-Qiyyom küçəsində yerləşən məktəbdəki şəbəkələr bir çox başqaları kimi Emmanuel Makronun yüksəlişində böyük rol oynayıblar.

Şaker tezliklə Siyasi Elmlər İnstitutundan üz çevirir. Rişar Dezkuanq tərəfindən Asiya, Afrika və Orta Şərq arasında münasibətlər məktəbində,

mübadilə və tərəfdaşlıq şöbəsinin rəhbəri təyin olunandan sonra Lüdovik Şaker, bütün diqqətini deputat seçkiləri kampaniyasına verir. Özü də kimin namizədliyini irəli sürsə, yaxşıdır? Özünün!.. Fransanın Şanxaydakı konsulluğunun keçmiş missiya icraçısı 2012-ci ilin iyununda 11-ci seçki dairəsində xaricdəki fransızları – keçmiş SSRİ-də, Asiya və Okeaniyada yaşan həmvətənlərini – ona səs verməyə çağırır. Sonra Siyasi Elmlər İnstitutunda başına on-on beş tələbə yığıb seçkilərə hazırlaşır. Onun bir neçə yaxın dostu da köməyə gəlir... Hətta İsmael Emelien da onun bəzi iclaslarında iştirak edir. Lüdovik Şaker 2012-ci ilin əvvəlində, bir neçə ay ərzində 11-ci seçki dairəsinə daxil olan ölkələrə, xüsusilə də Rusiyaya səfər edib orada yaşayan fransızlarla görüşür. "Onun kampaniyasında ancaq onun özünü o ərazilərdə tanıtdırmaq üçün çalışılırdı", – deyə onun keçmiş könüllü məsləhətçilərindən biri bizə etiraf etdi. Düzdür, seçkilərdə Lüdovik Şaker cəmi-cümlətanı 1,99% səs yığdı və onun kampaniya sertifikatı ictimai mühasibat tərəfindən təsdiqlənmədiyinə görə Konstitusiya Şurası tərəfindən cəzalansa da, bu macəra zamanı, o, gələcək millət vəkili, Fransa-Rusiya strategiyası assosiasiyasının prezidenti Terri Mariani ilə tanış oldu.

Rişar Dezkuanqın qəfil ölümündən sonra Lüdovik Şaker Siyasi Elmlər İnstitutundan çıxır. Bir müddət Paris və onun ətraf rayonlarının regional şurasında çalışır. Orada "Hərəkətdə!" hərəkatının regional məsləhətçisi Patrik Tulmetlə tanış olur. Patrik San-Deni qəsəbəsinin Bobini Ticarət Palatasını idarə edən bir adamdır. Bu palatada Roje Karutçinin keçmiş əməkdaşı Sebastian Menard da işləyir. Bu sonuncu isə bir müddət sonra Yelisey sarayında məskən salan Şaker və Benallanın bandasına daxil olacaq. Menard ilə Tulmet Reno Dütrey ilə tanışdılar və Benalla kimi GLNF-ə daxildirlər. (GLNF – Fransanın Böyük Milli Frank-Mason Lojası) Şaker hələlik məsləhətçi kimi fəaliyyət göstərir. O, müntəzəm olaraq Aveyron və Qard departamentlərinə səfər edib oradakı siyasi vəziyyət haqqında məlumat toplayır. Lüdovik Şaker Ooda-consulting adlandırdığı şirkətini Nim şəhərindən və doğulduğu kənddən bir neçə

kilometr aralıda yerləşən Milhod adlı kiçik bir qəsəbədə qeydə aldırır. Ooda – ingilis dilində “Observe Orient Decide and Qct”, Fransız dilində “Müşahidə etmək, İstiqamətləndirmək, Qərar vermək və Hərəkət etmək” – onun hərbi fəaliyyətinə işarədir. Bu konsepsiya qırıcı təyyarə pilotları tərəfindən istifadə edilən bir anlayışdır və bu termindən xüsusi təyinatlı hərbiçilərin hazırladıqları əməliyyatların planlaşdırmasında istifadə edilir...

Lüdovik Şakerin şəbəkələri ilk baxışdan hiss olunmasa da, əslində, çoxşaxəlidir. O dövrdə Şaker paralel olaraq Fransız reqbi orqanlarının sütunlarından biri, əmisi Klod Atçer tərəfindən yaradılmış idman marketinq şirkətində işləməyə başlayır. Klod əsli Aveyrondan olan başqa bir məşhur idman fiquru, reqbi üzrə Fransa yığmasının keçmiş baş məşqçisi, Sarkozinin dövründə idman üzrə məsul dövlət katibi olan Bernard Laportla yaxın dostdur. RC Nîmes və Racing 92 kimi komandalarda üçüncü xəttə oynayan, 1987-ci ildə Fransa çempionatının finalçısı olan Klod Atçer, reqbinin peşəkarlaşmasında böyük rol oynayan simalardan biridir. O, öz karyerasını, Reqbi Federasiyanın keçmiş rəhbəri Bernard Lapassetin köməyi ilə qurub. Əvvəllər, o, peşəkar reqbi yaratmaq istədiyindən, çox tənqidlərə məruz qalıb. Gənclər və İdman Nazirliyinin baş müfəttişliyi onun idmandan kənardakı fəaliyyətlərinə işarə edən bir neçə məqalə həsr etmişdi. Ancaq bu gün reqbi dünyasındakı bu adamı açıq şəkildə tənqid etməyə cəsarət etmək hamının işi deyil: o, 2023-cü ildə Fransada keçiriləcək reqbi üzrə dünya çempionatının təşkilatçılarından biridir. Atçer yorulan adam deyil. Marsel şəhərində peşəkar Vitrolles Reqbi klubu yaradıb, Yeni Zelandiyalı Jonah Lomu da ora üzv götürəndən sonra, indi də reqbi oyununu Asiyada inkişaf etdirməyi arzulayır... Təbii ki, Asiyanı yaxşı tanıyan qardaşı oğlunun bu işdə ona çox köməyi dəyə bilər.

## FOŞ PROSPEKTİNDƏ HƏR ŞEYƏ QARIŞAN QADIN

Aveyron departamentində doğulan olan Klod Atçer və Bernard Laport bir xanımı da yaxşı tanıyırlar – əsli Nim şəhərindən olan, ancaq indi İsveçrədə yaşayan iş qadını Paskal Jannin-Perez. Zibil tullantılarının toplanması üzrə ixtisaslaşmış Derichebourg qrupunda bir müddət işlədikdən sonra Paskal Jannin-Perez, indi öz hesabına Afrikada və Ərəbistan yarımadasında yerləşən dövlətlər arasında vasitəçilik edərək ticarət əlaqələri qurur. Əmisinin və Bernard Laportun sayəsində Lüdovik Şaker də Paskal Jannin-Perezlə tez-tez görüşür. 2016-cı ilin sonunda bu qadın Cenevrədə Çin ilə Avropa arasında ticarət əlaqələrini genişləndirmək məqsədi ilə böyük bir ofis açır və bu layihəni “Yeni İpək Yolları” adlandırır. Cenevrədə Lüdovik Şaker bir neçə ay ərzində kiçik biznes məktəbində işləyir: ona Asiyadan, xüsusən də Çindən yeni partnyorlar, tərəfdaşlar tapmaq həvalə edilir. Məhz bu işdən sonra Lüdovik Şaker Makronun seçki kampaniyasında daha fəal iştirak etməyə başlayacaq. Yelisey sarayının gələcək “missiya icraçısı” o vaxtlar ailəsi ilə birlikdə, Ot-Savua regionunun İsveçrə sərhədindən bir neçə kilometr aralıda yerləşən bir qəsəbədə yaşayırdı və hər gün sərhədi keçib Cenevrədəki işinə gedirdi.

Paskal Jannin-Perezin bir neçə telefon kitabçası var. Onun bir neçə həyatı da var desək, səhv etmərik. Bu qadın hər şeylə maraqlanır, hər işə əl atır: biznes, maliyyə, sənaye, idman, hətta kino... O, Jerard Depardyenin dostudur – vaxtilə Jerard onu rejissor Abel Ferraranin Dominik Stros-Kan skandalı haqqında çəkdiyi “Nyu Yorka xoş gəlmisiniz” filminin birgə istehsalına qoşmuşdu. Paskal Jannin-Perez özünü hətta futbolçuların agenti biznesində də sınayıb. O, keçmiş futbolçu, sonradan Liberiyanın prezidenti olan Jorj Vea ilə yaxın tanışdır və hətta Didie Droqba kimi məşhur futbolçunun açdığı fondla da məşğul olur.

Gəncliyində Paskal Jannin-Perez həm də RPR-in (Jak Şirakın partiyası) fəal üzvü olub. 1995-ci ildə Jak Şirakın prezidentliyə seçki kampaniyası zamanı, Paskal gənclər tərəfindən gələcək prezidentə dəstək komitəsinin vitse-prezidenti olur. Ovaxtkı siyasi təcrübədən bu qadın dərin təəssürat və xeyli dostlar saxlayır. Paskal Jannin-Perez prezident Nikola Sarkozini bir çox xarici rəsmi səfərləri zamanı müşayiət edib, eyni zamanda həm də Bernard Laport və Tierri Mariani ilə də dostluq edir. Paskal, həm də Tierri Marianinin Franko-Rusiya Dialoqu assosiasiyasının xəzinədardır və hətta onun toyunda bəyin şahidi olub...

Amma bu qadının keçmiş ərindən danışmasaq, onun CV-si natamam olar. Protestant ailəsində doğulub boya-başa çatan Paskal, əvvəl Nim şəhərinin zibil və tullantılar “kralı”  Rişar Perezə ərə gedir və qısa bir müddətdən sonra ondan boşanır. 1990-cı illərdə məişət tullantıları sektorun son müstəqil qruplarından olan Sonevie və Soneco şirkətlərinin sahibi olan Rişar Perezin şirkətləri Nim, Lurd və hətta La Sen-sür-Mer kimi şəhərlərdə də mövcuddur. İspaniyada, sadə bir ailədə doğulub boya başa çatan Rişar Perez, 1980-ci illərdə adi tikinti işlərində çalışsa da, sonradan ildırım sürəti ilə irəliləyib Nim şəhərinin zibil və tullantılar kralına çevrilir. Ancaq əsli İspaniyadan olan bu gənc sahibkar Nim şəhərində, eləcə də Kot d’Azur kimi regionda yerli mafiya ilə əlaqəyə girib, öz şirkətlərinə böyük banditizmdə tanınmış adamları işə götürür.

1996-cı ilin yayında “zibil və tullantılar kralı” haqqındakı dastan sona çatır. Ədalət məhkəməsinin qərarı ilə onun şirkətində işləyən nə az, nə çox, altı nəfər şəxs ittiham olunur. Bu işə görə şirkətin prezidenti Rişar Perez və onun atası Roje Perez da müvəqqəti olaraq istintaq təcridxanasına yerləşdirilir. Rişar onun böyük şirkəti üçün fəhlə qüvvəsi toplayan kiçik şirkətlərə həddindən artıq – 20 milyon frank məbləğində ödənişlər etməkdə ittiham olunur. Générale des Eaux şirkəti bu fürsətdən istifadə edib Perezin bütün qruplarını öz filialı Onyx Méditerranée vasitəsilə satın alır. Bir neçə ay sonra Paskal Jannin-Perez məhkəməyə boşanma ərizəsi verib, Rişar Perezdən ayrılır. Onların 1992-ci ildə dün-

yaya gələn övladları Lüka məhkəmənin qərarı ilə anasına verilir. Bu, Benalla məsələsində adı bir neçə dəfə hallanan Rişarla Paskalın oğlu Lükadır.

Ancaq Perezlərin başına gələn bədbəxtliklər bununla bitmir. Çünki "zibil və tullantılar müharibəsi" hələ də davam edir və bu müharibənin qurbanlarının sayı get-gedə artır. Belə ki, Nim şəhərində xeyli zibil maşınları qəsdən yandırılır. Bir müddət sonra 2002-ci ildə Rişar Perezin atası Roje Perezə qarşı sui-qəsd edilir. Roje Qran-Mott şəhərinin yaxınlığındakı villasından çıxanda, naməlum şəxslər tərəfindən avtomat silahla qətlə yetirilir. Bütün bədəni güllələrlə deşik-deşik olan Roje Perezin nə qatilləri, nə də onun qətlini sifariş verənlər heç vaxt tapılmayacaq. O vaxtdan mərhumun oğlu Rişar yenidən istintaqa cəlb olunur – bu dəfə adam öldürməyə cəhd etməkdə ittiham edilir. Lakin Rişar Perez bu ittihamı təkzib edir. 2018-ci ilin payızında onun kiçik qardaşı Sebastyan məhkəmədə deyir ki: "Atam Roje öldürüldü... qardaşım Rişar Nim şəhərində zibil və tullantılar kralı idi. Onlar ikisi də böyük imperiya qurdular, ancaq sonra böyük banditizmə və mafiyaya qoşulub özlərini güdaza verdilər. Mən isə övladlarımın gözündə başqa cür görünmək istəyirəm; indiyə kimi mən o qədər də nümunəvi ata olmamışam, ancaq bundan sonra ancaq onlar üçün yaşayacam, çalışacağam ki, sadəcə olaraq həyatda yaşamaqdan ləzzət alım...".

Boşanandan sonra Paskal Jannin-Perez həyatını Cenevrə ilə London arasında yenidən qurur. Bu qadın Aleksandr Djuri ilə, eləcə də Areva mədənlərinin keçmiş rəhbəri, 2018-ci ilin yazından Uramin işinə görə ittiham olunan Sebastian dö Montessüs ilə də yaxındır. Djuri və Montessüs Cenevrədə eyni vəkillə – Kristian Fişellə işləyirlər. Londonda yerləşən, qızıl hasilatı üzrə ixtisaslaşmış Endeavour mədən şirkətinin baş direktoru Sebastian dö Montessüs müxtəlif Afrika ölkələrində də fəaliyyət göstərir və onun əsas səhmdarı Misirli milyarder Naqib Savirisdir. Parisdə bu iş adamı tez-tez Nikola Sarkoziyə yaxın olan Bernard Sqarçini və Klod Jeanla da görüşür, eləcə də Tierri Mariani ilə tez-tez

səyahətə çıxır. Ona görə də biz bu araşdırmalara başlayanda, Emmanuel Makrona yaxın olan adamlardan biri bizə etiraf etdi ki: "Yelisey sarayında Djurinin işi ilə ancaq Lüdovik Şaker məşğul olur".

Le Monde qəzetinə verdiyi müsahibədə Paskal Jannin-Perez izah edir ki, onu Lüdovik Şaker ilə tanış edən Aleksandr Benalla olub... Əslində, hər şey tərsinədir: Şaker özü Benallanı Paskal Jannin-Perezə təqdim edib. İyulun 18-də Le Monde qəzeti Respublika Prezidentinin kabinet direktorunun müavini Aleksandr Benallanın 1 may nümayişində iki nümayişçini dəyənəklə vurduğunu ortaya çıxardanda, onun Yelisey sarayında bu barədə söhbət etdiyi ilk iki adam İsmael Emelien və Lüdovik Şaker olub. Onlar üçü də bütün gecəni səhərə qədər söhbət edirlər və növbəti gün isə, müstəntiqlərin dediklərinə görə, bir-birlərinə xeyli SMS göndərirlər.

Həmin vaxt Aleksandr Benallanın yoldaşı körpəsini də götürüb Issi-lö-Mulinodakı evlərini tərk edib, müvəqqəti olaraq Parisin 16-cı rayonunda yerləşən Foş prospektindəki bir mənzilə sığınır... bu mənzilin sahibi kim olsa, yaxşıdır? Paskal Jannin-Perez! Le Monde qəzetinə verdiyi müsahibədə bu iş qadını deyir ki, Benalla ilə onun həyat yoldaşına "insanlıq" naminə kömək edib. Təbii ki, bu qəfil köməyi Yelisey sarayının xahişi ilə əlaqələndirməyin heç kimə xeyri yoxdur. Paskal Jannin-Perez jurnalistlərlə söhbətdə qeyd edir ki, Benalla ilə yazda, başqa bir iş adamı Jan-Lui Haqenor vasitəsilə tanış olub. Bu axırıncı, Rusiyalı oliqarx İsgəndər Mahmudova yaxın bir adamdır. Mediapart tərəfindən aşkar edildi ki, bu rus milyonçusu Aleksandr Benallanın yaxın dostu Vənsan Qras ilə Fransada Mühafizə müqaviləsi imzalayıb. Qısası, hamı əlindən gələni edir ki, təki jurnalistlər Lüdovik Şaker ilə Paskal Jannin-Perez arasında əvvəldən mövcud olan əlaqədən xəbər tutmasınlar. Benalla ilə bağlı skandalda Lüdovik Şakerin adı mətbuata düşəndə, Yelisey sarayı ona görə qorxudan titrədi ki, Şaker həm prezidentin seçki kampaniyası zamanı baş rol oynamışdı, həm də Makrona şəbəkə qurmaqda (xüsusən də sağçılar partiyasının siyasətçiləri ilə) kömək etmişdi.

Sentyabr ayında Aleksandr Benalla Londonda San Pankras beynəlxalq vağzalının yanında idman agentliyi açan Lüka Perez ilə görüşəndə, Lükanın anası Paskal bəzi dostlarının və rəfiqələrinin yanında öyünərək deyirdi ki, "Yelisey sarayı ondan [Lüka] xahiş edib ki, ona [Benalla] müqavilələr tapmaqda kömək eləsin...". Londona etdiyi bu ilk səfərində, Aleksandr Benalla Areva mədənlərinin keçmiş direktoru Sebastian dö Montessüs ilə də görüşür... baxmayaraq ki, sonuncu bunu inkar edir.

Bir çox faktlar göstərir ki, keçmiş "missiya icraçısı" ilə Yelisey sarayı arasındakı körpü payızda qırılmır. Nəinki prezident şəxsən özü ona Teleqram proqramı ilə mesajlar göndərməkdə davam edir, hətta İsmael Emelien və Lüdovik Şaker də onunla əlaqə saxlayırlar. "İsmael Emelienə tapşırılıb ki, onu (Benalla) gözdən qoymasın, çalışsın ki, o (Benalla) heç nədən korluq çəkməsin", – deyə Respublika Prezidentinin yaxın adamlarından biri bizə etiraf etdi. Oktyabrın 19-da Valeurs actuelles jurnalının jurnalistləri Aleksandr Benalla haqqında çapa gedəcək geniş məqaləni yazmaq üçün onunla bir neçə dəfə görüşürlər və hər dəfə təəccüblənirlər ki, İsmael Emelien də, prezident Makron da, mütəmadi olaraq bütün ölkədə skandal yaradan keçmiş "missiya icraçısına" zəng edib hal-əhval tuturlar.

Bundan əlavə, Jannin-Perez etiraf edir ki, o, Lüdovik Şakerin başqa bir tanışı ilə – prezidentin şəxsi heyətində missiya icraçısı kimi fəaliyyət göstərən Pol Soler adlı bir şəxslə də görüşüb. Əvvəllər COS (Xüsusi Əməliyyatlar Komandanlığı, xüsusi təyinatlılar qrupu) qrupuna daxil olan bu adam, həqiqətən də, Liviyada, Yelisey sarayı üçün böyük rol oynayır... (Afrika əlaqələri fəslinə bax) Amma bu adam Emmanuel Makron prezident seçiləndən sonra Yelisey sarayında işə götürülən yeganə qaranlıq keçmişi olan "missiya icraçısı" deyil. Dövlət başçısının "task force" heyətinin daxilində informatika təhlükəsizliyi üzrə ixtisaslaşmış Aleksandr Karayon adlı gənc bir mütəxəssis də var. Bu cavan oğlan da 2016-cı ilin iyul ayından Lüdovik Şaker tərəfindən "Hərəkətdə!" qru-

puna işə götürülüb və vəzifəsi də “texniki assosiasiyanın rəhbəri” kimi qeyd olunub. Kampaniya üzvləri onu zarafatla komandanın “hakeri” kimi təqdim edirdilər. Bu oğlan Tarn departamentinin keçmiş deputatı Jan-Pier Raffaranın və Terri Marianinin yaxın dostu, iqtisadi kəşfiyyat üzrə ixtisaslaşmış Bernard Karayonun qardaşı oğludur. Çox güman ki, elə buna görə də onun adı, Lüdovik Şakerin adı kimi Senatın sorğu komissiyasında heç vaxt çəkilmədi. Senatorlara görə Şakerə hücum etmək Fransa-Çin şəbəkələrinin pərdəsini qaldırmaq deməkdir. Yelisey sarayında Aleksandr Karayon mütəmadi olaraq prezidentin məsləhətçiləri ilə görüşür və onlara tövsiyə edir ki, iPhone markalı telefonlarına Teleqram proqramının ən sonuncu versiyasını yükləsinlər. Çünki bu proqramı sındırmaq çətindir. Məqsəd odur ki, onların, eləcə də prezidentin sirləri uzun müddət kölgədə qalsın. Jurnalistlər tərəfindən get-gedə daha çox hücumlara məruz qalan Lüdovik Şaker isə öz növbəsində çalışır ki, onu prefekt təyin etsinlər.

# SARKOZİNİN FANTOMU

Bu axşam Parisin San-Jerman bulvarında yerləşən Latın Amerikası Evində böyük izdiham var. Hər il olduğu kimi bu il də 2017- ci il iyun ayının əvvəlində Le Canard enchaîné qəzeti, bütün Parisin siyasi, iqtisadi və media ulduzlarını bir yerə yığıb böyük qəbul keçirir. Yay günəşi Latın Amerikası Evinin bağçasına yığışmış qonaqların zövqünü oxşayır. "Həə, Makron ilk səhvini elədi!", – deyə Veolia şirkətinin mətbuat xidmətinin direktoru Loran Obadia sir-sifətini turşudub təəssüflə başını bulayır. Böyük və məşhur bir şirkətin yüksək səviyyəli kadrı, Paris mediasının yaxşı tanıdığı bu adam əsəblərini cilovlaya bilmir. Prezident Makronun qərarı ilə Milli Kəşfiyyat Koordinasiyası və terrorizmə qarşı mübarizə komitəsinin (CNRLT) rəhbəri vəzifəsinə Pier Busket dö Florian təyin olunub ki, o bu sahədə yeni islahatlar aparsın. Xüsusi xidmət orqanlarına nəzarət edən bu məsul vəzifənin Pier Busket dö Floriana tapşırılması onu çox qıcıqlandırır. Çünki Loran Obadia Aleksandr Djurini və Sarkozinin dövründə Milli Kəşfiyyat Koordinasiyası və terrorizmə qarşı mübarizə komitəsinin rəhbəri olmuş Bernard Sqarçinini yaxşı tanıyır. Makronun Bernard Sqarçini çıxarıb onun yerinə Pier Busket dö Florianı təyin etməsi, təbii ki, onun qətiyyən xoşuna gəlmir...

2002-2007-ci illər arasında Busket dö Florian DST-nin (Daxili kəşfiyyat İdarəsi – Fransada FBI ekvivalenti) rəhbəri olanda, özünün də xəbəri ol-

madan gecəni yatıb səhəri gün mətbuatın “Clearstream 2” adlandırdığı skandalın mərkəzində oyanmışdı. Bu dolaşıq məsələnin məğzi onda idi ki, kimsə mətbuata bəzi siyasi xadimlərin gizli bank hesabları olduğunu təsdiq edən bir siyahı göndərmişdi. Sonradan araşdırmalar nəticəsində aydın oldu ki, bu tamamilə yalan imiş və siyasətçiləri haqsız yerə günahlandırırmışlar. O vaxt nazir olan Nikola Sarkozinin də adı o siyahıda vardı. Ona görə də Sarkozi hər yerdə özünü manipulyasiya qurbanı kimi göstərir və yorulmadan iddia edirdi ki, bütün ölkədə böyük qalmaqal törədən bu yalançı siyahı Dominik dö Villpənt (Şirakın hakimiyyəti dövründə Baş nazir) tərəfindən hazırlanmışdı və məqsəd 2007-ci il prezident seçkilərində onun Jak Şirakı əvəz etməsinə mane olmaqdır. “Mən onun dərisini soyub qəssab qarmağından asacağam”, – deyə Sarkozi Dominik dö Villpənti hədələyir. Gələcək prezident (Sarkozi) həm də onun nazirliyinə tabe olan Pier Busket dö Florianı da danlayır, ona Dominik dö Villpəntin əmri ilə o yalançı siyahını ciddi qəbul edib araşdırma aparmasını, eləcə də özünə bu barədə çox gec məlumat verməsini irad tutur. Loran Obadia onu da unutmayıb ki, elə həmin dövrdə Busket dö Florian nazirlər kabinetinə, həmçinin prezident aparatına xəbərdarlıq etmişdi ki, sərhədlərini gücləndirməkdən ötəri Səudiyyə Ərəbistanının Fransa ilə imzaladığı silah müqavilələri Aleksandr Djurinin təşəbbüsü ilə həyata keçir. Nəticədə, 2007-ci ildə Sarkozi prezident seçilən kimi Pier Busket dö Florianı tutduğu vəzifədən xaric edir və yerinə ona sadiq olan adamlardan birini – Bernard Sqarçinini təyin edir. Bu sonuncu, Nikola Sarkozinin prezidentliyi ərəfəsində əks kəşfiyyat idarəsini (DST)  Ümumi Məlumat agentliyini (RG) və Mərkəzi Daxili Kəşfiyyat İdarəsini (DCRI) bir-birinə birləşdirib, dövlət üçün işləyən casusların  rəhbəri olacaq...

Emmanuel Makron prezident seçiləndən sonra Sarkozinin adamı Bernard Sqarçini vəzifəsindən xaric edib, onun yerinə Jak Şirakın vaxtında bu vəzifəni tutan, Sarkozinin vaxtında işdən qovulan Pier Busket dö Florianı yenidən ölkə casuslarının rəhbəri təyin edir. Deməli, Makron

kəşfiyyatın köhnə veteranı Jak Şirakın müttəfiqi olan adama daha çox etibar edir. Fransua Mitteranın vaxtında Busket dö Florian Ədliyyə naziri Alba Şalandonun kabinet direktoru idi. Onu qabağa çəkən Şirak oldu. Fransua Holland Nikola Sarkoziyə qarşı mübarizəsində Şirakın adamlarını sığallayıb-tumarlayıb, onları da hücuma qoşdu. O ki qaldı Makrona, onda heç bir kompleks yoxdur – o, sağçılar partiyasının bütün üzvlərindən istifadə edir. Çox bic, hər şeyi ustalıqla əvvəlcədən ölçüb-biçən Makron bir-birinə düşmən olan klanlardan istifadə etməyi sevir, eləcə də otuz ildən bəri bir-birini didib parçalayan müxtəlif sağçılar arasında utanıb çəkinmədən, komplekssiz-filansız istədiyi seçimi edir. Onun bu qabiliyyəti, tezliklə bəzi məsələlərdə problem yaradacaq...

Bəs Loran Obadia özü həqiqətən kimdir? Bu, şəbəkə adamıdır; uzun illər anti-terrorizm üzrə prokuror Alan Marso ilə bir yerdə işləyib. Marso və Obadia Aleksandr Djuri ilə də yoldaşlıq edirdilər... ancaq sonra Nikola Sarkozi ilə Dominik dö Villpəntin dostu (Djuri) haqqında gündəlik qəzetlərin birinci səhifələrində iri başlıqlı məqalələr peyda olanda, tez onunla aranı kəsdilər. Amma Obadia güclü adamdır, onun nüfuzu sağçılar partiyasından çox-çox kənara çıxır. Veolia şirkətinin böyük patronu Antuan Frerotun şəxsi məsləhətçisi olmaqla bərabər, o həmçinin Havas agentliyinin məsul işçilərindən biri olan Stefan Fuksa ilə yaxındır. O, Makronun xüsusi müşaviri İsmael Emelieni də yaxşı tanıyır, çünki Emelien də əvvəllər Havas üçün, xüsusən də Veolia üçün işləyib. Hər ikisinin başqa bir ortaq nöqtəsi də var: Moris adasının keçmiş Baş nazirinə verdikləri tövsiyələrə qulaq asılmadı. Müxtəlif sahələrdə bir neçə dəfə nağd pulla ödəniş qəbul etdiyindən, Navin Ramqoolam 2014-cü ildə seçkiləri uduzdu.

Loran Obadianın Makronun ən yaxın məsləhətçilərindən biri olan İsmael Emelien ilə yaxınlığı bizə bir sirri açmağa imkan verir. Hər yerə əli girən, hər şeydən əvvəlcədən xəbəri olan Obadia qətiyyən gözləmirdi ki, onun tarixi düşmənlərindən biri olan Busket dö Florian yenicə seçilmiş prezident tərəfindən dövlət aparatının ən yüksək vəzifəsinə təyin

oluna bilər. Doğrudanmı bu adam seçki kampaniyası zamanı inanmışdı ki, Makron da onun mənsub olduğu "düşərgəyə" birləşəcək? Ancaq bu anlaşılası bir refleksdir, hələ təzə yaranmağa başlayan makroniyanın Sarkozi ilə, eləcə də Dominik Stros-Kanla əlaqələri çoxsaylıdır. Hollanda qarşı mübarizədə Makron əvvəllər Sarkoziyə, hətta Balladürə (Mitteranın prezidentliyi dövründə 1993-1995 ci illərdə Baş nazir) işləyən adamlardan istifadə etməkdən çəkinmədi. Ancaq paralel olaraq, daha doğrusu, "eyni zamanda" Makron köhnə Sosialist Partiyasından olanları, o cümlədən təxminən on il ərzində anti-sarkozizm düşərgəsində özünü tutmuş Fransua Bayrunu tapdaladı.

## HOLLAND DAXİLİ İŞLƏR NAZİRLİYİNİ TƏMİZLƏYƏ BİLMİR

Obadianın reaksiyasından məlum oldu ki, biz həm də barmağımızla "yolkəsən şəbəkələrə" də toxunuruq. Çoxdandır Afrikada sağçılar partiyasından olan Şarl Paskuanın (1986-1988 və 1993-1995-ci illərdə Fransanın Daxili İşlər naziri) klanı, köhnə sosialist şəbəkələri ilə, eləcə də onların varisləri korsikalılar ilə sıx əlaqədədir. (Afrika əlaqəsi fəslinə bax) Loran Obadia Fransis Perezi yaxşı tanıyır. Bu axırıncı, keçmiş millətçi lider, Barselonada yerləşən Pefaco firmasının rəhbəri, Qərbi Afrikadakı "kazinoların lideri", həmçinin Latın Amerikasında bir neçə hotelin sahibi olan Alan Orsoninin dostudur. Veolia şirkətinin nəzdində Loran Obadia, həm də keçmiş polis məmuru, RAID-in (xüsusi polis qrupu) keçmiş rəhbəri, Stefan Fuksun sayəsində məşhur su şirkətinin "təhlükəsizlik direktoru" vəzifəsində çalışan Jan-Lui Fiamenqi ilə də dostluq edir. Bu nəhəng polis işçisi, eyni zamanda Sarkozinin vaxtında mərkəzi mövqe tutan Frederik Peşenard və Bernard Sqarçini ilə də yaxındır.

Sarkozidən sonra hakimiyyətə gələn Fransua Holland prezident seçiləndən bir müddət sonra Daxili İşlər Nazirliyini "təmizləmək" fikrinə düşür. Bu məqsədlə 2012-ci ilin may ayından etibarən DCRI-nin rəhbəri Bernard Sqarçini, Parisin polis prefekti Mişel Qodin və Dövlət Baş Polis İdarəsinin rəhbəri Frederik Peşenard funksiyalarından xaric edilir. Sarkozistlərin on il at oynatdıqları Daxili İşlər Nazirliyində, İqtisadiyyat Nazirliyində, eləcə də Yelisey sarayının özündə yeni seçilən dövlət başçısı "təmizlik" işləri aparır. Lakin o, istədiyinə yüz faiz nail ola bilmir, çünki Daxili İşlər Nazirliyi son illərdə, tamamilə Sarkozinin eləcə də sağçıların arı pətəyinə dönmüşdü. Sosialistlər, ümumiyyətlə, bütün solçular nə qədər çalışdılarsa, Daxili İşlər Nazirliyini tamamilə ələ keçirə bilmədilər. Dövlət polis iyerarxiyası sağçıların əlində qaldı. Və on illik

müxalifətə baxmayaraq, Hollandın dövründə belə sosialistlərin yeni nəsli nə polis məmurları arasında, nə də prefekturada sanballı bir yer tuta bildilər. “Qəribədir ki, Bernard Cazenöv (Hollandın prezidentliyi dövründə Baş nazir) da, Manuel Valls (Hollandın prezidentliyi dövründə Baş nazir) da bu sahədə sistematik olaraq sosialist şəbəkələri tərəfindən təklif olunan namizədlərdən heç birini qəbul etmədilər... və bu sahəni ancaq sağçıların əlində qoymağı üstün tutdular”, – deyə sosialist partiyasının keçmiş rəhbərlərindən biri təəssüflə narazılığını bildirir.

Bununla belə, Manuel Valls Sarkozinin kölgədə olan şəbəkə üzvlərinə olmazın əzab-əziyyət verdi, polis məmurlarını, hakimləri və prokurorları qızışdırıb sağçılar tərəfindən “zəbt” olunan Daxili İşlər Nazirliyinin əməkdaşlarının canına saldı. Minotavr “əməliyyatı” adı altında paralel olaraq Bernard Peti (Kəşfiyyat İdarəsi) və Rene Bayyi (Federal polis) tərəfindən aparılan araşdırma korsikalı Mişel Tomini hədəf aldı. Bu sonuncu – “xaç atalarının xaç atası” – Afrikadakı kazinoların kralı Bernard Sqaraçinin yaxın dostudur. 2016-cı ilin yazında Bernard Sqaraçi özü də başqa bir iş üzrə – “vəzifəsindən sui-istifadə” və “dövlət vəsaitinin mənimsənilməsi” maddəsi ilə ittiham edilir. Manuel Valls və onun dostları tərəfindən başqa bir şəxs üçün də məhkəmə işi qaldırılır. Aleksandr Djuri 2007-ci ildə guya Liviya tərəfindən Nikola Sarkozinin seçki kampaniyasının qeyri-qanuni maliyyələşdirilməsini qurub-qoşmaqda günahlandırılıb, cinayət məsuliyyətinə cəlb olunur.

## SARKOZİ VƏ MAKRON – OBYEKTİV MÜTTƏFİQLƏR

Sırf məhkəmə sahəsindən kənarda Valls ilə Sarkozinin şəbəkələri arasındakı müharibə 2016-ci ildə, prezident seçkilərindən bir neçə ay əvvəl kulminasiya nöqtəsinə çatacaq. Sarkozi o zaman gözləyirdi ki, sağçılar partiyası adından məhz onu prezidentliyə namizəd kimi irəli sürsünlər. Valls isə öz növbəsində Afrikaya səfərlərini çoxaldır və onu bu səfərlərdə əsli Moritanidən olan İbrahima Diavadoh N'Jim, ya da dövlət katibi Jan-Mari Lö Qen müşayiət edir. Afrika qitəsində onun bu aktivliyi heç kəsin gözündən qaçmasa da, onu ittiham edən olmur. Ancaq qəribə görünsə də, Baş nazirin (Valls) Fransadakı dostlarının bir hissəsi Emmanuel Makronun namizədliyini dəstəkləyir. (!) Düzdür, pərdə arxasında Fransua Holland ilə Manuel Valls bir-biri ilə yüngülvari düşmənçilik aparmaqda davam edirlər. Gənc İqtisadiyyat naziri (Makron) isə onların bu rəqabətindən istifadə edib, yavaş-yavaş özünü irəli verir...

2012-ci ildə prezident seçkiləri zamanı Holland bütün gücünü-qüvvəsini rəqibi Sarkoziyə qarşı yönəltmişdi. Ondan fərqli olaraq, 2017-ci ildə prezident seçkiləri zamanı Makronun bütün fikri-zikri Manuel Vallsı və onun şəbəkələrini, xüsusilə keçmiş Baş nazirin yaxın dostu, kriminoloq Alan Baueri və onun Daxili İşlər Nazirliyində, eləcə də Müdafiə Nazirliyindəki çevrəsini ələ keçirmək olur. Makronun başı ancaq buna qarışdığından Sarkozi və onun şəbəkəsi müvəqqəti olsa da, rahat nəfəs ala bilir. Göründüyü kimi Makron və Sarkozi obyektiv müttəfiqlərə çevrilirlər!

2016-cı ilin payızında Emmanuel Makronun polis şəbəkələri onun rəqibləri üçün hələ də sirr olaraq qalır. "Makronizmin polisi yoxdur!", – deyə keçmiş bir sosialist harada gəldi car çəkir. Biz bu sualı müxtəlif

yerlərdə, müxtəlif adamlara verdik, ancaq heç kim bizə tutarlı cavab verə bilmədi. Niyə? Ona görə ki, bir çox sahələrdə olduğu kimi, bu sahədə də Makron hər şeydən əvvəl köhnə şəbəkələrdən istifadə etdi... Onun kampaniyasının "təhlükəsizliklə məşğul olan adamı" kim olsa, yaxşıdır? Solçulara rəğbət bəsləyən Jil Sanson adlı möhtəşəm bir polis, Daxili İşlər Nazirliyinin baş müfəttişi (IGA), 1981-ci ildən bəri bu nazirlikdə müxtəlif vəzifələrdə çalışan, həm də Milli İdarəetmə Məktəbinin bitirmiş bir ziyalı! Bu adam Lionel Jospanın Baş nazir olduğu dövrdə yaranan ətraf polisinin bünövrəsini qoyan adamdır... Hətta Nikola Sarkozi belə çox çalışsa da, onu məhv edə bilməmişdi. Prezidentliyə seçki kampaniyasından bir neçə ay əvvəl, Makron Jil Sansonla tez-tez görüşür, onunla uzun-uzadı söhbətlər edir: "Siz mənə hər şeyi izah edin, mən hər şeyi başa düşmək istəyirəm", – deyə prezidentliyə namizədliyini irəli sürməyə hazırlaşan iddialı gənc, təcrübəli polisə müraciət edir.

Yalnız 2017-ci ilin fevral ayından, Makronun prezidentliyə namizədliyi rəsmiləşəndən sonra onun Daxili İşlər Nazirliyinin həmkarlar ittifaqı (sindikat) ilə əlaqələri artır. Bəzi gənc polis komissarları onun kampaniyasının proqramını yazmaqda iştirak edirlər. Jandarmeriya rəsmi emissarları namizədin yanına göndərir ki, ona dayaq dursunlar. Juil Sanson öz növbəsində terrorla mübarizə qrupunun şefi, hüquqşünas Mişel Debakla bir yerdə terrorizmlə mübarizəyə həsr olunmuş bir neçə tədbir təşkil edir. "Biz gözləyirdik ki, Makronun seçki kampaniyasını terrorizmlə mübarizə üzərində quraq, amma təəssüf ki, belə olmadı", – deyə kampaniya iştirakçılarından biri xatırlayır.

Məhz bu görüşlər çərçivəsində bir neçə keçmiş nüfuzlu və təcrübəli polis işçiləri Makronun seçki kampaniyasına öz dəyərli məsləhətlərini verir. Bu işdə xüsusi ilə Anj Mançini – 1980 ci illərdə RAID-in ilk rəhbəri, Sarkozinin dövründə Milli Kəşfiyyat Koordinatoru (CNR) olan bir adam daha çox fərqlənir. Mançini  2013-cü ildən Bollore qrupunun daxi-

lində çalışır və əsasən də bir neçə Afrika layihəsinin təhlükəsizliyi ilə məşğuldur. Emmanuel Makron onunla Holland prezident olanda, Yelisey sarayında tanış olmuşdu. Namizəd (Makron) həm də 1990-cı illərin əvvəllərində Daxili İşlər naziri Pier Joksun məsləhətçisi olmuş Rene-Jorj-Qerridən də kömək istəyir. UCLAT-ın (Terrorizmlə Mübarizə Komitəsinin Koordinasiya Bölməsi) keçmiş rəhbəri, 2003-cu ildən özəl sektora keçən, sonra da ardıcıl olaraq Accor, Bollore və indi də Casino üçün işləyən bu adam Sarkozinin şəbəkəsindədir.

## KABİNET DİREKTORU AXTARIŞI

Rene-Jorj-Qerri, əvvəlcə, nazirin kabinet direktoru, dövlət müşaviri Kristian Viquru ilə görüşdü. Bu nüfuzlu solçular partiyasından olan məmur, həm də İqtisadiyyat naziri Emmanuel Makronun dövlət suverenliyinə aid məsələlər üzrə rəsmi məsləhətçilərdən biridir. Viquru, sözün əsl mənasında, gənc namizədin sehrinə düşüb. O özü də bir vaxtlar həm Elizabet Qiqunun, (1997-2000-ci illərdə Ədliyyə naziri) həm də Kristian Tobiranın (2012-2016-cı illərdə Ədliyyə naziri) kabinet direktoru olub. Bu iki şəxs bir-birinə qarşılıqlı hörmət bəsləyir. Onların münasibəti o qədər yaxındır ki, kampaniyanın sonunda gələcək prezident (Makron) Kristian Viquruya təklif edir ki, Yelisey sarayında onun kabinet direktoru olsun. Makron eyni təklifi başqa bir dövlət müşavirinə – kampaniya vaxtı onun qrupunda polis-ədliyyə-müdafiə ilə məşğul olan Didier Kasasa da təklif etmişdi. Kristian Viquru və Didier Kasas Makronun onların ikisinə də ayrı-ayrılıqda etdiyi təklifdən xəbər tuturlar... özü də necə: həmin şənbə Viquru Kasasa zəng edir: "Mənə sənin məsləhətin lazımdır. Prezident mənə təklif edir ki, onun kabinet direktoru olum. Qəbul edim, ya yox?", – deyə ona sual verir. Kasas qəzəbindən cin atına minir. Təcili Yelisey sarayının gələcək baş katibi Aleksi Kohlerə zəng vurub xahiş edir ki, onu qəbul etsin. Bu sonuncu onun ümidlərini boşa çıxarır: "Sənin prezidentin kabinet direktoru olmağın heç vaxt, heç kim tərəfindən nəzərdə tutulmayıb. Əgər istəyirsənsə, sən Baş katibin müavini ola bilərsən... ya da hansısa bir nazirin kabinet direktoru...". Didier Kasas anlayır ki, o heç vaxt prezidentin kabinet direktoru ola bilməyəcək. Ona görə də sakitcə Buyq Telekom şirkətinə qayıdır.

Ancaq təcrübə göstərir ki, ayrı-ayrı adamlara eyni təklifi etmək, axırda pis nəticələnə bilər, yəni bu ikibaşlı oyunda, onların hamısını özündən narazı salan bilərsən. Elə də olur. Didier Kasas oyundan çıxandan sonra Kristian Viquru da öz növbəsində prezidentin təklifini rədd edir. Çünki o başa düşür ki, prezidentin kabinet direktoru Yelisey sarayında

ancaq sadə məişət və təsərrüfat işləri ilə məşğul olacaq. Təhlükəsizlik və Müdafiə kimi ciddi məsələlərə, ancaq və ancaq prezident aparatının Baş katibi Aleksi Kohler, prezidentin özü və onların kölgəsində olan adamlar baxacaqlar.

Nəticədə, bu vəzifəyə Patrik Strzoda təyin olunur. Vaxtilə Bernard Kazenövun (2014-2016-cı illərdə Daxili İşlər naziri; 2016-2017-ci ildə Baş nazir) kabinet direktoru olan bu adamın taleyində, Yelisey sarayına ayaq basmaq əvvəlcədən yazılmamışdı. Bu keçmiş prefekt Şirakın şəbəkəsindəndir: O, Mişel Barnie (31 mart 2004-31 may 2005-ci illərdə Xarici İşlər naziri, 2007-2009-cu illərdə Kənd Təsərrüfatı naziri, 2009-2010 illərdə Avropa deputatı) ilə birlikdə 1992-ci ildə qış Olimpiya Oyunlarının təşkili ilə məşğul olub və 1995-2002 illərdə, Jak Şirak prezident olanda, Yelisey sarayının kabinet direktoru olan Bertrand Landriönun yaxın adamıdır. Patrik Strzoda Jak Şirakın vaxtında Paris Polisinin Prefekti olan Mişel Delpüş ilə yaxşı tanışdır. Şirakın şəbəkəsindən olan bu iki tarixi adam, Benalla məsələsi zamanı o qədər də üzə çıxmadılar. Yeri gəlmişkən onu da qeyd edək ki, Strzodanın Yelisey sarayına kabinet direktoru təyin olunması Makronçular sırasında böyük bir sürpriz yaratdı. İnauqurasiya günündən az sonra, Patrik Strzoda Aleksi Kohler və Ismaël Emelien ilə birlikdə Parisin meriyasında keçirilən bir mərasimdə iştirak edir. Emmanuel Makrona, Milli Kəşfiyyat Koordinasiyası və terrorizmə qarşı mübarizə komitəsinə (CNRLT) Pier Busket Florianı təyin etməyi də o məsləhət görür.

# KOLLOMB ONA EDİLƏN ETİBARI DOĞRULTMUR

Yelisey sarayının yerləşdiyi Foburq-Sant-Onore küçəsinin o biri başında – Bovo meydanında ucalan Daxili İşlər Nazirliyinə Makron, onun sadiq qeybətçisi, həmişə onun-bunun arxasınca danışan Jerard Kollombu təyin edir. İlk baxışdan bu, şəbəkədən olan təcrübəli bir adam seçimidir. Çünki Kollomb həm frank-masondur, həm də Lion şəhərinin meridir. Onun bu yüksək vəzifəyə təyin olunması çoxlarının ürəyincədir. Həm də sosialistlər hakimiyyətdə olandan, nazir olmaq arzusu ilə yaşayan Kollomb indi taleyindən razı qala bilər. İndi ona təhlükəsizlik, immiqrasiya, ərazi bütövlüyü və təbii ki, seçkilərin təşkili ilə məşğul olan çox böyük məsuliyyətli bir iş tapşırılıb. Bununla belə, tezliklə məlum olur ki, Kollomb bu vəzifənin öhdəsindən gələ bilən adam deyil. Ona görə də bəzi problematik məsələləri, xüsusən də terrorizmlə mübarizə məsələsini Yelisey sarayı öz əlinə alır. Bundan başqa, polis məbədindəki məsul vəzifələrə qoyulan adamları da prezident aparatı təyin edir. Belə ki, 2017-ci ilin avqustunda Makron tərəfindən şəxsən qəbul edilən prefekt Erik Morvan Milli Polisin Baş Direktoru (DGPN) təyin olunur. O, vaxtilə Daxili İşlər naziri Bernard Kazenövun kabinet direktorunun müavini olub. Onun Jandarmeriyadakı həmkarı, Milli Jandarmeriyanın baş direktoru (DGGN) Rişar Lizürey də eyni yerdə işləyib.

Təxminən on səkkiz ay Dövlət Polisinin başında duran nazir Kollomb nə bir sanballı iş görə bilir, nə bir yenilik edir, nə də bir ciddi və məsul qərar qəbul edir. Ona görə də Makron məcbur olub Daxili İşlər nazirliyinin məsul vəzifələrinə məmurları özü təyin edir, düzdür, bu dəfə “öz” adamlarını ora göndərmir. Ona görə yox ki, çəkinir, ona görə ki, sadəcə olaraq adamı yoxdur! Nəticədə, böyük polis dəyirmanı uzun

müddət bloka düşüb fırlanmır. Nəhayət, 2018-ci ilin dekabrında Makron Kollombu Kristof Kastaner ilə əvəz edəndən sonra Daxili İşlər Nazirliyində böyük miqyasda dəyişikliklər başlayır.

Jerard Kollomb ona edilən etimadı doğrultmadı. Lion şəhərinin meri vaxtının çoxunu nazirlikdə yox, öz doğma Lion şəhərində keçirirdi. O, Milli Assambleyadakı iclaslara öz yerinə dövlət katibi Jaklin Quroltu göndərirdi. Qəribədir ki, onun kabinet direktoru işdən azad olunduğunu mətbuatdan öyrənəcək! Bundan başqa, onun işinə biganə yanaşması, bir çox prefektləri ona düşmən edəcək. Kollombdan narazı olan prefektlərdən biri kinayə ilə etiraf etdi ki: "O, bizimlə ilk dəfə görüşəndə, yalnız Lion haqqında danışdı!". Başqa biri köksünü ötürüb dedi ki: "Bir dəfə nazirlikdə prefektlərlə aylıq görüş zamanı o, Santr-Val-dö-Luar departamentinin prefekti Jan-Mark Falkona "Cənab Prefekt Kalvar" deyə müraciət etdi". Bir ildən artıq nazir kreslosunda oturan bir adamın belə bir səhvinə bilmirsən güləsən, yoxsa ağlayasan. Daxili İşlər nazirinin DGSI-nin (Xarici Kəşfiyyatın Baş İdarəsi) keçmiş rəhbəri Patrik Kalvarı prefektlə dəyişik salmaq biabırçılıqdır...

"Bu nazirlik (Daxili İşlər) o vaxt yaxşı fəaliyyət göstərir ki, orada bir-birinə yaxından bələd olan, bir-birini yaxşı tanıyan bir qrup adam əl-ələ verib işləsin. Sarkozi bunu gözəl başa düşmüşdü", – deyə keçmiş bir polis məmuru rişxəndlə replika atır.

## ƏXLAQSIZ CÜTLÜK

Aydındır ki, hər hansı bir kastinqdə səhv edəndə, sonradan ambisiyalar, görməmişlik, eləcə də acgözlük və həyasızlıq üzə çıxır... ən azından 2018-ci ilin yazından Nikola Sarkozi və onun yaxınları Yelisey sarayına təzyiq göstərirlər ki, Daxili İşlər nazirini dəyişsinlər. Sarkozi şəxsən Respublika prezidentinə tez-tez zəng edib ona bu mövzuda "ağıllı" məsləhətlər verir və hər dəfə də öz adamını qabağa itələyir: yeni Daxili İşlər naziri kimi, Sarkozi uzun müddət onu dəstəkləyənlərdən birini Jerard Darmananı və onun müavini kimi, milli polisin keçmiş baş direktoru, Respublikaçılar partiyasının keçmiş rəhbəri və hər şeydən əvvəl onun uşaqlıq dostu Frederik Peşenardı təklif edir. Keçmiş dövlət başçısının (Sarkozi) ətrafında Peşenard yeganə adamdır ki, Sarkoziyə "balaca cırtqoz" deyə müraciət edir. Bu da iki uşaqlıq dostunun arasındakı yaxınlıq...

Sarkozi ilə Makron arasında münasibətlər mürəkkəbdir. Birinci ikincidən istifadə edir ki, 2016-cı ildə onu prezidentliyə namizəd kimi irəli sürməyən sağçılar partiyasından qisas alsın. Prezident seçkiləri kampaniyasında onun namizədliyinə səs verənlərin çoxu müxtəlif mübahisələrin içində ilişib qalmış Fransua Fiyyonu tərk edərək Makrona tərəf çevrilmişdilər. Sarkozi Makronun onu heç vaxt tənqid etmədiyini yüksək qiymətləndirir. Həm də onun ürəyincə oldu ki, Makron Fransua Hollandı inandırdı ki, ikinci dəfə prezidentliyə namizədliyini irəli sürməsin. 2017-ci ilin may ayından Sarkozi həm dövlət naminə, həm də Respublikaçılar partiyasının sədaqətli bir nümayəndəsi kimi Makrona öz köməyini təklif edir. Makron da öz növbəsində həmişəki kimi oyun oynayır, onun məsləhətlərini qəbul edir, onun yerli-yersiz zənglərinə həmişə cavab verir, ona səbirlə qulaq asır... Bu da Sarkozinin çox xoşuna gəlir, çünki həmişə çalışır ki, onun qədrini bilsinlər və onu qiymətləndirsinlər.

Sarkoziyə yaxın olan bəzi adamlar onun Fransua Hollandın keçmiş naziri ilə bu yaxınlığına təəccüblənsələr də, Sarkozi hər yerdə özünü Makronun mənəvi atası kimi təqdim edir. Respublikaya "hücum" edib onu "oğurluqla" öz əlinə keçirən bu iddialı gəncin – qırx yaşı tamam olmamış özünü prezident seçdirən Makronun ona qulaq asmağı, Sarkoziyə qol-qanad verir və o özünü yenidən dövlət səviyyəsində vacib bir fiqur kimi hiss edir. Makron isə öz növbəsində, keçmiş prezidentlə bu münasibətində sağçılar partiyasının seçicilərinə siqnallar göndərir. Bir sözlə, ikisi də bir-birindən istifadə edir.

Bu ağılasığmaz cütlük olduqca pozğundur. Sarkozi Makron haqqında deyir ki: "O çox müəmmalı və qeyri-müəyyən bir adamdır. Mən onu başa düşə bilmirəm...". Keçmiş prezident yaxın adamları ilə söhbətlərində gənc prezidentin yaşlı arvadı Brijitin yubkasının uzunluğunu da tənqid etməkdən çəkinmir, onun zövqünə görə Brijit çox qısa geyinir. Birinci xanımın geyimini Sarkozinin arvadı Karla Bruni də ələ salır. Göründüyü kimi bu iki prezident cütlüyü arasında o qədər də böyük sevgi yoxdur. Sarkozinin arzusu bir neçə müxtəlif qrupları özü bildiyi kimi manipulyasiya edib yenidən siyasətə, özü də yüksək bir zirvəyə qayıtmaqdır. Bu perspektivdə keçmiş prezident bir şey də güdür: bəzi prokurorlar və hakimlər onun prezident olanda tutduğu bəzi işləri hələ də qurdalamaqda davam edirlər. Sarkozi fikirləşir ki, yenidən siyasətə qayıtsa, bəlkə, onu rahat buraxarlar.

2018-ci ilin baharında Sarkozi polis komissariatına aparılıb 2007-ci ildə Liviya tərəfindən onun seçki kampaniyasının qeyri-qanuni maliyyələşdirilməsi haqqında istintaqa çəkiləndə, Makron alicənablıq edib ona zəng vurur. Bir neçə həftə sonra hər iki prezident yenidən görüşür. İyunun sonunda onlar bir yerdə səhər yeməyi yeyirlər. Daha bir neçə gündən sonra 2018-ci il iyulun 5-də Brijit Makron Sarkozi-Bruni cütlüyünü Yelisey sarayına şam yeməyinə dəvət edir. Ona görə də heç də təəccüblü deyil ki, beş ay sonra sarı jiletlilərin böhranı zamanı

Makron keçmiş prezidenti qəbul edib onunla ölkədəki siyasi vəziyyəti müzakirə edir. Və sonrakı həftələrdə Makron Gürcüstan, Azərbaycan və Madaqaskara səfərlər zamanı çəkinmədən Nikola Sarkozidən Fransanın rəsmi nümayəndəsi kimi istifadə edir. “O, yəqin ki, tezliklə Sarkozini Xarici İşlər naziri təyin edəcək”, – deyə bir diplomat rişxəndlə gülümsünür. Bu diplomat çox güman ki, Makronla Sarkozinin bu bal ayına o qədər də bel bağlamır...

## SARKOZİNİN HİYLƏSİ HAQQINDA ŞAYİƏLƏR

Makron-Benalla skandalı məhz elə bu kontekstdə partlayır... və lap elə bu qalmaqalın birinci günündən Makronun çevrəsində qəribə söz-söhbət gəzməyə başlayır. Deyirlər ki, guya bu skandalın səbəbi olan Le Monde qəzetindəki məqalə Nikola Sarkozinin dövründə əks-kəşfiyyatın keçmiş rəhbəri olan Bernard Sqarçini tərəfindən sifariş verilib. Əslində, böyük əks-kəşfiyyatın keçmiş rəhbəri, bu misli görünməmiş skandalı qaldıran iki məqalə müəllifinin biri ilə qətiyyən yaxşı münasibətdə deyil. Jurnalist Arian Şömən vaxtilə ona xeyli məqalələr həsr edib, özü də bəzən çox kəskin və tənqidi məqalələr... "O məqalə çap olunandan az sonra mənə dedilər ki, guya o jurnalist qıza videonu mən göndərmişəm. Açığını deyim ki, bunu eşidəndə xeyli güldüm...", – deyə Sqarçini əlini-əlinə vurub qəhqəhə çəkir. Bununla belə, bu söhbət prezidentin ətrafdakıların arasında çox müzakirə olunur, çünki heç kim inanmaq istəmir ki, Le Monde qəzetində gedən material yalnız iki jurnalistin özlərinin apardığı araşdırmanın nəticəsidir... O da düzdür ki, hakimiyyətdə komlot teoriyası həmişə hamının canına qorxu salıb. Siyasi liderlərin çoxunda paranoyyaya qarşı real meyl olur.

Ancaq əvvəlcə, Yelisey sarayı bu məsələdə LFİ partiyasının fəallarından və anarxistlərin "qara bloklar" (black blocs) qrupunun üzvlərindən şübhələndi, çünki onlar ikisi də o başı bəlalı 1 May nümayişi zamanı, Parisin 5-ci rayonundakı Contrescarpe meydanında idilər. Tezliklə sosial şəbəkələrdə belə bir xəbər yayıldı ki, bəs Benalla çox yaxşı və cəsarətli bir cangüdəndir və bu mühafizəçi 1 May nümayişində "zalım" və "təhlükəli" nümayişçilərin qarşısında qəhrəmanlıq göstərib. Yelisey sarayının rəsmi silah gəzdirənləri, jurnalistlərin yazdıqlarını inkar etməyə risk etməsələr də, Sarkozinin bu işdə əli olduğuna da inanmırlar və onun haqqında gəzən söz-söhbətə fikir vermirlər. Lakin Makro-

niyada vəziyyət tamamilə başqadır. Şəxsi dairələrdə, eləcə də dövlət başçısının yaxın çevrəsində olan adamlar, prezidentə qarşı komlot hipotezini dəstəkləyirlər. Avqust ayı ərzində Jil Lö Jandr və Rişar Ferran bütün günahları Sarkozinin üstünə atmaqdan çəkinmirlər. Özü də onlar tək deyil. Yelisey sarayında Emmanuel Makron bütün şayiələrdən xəbərdardır. Yayın axırında o, dostları və məsləhətçiləri tərəfindən göndərilən bir xəbərçini şəxsən öz kabinetində qəbul edir. Bu sonuncu Emmanuel Makrona xəbər verir ki, Nikola Sarkozi Daxili İşlər Nazirliyindəki şəbəkəsi vasitəsilə Aleksandr Benallanı Parisin 5-ci rayonunda yerləşən Contrescarpe meydanında tələyə salıb. İşə bax ha! Deməli, belə çıxır ki, hər şey əvvəlcədən ölçülüb-biçilib ki, prezidentin kölgədə olan məsləhətçisi əsəbiləşib özündən çıxsın və polis prefekturasının, turistlərin qaynaşdığı bu meydanda quraşdırılmış kameralarının qarşısında iki nümayişçini dəyənəklə döysün. (!)

Ancaq ortaya məntiqi bir sual çıxır: axı Sarkozinin Aleksandr Benallaya bu şəkildə tələ qurub ona belə hücum etməyində məqsədi nədir? Komlot nəzəriyyəsinin tərəfdarlarının fikrincə, bu skandalı qaldırmaqda məqsəd dövlət başçısını zəifləkməkdir. Niyə ancaq indi bəs? Talenin ironiyasına bax ki, elə həmin ərəfələrdə Fransız hakimi Serj Turner tərəfindən verilən mandat əsasında, Londonda həbs olunan Aleksandr Djurinin Fransaya transfer olunması müzakirə edilir. Dekabrda verilən bu mandata görə bu iş adamı (Aleksandr Djuri) "yalan və saxtakarlıqdan istifadədə, aktiv daxili korrupsiyada, aktiv xarici korrupsiyada, qohumpərəstlikdə, çirkli pulların yuyulmasında, dövlət vəsaitlərinin mənimsənilməsində və vergi ödənişində saxtakarlıqda ittiham edilir".

Otuz ildən bəri beynəlxalq müqavilələrdə vasitəçilik edən Djurinin çox sirlərdən xəbəri var. Ona görə də nə solçular partiyasından, nə də sağçılar partiyasından heç kim onun məhkəməyə düşməsini, müstəntiqlər tərəfindən dindirilməsini istəmir. 2017-ci ilin iyunundan İnterpol vasitəsilə ona (Aleksandr Djuri) qarşı cinayət işi açılıb və Fransız məhkəməsi

tərəfindən beynəlxalq axtarışa verilib. Bax elə buna görə də Djuriyə cinayət işi açılandan altı ay sonra, heç nə olmamış kimi onun Əlcəzairdəki Fransa səfirliyində, Fransa prezidentinin qarşısında peyda olması skandal doğurdu. Səfirlikdəki o qəbuldan bir neçə gün sonra Fransa respublikasının hakimi Turner tərəfindən onun bütün Avropa ölkələrində həbs olunması ilə bağlı mandat verilir. Beynəlxalq axtarış mandatından fərqli olaraq Avropa ölkələrindəki həbs qərarı şəxsən bir hakim tərəfindən verilir. Bu kiminsə başqa bir Avropa ölkəsindən Fransaya klassik transfert xahişi deyil ki, onu kanslerlər həll etsinlər. Bu dəfə cənab Djurinin haqqında Britaniyada ingilis hakimləri qərar verməlidirlər. Britaniya məhkəməsində gedən bir prosesə, Fransanın siyasi hakimiyyət orqanları necə müdaxilə edə bilərlər? 2018-ci ilin yayından təxirə salınan bu iş artıq Britaniya ədalətinin əlindədir. Onların birinci qərarı 2019-cu ilin fevral ayının sonunda verilir: İngilis hakimləri Djurinin Fransaya transferini qəbul edirlər. Müttəhim apelyasiya məhkəməsinə müraciət edir. Nikola Sarkozidən səs çıxmır. "O elə bil ki, nəsə gözləyirdi. Bizə dedi ki, hər ehtimala qarşı hər şeyə hazır olun", – deyə Sarkozinin keçmiş həmkarlarından biri etiraf edir. Yayda Benalla skandalı başlayanda, o (Sarkozi) yalnız bu sözləri dedi: "Bu işin axırı pis qurtaracaq!".

2018-ci ilin sentyabrında Fransada siyasi mühit içində pıqqapıqla su qaynayan böyük bir qazana bənzəyir. Daxili İşlər naziri Jerard Kollombun istefası hamını təəccübləndirir – indi onun yerinə başqa bir adam lazımdır. Kim? Kim olacaq Daxili İşlər naziri? Sağçılar partiyasında, Sarkoziyə sadiq olan Frederik Peşenardın nazir təyin olunması üçün, sözün əsl mənasında, kampaniya başlayır. Sosialist partiyasından olan, ancaq Makronu dəstəkləyən bir deputat sağçıların namizədinə ağız büzür: "Bizi xalq ona görə seçməyib ki, Sarkozinin dostlarını yüksək vəzifələrə gətirək...". Ancaq buna baxmayaraq, prezident Makron və Baş nazir Eduard Filip, Frederik Peşenardı Yelisey sarayında qəbul edirlər. Keçmiş polis prezidentin və Baş nazirin qarşısında bir sıra şərtlər qoyur. O istəyir

ki, Daxili İşlər naziri olanda, dövlət adamı kimi onun hüquqları olsun və ona tam sərbəstlik verilsin. Sonra Peşenard tələb edir ki, ona polisdən başqa jandarm üzərində də tam səlahiyyət verilsin. Yeni hökumətin prezident tərəfindən təyin olunmasından bir gün əvvəl, ölkənin yuxarı siyasi dairələrində hamı elə bilir ki, Frederik Peşenard Daxili İşlər naziri təyin olunacaq. "Hə, axır ki, istədiyimizə nail olduq...", – deyə Sarkozi yaxın dostlarının yanında özündənrazı halda əllərini bir-birinə sürtür.

Ancaq reallıqda məsələ tam başqadır. Makron Baş naziri ilə birlikdə, digər namizədləri də qəbul edib. Məsələn, prezidentin şəxsən yüksək qiymətləndirdiyi Hollandın vaxtında Yelisey sarayının baş katibinin müavini olmuş Nikola Revel. Ancaq bu məmur Daxili İşlər naziri olmaqdan imtina edir. Prezident başqa nazirlikləri də yaddan çıxarmır, nazirlər kabinetini tamamilə təzələməkdən ötəri İqtisadiyyat nazirliyinə Florans Parlini təyin etməyi planlaşdırır ki, onun apardığı iqtisadi siyasətinə daha çox "solçu" rəngi qatsın. (Florans Parli solçular partiyasındadır) Lakin Baş nazir Eduard Filip prezidentin bu təklifini rədd edir. Çünki çox yaxşı bilir ki, Florans Parli İqtisadiyyat naziri olsa, öz bildiyini edəcək və nazirlikdə bir Baş nazir kimi onun sözü keçməyəcək. Bir tərəfdən də Rişar Ferran ilə Fransua Bayru nə Sarkozinin təklif etdiyi Jerard Darmananın, nə də Peşenardın Daxili İşlər naziri təyin olunmaqlarını istəmirlər... "Bu o demək olacaq ki, Sarkozi yenidən hakimiyyətə qayıdıb", – deyə onlar bir ağızdan narazılıqlarını bildirirlər. Nəhayət, dövlət başçısına yaxın bir adam Kristof Kastaner Daxili İşlər naziri təyin olunur, özü də Loran Nünezin müşayiəti ilə. Bu sonuncu nazirliyə dövlət katibi kimi göndərilsə də, onun əlində hələ ki, böyük ixtiyar yoxdur. Çünki onun nə öz komandası var, nə də fərman verməyə icazəsi. Nazirlikdəki hər şey yeni kabinet direktoru, prefekt, Emmanuel Makronun yaxın dostu, 2017-ci ilin yayında onu Marsel şəhərindəki iqamətgahında qəbul edən Stefan Buyyonun əlindədir. Bu sonuncu da yekdilliklə həm sağçılar, həm də solçular tərəfindən dəstəklənir. O, Mişel

Rokard (1988-1991 illərdə Baş nazir) Lionel Jospa (1997-2002 illərdə Baş nazir), Fransua Fiyyon (2007-2012 illərdə Baş nazir) kimi Baş nazirlərin kabinetində çalışıb, hətta Klod Qeant Daxili İşlər naziri olanda, onun kabinet direktoru olub. Stefan Buyyonun yenidən Daxili İşlər Nazirliyinə qayıtması, burada çoxdan lövbər atıb keçmiş sosialistlərin, eləcə də Sarkozinin şəbəkəsinin ürəyincə olur. 2019-cu ilin mart ayını gözləmək lazım gələcək ki, sarı jiletlilərin ölkədə qalmaqal saldıqları dövrdə Paris polisinin prefekti Mişel Delpüş vəzifəsindən azad edilsin. Bu da Benalla məsələsindən sonra Makronun Parisin polis prefekturasını öz nəzarəti altına almağın başqa bir yoludur.

## MAKRON PİYADALARINI ƏDLİYYƏ NAZİRLİYİNDƏ YERLƏŞDİRİR

Hüquq sahəsində Emmanuel Makron, piyadalarını Daxili İşlər Nazirliyindəkindən daha tez yerləşdirdi. 2017-ci ildə o, şəxsən Ədliyyə Nazirliyinin mərkəzi aparatının üç yeni direktorunu Yelisey sarayına dəvət edir: cinayət və əfv işləri üzrə direktor Remi Hetzi, həbsxana administrasiyasının direktoru Stefan Bredanı və məhkəmə işləri üzrə direktor Peyman Qaleh-Marzbanı. Bir ildən sonra – yeni dərs ilinin başlamasından bir neçə gün sonra baş verən hadisələrdən istifadə edən prezident, Ədliyyə naziri Nikol Bellubetin Parisin prokuroru vəzifəsinə təklif etdiyi bir neçə namizədi kənara qoyub, bu vəzifəyə kassasiya məhkəməsinin prokuroru Fransua Molan adlı bir yaxınını təyin edir.

Bundan sonra dövlət başçısı Ədliyyə Nazirliyindəki çox mühüm bir vəzifəyə özünün yeni bir adamını təklif edir: cinayət və əfv işləri üzrə direktor (DACG) Remi Hetz, prezidentin əmri ilə Ədliyyə Nazirliyi, Respublika prokurorluğu eləcə də kassasiya məhkəməsi arasındakı əlaqələrin təmin edilməsinə cavabdeh olan məsul bir vəzifəyə keçir. 1993-cü ildə sağçılar partiyasından olan nazir Paskal Klemantın, eləcə də 2002-ci ildə Baş nazir Jan-Pier Raffaranın müşaviri olan Remi Hetz, nazirliyin ən mürəkkəb və qalmaqallı dosyeləri ilə məşğul olurdu. İndi prezident tərəfindən onun belə bir vəzifəyə təyin olunması, ən azından çox qəribə və ağılasığmaz görünür. Prezidentin bu seçimi hüquqşünasların həmkarlar ittifaqı tərəfindən kəskin tənqid edilir: onlar bəyan edir ki, “icra hakimiyyəti ilə məhkəmə hakimiyyəti arasında heç bir əlaqə olmamalıdır. Heç kəsin şübhəsi yoxdur ki, onların hər ikisi azad və ayrı olmalıdırlar. Bu fundamental bir nəzəriyyədir...”. Bir çox advokatlar prezidentin bu hərəkətini qınayır və öz aralarında kinayə ilə deyirlər ki, “prezident yavaş-yavaş hər şeyi öz əlinə keçirir”.

Parisin baş prokuroru kimi Remi Hetz də Fransada ən vacib bir tribunalın – paytaxtın yüksək məhkəmə tribunalının (TGI) cədvəlini təşkil edir. Parisin 17-ci rayonunun Batinyol məhəlləsində yerləşən yeni TGI binasının, zirehli qapıları olan iri bir otağında, məhkəmə qərarını gözləyən yüzlərlə sənəd var. Hər həftə hansı sənədin nə vaxt məhkəməyə göndərilməsinə şəxsən Paris prokuroru özü qərar verir, xüsusən də ən vacib sənədləri – iqtisadi və siyasi-maliyyə sənədlərini 31-ci və 32-ci hüquq orqanlarına göndərir. Nə qədər ki, mühakimə tarixi Parisin baş prokuroru tərəfindən müəyyən edilməyib, heç bir hakim bu sənədlərə baxa bilməz. Ancaq baş prokurorluq buna sərəncam verə bilər. Tribunal məhkəmələrinin hansı sənədə nə vaxt və hansı müddətdə baxılacağına qərar verməyə ixtiyarları yoxdur. Hər şey prokuror Hetzin əlindədir, Ədliyyə Nazirliyinin saatını indi bu adam tənzimləyir...

Emmanuel Makronun Ədliyyə Nazirliyinin yüksək iyerarxiyasına özünü soxması ilk dəfə deyil. O, hüquq institutunun incəliklərinə Sarkoziyə yaxın olan bəzi şəxsiyyətlərin köməyi ilə bələd olur. Hələ 2008-ci ildə Rotşild bankında çalışan gənc bankir (Makron) hüquqşünasların komissiyasında məruzəçi kimi iştirak etmişdi. Bu missiya Sarkozi tərəfindən Jan-Mişel Darrua adlı bir hüquqşünasa həvalə edilmişdi. Makron onunla Attali komissiyasında çalışanda tanış olmuşdu. O vaxt Makron bu komissiyaya, digər bir məruzəçi, majistr Kristof İnqran tərəfindən daxil edilmişdi. Bu sonuncu Yelisey sarayında Nikola Sarkozinin ədliyyə müşaviri idi.

Prezidentliyə seçki kampaniyası zamanı namizəd Fransua Fiyyon haqqında qalmaqallı məsələlər ortalığa çıxanda, bir çox hakimlər, hüquqşünaslar və advokatlar, namizəd Makronun proqramını dəstəkləmək üçün hərəsi ayrı-ayrılıqda öz adlarından "Ədalət" tematik atelyesinə daxil oldular. Bu atelye üç nəfər tərəfindən idarə olunurdu: vəkil Julia Minkovski (Benjamin Qrivonun həyat yoldaşı) keçmiş müstəntiq Erik Halfen və Makron İqtisadiyyat naziri olanda, onun ədliyyə müşaviri olan Ksaviye Hüber. Bu atelyenin iştirakçıları arasında

xeyli hüquqşünaslar da vardı: Paris məhkəmə tribunalının prezidenti Jan-Mişel Hayat, həmçinin ovaxtkı Paris prokuroru Fransua Molan, eləcə də tanınmış advokat Rişard Malka və biznes advokatı Jan-Mişel Darrua. Kristian Tobiranın (2012-2016 illərdə Ədliyyə naziri) keçmiş məsləhətçisi Nail Burişa, Qrenobl şəhərindəki Apelyasiya Məhkəməsinin sədri Fransua Beynel, eləcə də Fiyyon Baş nazir olanda onun ədliyyə məsləhətçiləri və bir sıra digər majistr və hakimlər, Fransua Fiyyonla bağlı skandal ortaya çıxanda və hüquq orqanları tərəfindən onun qanundankənar işlər tutması sübut olunandan sonra ondan üz döndərib Makrona yaxınlaşdılar. "Əvvəllər Fiyyonu dəstəkləyənlərin hamısı indi Makronun ətrafında birləşmişdilər", – deyə atelyenin bir iştirakçı xatırlayır.

Düzdür, hüquqşünaslar arasında "neytrallıq" var, yəni o sağçılar partiyasındandır, bu solçular partiyasındandır söhbəti, demək olar ki, yoxdur. Bu neytrallıq onların karyeralarının yüksəlməsi üçün vacib şərtlərdən biridir. Makron onlara xalq arasında populyar olan ekstremist solçu Jan-Lük Melenşon və ekstremist sağçı Marin Lö Pen kimi namizədlərin qarşısını kəsən bir divar kimi görünür. Bir sözlə, Makron hüquqşünaslar arasında özünü dəryada balıq kimi hiss edir.

Lap əvvəldən, Ədliyyə naziri Nikol Bellubet Benalla məsələsi ilə bağlı fikirlərini heç kimdən çəkinmədən, heç bir kompleks olmadan mətbuatda deyir. Böhranının lap qızğın çağında, müxalifət Milli Assambleyada Benalla problemini "dövlət problemi" kimi qələmə verəndə, Ədliyyə naziri onlara qoşulub öz cəbhəsindən olan həmkarları ilə mübahisəyə çıxır. Bundan başqa, Parisin ovaxtkı prokuroru Fransua Molan Benalla işi ilə bağlı polis həmkarlar birliyi tərəfindən tələb olunan sənəd və materialları onlara verməkdən imtina edir. Bu tələb sonradan yeni prokuror Remi Hetz tərəfindən də rədd edilir. Ona görə də prokurorluq istintaq zamanı Aleksandr Benallanın evindəki seyfin sirli şəkildə yoxa çıxmağı ilə bağlı heç bir araşdırma aparmadı. Qəribə də burasındadır ki, o seyf Benallanın evində aparılan axtarışdan cəmisi bir neçə saat əvvəl

yoxa çıxdı. (!) Polis həmkarlar birliyinin vəkili Yassin Buzru heç nə başa düşə bilmir: “Biz prokurorluqdan xahiş elədik ki, istintaq müddətin uzatsın, tək may ayının 1-dəki hadisəni yox, 18-20 iyul tarixləri arasında baş verən hadisələri də araşdıraq. Prokuror heç bizə cavab da vermədi, halbuki qanuna görə o bizim xahişimizi qəbul etməliydi!”.

2019-cu il maliyyə məsələləri ilə də bağlı xüsusi bir il olacağını vəd edir. Respublika Milli Maliyyə Qurumunun (PNF) direktoru Elian Huletin mandatı sona yaxınlaşır. Ancaq onun yenidən bu posta qalmağa imkanı var. Bundan əlavə, maliyyə mərkəzindəki müstəntiqlərdən biri Serj Turner son on ildə Sarkozinin gördüyü işləri araşdırmaq istəyir. Ancaq bu iş ondan alınıb 32-ci palatanın keçmiş hakimi Benedik Pertüsə tapşırılır. Bu kitab da bağlanır. Hər halda, Nikola Sarkozi və onun dostları buna ümid edirlər... görək tale nə göstərəcək.

# VİTSE-PREZİDENT

O, hələ ki fransızların gözündə naməlum bir şəxsdir. 2012-ci ilin may ayında Emmanuel Makron prezident Fransua Hollandın əməkdaşı olur – Yelisey sarayında iqtisadiyyat üzrə baş katibin müavini vəzifəsinə keçir. Rotşild bankının keçmiş əməkdaşı (Makron) özünü o dəqiqə gözə soxmaq istəyir. Bu lap yerinə düşür, çünki hər həftəsonu Fransua Holland ictimai rəydə imicini saxlamaq üçün anketçiləri və digər sorğuçuları qəbul edir. Hollandın prezidentliyinin ilk illərində Emmanuel Makron ancaq prezidentin yaxın çevrəsinin xəbər olan bu görüşlərdə həvəslə iştirak etsə də, bir müddətdən sonra daha bu iclaslara ayaq basmır. Niyə? Ona görə ki, bu ambisiyalı cavan oğlan (Makron) iddialı və bic həyat yoldaşının məsləhəti ilə özünün imici ilə məşğul olmağa başlayır. 2013-cü ilin payızından etibarən o da öz növbəsində anketçiləri, əhali arasında sorğu aparanları, həmçinin ölkənin biznes liderlərini Yelisey sarayına dəvət edib özünün və həyat yoldaşı Brijitin siyasi gələcəyi haqqında onlarla danışıqlar aparır. Hər bazar axşamı bu cütlüyün (Emmanuel və Brijit Makron) təşəbbüsü ilə Yelisey sarayının şərq qanadındakı zallardan birində gizli görüşlər təşkil edilir. "Ünsiyyət baxımından mən nə etməliyəm ki, bir neçə ildən sonra məni tanısınlar?", – deyə o iştirakçılardan birinə sual verir. Təbii ki, rəsmi olaraq prezident Hollandın ətrafı dəvət olunan anketçilərdən, əhali arasında sorğu keçirənlərdən xahiş edirlər ki, fransız cəmiyyətinin, eləcə də əhalinin əhval-ruhiyyəsi barəsində analizlərini onlara təqdim etsinlər ki, prezident reallıqdan nəticə çıxarıb beş illik mandatına yeni bir nəfəs versin...

## SARKOZİST LUVRİERDƏN KİÇİK MƏSLƏHƏT

"Necə eləyim ki, özümü xalqa tanıtdırım?". Əsas sual budur! Onun populyarlığı, mediatik strategiyası və mətbuatla əlaqəsi, eləcə də böyük patronlarla münasibətləri stolun üstündə hazırdır. Arvadı Brijit də, demək olar ki, səhərdən axşama kimi onun yanındadır. Fransız dili müəllimısi (Brijit) təbii ki, ərinin kabinetinə yaraşıq vermək üçün gəlmir. O, hadisələrə fikrini bildirir, iclaslara rəhbərlik edir və kimin nə vaxt və kimdən sonra çıxış edəcəyini planlaşdırır. Bu iclaslara dəvət olunan qonaqlar çox tez dərk edirlər ki, Fransız dili müəllimısinin varlığı, həqiqətən, vacibdir və Emmanuel üçün çox böyük əhəmiyyət kəsb edir. Bununla belə, Yelisey sarayına prezident Holland üçün işləməyə dəvət olunan bu cavan oğlanın real ambisiyaları haqqında hələ ki, heç kim heç nə bilmir. Onun özü də hələlik planlarını heç kimə açıqlamır. Düzdür, hərdənbir Fransua Hollandın bu gənc əməkdaşı bəzən öz ambisiyalarını gizlədə bilmir. Yelisey sarayını tərk etməmişdən bir necə gün əvvəl kabinetindəki iş yoldaşlarına yarı-zarafat, yarı-ciddi deyir ki: "Gələn dəfə mən bura qayıdanda, böyük qapıdan içəri girəcəm". O, yəqin, 2017-ci il haqqında düşünür... kim bilir, bəlkə, elə 2022-ci il haqqında da...

Emmanuel Makron səbirsizdir. Elə o vaxtdan həm solçuları tumarlayır, həm də sağçıları. Çünki o, bazar günləri təşkil etdiyi görüşlərə həm sağçı partiyasından olanları, həm də solçu partiyadan olan prezidentin (Holland) yaxın adamlarını – məsələn, dövlət başçısının mətbuat xidmətində çalışan Filip Qranqon, Robert Zarader, sorğu aparan Bris Tantüriye, eləcə də Havas şirkətinin əməkdaşları İsmael Emelien və Jil Finşelşteyn kimi adamları dəvət edir... Prezident Hollandın iqtisadiyyat üzrə məsləhətçisi Emmanuel Makronda heç bir kompleks yoxdur. Və bir gün onun abırsızlığı o dərəcəyə çatır ki, 2007-ci ildən 2012-ci

ilə qədər Nikola Sarkozinin Yelisey sarayında sadiq mətbuat məsləhətçisi olmuş Frank Luvrieri də bazar axşamları təşkil etdiyi iclasların birinə dəvət edir.

Makron Hollanddan əvvəlki dövrdə prezident aparatında işləməkdən imtina etsə də, indi Sarkozinin çevrəsindəkiləri özünə tərəf çəkməkdən çəkinmir... Holland prezident seçiləndən sonra Yelisey sarayını tərk edən Luvrier, indi Sarkozinin yaxın dostu Moris Levinin rəhbərlik etdiyi Pulicis şirkətində çalışır. Bazar axşamlarındakı iclasların iştirakçıları qarşısında Luvrier ilə Makron yaxın olduqlarını gizlətmirlər. Onlar bir birinə "sən" deyə müraciət edir, görüşəndə qucaqlaşıb öpüşürlər. Ona görə də tamamilə təbiidir ki, 2016-cı ilin əvvəlində İqtisadiyyat naziri Makron özünün gələcək prezidentlik kampaniyası üçün kommunikasiya direktoru axtaranda, Moris Leviyə zəng vurub xahiş edir ki, Frank Luvrieri onun ixtiyarına versin. Çünki prezidentliyə can atan gənc nazir yaxşı bilir ki, Luvrierin siyasi jurnalistlər arasında çox yaxşı əlaqələri var. Düzdür, o vaxt nazirin bu istəyi baş tutmasa da, 2019-cu ilin yanvar ayında Emmanuel Makron Sarkozist Luvrierdən bir daha xahiş edir ki, Yelisey sarayına qayıdıb onun çevrəsinə qatılsın.

Makron 2013-cü ildən başlayaraq Parisdəki əsas lobbi agentliklərindən biri olan Tilder agentliyinin rəhbəri Matias Leridonun köməyi ilə Fransanın məşhur şirkətlərinin böyük patronlarını mütəmadi olaraq şam yeməyinə dəvət edir. Matias Leridon həm də Medef (Fransadakı bütün şirkətlərin həmkarlar birliyi. Missiyası şirkətlərin marağını qorumaqdır) təşkilatının prezidenti Pier Qattazın kommunikasiya üzrə müşaviridir. Bazar axşamlarında təşkil etdiyi bu görüşlərdə Makron iclas iştirakçılarının qarşısında prezident Fransua Hollandı tənqid etməkdən çəkinmir və iddia edir ki, ölkədə əldə edilən bir çox iqtisadi uğurların müəllifi şəxsən onun özüdür. (Fransua Hollandın beş illik prezidentlik dövrünün ilk illərindən Emmanuel Makron əlinə fürsət düşən

kimi, yaxın çevrəsi daxilində respublika prezidentini tənqid edir. 2014-cü ilin may ayının sonunda – istefa verməsindən doqquz gün əvvəl – Kopenhagendəki Bilderberq qrupunun yığıncağında, Makron söz alıb hamının qarşısında Fransua Hollandın yüyürtdüyü siyasət haqqında ağzına gələni danışır.  JDD qəzeti, 3 dekabr 2017-ci il.) Bu kiçik "teatrda" tamaşa həmişə iki hissədən ibarət olur: Hollandın uğursuzluqları və Makronun uğurları.

## SAN-LUİ-DÖ-QONZAQIN KÖLGƏSİNDƏ

Beləliklə, bu Makronlar cütlüyü Yelisey sarayına gəlməmişdən xeyli əvvəl belə müxtəlif şəbəkələrdən intensiv şəkildə istifadə edirdi. 2007-ci ildə nikah kəsdirəndən bəri Parisin 15-ci rayonundakı mənzillərində, Emmanuel ilə Brijit lazımlı adamları tez-tez evlərinə şam yeməyinə dəvət edirlər. Parisin 16-cı rayonunda, adlı-sanlı katolik təmayüllü San-Lui-dö-Qonzaq liseyində Fransız dilindən dərs deyən Brijit Makron, ərinin istifadəsi üçün şəxsi telefon kitabçasını yüksək vəzifəli və rütbəli şəxslərin nömrələri ilə doldurur. Benjamin Franklin küçəsində yerləşən, hamının "Franklin" adlandırdığı, Yezuitlər tərəfindən idarə olunan bu lisey sosial müxtəlifliyin məbədidir. Bir vaxtlar indiki İqtisadiyyat naziri Brüno Lö Merin anası Vivian Fradan dö Belabr tərəfindən idarə edilən bu təhsil ocağında, əsasən Paris burjuaziyasının uşaqları təhsil alır. Brüno Lö Mer özü də Fransa Bankının indiki direktoru Villeroy dö Qalo da bu liseydə oxuyublar. Keçmiş Baş nazir Villpəntin uşaqları, eləcə də keçmiş Baş nazir Balladürün nəvələri də hal-hazırda bu liseydə təhsil alırlar.

Paris burjuaziyasının övladlarının oxuduğu katolik təmayüllü bu təhsil ocağı, əsli Amiən şəhərindən olan, özü də burjua ailəsindən çıxmış Brijit Makrona tam uyğun gəlir. Gələcək birinci xanım siyasi ideyalarını heç kimdən gizlətmir və harada gəldi deyir ki, 2007 və 2017-ci illərdə prezident seçkiləri zamanı o, Nikola Sarkoziyə səs verib. Emmanuel də arvadından geri qalmır. Brijit Franklin küçəsindəki San-Lui-dö-Qonzaq liseyinə müəllim düzələndən bir il sonra o, Rotşild müəssisəsində investisiya bankiri təyin olunur. Fransız kapitalizminin döyünən ürəyi plan bu bank David dö Rotşild tərəfindən idarə olunur. Bu sonuncunun telefon kitabçası sağçılar partiyasının üzdə olan adamlarının nömrələri ilə doludur. (Bax: Müəmmalı cənab Makron) Parisin 8-ci rayonunda, Monso parkının iki addımlığındakı Messin prospektində yerləşən bu nüfuzlu bank İngilis klubuna oxşayır – orda nadir hallarda qadın görə bilərsən.

Məhz elə o zaman Makron cütlüyü Avropanın ən varlı iş adamı – qlobal LVMH lüks liderinin və Carrefour qrupunun sahibi Bernard Arno ilə tanış olur. Franklin küçəsindəki məktəbdə, Brijit milyarder Arnonun üç oğluna – Aleksandra, Frederikə və Jana Fransız dili dərsi deyir. “Brijit əvəzolunmaz bir müəllimdir”, – deyə uşaqlarının dərsləri ilə ciddi şəkildə maraqlanan Bernard Arno hər yerdə Emmanuel Makronun arvadını ağız dolusu tərifləyir. Fransa milyonerlərinin dünyası kiçik bir dünyadır – hamı bir-birini yaxşı tanıyır. Ona görə də təbii olaraq, Bernard Arnonun uşaqlarının əvəzolunmaz Fransız dili müəlliməsinin sayəsində, onun əri Emmanuel Makron tezliklə Avropanın bu ən məşhur və ən güclü milyarderi ilə tanış olur. Onu da qeyd edək ki, Bernard Arno Rotşild bankının sahibi David dö Rotşild ilə yaxın dostdur. Bundan başqa Bernard Arno heç vaxt hansı siyasi partiyanı dəstəkləməyini heç vaxt və heç kimdən gizlətməyib. O, həmişə sağçılara səs verib və həm də Nikola Sarkozinin Sesiliya ilə toyunda, Martin Buyq (Fransız milyarderi, Buyq Telekom şirkətinin rəhbəri) ilə birlikdə onların şahidi olub. Tanışlıq zamanı gənc Emmanuel Makron özünü milyarderə sevdirə bilir.

## BERNARD ARNO 2012-Cİ İLDƏ:
## **"BİZ ONA KÖMƏK ETMƏLİYİK!"**

Avropanın ən qüdrətli milyarderi ilə bu yaxınlıq iddialı Makron üçün göydəndüşmə bir şansdır. Həm də Bernard Arno fransız mətbuatında çox nüfuzlu və ictimai fikirlərə böyük təsir göstərən iki gündəlik qəzetin – Les Echos və Le Parisien – sahibidir. Onun çox geniş siyasi şəbəkəsi var və bu şəbəkə həm sağçılardan, həm də solçulardan ibarətdir. Bernard Arno qrupunun baş direktoru Nikola Bazir 1993-1995-ci illər arasında, ovaxtkı Baş nazir Eduard Balladürün keçmiş kabinet direktoru olub, özü də Nikola Sarkozinin yaxın adamıdır. O, həm də əvvəllər Rotşild bankının idarə rəhbəri olub. Arvadının sayəsində yaxınlaşdığı məşhur LVMH lüks qrupu ilə işlədiyi məşhur Rotşild bankı arasında Makron özünü böyük biznesin sağçılardan ibarət olan şəbəkələrinin mərkəzində hiss edir. Bundan sonra gələcək prezident daha ha da ehtirasa gəlib, müxtəlif adamlarla görüşlərinin sayını daha artırır: Keçmiş İqtisadiyyat naziri, ATOS informatika qrupunun baş direktoru, Bernard Arnonun yaxın dostu Terri Breton, keçmiş nazir, indiki LVMH qrupunun administratoru Hübert Vedrin, LVMH qrupunun Nyu Yorkdakı filialının direktoru Reno Dütrey, Dior firmasının (o da LVMH qrupuna aiddir) və Louis Vuitton Fondunun administratoru Reno Donnediö dö Vabr və sairə.

Makron ətrafına görün kimləri yığıb – "qaymaqların qaymağını". Dütrey ilə Donnediö Jan-Pier Raffaran və Dominik Villpənt Baş nazir olanda, onların nazirləri olublar. Hələ 90-cı illərdə hər ikisi o vaxt Fransua Leotardın sədr olduğu Respublika Partiyasının gənc ümidverən siyasətçiləri idilər. Düzdür, sonra bu siyasi hərəkət ilə bağlı məhkəmə işi qaldırıldı, çünki Respublika Partiyasının Fondo bankı tərəfindən maliyyələşdirilməsində nöqsanlar tapıldı. Bundan başqa, Fransua Leotard

ilə Donnediö 1995-ci ildə Eduard Balladürün prezident kampaniyasının Pakistan və Səudiyyə Ərəbistanı ilə silah müqaviləsi bağlanışında əldə olunan vəsaitlə maliyyələşdirilməsində ittiham olundular.

2009 və 2011-ci illərdə Emmanuel Makron Rotşild bankının məsləhətçisi kimi Reno Donnediö dö Vabr ilə Parisin Konkord meydanındakı monumental Marin hotelinin yenidənqurma layihəsi üzərində işləyir. Bu layihənin müəllifi Aleksandr Allard adlı bir iş adamıdır. O, əvvəllər məşhur Royal Monceau hotelinin də yenidən qurulması ilə məşğul olmuşdu. Dövlətə gördüyü işlərin faydalı olduğunu sübut etmək üçün Allard, Mədəniyyət Nazirliyinə, investisiya bankiri Emmanuel Makrona və Yelisey sarayının keçmiş Baş katibi, Jak Şirakın qızı Klod Şirakın əri advokat Frederik Salat-Baruksa müraciət edir. Allard daha sonra mədəniyyət nazirinin vasitəsilə birbaşa Yelisey sarayının aktual Baş katibi Klod Jean ilə də görüşür. Ancaq bu cür sanballı adamlar tərəfindən dəstək almasına baxmayaraq, Jiskard d'Estanqın başçılıq etdiyi komissiya Marin hotelinin yenidənqurma layihəsini təsdiqləmir. 2014-cü ildə Makron İqtisadiyyat naziri təyin olunanda, Aleksandr Allard sevincini gizlətmir. Hətta Paris Match jurnalına verdiyi müsahibədə qeyd edir ki, "o vaxt Emmanuel Makron mənim Konkord meydanındakı Marin hoteli ilə bağlı layihəmi çox bəyənmişdi... demişdi ki, bu hotel yenidənqurma işlərindən sonra  talant və yaradıcılıq vitrinası olacaq...". Bu layihənin baş tutmamasına baxmayaraq, Makronla Reno Donnediö dö Vabr arasındakı əlaqələr  pozulana oxşamır. Belə ki, 2017-ci ilin oktyabrında prezidentin Ərəb Əmirliyində yeni Luvr muzeyinin açılışı münasibəti ilə Abu-Dabiyə rəsmi səfərindən bir neçə gün əvvəl, Brijit Makron onu Yelisey sarayındakı kabinetində qəbul edir. Keçmiş Fransız dili müəlliməsi unutmayıb ki, Ərəb Əmirliyində Luvr muzeyi yaratmaq layihəsini on il əvvəl mədəniyyət naziri olduğu zaman Reno Donnediö dö Vabr təklif eləmişdi.

Əri Emmanuel kimi adlı-sanlı, varlı, imtiyazlı adamları ətrafına toplamaq arzusu ilə alışıb yanan Brijit, bu dəfə bütün dünyada məşhur olan Louis Vuitton firmasının prezidenti, milyarder Bernard Arnonun birinci arvadından olan qızı Delfin Arno (Free Telekom şirkətinin prezidenti, milyarder Ksaviye Nielin həyat yoldaşı) ilə tanış olur və tezliklə onun yaxın rəfiqəsinə çevrilir. Onlar 2014-cü ilin avqustunda Los-Ancelesdəki bir restoranda nahar zamanı tanış olurlar və o gündən bu iki qadının arasından su keçmir. Lüks qrupu tərəfindən sponsorluq edilən gələcək prezident cütlüyü, indi ancaq Louis Vuitton və Dior markalı paltarlar geyinir. Həmişə sağçılar partiyasına səs verən milyarder Bernard Arno bu dəfə Alan Jüppenin prezidentliyə namizədliyi ilə maraqlansa da, Emmanuel Makronun siyasi gələcəyinə müsbət baxır. Onun yaxın qohumlarından biri, riyaziyyatçı Sedrik Villani, hətta Makronun partiyası tərəfindən deputat seçiləcək.

2016-cı ildə Emmanuel ilə Brijit, demək olar ki, hər həftə, Bernard Arnonun evində şam edir. Milyarder siyasi prinsipləri haqqında mətbuatda çox açıqlamalar verməsə də, iki tur arasında Les Echos gündəlik qəzetinə verdiyi müsahibədə qeyd edir ki: "Mən tərəddüd etmədən Emmanuelə səs verəcəyəm...". Bir il sonra LVMH firmasının patronu (Bernard Arno) gənc prezidenti dövlət səfəri çərçivəsində ABŞ-a müşayiət edir və orada hamının qarşısında bəyan edir ki: "Fransanın birinci xanımını geyindirmək onun üçün böyük şərəfdir...". Onun həmkarlarından birinin dediyinə görə, milyarder Bernard Arno Brijit Makronla "çox yaxın" əlaqə saxlayır. Onun həyat yoldaşı, pianoçu Elen Mercier-Arno da Brijitlə çox yaxın münasibətdədir. LVMH firmasının yüksək vəzifəli icraçılarından biri etiraf edir ki: "Bernard Arno Brijit ilə yaxın dostdur... amma onda Emmanuelə qarşı da dəhşətli bir ehtiras var...". Milyarderin təbiətcə soyuq adam olması Fransada hamıya bəlli olduğundan, onun Makrona olan ehtirası çox qəribə səslənir... Əslində, onların münasibəti

köhnədəndir: Bernard Arno Emmanuel Makronun siyasi ambisiyasını çox tez sezmişdi. 2012-ci ilin iyun ayında Fransua Holland Respublika prezidenti seçiləndən sonra varlıların illik qazancının 75 faizini vergilərə çıxmağı təklif edəndə, milyarder Bernard Arno Paris meriyasında çalışan keçmiş işçisi Kristof Jerarda belə deyir: "Nə sizin dostunuz Fransua Hollandın, nə də onun Baş naziri Jan-Mark Ayronun biznesdən, iqtisadiyyatdan başları çıxır. Amma mən onların komandasında olan Emmanuel Makron adlı cavan bir oğlan tanıyıram. Ona kömək etmək lazımdır...".

## BRİJİT ONU JAK ATTALİ İLƏ TANIŞ EDİR

Parisdə Brijit Makron özünü cənnətdəki kimi hiss edir. Amien şəhərində çəkdiyi əzab-əziyyətlər artıq geridə qalıb. O vaxt onun Emmanuelə olan sevgisinə hamı lağ edirdi, o cümlədən də öz ailəsi onu ələ salırdı. Paytaxtda isə bu Fransız dili müəllimi ancaq tanınmış mədəniyyət və incəsənət adamları ilə oturub durur. Onların ümumi dostlarından biri zarafatca deyir ki: "Makronların ailəsində günləri-ni eyş-işrətlə keçirən, arvaddır...". Brijitin peşəkar fəaliyyəti və şəxsi əyləncələri tək özünə aid deyil, həm də ərinin ətrafına nüfuzlu və lazımlı adamlar yığmaqdır. Belə ki, müəllim işlədiyi Franklin liseyində o, başqa bir nüfuzlu geniş əlaqələri olan bir valideynlə də tanış olur. Bu kim olsa, yaxşıdır? Nikola Sarkozinin dostu, gəncliyində özü də bu liseydə təhsil alan, katolik advokat Fransua Süro!.. Fərdi azadlığın və miqrantların müdafiəçisi kimi tanınan bu adam Makron prezident seçiləndən sonra müdafiə məsələlərində onun yaxın müşaviri olacaq...

Parisə köçən gündən Emmanuel ilə arvadı ətraflarına imtiyazlı və nüfuzlu, eləcə də geniş əlaqələri olan adamlar toplamaqla məşğuldurlar. Etiraf etmək lazımdır ki, onların tapdığı şəbəkələr, hörümçək toru kimi çoxşaxəlidir. Bu cütlüyün oturub-durduğu adamların arasında qüdrətli Serj Veynberq (Sanofi şirkətinin patronu), eləcə də biznes işləri ilə məşğul olan məşhur advokat Jan-Mişel Darrua və onun həyat yoldaşı, fotoqraf Bettina Rems da var. Veynberq kimi Darrua da Emmanuel Makronun "xaç atalarından" biridir. Vaxtilə Makronu Rotşild bankında işləməyə o düzəltmişdi. Pas-dö-Kala departamentində yerləşən, Paris, Amiyən və Lil şəhərlərinin burjua təbəqələrinin istirahət etdiyi dənizkənarı lüks Tüket kurortunda istirahət edən zaman, Brijit orada tanınmış Image 7 rabitə agentliyinin direktoru Anna Meo ilə də tanış olmuşdu. (Bu sonun-

cu 2017-ci ildə Fransua Fiyyonu dəstəkləyəcək) Onların əlaqəsi heç vaxt qırılmayacaq.

Brijit Makronun nüfuzlu tanışlarının siyahısına bir adamı da əlavə etmək lazımdır – Jak Attali. Brijit, əvvəl onu Emmanuellə tanış edir. Sonra Fransua Mitteranın bu keçmiş məsləhətçisindən xahiş edir ki, onun gənc ərini Fransua Holland ilə görüşdürsün. Elə bu dövrlərdə Makronlar cütlüyü sonradan Emmanuelin yaxın dostuna çevrilən, sənayeçi Henri Hermanddan mənəvi dəstək və maliyyə yardımı alır. Geniş ictimaiyyətə o qədər də məlum olmayan, 1924-cü ildə kiçik bir tacir ailəsində doğulan, hal-hazırda milyonçu olan bu adam vaxtilə Mişel Rokard (keçmiş Baş nazir) üçün də maliyyə dəstəkçilərindən biri olub. Makron onunla 2002-ci ildə Bove prefekturasında ilk dəfə staj keçəndə tanış olub. Bu iki şəxs çox tez bir zamanda yaxın dostlara çevrilirlər. Aralarındakı yaş fərqinə baxmayaraq Makron hər yerdə deyir ki: "O mənim ən yaxın dostumdur...". Hermand, həqiqətən də gənc dostu üçün şəxsi telefon kitabçasını açır və bir neçə il sonra onu Mişel Rokard ilə görüşdürür. 2007-ci ildə Brijit ilə nikah kəsdirəndə, Emmanuel ona şahid olmağı təklif edir. "Bu sevgililər çox çətin sınaqlardan keçiblər", – deyən bu yaşlı adam 2015-ci ildə bizə etiraf edir ki: "Emmanuelə Brijitlə evlənməyi mən məsləhət görüm...". Qəribə etirafdır... Onların toy mərasimi Tuket kurortunda, lüks Vestminster hotelində təşkil edilir. Bu dəbdəbəli toyun xərcinin xeyli hissəsini, səxavətli miyoner, bəyin dostu Henri Hermand çəkir. Emmanuel ilə Brijit ilk mənzillərini alanda da qoca milyonçu onlara 550 000 avro məbləğində borc verir.

## HAKİMİYYƏTƏ AŞİQ OLANLAR

"Emmanuel Makronu başa düşmək üçün başlıca şərt onun arvadı Brijitdir. Bu qadının ərinin yanında xüsusi və çox mühüm bir rolu var...", – bu sözləri 2014-cü ildə gənc maliyyə müfəttişini neçə illər əvvəl tanıyan, biznes sahəsində əvəzsiz məsləhətçi sayılan Alan Mink deyir. O zamanlar Brijit Makronun, ərinin siyasi karyerasında nə qədər əhəmiyyət kəsb etdiyini yalnız onları çox yaxından tanıyan adamlar bilirdi. 2014-cü ilin yayında Alan Minkin evində təşkil olunan şam yeməyi zamanı Fransanın gələcək birinci xanımı stol arxasındakılara müraciətlə deyir ki: "Mənim ərim prezidentliyə namizədliyini 2017-ci ildə verməlidir...". Stol arxasında oturanların bir çoxu ona məsləhət görür ki, yaxşısı budur Emmanuel 2022-ci ili gözləsin, çünki hələ çox gəncdir. "...yox biz 2022-ci ilə qədər gözləyə bilmərik. Çünki bizdə böyük problem var. O problem də mənəm, mənim sir-sifətimdi... Ona görə də biz tələsməliyik", – deyə gələcək birinci xanım qətiyyətlə cavab verir.

Brijit ilə Emmanuel həm emosional tərəfdən bir-birinə bağlıdırlar, həm də siyasi tərəfdən. Onlar hakimiyyət cütlüyüdürlər. Onlar birlikdə siyasi mövzuları müzakirə edir, fikir mübadiləsi aparır və bir-birinə məsləhət verirlər. Elə olub ki, onlar bütün gecəni səhərə qədər yatmayıb ölkədəki sosial təminat problemini müzakirə ediblər. Amma Emmanuel Makron diqqət mərkəzində olanda, həyat yoldaşı çalışır ki, ona kölgə salmasın. Belə anlarda Brijit arxa planda qalmağı üstün tutur. Hələ əvvəllər əyalətdə – Amiyən şəhərindəki liseydə, Brijit Emmanuelin dram müəllimi olanda ona həmişə baş rollar verirdi. Mediadan və siyasi arenadan kənar işlərdə Brijit yalnız ərini bir həyat yoldaşı kimi dəstəkləyir... İqtisadiyyat Nazirliyində Brijit nazir ərinin professional həyatında yaxından iştirak edir. Ancaq nazir Times qəzetinə müsahibəsində qeyd edir ki, "həyat yoldaşım nazirlikdən maaş almır. Onun İqtisadiyyat Nazirliyində heç bir rəsmi funksiyası yoxdur". Makronun

ətrafındakılar da mətbuatda bir ağızdan deyirlər ki: "düzdür, nazirin arvadı rəsmi iclaslarda iştirak edir, ancaq sadəcə olaraq ərinin gündəlik iş cədvəlini daha yaxşı idarə etmək üçün...".

Əslində isə hər şey tərsinədir. Brijit Makron İqtisadiyyat Nazirliyində hər şeyə burnunu soxur, hər işə qarışır, hər məsələ barəsində öz fikrini bildirir: kimi hansı vəzifəyə götürmək lazımdır, kimi hansı işdən uzaqlaşdırmaq lazımdır... o, hətta siyasi və iqtisadi strategiya ilə bağlı da öz fikirlərini deməkdən çəkinmir. (!) 2016-cı ilin yayında Hərəktdə! hərəkatı təzə-təzə relsə düşəndə və İqtisadiyyat naziri Makron istefa verib-verməmək haqqında götür-qoy edəndə, ətrafındakılara deyir: "Heç bilmirəm istefa verim, ya yox? Görəsən, altı aydan sonra prezident seçilə bilərəm? Deyirəm, bəlkə, hələ tezdir... heç indi istefa verməyim... 2022 ci ili gözləyim?..". O vaxt Brijit onu dilə tutur ki, hökmən 2017-ci ildəki prezident seçkilərinə namizədliyini irəli sürsün. Gələcək birinci xanım medianın ərinə təzyiqini, ona olunan şəxsi və siyasi hücumları o qədər də vecinə almır. Onların yaxın dostlarından biri etiraf edir ki, "bu ər-arvad sözün əsl mənasında hakimiyyətə aşiqdirlər".

## NARKOTİK KİMİ BİR ŞEY

Bu ümumi atmosfer, bu zirvələri fəth etmək iştahı, kimlərdənsə intiqam almaq arzusu, bəziləri demişkən, kimlərəsə yanıq vermək istəyi onları get-gedə bir-birinə daha çox bağlayır. Bu cütlük yaxşı tapışıb. Emmanuel Makron hər yerdə təkrar edir ki: "Brijit mənəm... mən də Brijit".

"Onlar iki bədəndə bir qəlbdirlər", – deyə bu cütlüyün yaxın dostlarından biri rişxəndlə gülür. Onların başqa bir yaxın adamı ehtiyatla bizə dedi ki: "Brijitin siyasi ambisiyası Emmanuelinkindən daha çoxdur". Seçki kampaniyası zamanı bunu hamı hiss etdi. Odur ki, onların yaxın çevrəsində olan adamlardan biri daha dəqiq analiz verir:

"Emmanuel fenomenini Brijit yaratdı. Onda prezident olmağa həvəs oyadan, ona ilham verən, onda hakimiyyətə istək aşılayan, bir sözlə, onu adam edən Brijit oldu. Onun taleyini də Brijit yazdı. Ona görə də Emmanuel hər şeyə görə ona borcludur...". Prezident seçkilərinin birinci turundan sonra Emmanuel Makron, kampaniyasının bütün üzvləri qarşısında arvadına bu sözlərlə təşəkkür edir: "... Brijitə, birinci növbədə həmişə yanımda olan Brijitə təşəkkür edirəm... Onsuz mən, mən olmazdım...". Onun bu sözlərindən sonra seçki kampaniyasının üzvlərindən biri yanındakına tərəf əyilib istehza ilə pıçıldayır: "Makronun həyatını kim idarə edir? Özü, yoxsa arvadı?".

Həyat yoldaşı çox nadir insanlardan biridir ki, Emmanuel Makron onu, həqiqətən, diqqətlə qulaq asır və ona yüz faiz etibar edir. Hər ikisinin xasiyyəti ağır olduğundan, hər ikisi tərs, ancaq öz dediyini eləyən adam olduğundan, onlar həqiqəti bir-birinin üzünə kobud şəkildə, filtrdən keçirmədən deməyi bacarırlar. Brijit Emmanueli əks etdirən güzgüdür. Emmanuel ona baxıb özünü görür. Arvadı onun üçün narkotik kimi bir şeydir. Seçki kampaniyasının pərdə arxasında, mərkəzi siyasi rolu əsasən Brijit oynayır. O, ətrafına "dostlarından" ibarət başqa bir kampaniya yığıb, paralel olaraq onlarla da təşviqat aparır. Onun

dostları arasında Challenges qəzetinin jurnalisti Brüno Roje-Peti, eləcə də Bertrand Dele kimi siyasətçi var. Teleqram elektron-mesaj platforması vasitəsilə onlar Brijitə hansı strategiyanı tutmaq və necə inkişaf etdirmək haqında məsləhətlər verirlər. Arvadının "dostları" öz qəhrəmanlarının mediadakı imicini qaldırmaq və seçicilərlə görüşlərini planlaşırmaqla məşğul olur. 2016-cı ilin payızında Brijit Makron ərinin öz prezidentlik macəraları haqqında yazıb çapa hazırladığı Revolution (İnqilab) kitabının əlyazmasını dəfələrlə oxuyur, bəzi hissələrini dəyişdirir, bəzi fəsilləri yerli-dibli dəyişib özü bildiyi kimi yazır. Arvadı Emmanuel Makronun bir çox çıxışlarını da necə deyərlər redaktə edir, bəzi hissələrin pozur, bəzi hissələrini artırır. "Brijit ərinin prezident kampaniyası vaxtı təşviqat sisteminin döyünən ürəyi idi", – deyə onlara könüllü kömək göstərən seçicilərdən biri etiraf edir. Hətta həddindən artıq vacib və siyasi cəhətdən həssas məsələlərdə belə Brijit şəxsən özü qərar qəbul edir, məsələn, namizədin xarici ölkələrə səfərləri, hansı ölkənin prezidenti ilə nə vaxt görüşməyi, onunla hansı problem barədə danışmağı arvadı ona məsləhət görür. Seçkilərin ikinci turundan sonra Brijit prezident seçilən ərini də yanına alıb axırıncı dəfə seçki kampaniyasının baş qərargahına baş çəkir, kampaniyanın hər bir üzvünə seçkilər zamanı göstərdikləri köməyə görə ayrı-ayrılıqda təşəkkür edir.

## ŞAYİƏLƏRƏ QARŞI MÜBARİZƏ

Bu o deməkdir ki, Brijit Makron seçki kampaniyası zamanı yayılan bəzi "şayiələri" həzm edə bilmədi... Məsələ burasındadır ki, Parisdə çıxan bütün qəzetlərin redaksiyalarında, eləcə də bütün Fransada, bütün ailələrdə stol arxasında söhbət gedir ki, bəs Brijit Makroun əri, əslində, homoseksualdır. Bu söhbət hələ 2015-ci ilin payızından – Emmanuel İqtisadiyyat naziri olanda, onun o zamankı siyasi düşmənləri Manuel Valls ilə Nikola Sarkozi tərəfindən yayılmağa başlayıb.

Belə deyirlər ki, guya 2015-ci ilin yayında Emmanuel Makronla onun mühafizə servisindən (SDLP) olan cangüdənlərinin biri arasında intim münasibət olub... Bu söz-söhbət polis komissarlıqlarında, kəşfiyyat xidmətlərində, eləcə də Daxili İşlər Nazirliyində də gedir. Elə ona görə də Benalla məsələsi ortalığa çıxandan sonra bu şayiə daha geniş vüsət aldı. Hamı elə başa düşdü ki, Makronun intim münasibətdə olduğu cangüdən elə Benalla özüdür. Ancaq məsələ burasındadır ki, vaxtilə Yelisey sarayının məşhur missiya icraçısı Aleksandr Benalla, ümumiyyətlə, heç vaxt SDLP mühafizə servisində (SDLP) işləməyib.

2016-cı ilin əvvəlində bu söz-söhbət daha da gücləndi və bir müddətdən sonra "homoseksual" namizədin sevgilisinin kim olduğu da üzə çıxdı. Belə ki, Parisdə xəbər yayıldı ki, bəs Emmanuel Makronun məşuqu Fransa Radiosunun prezidenti və baş direktoru, gənc və yaraşıqlı bir oğlan olan Matiö Qalledir! Əslində, bu ağ yalandır! Fransa Radiosunun baş direktorunun əhatəsində olanlar bu söhbətin cəfəngiyyat olduğunu bilsələr də, əllərindən heç nə gəlmir. Şayiə ayaq açıb nəinki Parisin böyük və kiçik saraylarına, hətta paytaxtın sərhədlərini də keçib tezliklə bütün ölkəyə yayılır... Beləliklə, təbii ki, Makronlar cütlüyü rahatlığını itirir və ər-arvad qərara gəlir ki, əks hücuma keçsinlər. İqtisadiyyat Nazirliyində təşkil olunan rəsmi qəbulların hər birində Emmanuel ilə Brijit fürsətdən istifadə edib stol arxasındakı qonaqların qarşısında bu məsələni ortaya qoyurlar. "Yəqin, eşitmisiniz də, deyirlər ki, Emmanuel

homoseksualdır... bu tamamilə yalandır!", – deyə bu söhbətlərdən sonra yuxusuna haram qatılan Brijit Makron əsəblə səsini qaldırır. Fransız dili müəlliməsi bir gün yaxın rəfiqələrinin birinə etiraf edir ki, bu söhbətlər onu çox qorxudur. Bir axşam da nazirlə görüşə gələn bir yazıçını liftə qədər müşayiət edəndə, ona şikayətlənir ki: "Bilirsiniz, mən yüz faiz əminəm ki, bu şayiə homoseksualların çevrəsində yaranıb...". Emmanuel də öz növbəsində jurnalistləri, televiziya müxbirlərini, qəzet redaktorlarını qəbul edəndə söhbət əsnasında bu "şayiəni" qeyd etməyi heç vaxt unutmur. Nazir bu söz-söhbəti boş verə bilmir. Kiminlə görüşür, ona ancaq bu haqda danışır. Onun həmsöhbətləri də hiss edir ki, bu şayiə gənc siyasətçiyə, doğrudan da, çox pis təsir edib.

"Bilirsiz, onlar Mitteran kimi məni də mənəvi cəhətdən sındırmaq istəyirlər...", – deyə Emmanuel həmsöhbətlərindən birinə ürəyini açır. Başqa birisinə də deyir ki: "Onlar məni sındırmaq istəyirlər, amma mənim gönüm qalındır, sınan deyiləm". Ancaq məsələ burasındadır ki, onun hər dəfə, hər vəchlə özünə bəraət qazandırması, yeri gəldi-gəlmədi homoseksual olduğunu inkar etməsi axırda əks nəticə verir – yəni şayiələri daha da qızışdırır. "Hiss olunur ki, bu söz-söhbət, həqiqətən də, ona yaman dəyib... o gün düz iyirmi dəqiqə mənimlə bu barədə danışdı... Adama deyərlər ki, soğan yeməmisənsə, için niyə göynəyir? Əgər bu söhbət başdan ayağa yalandırsa, onda nə üçün səhərdən axşama qədər canfəşanlıqla özünü müdafiə edirsən? Onun homoseksual olub-olmamağı heç kimin vecinə deyil. İndi iyirmi birinci əsrdir. Kimi belə şeylə təəccübləndirmək olar?" – deyə onun qonaqlarından biri çiyinlərini çəkir. Görünür, Emmanuel Makronu ən çox narahat edən şey odur ki, camaat onu saxtakarlıqda, yalan danışmaqda günahlandırır. 2016-cı ilin oktyabrında, Mediapart jurnalisti ilə söhbətdə bir neçə dəfə vurğulayır ki: "Mənim gizli həyatım yoxdur...". Amma bu kifayət eləmir. Bununla belə, Makron bu şayiəni hələ ki, ictimaiyyətin qarşısında açıq şəkildə müzakirə etmir.

Ancaq 2017-ci ilin fevral ayının əvvəlində Bobino teatrına yığışmış "Hərəkətdə!" hərəkatının fəalları qarşısında, Makron yarı-zarafat, yarı-ciddi Fransa Radiosunun prezidenti və baş direktoru ilə aralarındakı intim münasibəti inkar edir: "Əgər barda, restoranda kimsə sizə desə və yaxud əgər elektron poçtla kimsə sizə xəbər versə ki, mənimlə Matiö Qalle və yaxud hər hansı bir başqa adam arasında gizli intim münasibətim var, bilin ki, o, mən deyiləm, mənim bədənimdən ayrılan hologramdır", – deyə prezidentliyə namizəd aktivistlərin alqışları altında bəyan edir. Bu sözlər o dəqiqə effekt verir: o gündən başlayaraq sosial şəbəkələrdə Makronun homoseksual olması barədə gəzən şayiələr kəskin şəkildə azalır. Qəribədir ki, Makronun kampaniyasının keçmiş üzvlərindən biri sonradan etiraf edəcək ki: "Biz Fransa Radiosunun prezidentinin adını bilərəkdən, qəsdən ortalığa atdıq. (!) Təbii ki, bu söhbət tamamilə uydurma idi – biz sadəcə olaraq düşmənlərimizi tələyə salmaq və bu absurd şayiəni məhv eləmək üçün onun adından istifadə etdik...". Bu Matiö Qalleyə qarşı nəinki hörmətsizlik, hətta alçaqlıqdır. Ancaq bu məsələ təəssüf ki, prezidentliyə seçki kampaniyasının lap ilk günlərindən Emmanuel Makronun tərəfdarları tərəfindən həyata keçirilən ilk siyasi biclik olmadı...

Bu "yanğını" söndürmək üçün Brijit Makron televiziya və kino dünyasındakı adlı-sanlı dostlarından da istifadə edir. Onun İqtisadiyyat Nazirliyində təşkil etdiyi şam yeməklərinə tez-tez incəsənət sahəsindən olan tanınmış şəxsiyyətlər dəvət olunur. Belə ki, bu qəbullarda onunla birlikdə stol arxasında müğənni Lin Reno, televiziya aparıcısı Bernard Montiel, teatr direktoru Jan-Mark Dümontet, eləcə də Pier Arditi, Evelin Buiks, Fransua Berleand, Fabris Lüçini kimi məşhur aktyorlar oturur. Tanınmış jurnalist Mark-Oliviye Fojiel və homoseksual olduğunu heç vaxt, heç kimdən gizlətməyən yazıçı Filip Besson, televiziya ulduzu Kler Şazal bu qəbulun sabahısı günü öz həmkarlarına, eləcə də şəxsi dostlarına başa salacaqlar ki, Makron ilə Qalle arasındakı intim münasibət söhbəti reallıqdan tamamilə uzaq olan bir fantaziyadır.

Mark-Oliviye Fojiel paparazilər kraliçası Mimi Marşandın yaxın dostlarından biridir. Bu sonuncu, Bestimaj foto agentliyinin rəhbəri və Purepeople saytının ortaq səhmdarı, milyarder Ksaviye Nielin vasitəsilə Makron cütlüyünün xidmətində duracaq. Bunlardan əlavə, Brijit Makron həm də TF1 telekanalının keçmiş məsləhətçisi, Numero 23 və Pink TV telekanallarının keçmiş patronu Paskal Huzelot, eləcə də Jan-Lui Borlonun həyat yoldaşı, jurnalist Beatris Şönberq ilə də oturub durur. Bu sonuncu, televiziya jurnalisti Emmanuel Şenlə birlikdə, rejissor Pier Hürelin çəkdiyi Makron, meteor strategiyası sənədli filminin prodüseridir. Bu film 2016-cı ilin payızında France 3 telekanalında yayımlanır. Əri prezident seçiləndən sonra birinci xanım Brijit Makron televiziya, teatr və kino dünyasından olan bu məşhur adamlarla görüşməkdə davam edir. Kraliça sarayda istədiyi kimi əylənir. Onun prezident ərinin bu məclislərdə iştirak etməyə həmişə vaxtı olmasa da, arvadının bu məşhur dostlarına diqqət göstərməkdən, onlara kompliment deməkdən çəkinmir. Belə ki, 2018-ci ilin may ayından etibarən prezident Makron, arvadının homoseksual dostu, yazıçı Filip Bessonu Fransanın Los Anceles şəhərindəki konsulu təyin etmək qərarına gəlir. (!) Bu qərar Xarici İşlər Nazirliyində diplomatların böyük qəzəbinə səbəb olur və nəticədə, dövlət şurası bu qərarı ləğv edir. Hələ bu harasıdır, son kadr dəyişikliyi zamanı Emmanuel Makron çox ciddi şəkildə arvadının başqa bir dostunu, homoseksual jurnalist Stefan Berni Fransanın Mədəniyyət naziri təyin etməyi planlaşdırır.

# YELİSEY SARAYINDA PƏRDƏARXASI MÜHARİBƏ

Belə bir kontekstdə hər işə burnunu soxan, hamıya göstəriş verən, sözün əsl mənasında, sarayda özünü kraliça kimi aparan Brijit Makronla prezidentin gənc xüsusi müşaviri İsmael Emelien arasında gərginlik yaranır. Əslində, bu gərginlik onların arasında çoxdan hökm sürür – bu iki adam heç vaxt bir-birini sevməyib. Onların ikisi də siyasi və emosional tərəfdən Emmanuel Makronla yaxın olduqlarından, biri digərini prezidentə qısqanır. "Heç bilmirəm Emmanuel bu İsmael  Emeliendə nə görüb?", – deyə Brijit Makron müntəzəm olaraq yaxın dostlarının arasında Emelienin kölgəsini qılınclayır. İqtisadiyyat Nazirliyinə siyasi müşavir kimi gələn gündən İsmael  Emelien istədi-istəmədi Makronun arvadı ilə dil tapmalıydı, ancaq alınmadı. 2016-cı ilin əvvəlindən Brijit Makron İsmael Emelienin yerinə adam axtarır ki, onu nazirlikdən uzaqlaşdırıb, təzəlikcə yaranan "Hərəkətdə!" hərəkatına göndərsin. Bundan sonra Publicis şirkətinin rəhbəri Moris Levi Makron cütlüyünə məsləhət görür ki, onda İsmael Emelienin yerinə əvvəllər LVMH firmasında və Bollore qrupunda çalışmış Silvan Fortu siyasi müşavir təyin etsin. Beləliklə, gələcək birinci xanımla yeni müşavir arasında yaxşı münasibətlər yaranır... ancaq hələlik.

Yelisey sarayının "Dialoq və xatirə" üzrə xüsusi müşaviri təyin olunmamışdan əvvəl Silvan Fort, gələcək prezidentin namizədlik kampaniyasına mətbuat direktoru kimi qoşulur. O zaman gələcək birinci xanım onun intellektual baqajına və klassik mədəniyyətinə vurulur. Gəncliyində opera müğənnisi olan Fort, həm prestijli Normal Yüksək Məktəbinin məzunu, həm də Almaniya mədəniyyəti və tarixi üzrə gözəl mütəxəssisdir. Onun siyasi profili sağçıdır. 2011-ci ildə bu adam Nikola Sarkozinin Ali Təhsil Naziri, Patrik Buissonun (2007-2018-ci illərdə Milli tələbələr Federasiyasının Vitse-prezidenti) sevimlisi Loran Voqiyez

ilə yaxınlıq edib. Həmin il o, Vivendi şirkətinin kiçik "Fortu qrupuna" daxil olur ki, Nikola Sarkozinin ikinci dəfə prezident seçilməsinə dəstək olsun. Bu qrupda o, sağçılar partiyasından olan məşhur animator Qiyyom Peltiye ilə Nikola Sarkozinin sağ əli, onun çıxışlarını yazan Kamiy Paskal, eləcə də TF1 televiziya kanalının iki keçmiş jurnalisti Şarl Vilnöv və Etiən Muqot ilə tanış olur. Ancaq Sivan Fortun indiki seçimi o qədər də təəccüblü deyil. 2016-cı ilin iyul ayında Emmanuel Makron mətbuat xidmətində çalışan Robert Zaraderə etiraf edir ki: "Kampaniyamız ancaq sağçılarınköməyi ilə qalib gələcək...". Bir neçə həftə sonra Makron sifətində riyakar bir təbəssümlə Püy dü Fu şəhərinə gedib Filip dö Vilye (Yazıçı, siyasi xadim, Avropa deputatı, 1994-2018-ci illərdə Fransa hərəkatı partiyasının baş katibi) ilə görüşür. Belə çıxır ki, gələcək prezident, vitse-prezident tərəfindən mükəmməl şəkildə təlim alıb.

Brijit Makron ilə İsmael Emelien arasında müharibə hələ də bitməyib. 2016-cı ilin payızında bu missiya icraçısı seçicilərlə sorğu sualdan sonra öz qəhrəmanına (Makron) yaxınlaşıb ona tövsiyə edir ki, arvadının ipini bir az yığsın və hər dəfə onu camaatın gözünə soxmasın.

"... O vaxt Brijit hamı tərəfindən şou göstərən bir artist, ancaq bahalı brend paltarlar geyinən, taxdığı daş-qaşları ilə varlı olduğunu reklam edən bir adam kimi özünü aparırdı...", – deyə onlara yaxın olan bir adam qeyd edir. Bütün bu atmacalara, bu tənqidlərə baxmayaraq namizəd Makron həyat yoldaşına heç bir söz demir. Ancaq bununla belə, gələcək prezident xüsusi məsləhətçisi İsmael Emeliendən də ayrılmaq istəmir. Makron, necə deyərlər, iki daş arasında qalır.

Göründüyü kimi onun iki – biri rəsmi, o biri qeyri-rəsmi – yaxın siyasi məsləhətçisi arasında əsl müharibə gedir: "Hər işə ciddi yanaşan, hər şeyə nəzarət edən Emelien, Brijitin ona dəstək olmamasını, ümumiyyətlə, onu saymamasını həzm edə bilmirdi...", – deyə cütlüyün yaxın dostlarından biri ovaxtkı təəssüratlarını bizimlə bölüşdü. İş o yerə çatır ki, düşməninə daha ağır xəsarət yetirmək üçün Brijit, qəsdən Havas şirkətinin onurğa sütunu, İsmaelin qatı düşməni olan reklam agenti

Jak Seqelaya yaxınlaşır. Bu sonuncu, Emelienin dostu və yol göstərəni Stefan Fuks ilə də açıq-aşkar müharibə aparır. Seçkilərin birinci turunun axşamı, namizədin kampaniyasının komandası məşhur La Rotonde restoranında (Bu restorana yığışmaq Brijitin ideyası idi) ilk turun nəticəsini bayram edəndə, İsmael Emelien gələcək prezidentin nahar etdiyi ikinci mərtəbəyə buraxılmır. (!)

Təbii ki, Brijitin göstərişi ilə. Namizədin arvadı heç vaxt razı ola bilməz ki, kampaniyanın başlanğıcında onu komandadan qovmağı təklif edən hansısa bir missiya icraçısı, birinci turun qalibi ilə bir stol arxasında otursun... Bu azmış kimi bir neçə gün sonra gələcək birinci xanım yaxın bir rəfiqəsinin yanında düşmənindən ərinə yenə də şikayət edir: "İsmael Emelien yalquzaq kimi təkdir. Onun əlindən heç nə gəlmir...".

## BARIŞIQ QONAQLIĞI

Yelisey sarayında ofislərin neçənci mərtəbədə və harada yerləşməsi, prezidentin kimə yaxın, eləcə də kimin prezidentə yaxın olmağının simvoludur. İsmael Emelien ilə Stefan Fort sarayın qərb cinahındakı mərtəbədə, parlament müşaviri Stefan Sejurnenin kabinetinin yanındakı ofislərdə yerləşdirilir. Brijit Makron özü isə sarayın şərq cinahında, prezident cütlüyünün şəxsi mənzillərinin alt mərtəbəsində yerləşən ofisdə, onun kabinet direktoru Pier-Oliviye Kosta və onun aparat rəhbəri Tristan Brometin ofislərinin yanında məskən salır. Brijitin yaxın dostu Brüno Rojr-Peti prezidentin müşaviri təyin olunanda, ona təbii ki, birinci xanımın ofisinin yanında kabinet verilir. Bir müddət sonra mətbuat tərəfindən "kampaniyanın təşviqat direktoru" kimi təqdim olunan Jan-Mari Jirie birinci xanım tərəfindən işdən azad olunub Yelisey sarayından qovulur. Niyə, nə səbəbə? Ona görə ki, prezident cütlüyü Yelisey sarayına yenicə köçəndə, bu adam Brijit Makrona və onun komandasının üzvlərinə sarayın "yaxşı" mərtəbələrində yer ayırmamışdı. Yeliseydən qovulan Jirie Daxili İşlər Nazirliyində, Jerard Kollombun yanında özünə yeni iş tapacaq. O, vaxtilə Lion şəhər meriyasında Kollombun kabinet direktoru olmuşdu.

Hakimiyyətə gələndən sonra Brijit Makronun sayıqlığı birə beş artır. Və bütün konvensiyalara, bütün protokollara və etiketə zidd olmağına baxmayaraq, prezidentin arvadı bir neçə nazirlə, xüsusilə də Milli Təhsil naziri Jan-Mişel Blanke ilə birbaşa kontakta girməkdən çəkinmir. Keçmiş Fransız dili müəllimi üçün Milli Təhsil Nazirliyi onun şəxsi yaylağıdır. "Emmanuel Makron belə şeylərə tamamilə etinasız yanaşır", – deyə nazirlərdən biri etiraf edir. Actes Sud nəşriyyatının direktoru Fransua Nysseni Mədəniyyət naziri təyin etmək Emmanuel Makronun ağlına da gəlməzdi – bunu prezidentə arvadı təklif etmişdi. Brijit onu

Franklin küçəsindəki liseydə müəllimə işlədiyi vaxtlardan tanıyırdı. Yelisey sarayına ayaq basandan, birinci xanımın daxilində yalnız bir şey dəyişməyib: onun İsmael Emelienə qarşı nifrəti. 2018-ci ilin yazında Yelisey sarayında onları barışdırmaq üçün dəbdəbəli bir nahar təşkil olunur. Ancaq məclis çox soyuq və darıxdırıcı keçir...

# SEÇKİ KAMPANİYASININ PULLARI

Makronun seçki kampaniyasının komandası ağır təzyiq altındadır. 2017-ci ilin mart ayının sonunda jurnalistlər hələ ki, ancaq bir şeylə maraqlanırlar: Makron heç bir partiyadan deyil – nə sağçılara aiddir, nə də solçulara. Bəs onun prezidentliyə namizədlik kampaniyasının pulları haradan və necə gəlir? Və ən başlıcası, bu kampaniya neçəyə başa gəlib? Mart ayının 25-də mətbuat işçilərindən biri Qrequar Devo e-mail vasitəsi ilə belə bir sual verir: "İsmael, Silvan, hər şeyə "ok" demək olarmı? Axı jurnalistlər rəqəm tələb edirlər. Onlara rəqəmləri olduğu kimi necə göstərə bilərəm?". Sonra bu qəribə və təəccüblü e-mail vasitəsilə onu da öyrənirik ki, kampaniyaya keçirilən pulların ümumi məbləği 11 milyon avro olub, ancaq təklif olunub ki, bu rəqəmi azaltsınlar: "... Mətbuata deyərsiniz ki, ümumi məbləğ ancaq 10 milyon avrodur!".

Belə çıxır ki, orta ianə 250 avro olub. Amma bunu jurnalistlərə söyləmək olmaz: "Biz belə şeyləri heç kimə demirik", – deyə kampaniyadan xəbər gəlir. Komandanın bütün üzvləri, xüsusilə İsmael Emelien iddia edir ki, "orta ianə" cəmi-cümlətanı 50 avro olub. O dəqiqə hiss olunur ki, kampaniya üzvləri Fransada çoxunun "varlıların namizədi"

adlandırdığı Makronun imicini qorumaq istəyirlər. Paralel olaraq iddia olunur ki, 5000 avrodan yuxarı ianə verənlərin sayı cəmi-cümlətanı 631 nəfərdir. Bu da ümumi məbləğin cəmisi 1,7 faizini təşkil edir. Burda yenə də varlıların kampaniyanın büdcəsində oynadıqları rolun əhəmiyyətini azaltmağa cəhd olunur. İki ildən sonra JDD jurnalı sayəsində məlum olacaq ki, kampaniya zamanı 5000 avrodan çox ianə verənlərin sayı 913 (!) nəfər olub və onların müqabilində kampaniyanın xəzinəsinə nə az, nə çox, düz 6,3 milyon avro pul keçirilib, yəni ümumi məbləğin 48 faizi!.. Pis deyil.

Heç kəsdən gizli deyil ki, rəqəmləri necə gəldi dəyişmək olar. Kampaniyanın xəzinəsi ilə məşğul olanlar, bu teoriyadan istifadə etmək üçün "fake news" dövrünü gözləmədilər. Hiss olunur kampaniya zamanı Makronun komandası yaxşıca kef eləyib. Mart ayının 14-ü ilə 27-i arasındakı e-mail mübadiləsində, kampaniyaya keçirilən "ümumi ianə" e-mail göndərənin əhval-ruhiyyəsindən asılı olaraq, 8 milyonla 11 milyon arasında qalxıb enir... (!) Sonradan dövlət mətbuat katibi keçən Benjama Qrivo Makronun kampaniyasının mətbuat xidmətinin direktoru Sibet Ndaya belə bir sual verir: "Sibet, sən özün demədin ki, Kristianın (Kristian Darnyat – kampaniya zamanı ianəyə nəzarət edən adam) razılığı ilə bütün jurnalistlərə 8 milyon deyəcəyik?". Cavab birmənalıdır: "Bəli, tamamilə doğrudur. 8 milyon, 9,3 milyon yox... Biz ən aşağı rəqəmi deməliyik...". Göründüyü kimi bu adamlar utanıb qızarmadan, ianə statistikasını istədikləri kimi dəyişirlər.

Bu məsələdə qaranlıq qalan digər bir şey də var: JDD jurnalının yazdığına görə, Emmanuel Makronun komandası siyasi kampaniyaların maliyyələşdirilməsinə nəzarət edən Milli Komissiyaya (CNCCFP) hesabatında bildirib ki, seçki kampaniyasına 74 702 nəfər şəxs ianə verib. Çox qəribədir ki, mart ayının sonunda, bu rəqəm yalnız 35 000 idi... Göründüyü kimi bu rəqəmlər qətiyyən bir-birinə uyğun gəlmir, bu

qədər böyük fərq heç vaxt ola bilməz! Ona görə heç də təəccüblü deyil ki, niyə Ədliyyə Nazirliyi bu ianələri dərindən yoxlamağa qərar verdi. Bundan sonra 2018-ci ilin noyabrında Paris prokurorluğu ilkin istintaq işinə başladı – müstəntiqlər, xüsusilə 2017-ci ildə "Hərəkətdə!" hərəkatına köçürülən 144 000 avronun haradan gəldiyini araşdırmağa başladılar. Ancaq bu istintaq heç bir nəticə vermədi – halbuki qanuna görə bu məsələ bütün incəliklərinə qədər araşdırılıb xalqa çatdırılmalıydı. Neynəmək olar... bu, Makronun seçki kampaniyasının maliyyələşdirilməsi ilə bağlı yeganə müəmmalı məsələ deyil...

## MALİYYƏLƏŞDİRMƏDƏN HƏBSXANAYA

Siyasətdə pul qalib gəlməyin sinir sistemidir. Onsuz heç nə eləmək mümkün deyil. Keçmiş investisiya bankiri Emmanuel Makron bunu çox yaxşı bilir. Siyasi partiyaların və seçki kampaniyalarının mövcud olan maliyyələşdirmə qaydalarına baxmayaraq, bu sahələrdə pullar çox vaxt gizli dövriyyə edir. ABŞ-dan fərqli olaraq, Fransada özəl şirkətin hər hansı bir namizədin seçki kampaniyasına pul keçirməsi 1995-ci ildən qadağan edilib. Bundan başqa, şəxsi ianələrə də limit qoyulub: ancaq 4600 avro prezidentliyə namizədin kampaniyasına, 7500 avro isə siyasi partiyanın hesabına keçirilə bilər. Beləliklə, Makron kimi nə siyasi partiyası, nə də ictimai maliyyə dayağı olan bir namizəd üçün pul problemi böyük əhəmiyyət kəsb edir.

2016-cı ilin sentyabrında "Hərəkətdə!" hərəkatının maliyyə assosiasiyasının prezidenti, keçmiş bankir Kristian Darnyat kampaniya fonduna toplanan ianələrə cavabdeh olan bir şəxs kimi hərəkatın pul tapmaq strategiyasını, elektron poçtu vasitəsilə göndərdiyi bir məktubda belə izah edir: “Biləndə ki, qanuna görə prezidentliyə seçki kampaniyasının xərcləri 22 milyon avronu keçə bilməz və biz bankdan

maksimum 9 milyon kredit ala bilərik... (namizəd seçkilərdə 5 faiz səs qazana bilsə, o krediti dövlət banka ödəyir) onda yerdə qalır haradasa 13 milyon “tapmaq”. Əgər bu rəqəmi 10 milyona yuvarlaqlaşdırsaq, o zaman 1333 nəfər adam tapmaq lazımdır ki, onların hər biri 7500 avro ianə versin...”.

Əvvəllər, Kristian Darnyat deyilən şəxs BNP bankının investisiya direktoru olub. Sonradan o hər şeyi atıb Makronun yaratdığı "Hərəkətdə!" hərəkatına qoşuldu. Bu adamı Makronla onların ortaq bir dostu – cibində Sosialist partiyasının biletini gəzdirən, Attali komissiyasının keçmiş üzvü Stefan Bujnah adlı bir bankir tanış edib. Kristian Dar-

nyatın mühüm və geniş bir şəbəkəsi var və o, öz qəhrəmanını (Makron) prezident eləmək üçün şəbəkəsindən gen-bol istifadə edir. O, Monako knyazlığının dövlət naziri (Baş nazirin ekvivalenti) yüksək səviyyəli dövlət qulluqçusu, əsli Nant şəhərindən olan Serj Telle ilə dostluq edir.

2016-cı ilin yazından prezidentliyə gələcək namizəd, hələ ki, Fransua Hollandın İqtisadiyyat naziri olan Makron, gələcək kampaniyasına vəsait tapmaq üçün nazirlikdə tez-tez qəbullar və şam yeməkləri təşkil edir. Bu sahədə Makronun tayı-bərabəri yoxdur. Dəvət olunan qonaqlara yaxınlaşıb onlarla bir-bir tanış olandan sonra, o, yavaş-yavaş gələcək planlarından danışır və əlavə edir ki, bu fəaliyyətə o, ancaq nazirlər kabinetindən istefa verdikdən sonra başlayacaq. 2016-cı il sentyabrın 8-də onun tərəfdarları Londonda HSBC investisiya bankının baş direktoru franko-livanlı Samir Asəfin evində böyük bir ziyafət təşkil edirlər. Bankirin geniş mənzilinə medianı, texnologiya və incəsənəti təmsil edən yüzə yaxın qonaq dəvət olunur. Onu da qeyd edək ki, o gecə Emmanuel bankirin evində yatır. Stol arxasındakı qonaqlardan biri Makrondan soruşanda ki, onun nəyi çatmır, hamının diqqət mərkəzində olan prezidentliyə gələcək namizəd birmənalı cavab verir: "Vaxt, istedad və pul". Sonra isə birbaşa mətləbə keçir: "Pul məsələsində məndə utanıb çəkinmək yoxdur". Görünür, ziyafətdəki London trayderləri, eləcə də iş adamları, onun belə açıq və komplekssiz danışığını yüksək qiymətləndirirlər, çünki nəticədə, Makron Britaniya paytaxtından düz 872 000 avro ianə alacaq! Bu məbləğ bütövlükdə Fransanın on ən böyük əyalət şəhərindən göndərilən ianələrdən çoxdur. Makron, həqiqətən də, komplekssiz adamdır. Sentyabrın sonunda onun keçmiş həmkarlarından biri, Rotşild bankının baş direktoru Oliviye Peku şəxsən öz adından Parisin mərkəzində Yelisey tarlalarının yaxınlığında yerləşən Terrasse 50 restoranında, dəbdəbəli şam yeməyi təşkil edir. Noyabrın 15-də elə həmin restoranda müşavir Matyö Len və keçmiş nazir Reno Dütre biznes sahəsinin bir sıra nümayəndələrinin iştirakı ilə yeni bir dəbdəbəli şam

yeməyi təşkil edirlər. Bu sonuncu iki nəfər, HSBC bankının beynəlxalq əlaqələrlə məşğul olan adamlardan biri Kristian Dezeqlis ilə birlikdə, dekabr ayının 4-ü ilə 6-sı arasında Makronun Nyu Yorka səfərini də təşkil edirlər. Bu üç gün ərzində gələcək namizəd Amerikada, aşağısı altı çox vacib görüşdə iştirak edəcək.

2017-ci ilin yanvar ayının əvvəlindən Makronun maliyyə ilə məşğul olan komandası bərk narahatlıq içindədir. Nəyə görə? Ona görə ki, Kristian Dezeqlisin bahalı restoranlarda təşkil etdiyi çoxsaylı və dəbdəbəli şam yeməklərinə, eləcə də ora dəvət olunan müxtəlif iş adamlarının iştirakına baxmayaraq, maliyyə qrupu Makronun prezidentlik kampaniyasına lazım olacaq vəsaitin hamısını hələ də toplaya bilməyib. Elektron poçtla göndərilən bir məktubdan bəlli olur ki, 31 dekabr 2016-cı il tarixində, o bahalı restoranlarda təşkil olunan dəbdəbəli şam yeməkləri sayəsində cəmi-cümlətanı 3 482 000 avro əldə edilib. Bu məbləğ xəzinədə olan pulların yalnız 69 faizini təşkil edir. (Kampaniyaya 5000 avrodan çox pul keçirən 400 nəfərin verdikləri ümumi məbləğ də daxil olmaqla). Maliyyə qrupunun təqdim etdiyi sənədə əsasən, 2016-cı ilin dekabr ayının sonunda Makron bahalı restoranlarda təşkil olunan dəbdəbəli şam yeməkləri sayəsində toplanan 3 482 000 avro da daxil olmaqla, ümumilikdə, təxminən, 5 000 000 avro toplayıb. Təbii ki, bu məbləğə Makrona simpatiya bəsləyən iş adamlarının internet vasitəsilə kampaniyanın fonduna keçirdikləri pullar da daxildir. Makronun maliyyə ilə məşğul olan komandasını narahat edən odur ki, sentyabr ayında Kristian Dezeqlis demişdi ki, ilin axırına minimum 10 000 000 avro tapacaq. Onun dediyi alınmadı...

Bununla əlaqədar olaraq, ilin əvvəlindən kampaniyanın maliyyə qrupu strategiyanı dəyişir: pul toplamaq ümidi ilə varlı adamları mütəmadi olaraq bahalı restoranlara dəvət edib onlara dəbdəbəli qonaqlıqlar vermək üsulu arxa plana keçir. 2017-ci ilin yanvar ayının əvvəlindən kampaniyanın maliyyə qrupu gələn beş ay ərzində xəzinəyə 2 000 000

avro əlavə pul toplamağı planlaşdırır. (350 000 avro yanvarda, 800 000 fevralda, 500 000 martda, 175 000 apreldə və yenə 175 000 may ayında) Bundan başqa, maliyyə qrupunun üzvləri belə qərara gəlirlər ki, kampaniyaya (ikinci tur da daxil olmaqla) lazım olacaq büdcənin yerdə qalan 11 000 000 avrosunu bankdan kredit götürsünlər.

Onu da qeyd etmək lazımdır ki, ilin əvvəlində Makronun yaratdığı "Hərəkətdə!" siyasi hərəkatının, eləcə də onun seçki kampaniyasının real maliyyə vəziyyətini hələ ki, çox az adam bilir. Telefon danışığı zamanı kampaniyanın kommunikasiya direktoru Silvan Fort həmsöhbətinə təsdiqləyir ki, maliyyə qrupu kifayət qədər pul tapa bilmədiyi üçün onların vəziyyəti o qədər də yaxşı deyil və elə o dəqiqə də özünü təmizə çıxarır: “Bu normaldır... Makron Paris bursunun (CAC 40) namizədi deyil ki, çırtma vurmaqla kampaniyasına lazım olan məbləği bir göz qırpımında tapsın...”. Düzdür, namizədin maddi vəziyyəti 2017-ci ilin əvvəlində hələ ki zəifdir, bu da təbiidir, çünki Makronun heç bir partiyası olmadığından, o, başqa namizədlərdən fərqli olaraq, partiya üzvləri tərəfindən edilən maliyyə dəstəyindən məhrumdur. Emmanuel Makronun kampaniyasına keçirilən pulların əksəriyyəti, Londonda gördüyümüz kimi, xarici ölkələrdə yaşayan və orada bank sistemində çalışan varlı adamların sayəsində əldə olunub.

## BANKLAR ONLARIN ÜMİDLƏRİNİ DOĞRULTMUR

2016-cı il dekabrın 16-da Makronun Parisin 15-ci rayonunda seçicilərlə uğurlu görüşündən sonra və əsas da Sosialist Partiyasından (PS) prezidentliyə namizədliyini irəli sürməyə çalışan Manuel Vallsın uğursuzluqları nəticəsində, Makron 2017-ci ilin əvvəlindən başlayaraq yavaş-yavaş solçular partiyasının (PS) üzvlərinin simpatiyasını qazanmağa başlayır. Özü də onlardan Makrona həm mənəvi, həm də maddi dəstək gəlir. Məsələn, Jan-Jak Oqier kimi bir adam qeyri-rəsmi şəkildə Makronun kampaniyasında olan Kristian Darnyat, Emmanuel Miqel və Sedric O. kimi "ağır çəkili" adamlarla birgə fəaliyyətə başlayır. Bu Oqier də kim olsa, yaxşıdır? 2011-ci ildə Fransua Hollandın namizədlik kampaniyasının xəzinədarı! Özünü heç vaxt gözə soxmayan, adətən, kölgədə qalmağı xoşlayan Jan-Jak Oqier çox güclü və bacarıqlı, eləcə də yaxşı çevrəsi və dəyərli şəbəkələri olan bir adamdır. Özünü hər yerdə sosial-liberal kimi qələmə verən bu şəxs, əvvəllər uzun müddət Parisin G7 taksi şirkətinin baş direktoru vəzifəsində işləyib. Bu şirkətin prezidenti isə 1970-ci illərdə Sosialist Partiyasının əsas fiqurlarından biri Fransua Mitteranın kabinet direktoru olmuş Andre Russele idi. Sedric O. elektron poçtla göndərdiyi məktublardan birində qeyd edir ki, yanvar ayında kampaniyaya hansı yollarla pul tapmaq məqsədi ilə təşkil olunan yığıncaqda Fransua Hollandın başqa bir dostu, onunla əsgərlikdə bir yerdə olmuş, Numéricable internet şirkətinin baş direktoru Bernard Qotta və Jan-Jak Oqier da iştirak edib.

Düzdür, kənardan maddi dəstək alsa da, Makronun maliyyə komandası başqa böyük bir problemlə də üzləşir: məsələ burasındadır ki, 2016-cı il ərzində yığılan pulların bir hissəsi qismən xərclənib. Özü də bu problemdən kampaniya qrupunun tərkibində çox az adamın xəbəri

var. Ona görə də yanvarın 20-də Sedric O. İsmael Emelienə və Lüdovik Şakerə göndərdiyi e-maildə onlara bildirir ki: “baxın ha, sizin 1000 avrodan az ianə almağa ixtiyarınız yoxdur; özü də alınan bütün pullar xəzinəyə təhvil verilməlidir”. Kampaniyanın daxilində hamı bir-birinə ürək-dirək verir, hamı bir-birini arxayın edir ki, maliyyə qrupu tezliklə bankdan kredit götürüb büdcəni bağlayacaq. Bir neçə ay əvvəl – 2016-cı ilin mayında Makron hələ əhali arasında favorit olmayanda – "Hərəkətdə!" hərəkatının xəzinədarı Sedrik O. büdcəni bağlamaq üçün bankdan kredit götürmək hipotezinə şübhə ilə yanaşmışdı: “Mən kampaniya üçün bankdan kredit götürməyin tərəfdarı deyiləm. Belə şeyə əl atan namizəd ümid edir ki, birinci turda beş faizdən çox səs toplayıb kampaniyaya sərf olunan məbləğin əlli faizini dövlət tərəfindən kompensasiya etdirəcək...”. O bu fikrini elektron poçtu vasitəsilə Kristian Darnyata, Emmanuel Miqelə, Lüdovik Şakerə və Ismael Emelienə göndərir.

Bu azmış kimi kredit götürmək üçün Makronun komandası ilə banklar arasındakı danışıqlar heç bir nəticə vermir. Emmanuel Miqelin optimist proqnozlarının əksinə olaraq (o nəzərdə tutmuşdu ki, krediti fevral ayında götürsün) müraciət olunan banklar – xüsusilə Bred (BPCE qrupu) və Crédit Mutuel Ile-de-France – xeyli çək-çevirdən sonra, nəhayət, kredit verməyə razı olurlar – ancaq bir şərtlə: maksimum 8 000 000 avro... özü də indi yox, seçkilərin birinci turuna iyirmi gün qalmış. Ona görə də yanvar ayı ilə aprel ayı arasında "Hərəkətdə!" hərəkatı məcbur olub qənaətlə dolanır, üstəlik, namizədin İqtisadiyyat Nazirliyində və Lion şəhərində təşkil olunan seçkiqabağı mitinqləri ərəfəsində. Belə bir şəraitdə kampaniyada çalışan sıravi xidmətçilərin təminatını necə ödəyəsən? O yazıqlar, görəsən, əmək haqlarını vaxtında ala biliblər, yoxsa bunun üçün kampaniyanın axırını gözləyiblər? 2017-ci ilin yanvarından təbliğat afişalarını çap etmək üçün kampaniyanın ümumi işlər üzrə direktoru Qreqoir Potton Sosialist Partiyasından

olan namizədin kampaniyası üçün işləyən PGE mətbəəsi ilə danışıqlar aparır. Elektron poçt mübadiləsindən aydın olur ki,  Qreqoir Potton mətbəəyə afişaların çapı üçün cəmi-cümlətanı 100 000 avro avans təklif edib. […]. Məlumat üçün: Sosialist Partiyası (PS) 2011-ci ilin iyun ayından noyabr ayına kimi 1 000 000 avro avans verib. Kampaniya üçün bu əlverişli razılaşmaya baxmayaraq, Sedrik O. etiraz edir: "Açığını deyim ki, 100 000 avro ödəsək, bizim xəzinədə böyük problem yaranacaq...", – deyə cavab verir. Kampaniyanın kommunikasiya qrupunun üzvü Terri Daqzan bu işə müdaxilə edəndən sonra mətbəə afişaları avanssız çap eləməyə razı olur.

Prezident olmağa can atan gənc namizəd elə öz ölçüsündə, öz çəkisində olan başqa bir problemə də çarə tapmalıdır: məsələ burasındadır ki, banklar onun cəmisi doqquz ay əvvəl tələm-tələsik, necə deyərlər, iki daşın arasında yaratdığı "Hərəkətdə!" hərəkatına qəti etibar eləmirlər. Niyə? Ona görə ki, bu qrupun kifayət qədər vəsaiti yoxdur! "Böyük bankların sahibləri Makron üçün heç bir şey eləmədilər. Onlar üçün birinci planda sağçılar partiyasından prezidentliyə namizəd Fransua Fiyyon idi...", – deyə kampaniyanın keçmiş bir əməkdaşı qeyd edir. Bir şeyi də nəzərdən qaçırmayaq ki, BPCE qrupuna daxil olan Bred bankı əvvəllər bir müddət Rotşild  bankında çalışan Fransua Perol tərəfindən idarə olunur. O ki qaldı Crédit Mutuel CIC bankı, o da çox nüfuzlu Rotşild bankında çalışan, özü də Makronun əsas dəstəkçilərdən biri Fransua Henronun müştərilərindən biridir. Əslində, bankdan kredit ala bilməməyin səbəbini Makronun kampaniyasındakı bəzi adamların diqqətsizliyi və onların işə ciddi yanaşmamaları ilə izah etmək olar. Hiss olunur ki, onlar banklarla danışıqlar aparmağı əvvəlcədən planlaşdırmamışdılar. Hamı elə bilirdi ki, bu iş çox asan başa gələcək. Başqa cür necə ola bilərdi ki? Onların qəhrəmanı hər gün həm Fransız mətbuatı tərəfindən, həm də beynəlxalq mətbuat tərəfindən təriflənib göylərə

qaldırılırdı. Ancaq onu da nəzərdən qaçırmaq lazım deyil ki, Kristian Darnyat Crédit Mutuel bankına çox tez müraciət eləmişdi: 2016-cı ilin noyabrında – hələ Makron  prezident seçkilərinə namizədliyi rəsmi elan etməmişdən əvvəl!.. Amma çox keçmədi ki, bir sıra praktiki suallar ortaya çıxdı. Kredit üçün müraciət olunan banklar tələb etdilər ki, Makron krediti şəxsən öz adına götürsün. Bundan başqa, sözügedən kreditlər üzrə sığorta məsələsi də ortaya qoyuldu...

## SANBALLI ADAMLARIN SIĞORTA MÜQAVİLƏLƏRİNƏ DƏSTƏKLƏRİ

Elə bu vaxt bir sıra sanballı adamların dəstəyi sayəsində Makronun komandası düşdüyü çətin vəziyyətdən çıxış yolu tapır. Makronlar ailəsinin yaxın dostu, advokat Jan-Mişel Darruas gələcək müqavilələr üçün onlara hüquq nöqteyi nəzərdən tayı-bərabəri olmayan məsləhətlər verir. Başqa bir yardım da komanda üçün həlledici rol oynayır: Siaci Saint Onore sığorta broker şirkətinin sədri Pier Donnersberqin sayəsində Emmanuel Makron Allianz sığorta şirkəti ilə 200 000 avro məbləğində şəxsi kontrakt bağlamağa müvəffəq olur. 1947-ci ildə Əlcəzairin Oran şəhərində anadan olan Donnersberq bir müddət jurnalist kimi fəaliyyət göstərəndən sonra Edmond dö Rotşild qrupunun dəstəyi ilə sığorta brokerinə çevrilib və bu sahədə xeyli var-dövlət əldə edib. Bu adam 2016-2017-cı illərdə Fransanın Baş naziri olan Bernard Qazanövün yanında dövlət katibi olan Jan-Mari Lö Qüen ilə dostluq edir. Bu sonuncu da, əvvəl Sosialist Partiyasında (PS) Manuel Vallsın prezidentliyə namizədliyini dəstəkləsə də, sonradan Makron tərəfə keçib. Bu strateji qrup 2015-ci ildən özəl kapitalda dünya liderlərindən biridir və Avropada, Şimali Amerikada və Asiyada 82 milyard dollar dövriyyəsi olan Ardian şirkətinə daxildir. Maliyyə sahəsində ağır çəkili qruplardan biri olan Ardian şirkəti, Forbes biznes jurnalı tərəfindən dünyanın ən nüfuzlu qadınlarından biri kimi təqdim edilən Dominik Seneqiye tərəfindən idarə olunur. Bu qadının çox geniş, qollu-budaqlı şəbəkəsi var. O, bir vaxtlar EDF (Fransanın Elektriki) şirkətinin prezidenti, eləcə də Milli Polisin Baş Direktoru Pier Joksun kabinet direktoru olmuş Fransua Russeli ilə də yaxındır. 2007-ci ildə Dominik Seneqiye, tərkibində olduğu Attali komissiyasının iclaslarının birində Emmanuel Makronla tanış olub. Söhbət əsnasında məlum olub ki, onların ümumi tanışları çoxdur. Məsələn, keçmiş diplomat, 2017-ci ilin fevralında Makronun

Əlcəzairə səfərinin təşkilində mühüm rol oynayan Fransua-Ayssa Tuazi. O da Ardian qrupunun yüksək səviyyəli rəhbərlərindən biridir, üstəlik, Yaxın Şərq və Asiya zonalarını idarə edir. Bundan başqa, Makrona qoşulmazdan əvvəl Emmanuel Miqel də əvvəllər Ardian şirkətində menecer kimi fəaliyyət göstərib. Necə deyərlər, dardır cahan, hamı-hamını tanıyır.

Bu çoxsaylı yardımlar sayəsində namizəd Makron, nəhayət, aprel ayının əvvəlində Bred bankından 4 000 000 avro məbləğində kredit götürür. Sonra bir o qədər də (4 000 000 avro) Crédit Mutuel bankından kredit alır. Ancaq bu 8 000 000 avro kifayət eləmir. Ona görə də aprelin 12-dən başlayaraq, Kristian Darnyat iki başqa bankla kontakta girir ki, prezident seçkilərinin ikinci turunu hazırlamaq üçün yenidən 2 700 000 avro məbləğində kredit götürsün. Xoşbəxtlikdən, bu dəfə birinci turdan qalib çıxan namizədin kampaniyasına bu kreditlər asanlıqla verilir. Nəhayət, Makronun maliyyə komandası bir az rahat nəfəs ala bilir. Onu da qeyd etmək lazımdır ki, 2017-ci ilin yanvarındakı proqnozların əksinə olaraq, namizədin üstünə yanvar ayı ilə mart ayı arasında xeyli ianə yağışı yağır! Belə ki, seçki kampaniyası cəmisi üç ay ərzində 5 000 000 avro əldə edir – halbuki 2016-ci ildə eyni məbləği toplamaq üçün düz doqquz ay lazım olmuşdu. Bu gözlənilməz ianələr vaxt itirmədən kampaniyanın kassalarına daxil olur. Təbii ki, belə bir məqamda bankdan alınacaq kreditlərə heç fikir verən də yoxdur. Bu, sözün əsl mənasında, möcüzədir!.. Ancaq Kristian Darnyat, Sedrik O. və Emmanuel Miqelin üstlərinə götürdükləri öhdəliklər hələ bitməyib. Onlar ekspertlərin köməyi ilə kampaniyaya keçirilən məbləğləri Kampaniyaların Hesabat Komissiyasına təqdim etməlidirlər ki, dövlətdən qismən kompensasiya ala bilsinlər. Bəzi müəmmalı görünən ianələrə baxmayaraq, (bu gün həmin o müəmmalı görünən ianələr haqqında dövlət prokurorluğu hələ də əlavə araşdırmalar aparır) Makronun maliyyə komandasının hazırladığı hesabat, qəribə görünsə də, Kampaniyaların Hesabat Komissiyası tərəfindən təsdiqlənir.

Bəs, görəsən, Emmanuel Makron prezident seçiləndən sonra kampaniyanın daxilində ona bu qədər sadiq olan, ona bu qədər kömək göstərən adamlar necə mükafatlandırılacaqlar? Kampaniya xərclərinə cavabdeh olan Sedrik O. və maliyyə qrupunda strateji mövqe tutan olan Emmanuel Miqel Yelisey sarayında biznes və ixrac üzrə müşavir təyin olunacaqlar. Onların bəxti gətirir, çünki Makron prezident seçiləndən sonra onlarla çiyin-çiyinə çalışan Kristian Darnyatı yaddan çıxarır. (?) Ancaq sonradan bu adam LREM (Respublika Hərəkətdə) partiyasının (keçmiş "Hərəkətdə!" hərəkatı) icra komitəsinə sadəcə üzv kimi qəbul olunur. Baxmayaraq ki, BNP Paribas bankının bu yüksək səviyyəli professional kadrı, namizəd Makrondan ötəri hər şeydən imtina edib onun kampaniyasına qoşulmuşdu ki, bu cavan oğlanı prezident eləsin, amma Makron dövlət başçısı seçiləndən sonra ona heç bir vəzifə təklif etmədi. Makronu namizəd olanda dəstəkləyən adamların heç biri prezidentin bu alçaq hərəkətini başa düşə bilmirlər. Darnyat, doğrudan da, onun üçün çox şey eləmişdi. İndi o, Siyasi Elmlər İnstitutda “geoiqtisadiyyat” müəllimidir. Makronun prezident kampaniyasında işləyənlər içərisində onun istifadə edib, sonra da cındır bir əski kimi kənara atdığı tək adam Kristian Darnyat deyil. Ondan başqa da prezident tərəfindən “unudulan” xeyli adamlar var. Prezident Makron hamıya eyni mesajı atır: məni sevən arxamca addımlamalıdır. Daha doğrusu, ya arxamca addımla, ya da gəbər...

# YA ARXAMCA ADDIMLA, YA DA GƏBƏR

Başqa cür necə ola bilərdi ki? Makron özü də etiraf etdi ki, o, prezidentliyi "oğurladı". 2016-ci ilin noyabrında prezidentliyə namizədliyini elan edəndə, əhali arasındakı rəsmi sorğulardan məlum olmuşdu ki, bu adam, ən yaxşı halda, yalnız 9 faiz səs toplaya biləcək... Buna baxmayaraq, bu adam dövlət başçısı seçildi – nəyin və kimin hesabına? Etiraf etmək lazımdır ki, Makron sağçılar partiyasının, eləcə də solçular partiyasının xeyli görkəmli şəxsiyyətlərini özünə tərəf çəkə bildi. Etiraf etmək lazımdır ki, Makron metodik şəkildə siyasi düşmənlərinin çevrələrindən və şəbəkələrindən istifadə edə bildi. Etiraf etmək lazımdır ki, Sosialist Partiyasından prezidentliyə namizədin bütün klanlarını, bütün şəbəkələrini ustalıqla ələ keçirib onu məhv elədi. Makron bu əməllərində çoxuna yaxşı təsir bağışlayan, çoxuna xoş gələn orijinal bir strategiyadan da istifadə etdi – prezident Fransua Hollanda olan nifrətindən! Düz beş il – Fransua Holland hakimiyyətə gəldiyi gündən hakimiyyətdən gedənə qədər – Makron ona kin-küdurət bəslədi və seçkilər zamanı, o, prezidentə olan nifrətini və kin-küdurətini oyuna qoyub onun müqabilində xeyli səs qazandı.

2016-cı ilin iyun ayında "Hərəkətdə!" hərəkatının yaranmasından bir neçə həftə sonra Emmanuel Makron Fransua Hollandın rəsmi məsləhət-

çilərindən biri olan Jülien Draya müraciətlə demişdi ki: "Fransua prezidentliyə ikinci dəfə namizəd olmayacaq, sən vaxtını boş yerə sərf edirsən...". İqtisadiyyat naziri prezident Hollanda olan nifrətini get-gedə daha açıq şəkildə göstərir. Aprelin əvvəllərində Amien şəhərində təşkil olunan seçicilərlə ilk görüşündən bir neçə gün əvvəl, nazir Makron prezident Hollandın gələcək kampaniyası üçün Yelisey sarayında təşkil olunan seminara gəlmir. O, yalnız bu münasibətlə verilən naharda iştirak edir. Ən başlıcası da odur ki, Hollandın komandası JDD jurnalına seminarda iştirak edənlərin adlarını verir. İqtisadiyyat nazirinin adı o siyahıda yoxdur...

İlin əvvəlindən (2017) Makron tərəddüd etmədən hara getdi, harada oldu, yeri gəldi, gəlmədi, prezident Hollandı tənqid atəşinə tutur. Qışın ortalarında prezidentlə Baş nazir Manuel Valls arasında terroristləri vətəndaşlıqdan məhrum edib-etməmək haqqında fikir ayrılığı yaranır. Təbii ki, öz aralarında – mətbuatda və ictimai yerlərdə yox. Düzdür, Makron Kristian Tobira (Ədliyyə naziri) kimi deyil. Amma gənc İqtisadiyyat naziri qəsdən belə bir söz-söhbət yayır ki, guya o bu məsəldə Baş nazir Manuel Vallsın mövqeyini dəstəkləmir. Əslində, bu çox real və düzgün bir mövqe idi. O dövrdə Makron, hər şeydən əvvəl, fürsətdən istifadə edib Hollanddan bezən sosialistlərin rəğbətini qazanmağa çalışırdı. Etiraf edək ki, əla texnika idi. Əslində, Makronun motoru lap çoxdan – 2015-ci ilin yayından işə düşmüşdü.

## LANKASTER HOTELİNDƏ GİZLİ GÖRÜŞLƏR

O vaxt bu məsələdən bir neçə nəfərin xəbəri vardı. Ancaq onun toy şahidlərindən biri, keçmiş Baş nazir Mişel Rokarda yaxın olan milyonçu Henri Hermand Makronu məcbur edir ki, prezident olmaq istəyini mümkün qədər tez ortaya çıxarsın.

Uzun illərdir ki, bu iki nəfər Hermandın ofisinin iki addımlığında, Parisin 8-ci rayonunun Lamennis küçəsində yerləşən Lankaster hotelinin restoranında bir yerdə ya nahar edir, ya da axşam yeməyi yeyirlər. Restoranda onlar üçün xüsusi bir salon ayrılıb – o salon ki, vaxtilə orada Marlen Ditriş, Qreta Qarbo və ya Bürt Reynold kimi məşhur artistlər nahar ediblər. Bu iki adam bir-biri ilə qeyri-rəsmi danışır, bir birinə "sən" deyə müraciət edir, hətta hərdən bir-biri ilə sərt mübahisələr də edirlər. Hermand gənc dostuna hər şeyi, o cümlədən onun həyasızlığını və tərsliyini bağışlayır, bəzən onu zarafatca "cavan canavar" deyə çağırır.

Bu sosial-liberal əvvəllər Mişel Rokarda maddi cəhətdən dəstək verib. Sonralar isə mətbuata, o cümlədən 1980-cil illərdə Le Matin de Paris qəzetinə, eləcə də Le Un jurnalına sponsorluq edib. Makronla Rokarddan başqa, Hermand müntəzəm olaraq Fransua Holland, Marisol Turan (2012-2017-ci illərdə Səhiyyə naziri), nadir hallarda Manuel Valls, həmçinin Sarkozinin naziri olmuş Kristian Blan, eləcə də sağçılar partiyasının nüfuzlu şəxsiyyətləri Dominik dö Villpənt və Jan-Lui Debre ilə də çörək kəsir. Bu insanın öz vərdişləri var. Belə ki, o hər cümə axşamı ya şəhər kənarındakı mülkünə qayıdır, ya Brehat adasındakı evinə gedir, ya da Mərakeşə – Tanjer şəhərindəki malikanəsinə uçur. Yayda bir-iki dəfə ikinci arvadı Beatrislə birlikdə Brijit və Emmanuel Makron ilə nahar edir. İki dost tək qalanda, nahardan sonra ya siqar çəkir, ya da yaşıl şartröz likörü içirlər. Onların axşam yeməyi bəzən gecə saat 2-yə qədər uzanır. Belə vaxtlarda, ikisi də qalstuklarını çıxarıb kənara atır, sonra "cavan canavar"ın gələcəyi haqqında danışırlar. Onlar bir-birinə etibar edir, bir-birinə güvənir və bir-birini dəstəkləyirlər. Ancaq bəzi

sirlər bu dəbdəbəli restoranın divarları arasından çıxır: “Görəcəksiniz, günlərin bir günü o, (Makron) prezident olacaq”, – deyə Hermand hələ Fransua Hollandın beş illik hakimiyyətinin ilk ilində bu sözləri yaxın bir adamının qulağına pıçıldayır.

Qətiyyən təəccüblü deyil ki, Makron İqtisadiyyat naziri keçən kimi, 2003-cu ildə Mişel Rokard, Dominik Stros-Kan və Pier Moskoviç tərəfindən yaradılmış “Avropa solçuları” assosiasiyasının şəbəkələrinin bir hissəsini ələ keçirir. Üç ildən sonra bu birliyə Marisol Turan başçılıq edir. Orada 2006-cı ildə Dominik Stros-Kanın namizədliyini dəstəkləyən gənclərə rast gəlmək olar. İsmael Emelien, Sedric O, Benjamin Qrivo və Stanislas Qerini artıq ordadırlar. Bu adamların, demək olar ki, hamısı 2015-ci ilin payızında – Makron "Hərəkətdə!" hərəkatını yaradanda – ona qoşulacaqlar. Hələlik isə bu gənc nəsil, Dominik Stros-Kan Sosialist Partiyasının birinci katibi Martin Obriilə mübarizədə uduzandan sonra, nazirlər kabinetinin strategiyasını tənqid edən Pier Moskoviçini dəstəkləyəcək. Ancaq buna baxmayaraq, ən yaxşı kartlar Makronun əlindədir. O, Hollandın ətrafındakı Jan-Pyer Juyeni, (Ümumi Maliyyə İnstitunun direktoru) eləcə də keçmiş Baş nazir Mişel Rokardın siyasətini dəstəkləyən Jerom Kauzakı yaxşı tanıyır. 2010-cu ildən Milli Assambleyada maliyyə komissiyasının direktoru olan bu adam da iddialı gəncə (Makron) kifayət qədər simpatiya bəsləyir. 2011-ci ilin iyun ayında Makron Mişel Rokardı, Jerom Kauzakı və 2012-ci ildə prezidentliyə namizədliyini irəli sürən Fransua Hollandı və onun həyat yoldaşı, jurnalist Valeri Trierveyeri şam yeməyinə dəvət edir. “Makron özü, heç vaxt heç bir kollektiv yarada bilməyib, o, ancaq qurulmuş, hazır şəbəkələrdən istifadə edib”, – deyə onun köhnə həmkarlarından biri acı-acı etiraf edir. 2017-ci il prezident seçkiləri gələndə, bu sosialist şəbəkələrin hamısı, sözün əsl mənasında, solçu olmasalar da, Sosialist Partiyasından olan namizəd Benua Hamonu yox, "Hərəkətdə!" hərəkatının banisi, heç bir partiyası olmayan Makronu dəstəkləyəcəklər.

## RƏQİBLƏRƏ QARŞI MÜBARİZƏ

"Hərəkətdə!" siyasi hərəkatını yaratmaq fikrinə düşəndə, Makron bu arzusunu ancaq iki nəfərlə bölüşdü: 2007-ci ildə Attali komissiyasında tanış olduğu Sanofi şirkətinin prezidenti Serj Veynberq və biznes advokatı Jan-Mişel Darrua ilə. Onların hər iki-si bu iddialı gənci Rotşild bankının maliyyə müfəttişi Fransua Henrota tapşırırlar. Darrua, Rotşild bankının prezidenti David dö Rotşildin qardaşı qızı Bettina Rems ilə ailə həyatı qurub. Bundan başqa, Veynberq və Darrua Fransanın siyasi dünyasını çox yaxşı tanıyırlar. Onlar ikisi də keçmiş Baş nazir Loran Fabiüsün yaxın adamlarıdır. Biri 1980-ci illərin əvvəllərində onun kabinet direktoru olub, digəri isə vaxtilə onun vəkili. 2016-cı ilin mart ayında Fransua Hollandın Xarici İşlər naziri, Konstitusiya Şurasının sədri vəzifəsinə təyin olundu. Beləliklə, bu adamın siyasi karyerası başa çatdı. Təbii ki, onun şəbəkələrini kimsə özünə götürməlidir. Bu, Makronun gözündən yayınmadı. Xüsusilə Loran Fabiüs "yabanı çiyələk" adlandırdığı Fransua Hollandın prezident seçkilərindəki qələbəsini həzm edə bilmədiyindən, bütün gücünü balaca Emmanuelin siyasi macərasına həsr etməyi qərara alır. Paralel olaraq, zirvələri fəth etmək arzusunda olan bu iddialı gənc bankir, (Makron) keçmiş Baş nazirin qanadının altına yığdığı adamlardan istifadə etməyə başlayır. Məsələn, vaxtilə Fabiüsün dövlət katibi olmuş Florans Parli və onun əri, APE (Dövlət İştirakı Agentliyi) şirkətinin direktoru Marta Vialdan, eləcə də Fabiüsün şəbəkəsindən olan Müriel Penikodan. (1991-ci ildə Martin Obri Əmək naziri olanda, bu sonuncu, onun kabinetində işlədiyinə görə hamı ona keçmiş Əmək nazirinin yaxın rəfiqəsi kimi baxırdı)

Makronun sosialist texnokratiyasından ələ keçirdiyi şəbəkələr, vaxtilə Stros-Kanı dəstəkləyən gənclərin bandasından qat-qat mürəkkəbdir. Yelisey sarayının gələcək baş katibi Aleksi Kohler də İqtisadiyyat Nazirliyində əvvəl Moskoviçinin, sonra da Makronun kabinet direktoru olmamışdan əvvəl Fabiüsün şəbəkələrində olub. Bir vaxtlar Aleksi

Kohler Sedrik O. ilə birlikdə Loran Fabiüsün rəhbərlik etdiyi bir qrupda çalışıb. O vaxt bu qrup Fransua Holland prezident seçiləndən sonra ilk yüz gündə ölkə üçün nə işlər gördüyünü araşdırırdı. Moskoviçi və Fabiüs kimi texnokratlar neoliberalizm və qloballaşmaya ideyalarını dəstəkləyirlər, özü də çoxdan. 1980-ci illərdə Fransua Mitteranın Baş naziri olanda, həmin Loran Fabiüs, nəinki Fransanın maliyyə bazarlarını liberallaşdırmışdı, hətta ölkə bazarlarının qapılarını Avropa rəqabətinin üzünə açmışdı.

Paralel olaraq, Makron rəqiblərini çıxıb qurutmaqda davam edir. Bu məqsədlə o, 2007-ci il prezident seçkilərindən bəri mərkəz solçuları və mərkəz sağçıları canı-dildən müdafiə edən, yüksək səviyyəli siyasi məmurların birləşdiyi Qrak qrupunu da ələ alır. Bu qrupda kimlər yoxdur? Jan-Pierr Juyet (Fransua Hollandın prezidentliyi zamanı Yelisey sarayının Baş katibi), Stefan Bujnah (Eronext şirkətinin prezidenti və baş direktoru), Fransua Villeroy dö Qalo (Fransa Bankının prezidenti və baş direktoru), Erik Lombard (Dövlət Əmanət kassasının prezidenti və baş direktoru), Nikola Düfurq (İctimai İnvestisiya Bankının (BPI) prezidenti və baş direktoru), Bernard Spitz (Fransa Sığorta Federasiyasının prezidenti və baş direktoru), Qiyyom Hannezo (Rotşild bankının keçmiş ortağı) və hətta Denis Oliven (FNAC mağazasının və Avropa-1 radiosunun keçmiş baş direktoru, bu gün Çex milyarderi Daniel Kretinskynin media şöbəsinin rəhbəri). Hollandın beş illik hakimiyyəti dövründə bu yüksək səviyyəli məmurların hamısı Baş nazir Manuel Vallsa simpatiya bəsləyirdilər. 2015-ci ilin noyabrında – Parisdə islamçı terroristlərin Bataklan konsert zalına hücumundan bir neçə gün sonra – Emmanuel Makron Fransanın texnokrat və kapitalizm dünyasının bu möhtərəm nümayəndələri qarşısında onların qəlbini oxşayan bir çıxış edir. O gündən texnokratiyanın əsl sintezi olan bu qrup Emmanuel Makronun xidmətinə keçir.

## HAKİMİYYƏTDƏ OLAN HOMOSEKSUALLAR HOLLANDDAN NARAZIDIRLAR

Bütün siyasi partiyalar arasında müzakirə olunan, ancaq heç kimin hələ ki, real bir çıxış yol təklif etmədiyi bu məsələdən Makron prezident seçkiləri zamanı dördəlli yapışacaq. Ona görə də Respublikanın homoseksual şəbəkələri bunun müqabilində gənc namizədin zəif damarını – onun heç bir partiyanın üzvü olmaması problemini – hamıya unutdurmağa çalışacaqlar. "Hollandın yanında olanda, o, hər şeyi dərindən təhlil etdi, hər şeyə diqqətlə nəzər yetirdi və məqam düşən kimi Hollanddan narazı olanları ətrafında səfərbər etdi", – deyə Makronun köhnə dostlarından biri onun strategiyasını təhlil edir. 2017-ci ilin fevral ayında Lion şəhərindəki seçicilər qarşısında, Makron Şarl dö Qoldan tutmuş Fransua Mitterana qədər bütün prezidentlərə istinad edərək barokko stilində uğurlu bir çıxış edir. Bir neçə gündən sonra isə o, homoseksualların jurnalı "Tetu"ya müsahibə verir. Ancaq bununla da kifayətlənmir, bir həftə sonra aylıq Causeur jurnalının baş redaktoru Elizabet Leviyə, eləcə də Le Nouvel Observateur jurnalının mədəniyyət şöbəsinin müdiri Jerom Qarcinə verdiyi müsahibədə dönə-dönə vurğulayır ki, bəs Hollandın dövründə LMPT (eynicinsli cütlüklərin nikahına və onların övlad götürməsinə icazə verən qanuna qarşı çıxan ən böyük nümayişlərin və aksiyaların arxasında duran kollektiv) "təhqir olunub alçaldı".

İndi Makron xoşbəxtdir: sağçı konservatorların hakimiyyətə yenidən gəlməsindən qorxuya düşən homoseksuallar nə sağçıların namizədi Fransua Fiyyona, nə mütərəqqi katolik və ekstremist solçuların namizədi Jan-Lük Melanşona, nə də ekstremist sağçıların qarşısında qırmızı bayraq yellədən frank-masonlara etibar edirlər... Ona görə də belə bir şəraitdə təbii ki, bütün homoseksuallar nə sağçı konservator, nə mütərəqqi katolik, nə ekstremist solçu, nə də frank-mason olan Emmanuel Makronun seçki kampaniyasına üz tuturlar. Makrona da elə bu

lazımdır. Düzdür, homoseksualları Makronun başqa ideyaları o qədər də maraqlandırmır... amma nahaq, çünki namizəd bütün günü ağız dolusu, ölkədə yeni sosial model yaratmaqdan dəm vurur.

Fransanın media, eləcə də iqtisadiyyat dünyasındakı homoseksuallar çevrəsində, demək olar ki, hamı Makronu dəstəkləyir. Məsələn, Sosialist Partiyasının üzvü, bir zaman homoseksualların Tetu jurnalının səhmdarı olan iş adamı Jan-Jak Oqier də Emmanuel Makrona qoşulur. Bu adam bir vaxtlar dostu Fransua Hollandın eynicinsli insanların bir-biri ilə evlənmə azadlığından öz siyasi məqsədləri üçün istifadə etməsini həzm edə bilməmişdi. Bundan başqa, o, Fransua Hollandın seçki kampaniyası zamanı lezbiyenlərə verdiyi sözün üstündə durmamasını da ona bağışlamamışdı. (O vaxt – prezidentliyə namizəd olanda – Holland lezbiyənlərin xoşuna gəlmək üçün onlara söz vermişdi ki, əgər prezident seçilsə, bir-biri ilə evlənən qadınlara süni mayalanma yolu ilə hamilə qalmağa icazə verəcək.)

Bu kontekstdə Makron, həmçinin vaxtilə Siyasi Elmlər İnstitutunda onun müəllimi olmuş, ona ENA-ya (Milli Administrasiya Məktəbi) girməsinə kömək edən, 17 000 işçisi olan SOS qrupunun prezidenti və baş direktoru Jan-Mark Borellodan da dəstək alır. Əvvəllər məktəbdə tərbiyəçi olan bu keçmiş pedaqoq, 1980-ci illərdə narkomaniya və HİV-QİÇS-lə (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) mübarizə aparmaqdan ötəri SOS Drogue International assosiasiyası yaradır. Bir müddət homoseksualların və lezbiyənlərin La Palace adlanan məşhur gecə klubunu direktoru kimi fəaliyyət göstərəndən sonra Borello, 1998-ci ildə əvvəl SOS qrupunun sadə bir işçisi, sonra da həmin qrupun prezidenti olur. Borello təpədən dırnağa kimi sosialistdir. Marsel şəhərinin keçmiş meri Qaston Defferin kabinetinin üzvü olub, özü də Sosial İşlər naziri Jeorjia Düfuaksın yaxın adamıdır. "Hərəkətdə!" hərəkatı siyasi partiyaya çevriləndən sonra SOS qrupunun iki keçmiş işçisi Orelien Taşe və Pakom Rupan bu partiyanın üzvü keçir və bir müddətdən sonra da həmin partiyadan deputat seçilirlər.

## PARİSİN KÖHNƏ MERİ İLƏ TƏZƏ MERİ ARASINDA MÜHARİBƏ

Brijit Makronun sağçılar partiyasından olan və heç vaxt homoseksual olduqlarını gizlətməyən "dostları" Mark-Oliviye Fojiel, Filip Besson və hətta Paskal Huzelot mediada açıq şəkildə onun ərini dəstəkləməyə başlayırlar. Bu adamlar 2012-ci ildə Sarkoziyə yox, Fransua Hollanda səs vermişdilər, çünki Sarkozi 2007-ci ildə prezidentliyə namizəd olanda, homoseksuallara vəd etdiyi "nikahsız ailə" ideyasını prezident olandan sonra həyata keçirməmişdi... Mark-Oliviye Fojiel ilə Filip Besson Parisin keçmiş meri, homoseksual Bertran Delanoyenin çevrəsindəndirlər. Bu sonuncu, Parisin yeni meri Anna Hidalqonun müavini Brüno Jüyyard ilə də yaxın dostdur. Keçən sentyabrda merin bu müavini Anna Hidalqonun bacarıqsızlığına və işinin öhdəsindən lazımi qədər gələ bilməməyinə görə ərizəsini yazıb işdən çıxmışdı. 2017-ci ilin mayında prezident ona Xarici İşlər naziri olmağı təklif etmişdi. Bertran Delanoye (Parisdə ona Delanoye xala ləqəbi qoyublar) bu təklifdən imtina etsə də, əvvəllər meriyada onun rəhbərliyi altında işləyən, indi isə Yelisey sarayında Brijit Makronun kabinetində direktor və katib kimi fəaliyyət göstərən Pier-Oliviye Kosta və Tristan Bromet vasitəsilə mesajlarını istədiyi vaxt prezident sarayına ötürə bilir. LREM (Respublika "Hərəkətdə!") partiyasının Paris merinin kreslosuna göz dikdiyini çox yaxşı hiss edən Delanoye, dostları kimi Anna Hidalqonu tənqid etmək fürsətini heç vaxt əldən vermir.

Ümumiyyətlə, hakimiyyətdə olan yüksək aylıq gəlirli bu varlı homoseksualların çoxu həm siyasi, həm də iqtisadi baxımdan çox liberaldırlar. 2007-ci ildə onlardan bəziləri – o vaxta qədər Sosialist Partiyasına simpatiya göstərənlər – La Diaqonal siyasi klubunda birləşdilər. Onların məqsədi "solçu Sarkozistləri" bir yerə yığıb onların köməyi ilə həm iqtisadi, həm də ictimai liberalizmi genişləndirmək idi. Prezident

seçkiləri zamanı onlar namizəd Sarkozi ilə Parisin mərkəzindəki Bains Douches diskotekasında görüş təyin etdilər. İndi – 10 il sonra – bu yüksək səviyyəli məmurlar, hüquqşünaslar, iş adamları, çıxışlarında biznesə xüsusi yer verən Makrona yaxşı gözlə baxırlar. 2018-ci ilin payızında Londonda yaşayan, Fransanın yeni texnologiya sektorunda internetdə gənc innovativ şirkətləri (French Tech) Britaniyanın paytaxtında təmsil edən Alba Serviant, Mark-Oliviye Fojiel ilə birlikdə homoseksualların Fransada çıxan Tetu jurnalını İngiltərədə də çıxarmaq fikrinə düşür. Onlara bu jurnalın 2013-cü ildən 2015-ci ilə qədər səhmdarı olmuş Jan-Jak Oqier kömək edir. Makronun 8 sentyabr 2016-cı ildə Londona səfəri zamanı, Alba Serviant sağçıların namizədi Fransua Fiyyonun kampaniyasına pul tapmaq üçün ingilis, eləcə də Londonda yaşayan varlı homoseksual fransızlar üçün səhər yeməyi təşkil etmişdi... “Respublikaçılar arasında Sens Commun (Sosial elmlərdə tədris olunan bir anlayışdır. Bu konsepsiya sosial normaları və dəyərləri, eləcə də simvolik assosiasiyaları bir yerdə birləşdirən bir orqanizmdir.) prinsipinə sadiq qalan GayLib assosiasiyasının üzvləri (GayLib – 2001-ci ildə Fransada yaranan, lezbiyan, gey, biseksual və transların hüquqlarını müdafiə edən assosiasiya) Makronun ətrafına yığışdılar”, – deyə sağçılar partiyasının keçmiş fəallarından biri qeyd edir.

Dünyanın işinə bax ki, Makron nə Amerikanın prezidenti Obama kimidir, nə də Kanadanın Baş naziri Trüdo kimi. Mətbuatdakı imicinə baxmayaraq, o konservatorluğa və bonapartistliyə daha çox meyllidir. Hollandın hakimiyyəti dövründə, Yelisey sarayının baş katibinin müavini olanda, eyni cinsli insanların evlənməsi haqqında müzakirələrin qızğın çağında, Makron prezident aparatında olmağına baxmayaraq, prezidentin (Holland) beş illik müddətinin bu ən böyük islahatını o qədər də dəstəkləməmişdi. Onun keçmiş həmkarlarından birinin dediyinə görə, Makron eyni cinsli insanların evlənməyinin əleyhinə idi. Bundan başqa, prezident Fransua Hollandın yaxın əməkdaşı belə hesab edirdi ki, ölkədəki qlobal iqtisadi problemləri bir yana qoyub homosek-

sualların evlənib-evlənməməyi ilə məşğul olmaq tamamilə absurd bir şeydir. O ki qaldı lezbiyənlərin süni yolla ana olmaq məsələsinə (PMA), prezident hələ də əvvəlki kimi nala-mıxa vurur, bütün partiyaların, assosiasiyaların fikrini öyrənmək istəyir ki, sonra bir qərar çıxarsın. O vaxt prezidentliyə namizədlik kampaniyasında olduğu kimi, o, konservator katoliklərə hələ də göz-qaş edir... Həmişəki kimi prezident Makronun, həqiqətən, nə istədiyini, hansı mənsəbə qulluq etdiyini başa düşmək mümkün deyil...

## FRANK-MASONLARA TƏRƏF BAXIŞ

Prezidentliyə namizədlik kampaniyasını hazırlayanda, Makron frank-masonları da unutmadı. 2016-cı ilin iyun ayında, o, Parisin 9-cu rayonunda, Cadet küçəsində yerləşən ən məşhur mason lojalarından biri olan Grand Orient de France lojasının Artur-Groussier məbədində təşkil olunan konferansda çıxış edir. Bu konfransdakı masonların çoxu Fransanın siyasi həyatında mühüm rol oynayan sosialistlərdir. Makron bu auditoriyada çox sevdiyi bir mövzu haqqında məruzə edir: "Qloballaşdırma prinsipi tərəqqinin sinonimi ola bilərmi?". Onun bu çıxışı masonlar tərəfindən gurultulu alqışlarla qarşılanır. Sonrakı aylarda namizəd iki başqa mason lojuna – o cümlədən üzləri arasında xeyli sanballı siyasi şəxsiyyətlər olan Demain lojuna da baş çəkir.

Ancaq onu demək düzgün olmaz ki, Makron masonlarla oturub durur. Əksinə, onun ətrafında masonların sayı o qədər də çox deyil: Jerard Kollomb, Jan-Pol Delovoy, Jan-İv Lö Drian, Rişard Ferrand, Jak Mezar və Fransua Patriat... Vəssalam. Brijit Makron özü də mason şəbəkələri ilə o qədər də tanış deyil. Heç Yelisey sarayının gələcək baş katibi, texnokrat Aleksi Kohlerin də masonlarla əlaqəsi yoxdur. Düzdür, o hərdən kampaniya üzvlərinə məsləhət görür ki, bütün sektorlarla, o cümlədən ənənələrinə, fəlsəfi ideyalarına və Respublikaya olan dəstəklərinə hörmət etdiyimiz masonlarla da iqtisadi sferanın istənilən sahəsində olduğu kimi əlaqə saxlamaq lazımdır...

Ancaq burda da yenə hər şey birdən-birə sürətlənir. Mason qardaşlarından biri Kamiy Desmulanbütün lojlardakı masonları Emmanuel Makronun kampaniyasını tanıyıb qəbul eləməyə çağırır. Grand Orient lojunda, böyük usta Kristof Habas həmkarlarından birinə etiraf edir ki, o, bütün namizədlər arasında Makrona üstünlük verir. Son prezident seçkilərində bu loja – ənənəvi prinsiplərinə sadiq qalaraq – sağçıların

bütün namizədlərini (Marin Lö Pen istisna olmaqla) qəbul etmişdi; ancaq heç birinə üstünlük verməmişdi, hamısına qarşı müəyyən bir neytrallıq qoruyub saxlamışdı.

Lakin 2017-ci ildə Grand Orient lojunun bu ənənəvi prinsipi baş tutmadı. Nəyə görə? Birincisi, daxili qeyri-mütəşəkkilliyə görə (masonlardan biri xüsusilə qeyd edir ki, onların kompüteri hakerlər tərəfindən sındırılmışdı); ikincisi, prokurorluğun respublikaçı namizəd Fiyyonla maraqlanmasından narahat olduqlarına görə; üçüncüsü, başqa bir respublikaçı namizədin (Nikola Düpon-Anyan) açıq-aşkar şəkildə ekstremist-sağçılara rəğbət bəslədiyinə görə!

Bundan başqa, digər masonlar prezidentliyə namizəd Jan-Lük Melanşonun da apardığı "solçu populizm" siyasətindən bərk narahatdırlar. Özü mason, üstəlik, dünyəvilik prinsipinin partizanı olsa da, Melanşonun siyasi ideyaları masonların ürəyincə deyil. Qəribə görünsə də, əsasən, sağçıları özündə birləşdirən respublikaçı mason lojlarında – prezidentliyə başqa bir namizədə – Manuel Vallsa daha çox simpatiya olsa da, masonların çoxu, paradoksal olaraq Emmanuel Makronu dəstəkləməyi üstün tutur. Halbuki Makron, nəinki çıxışlarında dünyəvilik prinsipini o qədər də dəstəkləmir, hətta özünü də dünyəvi saymır. Ona görə də dünyəviliyin partizanı Jan-Lüc Melenşona "islamçı solçu" damğası vurub onu ittiham edən adamların Emmanuel Makronu dəstəkləməyindən heç cürə baş çıxarmaq olmur.

Masonların Facebook səhifəsində görürük ki, onlar "populizmi" tənqid etsələr də, nə populist Jan-Lüc Melanşonun adını çəkirlər, nə də millətçi Marin Lö Penin. O da maraqlıdır ki, prezident seçkilərinin birinci turundan on gün əvvəl, masonların hamısı "Respublika müraciəti" adı altında çap etdikləri çağırışa imza atırlar. Bu müraciətdən görünür ki, onlar "milli eqoizmdən və milli mənsubiyyət impulslarından", eləcə də "bu köhnə prinsiplərin keçmişdə vurduğu zərərlərin" yenidən peyda

olmasından narahatdırlar. Masonlar həmçinin "irqçiliyə, millətçiliyə və başqa millətlərə olan nifrətə" qarşı etiraz səslərini ucaldırlar. Bu müraciət təbii ki, dolayı yolla Xalq Cəbhəsini (Marin Lö Pen) hədəfə alır. La Croix qəzeti vasitəsilə bu müraciətə imza atan masonlardan biri əlavə edir ki: "Biz təkcə Xalq Cəbhəsini hədəfə almırıq, həmçinin sosial hüquqları azaldan başqa hərəkatları, kənar partiyaları da nəzərdə tuturuq". Ad çəkilməsə də, aydın görünür ki, bu dəfə də LFİ partiyası (Jan-Lüc Melanşonun ekstremist solçu partiyası) açıq şəkildə hədəfdədir. "GO" (Grand Orient) loju belə bir təəssürat yaratdı ki, Makrona səs vermək sanki onların qanındadır", – deyə bu günlərdə bir mason təəssüflə bizə etiraf etdi. İndi o perioddan söhbət düşəndə, hiss olunur ki, Grand Orient loju, ovaxtkı hərəkətindən xəcalət çəkir. Sən demə, o vaxtlar bəzi Paris lojlarında masonlar işdən sonra şam yeməyinə yığışanda, "Hərəkətdə!" hərəkatına maliyyə yardımı göstərmək üçün pul yığırmışlar... (!)

Kampaniyanın sonuna yaxın, Makron masonlara daha tez-tez göz süzdürür – çıxışlarında hər dəfə "sizin dərəcələriniz (lojda) və keyfiyyətləriniz" ifadəsini təkrarlayır. Seçkilərin ikinci turundakı qələbəsindən sonra verdiyi müsahibələrin birində qeyd edir ki: "Əgər bir qadın və ya bir kişi öz dərəcəsində (lojda) və keyfiyyətində mənim layihələrimdə özünü tapırsa və bu layihələrə qoşulursa, buna ancaq sevinmək lazımdır. Onlar (masonlar) sadəcə olaraq nümayiş etdirirlər ki, mən indiki sistemin qaydalarına əməl etməməkdə, standart yollarla getməməkdə haqlı imişəm...".

Ancaq Makron prezident seçiləndən bir müddət sonra bəzi masonların başına sanki daş düşür, xüsusilə görəndə ki, Makron onların totemini – 1905-ci ildə qəbul olunan dünyəvilik qanununu bir az "tənzimləmək" istəyir. "GO" (Grand Orient) lojunun masonları üçün bu, Makron tərəfindən elan olunmuş bir müharibədir. Beləliklə, Makron ilə masonlar "boşanır", özü də düşmən kimi.

“Makron hiss edəndə ki, küləyin səmti dəyişir, tez lojların nümayəndələrini barışıq üçün Yelisey sarayına dəvət edir. “Ancaq bir neçə həftə sonra prezidentin Petan haqqındakı bəyanatları onun üçün, sözün əsl mənasında, ölümcül oldu”, – deyə mason advokat Emmanuel Pierrat inamla təsdiq edir. Sosialist meylli masonların Makronun kölgəsini qılınclamalarına baxmayaraq, sağçılar şəbəkəsindən olan masonlar, xüsusən də GLNF (Fransanın Böyük Milli Loju) Sarkozinin dövründə olduğu kimi biznes sahəsində, eləcə də Afrikada at oynadırlar.

## BAŞ QƏRARGAHIN SEVİNCİ

Makron şəbəkə adamı kimi təsvir olunmağı sevmir. O özünü heç kimə borcu olmayan, heç kimdən kömək almayan, hər şeyi özü edən, qalxdığı zirvəyə tək, yalnız öz enerjisi ilə, öz iradəsi ilə yetişmiş bir adam kimi təqdim etməyə üstünlük verir. 2016-cı ilin yazında prezident Holland ona xatırladanda ki, "yadından çıxarma ki, sən mənim hesabıma bu səviyyəyə qalxmısan, səni mən nazir eləmişəm", Makron dodağının altında donquldanmışdı ki, "mən sənin şillə vuranın deyiləm...". Halbuki, prezident kürsüsündə əyləşmək üçün o, komandasındakı adamların çoxundan istifadə etdi. Onun Parisin 15-ci rayonunda, Abbe-Qrult küçəsində yerləşən seçki kampaniyasının qərargahında məvacib alan işçilərdən əlavə, sevimli namizədlərini prezident eləmək üçün gecə-gündüz yorulmadan çalışan, pulsuz-parasız işləyən iki yüzə yaxın könüllü vardı.

Makronçuların dilində onlara "helpers" (köməkçilər) deyirdilər. Gənc tələbə və mütəxəssislərdən ibarət olan bu könüllülərin bəziləri, hətta iş yerlərindən ödənişsiz məzuniyyət götürmüşdülər. Onların sayı o qədər çox idi ki, kampaniyanın rəhbərliyi, baş qərargahın təhlükəsizliyini təmin etmək üçün könüllülərə adları və soyadları yazılmış plastik döş nişanları paylamışdı. Elə təhlükəsizlik baxımından hələ yüzlərlə digər könüllüyə – plastik döş nişanları olmadığına görə – baş qərargaha giriş qadağan olunmuşdu. "Orada qəribə bir enerji vardı. Baş qərargah arı pətəyinə bənzəyirdi. Təxminən altmış adam üçün nəzərdə tutulan zallarda, adətən 100-150 adam olurdu... Biz hamımız kiçik kompüterlərimizi dizimizin üstünə qoyub saytlarda namizədin təşviqatını aparırdıq...", – deyə keçmiş könüllülərdən biri ovaxtkı təəssüratlarını bizimlə bölüşdü. Seçicilərə zəng edib onlara namizədi tərifləmək də proqrama daxili idi, eynilə Barak Obamanın kampaniyasında olduğu kimi. Bu dəryada bir damla olsa da, hər halda, xeyri dəyirdi...

Baş qərargahdakı enerji o qədər çox idi ki, bəzən onu cilovlamaqda çətinlik çəkirdilər. Kampaniyanın stressi bəzən qərargahı qabağı alına bilməyən dağ selinə çevirirdi. "Mən heç vaxt bu qədər azğınlıqla aparılan seçki kampaniyası görməmişdim!", – deyə başqa bir könüllü etiraf edir. Bir az dincəlmək, stressi atmaq üçün könüllülər biznes məktəblərində təşkil olunan bayramlarda olduğu kimi gündə bir neçə dəfə spirtli içkilər qəbul edirlər. Çoxları hələ kokaindən də istifadə edir. Stressi bu minvalla atmaq elə bir yüksək həddə çatır ki, kampaniyanın müdiriyyəti məcbur olub narkotik maddələrin və spirtli içkilərin qəbulunu qərargahda qadağan edir. İş o qədər çoxdur, o qədər güc tələb edir ki, könüllülər yorulanda ya stolların üstündə, ya da altında uzanıb yatırlar. Hələ bu harasıdır? Bu sel kimi coşub-daşan qərargahda, hətta cinsi xəstəliklərdən və arzuolunmaz hamiləlikdən qorunmaq üçün prezervativ paylayan avtomatlar da quraşdırırlar. Belə çıxır ki, istirahət saatlarında, kampaniyanın yataq otağına çevrilmiş bəzi ofislərində, hərdən qrup halında seks orgiyaları da təşkil olunurmuş...

Eyni vaxtda bir neçə kampaniya fəaliyyət göstərir – bir rəsmi və bir neçə qeyri-rəsmi. "Hər adama ayrıca bir tapşırıq verilirdi, hər kəs ayrıca bir iş üçün məsuliyyət daşıyırdı... ancaq onların heç biri qlobal vizyona malik deyildilər...", – deyə kampaniyanın üzvlərindən biri xatirələrini bizə danışır. Könüllülərlə, həmçinin kampaniyanın bir çox üzvləri ilə 4-cü mərtəbədəki Aleksandr Benalla və Lüdovik Şakerin başçılıq etdiyi təhlükəsizlik xidməti arasında o qədər də yaxın əlaqə yoxdur. Onlarla bir neçə mərtəbə yuxarıda yerləşən mətbuat xidməti arasında da əlaqə azdır. Eynilə Apple və Google arasındakı kimi. Bir-birindən fərqli qruplar olsalar da, ikisi də eyni tədqiqat və inkişaf proqramları icad edir. Burda da eyni namizəd üçün çalışan iki fərqli qrup var. Bu qədər məsuliyyətli və ağır iş görmələrinə baxmayaraq, bu könüllü mütəxəssislərin əksəriyyəti kompaniyadan maaş almır, onların çoxuna sonda heç təşəkkür də edilməyəcək...

Makronun seçki kampaniyasının bu şəkildə fəaliyyəti çox aydın şəkildə izah edir ki, niyə LREM (Respublika Hərəkətdə partiyası) seçkilərdən sonra özünü düzəltməkdə çətinlik çəkdi. Bəzi jurnalistlər yazır ki, Makronun seçki kampaniyasının direktoru Jan-Mari-Qirierin (Lion şəhərinin meri Jerard Kollombun keçmiş kabinet direktoru) bu məsələdə heç bir günahı yoxdur. "Əslində, kampaniyanın direktoru yox idi... Kampaniya ilə bağlı bütün məlumatlar Makronun öz əlində idi. Hər şey – bütün məlumatlar birbaşa ona çatdırılırdı... bir də onun arvadı Brijitə və kampaniyanın maliyyə direktoru Aleksi Kohlerə. Orada sözün əsl mənasında parçala və hökm sür ideyası tətbiq olunurdu. Çünki onlar hökm sürmək üçün parçalamaqdan çəkinmirlər. Kampaniyada fəaliyyət göstərən Rişar Ferrard kimi bir deputatın çox vaxt qəbul olunan qərarlardan xəbəri belə olmurdu", – deyə keçmiş bir könüllü təəssüflə bizə etiraf etdi.

## MAKRON FƏHLƏLƏRİN PROBLEMİNƏ DIRNAQARASI YANAŞIR

Brijit Makron tez-tez zarafatla deyir ki, "Hərəkətdə!" hərəkatı əsl bir “start-up”dır. (Start-up – Fransız dilində əhəmiyyətli investisiya fondları axtaran, iqtisadi artım üçün çox güclü potensiala malik yeni yaradılmış innovativ şirkət.) Təbii ki, bu ritmlə gedən belə bir təşkilatda, istər-istəməz uğursuzluqlar da olur. Məsələn, prezident seçkilərinin iki turu arasında Amien şəhərindəki Whirlpool zavodu – böyük bir sənaye müəssisəsi – gözlənilmədən oradan köçürülmə təhlükəsi ilə üzləşdi. Əvvəlcə, Makron qərara gəldi ki, zavodun həmkarlar ittifaqının üzvləri ilə ticarət və sənaye palatasında görüşüb vəziyyətdən bir çıxış yolu tapsın. Lakin Marin Lö Pen zavoda gəlib, kameraların qarşısında işçilərlə görüşüb, onları dəstəkləyəndən sonra Makron da məcbur qalıb zavoda – işçilərlə görüşməyə getdi. TF1 telekanalının çəkdiyi Qələbənin pərdə arxası” sənədli filmində (Rejissor Yann Henoret) görürük ki, Makron əsəbi halda, onun zavoda səfərini hazırlayan mətbuat komandasını necə danlayır. Belə çıxdı ki, Makronun, Marin Lö Pendən əvvəl Whirlpool zavodunun fəhlələri ilə görüşməməyinin günahı onun mətbuat komandasında olub və komanda da “səhvini” boynuna aldı. Ancaq bu, TF1 telekanalının kameralarının qarşısında Makronun və mətbuat komandasının oynadığı gözəl bir komediya idi. Əslində, onun mətbuat komandası Marin Lö Pendən xeyli əvvəl Makrona məsləhət görmüşdü ki, təhlükədə olan Whirlpool zavoduna gedib fəhlələrlə görüşsün. Özü Amiən şəhərində doğulan keçmiş İqtisadiyyat nazirinin zavodun bu problemindən çoxdan xəbəri var. Buna baxmayaraq, prezidentliyə namizəd məsləhətçilərinə dəfələrlə demişdi ki, onun qətiyyən zavoda getmək fikri yoxdur. “Əslində, Makronun Whirlpool zavodunun fəhlələrinin bu problemi ilə məşğul olmaq fikri yox idi. O bu zavoda səfərini təsdiq etməmişdi. Biz ona dəfələrlə məsləhət görmüşdük ki,

mütləq o zavoda gedib fəhlələrin dərdini-sərini öyrənsin, onların bu probleminə bir əlac qılsın. Ancaq o hər dəfə “yox” demişdi. Ona görə də biz məcbur olub TF1 telekanalının kameralarının qarşısında komediya çıxartdıq, işi elə qurduq ki, guya mətbuat xidməti Makrona o zavoda gedib fəhlələrlə görüşməyi təklif etməyi unudub. Düzdür, bizim təşkil etdiyimiz sənədli filmdən belə çıxdı ki, Marin Lö Pen bu döyüşdə məğlub oldu, amma əslində o, uğur qazandı”, – deyə kampaniyanın keçmiş üzvlərindən biri bizə etiraf etdi.

Makron kampaniyasında onu dəstəkləyən adamlardan necə lazımdır istifadə etdi, axırda da onları çirklənmiş kağız dəsmal kimi kənara atdı. Məsələn, Fransua Hollandın yaxını Robert Zarader tez-tez Makrona dəyərli məsləhətlər verdi, onun prezidentliyə namizədliyini dəstəklədi, ancaq seçkiyə bir neçə həftə qalmış məcbur qalıb ondan aralandı. Brijit Makronun xahişi ilə "Hərəkətdə!" hərəkatına qoşulan jurnalist Lorens Haim kampaniya zamanı namizədin yaxın çevrəsindəki adamlar tərəfindən dəfələrlə təhqirlərə məruz qaldı. Ən dəhşətlisi də bu oldu ki, Makron İqtisadiyyat naziri olanda onun kabinet direktorunun müavini kimi fəaliyyət göstərən, Makronun nazir kimi verdiyi qanunların əsas müəllifi olan, onun bütün proqramlarını hazırlayan Emmanuel Lakres seçkilərin ikinci turundan əvvəl kampaniyadan qovuldu. (!) Necə ki, kampaniya proqramının təhlükəsizlik və müdafiə rəhbəri, Qrenobl şəhərinin meri, Bouygues Telecom şirkətinin keçmiş yüksək kadrı Didier Kasas! Makronun qələbəsindən sonra yazıq dövlət müşaviri naəlac qalıb Bouygues Telecom telekommunikasiya şirkətindəki əvvəlki işinə qayıtdı.

Prezident seçkilərinin ikinci turuna iki gün qalmış Makronun kampaniyasında dəhşətli bir faciə baş verir. Keçmiş sosialist, 2016-cı ilin noyabrından "Hərəkətdə!" qrupuna qoşulan millət vəkili Korin Ehrel kampaniyanın son günündə təşkil olunmuş görüşdə seçiciləri Emmanuel Makrona səs verməyə çağıran zaman səhnədə infarkt keçirir. Tə-

cili yardım tərəfindən xəstəxanaya çatdırılan 50 yaşlı deputat, bir neçə dəqiqədən sonra ürək tutmasından vəfat edir...

Namizəd Makronun kampaniyasında bir çox başqa faciələr də baş verir. İşini, ailəsini, uşaqlarını unudub Makronu prezident etmək üçün gecə-gündüz rahatlıq bilmədən kampaniyada pulsuz-parasız çalışan bir könüllünün həyat yoldaşı, axırda cana yığılıb uşaqlarını da götürüb ata evinə qayıdır. Məhkəməyə boşanmaq üçün ərizə verən qadının tələbi ilə, nəinki onların nikahı pozulur, hətta o, atalıq hüququndan da məhrum olunur. Bu azmış kimi bir neçə gündən sonra həmin könüllü işindən də qovulur.  Kampaniyadakı könüllülərin çoxu, hətta məvaciblə çalışan bir sıra kadrlar belə müxtəlif ailə və iş problemləri ilə qarşılaşırlar. İki turun arasında Makron kampaniyasındakı köməkçilərinə artıq yuxarıdan aşağı baxır, çünki Fransız dili müəlliminin əri artıq özünü prezident kürsüsündə hiss edir. "...prezident seçiləndən sonra isə o, ümumiyyətlə, heç kimi saymadı", – deyə kampaniyadakı könüllülərdən biri təəssüflə başını bulayır. Qələbəsindən bir həftə sonra kampaniyasında çalışan adamlara  təşəkkür etmək üçün təşkil olunan ziyafətdə, o, cəmisi qırx beş dəqiqə iştirak etdi. Zevs artıq özünü onlara yaraşdırmırdı...

# BARONLAR GERİ QAYIDIR

2017-ci ilin fevral ayıdır. Emmanuel Makronun seçki kampaniyası tam sürətlə davam edir. Lion şəhərinin meri Jerard Kollomb paytaxta səfərdədir. Bir neçə gün əvvəl onun qəhrəmanı Makron, Lion şəhərinin idman sarayında təşkil olunan görüşdə sacıçılərin böyük rəğbətini qazanmışdı. Müasir texnologiya da ona bu uğurda kömək etmişdi: belə ki, "Hərəkətdə!" hərəkatının fəalları Teleqram proqramı vasitəsilə kampaniyanı idarə edənlər tərəfindən onların mobil telefonlarına ötürülən göstərişlərlə zalı əməlli-başlı “qızışdırmışdılar”.

Kollomb 2016-cı ilin yazından Emmanuel Makrona qoşulub. Bu sosialist partiyasından olan deputat, gənc İqtisadiyyat nazirinin “sosial-liberalizm” ideyalarını çox bəyənir. Bundan başqa, Makronun Sosialist Partiyasını tənqid etməsi də onun xoşuna gəlir. Çünki Kollombun fikrincə, Sosialist Partiyası əsl simasını itirib, paytaxtda lövbər salıb və Paytaxt Partiyasına çevrilib. Bundan başqa, Jerard Kollomb onlardan bir növ qisas almaq istəyir, çünki Lion şəhərinin meri belə hesab edir ki, sosialistlər onun siyasi istedadını heç vaxt lazımınca qiymətləndirməyib.

Həmin gün Kollomb Makronun kampaniyasından olan gənc bir siyasətçi ilə Lion şəhərinin Parisdəki nümayəndəliyinin yerləşdiyi Villersexel küçəsinin iki addımlığında yerləşən Mucha Café restoranında nahar edir. Bu iki nəfərin arasında müzakirə olunan mövzu kampaniyanın maliyyə ilə bağlı çətinlikləri, xüsusilə də bankların krediti ge-

cikdirmələridir. “Mən bu işi öz boynuma götürürəm. Gedib banklarla özüm danışacam... belə olmaz! Sürəti artırmaq lazımdır”, – deyə Lion şəhərinin meri həmsöhbətinə söz verir. Bu restoranda stollar yox yaxındır. Belə ki, qonşu stolda oturub nahar edən Sosialist Partiyasının daimi üzvlərindən biri onların söhbətlərini eşidir və nahardan sonra dərhal restoranın yanında, Solférino küçəsində yerləşən Sosialist Partiyasının baş qərargahına gedib Jerard Kollombun dediklərini yoldaşlarının ovcuna qoyur...

## KOLLOMB ÖZÜNÜN LİONDAKI ŞƏBƏKƏLƏRİNİ TƏKLİF EDİR

Lion şəhərinin merinin banklara gedib Makronun kampaniyası üçün kredit məsələsini müzakirə etməyi heç bir nəticə verməyəcək. Ancaq necə deyərlər, donuzdan bir tük də qənimətdir. Kiminsə Makrona yardım əli uzatması, lap sözdə də olsa, kampaniya üçün həmişə xoşdur... Bir müddət sonra Kollomb şəbəkələrini namizədin ixtiyarına verir. Lion mütəşəkkil bir şəhər olması ilə tanınır, burada frank-mason lojları Katolik kilsəsi ilə çiyin-çiyinə addımlayır və gözəl harmoniyadadır. Ona görə də Lionda əhalinin əksəriyyəti Emmanuel Makronun siyasi və sosial aspektləri bir-birindən ayırma layihəsinə müsbət yanaşırlar. 2016-cı ilin sentyabrında Jerard Kollomb Lionda təşkil edildiyi “Avropa islahatçıları” forumunda Fransua Hollandın keçmiş İqtisadiyyat nazirini (Makron) qəbul edir. "Hərəkətdə!" qrupu 1997-ci ildən Dubayda lövbər salan, 2016-cı ildə Rio şəhərində keçirilən olimpiya oyunlarının təşkilatçılarından biri olan Lionun GL Events şirkətindən də kömək istəyir. Jerard Kollombun yaxın adamı Oliviye Jinon tərəfindən idarə olunan, böyük miqyaslı tədbirlərə təşkilatçılıq etməkdə dünya liderlərdən biri olan bu şirkətdə görüş zamanı Emmanuel Makron Jerard Kollombu onun yaxın “dostu” kimi təqdim edəcək...

O vaxtdan siyasi kampaniyaların maliyyələşdirilməsinə nəzarət edən Milli Komissiya (CNCCFP) öz hesabatında ortaya çıxardı ki, GL Events şirkəti tərəfindən namizəd Makrona seçicilərlə görüş üçün kirayə götürdüyü zalların ödənişində heç bir məntiqə sığmayan güzəştlər olunub və həddindən artıq endirimlər tətbiq edilib. Onu da qeyd edək ki, GL Events şirkətinin Fransanın bir çox şəhərlərində şəxsi zalları var. CNCCFP iddia etdi ki, namizəd Makronun kampaniyasına şirkət tərəfindən bəzi xidmətlər üçün 30%, hətta 50% endirimlər olunub. Hələ bu harasıdır? Siyasi kampaniyaların maliyyələşdirilməsinə nəzarət edən

Milli Komissiyaya görə "Hərəkətdə!" hərəkatına 2016-cı ilin iyul ayında icarəyə götürdüyü zal üçün 100% endirim olunub. Amma GL Events şirkətinin direktorunun dediyinə görə bütün prosedurlara qanunla riayət edilib: “Bu, kommersiya məsələsidir... Endirimin olub-olmaması hər zalın özünün direktorundan asılıdır. Rəhbərlik direktorlara heç bir göstəriş vermir”, – deyə GL Events şirkətinin prezidenti siyasi kampaniyaların maliyyələşdirilməsinə nəzarət edən Milli Komissiyaya izah edir. “Təsadüfə” bax ki, GL Events şirkətinin Beynəlxalq əlaqələr direktoru Brüno Lartij da könüllü olaraq Makronun kampaniyasında iştirak edir...

Jerard Kollombun digər tanışları arasında Makronun yaratdığı "Hərəkətdə!" hərəkatına qoşulan bir sahibkar da var: Infogrames və Infonie informatika şirkətinin təsisçisi, 2017-ci ilə qədər Robopolis şirkətinin rəhbəri olmuş Brüno Bonnell. Jerard Kollombun digər yaxın adamları kimi Bonnell də 2017-ci ilin iyununda LREM partiyası adından (Respublika Hərəkətdə Partiyası) deputat seçildi. Lionun merinin Makrona yaxınlaşan dostları arasında Ron departamentinin deputatı, Feyzin şəhərinin keçmiş meri İv Blen də var. Bu köhnə sosialist, əvvəllər Sosialist Partiyasının qoynunda fəaliyyət göstərən, güclü və çox populyar assosiasiya olan Leo Lagrange Federasiyasının tərkibində işləyirdi... indi isə 2017-ci ildən LREM partiyasının (Respublika Hərəkətdə Partiyası) deputatı kimi həmin Federasiyaya rəhbərlik edir... Ancaq 2018-ci ildə Lion şəhəri ilə birinci dəfə müqavilə bağlayan Leo Lagrange Federasiyasının kollektivi öz prezidentlərinin Makronun partiyasına yaxınlaşmasına çox pis baxır.

Brijit Makronun “jeje” deyə çağırdığı Jerard Kollomb kampaniyaya həm də həlledici siyasi yardım verir, belə ki, onun sayəsində Fransua Bayru da Emmanuel Makrona qoşulur. Ancaq Modem partiyasının rəhbəri (Fransua Bayru) "Hərəkətdə!" qrupunun namizədi ilə birbaşa heç nə danışmır, fikirlərini Kollombun vasitəsilə ona çatdırır. 2017-ci ilin yanvar və fevral ayları arasında Fransua Bayru ilə Emmanuel Makron

beş dəfə, özü də hamıdan gizli görüşürlər. Bu məxfi görüşlər çox vaxt Senatda – Modem partiyasının parlamentdəki vitse-prezidenti Jaklin Quroltun ofisində keçir. Fransua Bayru bərk narahatdır, o, öz kiçik partiyasının (Modem) Makron prezident olandan sonra onun Milli Assambleyadakı prezident çoxluğu arasında əriyib yoxa çıxmasından qorxur. Beş dəfə Parisə gəlib Makronla gizli şəkildə görüşəndən bir müddət sonra Fransua Bayru Jerard Kollomb vasitəsilə "Hərəkətdə!" qrupunun namizədindən istədiyini əldə edir. Namizəd söz verir ki, əgər prezident seçilsə, gələcək Milli Assambleyada onun (Modem partiyası) ayrıca parlament qrupu olacaq...

Görəsən, Emmanuel Makronun Marsel şəhərindəki şəbəkələrdən istifadə etməyində də Jerard Kollombun əli olub? 2008-ci ildə Lionun meri Rens şəhərində keçirilən Sosialist Partiyasının (PS) konqresində "aydın xətt" adlanan siyasi bir qrupu təqdim edəndə, hamıya aydın oldu ki, bu qrupa PS-nin (Sosialist Partiyası) bir çox "yerli baronları", o cümlədən Jan Jerman (Tur şəhərinin meri), Manuel Valls (Evri-Kururon şəhərinin meri), xüsusən də Bouches-du-Rhône departamentinin baş şurasının prezidenti Jan-Noel Qerini də daxildir. Hətta Pier Moskoviçi də bu balaca siyasi qrupa yaxınlaşmışdı. Marsel şəhərinin bu güclü senatoru (Pier Moskoviçi) sonralar tərəfkeşlikdə və əliəyrilikdə ittiham olundu və beləliklə, deputat toxunulmazlığını itirdi. 2014-cü ildə o, Sosialist Partiyasından uzaqlaşdırıldı və bir müddət sonra özünə siyasi bir hərəkat qurub ona La Force du 13 (13-ün Gücü) adını verdi. İndi bu adam prezidentliyə doğru qətiyyətlə addımlayan Makronun macəralarına yaxşı gözlə baxır. Səbəb? Çünki Makron bir vaxtlar onu öz sıralarından uzaqlaşdıran Sosialist Partiyasını saya salmır.

## “KÖHNƏ DÜNYADAN” DƏSTƏK

Bu simvolik bir şeydir: prezidentliyə namizədliyini elan edəndən sonra "Hərəkətdə!" hərəkatının namizədi seçki kampaniyasındakı ilk səfəri üçün Marsel şəhərini seçir. Belə ki, noyabrın 17 və 18-də o, Bouches-du-Rhône departamentinə təşrif gətirir. Marseldə şəhərin meri Jan-Noel Qerininin çevrəsindəki deputatlar və rəsmi adamlar tərəfindən qarşılanır. Sosialistlərin biri rişxəndlə qeyd edir ki: “Makroniya depressivlər məclisidir...”.

Marsel şəhərinin yaxınlığındakı Penn-Mirabo qəsəbəsində Makronun seçicilərlə görüşü təşkil edilir. Bu qəsəbənin meri senator Mişel Amieldir. (Gələcəkdə bu adam LREM (Respublika Hərəkətdə) partiyasının senatoru olacaq.) Makronun seçicilərlə görüşünü təşkil edənlər arasında, Marselin meri Jan-Noel Qerininin digər yaxın adamları da gözə dəyir: məsələn Velo şəhərinin meri, deputat Jan-Pier Maqqi... Qəribədir ki, bu adam bir neçə aydan sonra, yəni 2016-cı ilin əvvəlində ictimai vəsaitlərin mənimsənməsində, favoritizmdə, əliəyrilikdə və tərəfkeşlikdə ittiham olunacaq. Makron, həmçinin, əvvəllər Marselin merinə yaxın olan sosialist senator Samia Qali ilə də görüşür. Jurnalistlərin sualları qarşısında Emmanuel Makronun namizəd kimi bu ilk səfərinin təşkilatçıları Korin Versini və Kristof Kastaner (Hər ikisi "Hərəkətdə!" hərəkatının üzvləridir) pərtliklərini gizlədə bilmirlər. Makron isə özünü elə aparır ki, guya bu boyda problemi görmür: “[…] Xeyr, cənab Jan-Noel Qerininin mənim bu regiona səfərimlə heç bir əlaqəsi yoxdur. Heç mən o adamı hələ şəxsən tanımıram, onunla heç vaxt görüşməmişəm. […] Ancaq mən burda bizə qoşulmaq istəyən çoxlu qadınlar və kişilər görürəm ki, onlar siyasi həyatlarında özlərinə tamamilə başqa öhdəliklər götürmək istəyirlər. Bu məni çox sevindirir, çünki görürəm ki, onlar bizə şəxsi maraq xatirinə yox, mənəvi dəyərlər üçün yaxınlaşırlar. Mən də hamını bu dəyərlərin ətrafında birləşdirmək istəyirəm...”.

Prezident seçkilərinin birinci turundan əvvəl, seçicilərlə görüş çərçivəsində Makron yenə də Marsel şəhərinə qayıdır. Budəfəki yığıncaqda Bouches-du-Rhône departamentinin sosialist federasiyasının keçmiş direktoru, Istre şəhərinin meri, Fransua Bernardini, eləcə də Jan-Noel Qerininin və Mişel Amielin keçmiş müttəfiqləri, Marsel şəhərinin 2-ci və 3-cü rayonlarının meri Liset Narduççi və Qran şəhərinin meri İv Vidal da iştirak edir. “Fransa azad respublikadır. Onların da hamı kimi bizim yığıncaqlara gəlib Emmanuel Makronu dəstəkləməyə ixtiyarları var”, – deyə Kristof Kastaner İnfo Marsactu saytında onlara haqq qazandırır. Sonra da əlavə edir ki, (adamın inanmağı gəlmir) “... düzdür, bu adamların içində üç-dörd nəfər var ki, onların işi məhkəmədədir. Ancaq bilirsiniz, Marsel şəhərində məhkəmə tərəfindən ittiham olunmayan deputat tapmaq çətin məsələdir... (?) Bir də ki, bu məsələ bizim (partiyanın) hər şeyi yerli-dibli dəyişmək istəyimizə mane olmur...”. Prezidentliyə namizədin seçicilərlə görüşlərini təşkil edən adamın danışığına bax!.. Yatsan, yuxuna da girməz!

Göründüyü kimi, seçki kampaniyası zamanı Makron heç kimdən və heç nədən qorxub-çəkinmədən, həyasızcasına, utanıb-qızarmadan hər şeyə əl atır. Bu iddialı gənc Fransanın cənub-qərb hissəsində də bu əməllərindən qalmır. Xüsusilə Lot departamentində yaxşı xal qazanacaq. 2015-ci ilin oktyabr ayında İqtisadiyyat naziri kimi Makron, departamentin Figeac şəhərində təşkil olunan “gələcəyin sənayesi” mövzusuna həsr olunmuş dəyirmi stol arxasındakı görüşdə iştirak etmişdi. (Onu da qeyd edək ki, bu şəhərdə Airbus şirkətinin subpodratçısı olan Figeac Aero yerləşir). O, hələ bir neçə dəfə də bura gələcək – bir dəfə 2017-ci ilin fevral ayının sonunda prezidentlik kampaniyasının qızğın çağında, bir dəfə də 2019-cu ilin yanvarında bu bölgənin bələdiyyə idarələrinin başçıları ilə görüşmək üçün. Bu səfərlərin bir səbəbi də bu bölgədə Makronu dəstəkləyən ağır çəkili bir siyasət adamının olmasıdır. O da kim olsa, yaxşıdır? Keçmiş sosialist, 1998-2017-ci illər arasında millət vəkili olan, sonradan "Hərəkətdə!" hərəkatının kadrlarından birinə çevrilən Jan

Lonay. Bu adam başqa bir baronunun, Pas-de Calais departamentində boya-başa çatmış, əvvəllər Jak Şirakın çevrəsində olan Jan-Pol Delevoyun rəhbərlik etdiyi Milli Sərmayə Komissiyasının (CNI) üzvlərindən biridir. Jan Lonay Lot departamentinin kadrı olsa da, ölkədə çox geniş siyasi və iqtisadi şəbəkəyə malik bir nüfuzlu şəxsiyyətdir. Milli Assambleyanın keçmiş kvestoru (Kvestor – parlamentin məşvərət qrupunun üzvü) olan Lonay, vaxtilə dövlət Müdafiə büdcəsinin, eləcə də Fransanın Merlər Assosiasiyasının (AMF) xəzinədarı olub. Bundan başqa, o, Milli Su Komitəsinin prezidenti, eləcə də bu sektorun nəhəng fiqurları olan Süez və Veolia kimi çoxmillətli şirkətlər birliyinin həmsədridir.

2017-ci ilin iyul ayında bu Jan Lonay David Kolon ilə birlikdə İçməli su faktura və bölgü arasında başlığı altında bir kitab yazıb nəşr elətdirdi. (Faktura – beynəlxalq ticarət təcrübəsində satıcı tərəfindən alıcıya təqdim olunan mal və xidmətlərin siyahısı; onların miqdarı və alıcıya təhvil verildiyi qiymət; malların formal xüsusiyyətləri, rəngi çəkisi və s. olan sənəd.) David Kolon isə Veolia şirkətinin beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, başqa sözlə lobbiçidir. Bu atributlar sayəsində, Lonay içməli su sahəsində beynəlxalq səviyyədə qərar qəbul edənlərə müdaxilə etməyə hüququ olan bir adamdır. 2017-ci ilin fevral ayında Emmanuel Makronun Lot departamentinə səfərindən bir neçə gün əvvəl, o, Seneqala səfərə getdi. Prezident seçildikdən sonra Makron ona su şəbəkələrinin yenilənməsi haqqında maliyyə planı qurmağı həvalə etdi. (Bu sahəyə gələcəkdə milyardlarla avro məbləğində investisiyalar tələb olunacaq.) Ona görə də,14 iyul 2018-ci ildə Fransanın Milli Bayramı münasibəti ilə Lot departamentinin kadrı Jan Lonayın, Baş nazir tərəfindən Fəxri Legion Ordeni ilə təltif edilməsi qətiyyən təəccüb doğurmur.

## QOCALARIN ORTA YAŞLILARDAN QİSASI

Köhnə siyasətin, köhnə siyasətçilərin içində Makrona qoşulanların arasında, Kot-d'Or departamentindən olan senator Fransua Patriat da var. Vaxtilə Sosialist Partiyasında həmişə Dominik Stros-Kanı dəstəkləyən bu adam, indi də Senatda Makronu dəstəkləyir. (!) Ona görə də tamamilə təbiidir ki, Fransua Patriat Milli Assambleyada LREM (Respublika Hərəkətdə Partiyası) qrupunun prezidenti olur. Kantal departamentində isə Makron, Radikal Sol Partiyasının (PRG) tanınmış fiquru Jak Mezardı da öz tərəfinə çəkir və bu adam, bir müddət onun Ərazi Birliyi naziri kimi fəaliyyət göstərir. Yeri gəlmişkən, Jak Mezard və onun PRG-dən (Radikal Sol Partiyası) olan dostları, əllərinə düşən bu gözlənilməz şansdan bacarıqla istifadə etdilər: belə ki, öz partiyalarından olan Samuel Deqara adlı bir adamın "Hərəkətdə!" qrupunun Milli İnvestisiya Komissiyasının daxilində olmağından istifadə edib, ciddi bir namizədləri olmasa da, öz piyadalarından bir neçəsini müxtəlif seçki dairələrinə soxuşdurur.

Əyalətdə özünə lazım olan, ona dəstək ola biləcək adamları iyləyib tapan Makron, bu dəfə Val-d'Uaz departamentinin senatoru, sosialist, keçmiş Müdafiə naziri Alan Rişarddan yapışır. O, LREM (Respublika Hərəkətdə Partiyası) qrupunun bu kadrına yüksək səviyyəli dövlət məmuru Dominik Burla birlikdə, yerli orqanların vergi hesabatını aparmaq kimi çox məsuliyyətli bir iş tapşırır. Rişard, həmçinin konstitusiya islahatları ilə bağlı müzakirələrdə də iştirak edir.

"Hərəkətdə!" qrupunun bir çox üzvlərinin fikrincə, bu təvazökar senator, Makronun yaratdığı hərəkatda çox böyük rol oynayır. Bu adamın ölkənin seçki xəritəsindən çox yaxşı başı çıxdığını hiss edən Makron, istədiyi vaxt ona zəng vurub məsləhət almaqdan çəkinmir...

Bunu çox adam bilmir: Makron Sosialist Partiyasının üzdə olan fiqurlarından biri, uzun müddət Nord-Pa-dö-Kale departamentinin regional şurasının prezidenti olmuş Daniel Perşerona pərəstiş edir. Göründüyü kimi prezidentin əyalət modelləri arasında qüdrəti və əzəməti ilə fərqlənən möhtəşəm bir baron var.

Bir şey çox qəribədir ki, "yeni dünya" qurmaq istəyən namizəd, bu istəyinə, hər şeydən əvvəl, yaşlı siyasətçilərin məskən saldıqları ərazilərində çatmaq istəyir. İstər, sağçı olsun, istər, solçu, istər, radikal partiyadan olsun, istər, mərkəzi partiyadan, bu adamların hamısının 60-dan yuxarı yaşları var, onlar Jiskar, Mitteran kimi prezidentlərin hakimiyyəti dövründə məsul vəzifələrdə çalışıblar. Buna baxmayaraq, bu Mitterançılardan ibarət solçular şəbəkəsinin və Jiskarçılardan ibarət sağçılar şəbəkəsinin gənc Makrona simpatiyaları var. Niyə? Çünki PS və LR (Sosialistlər və Respublikaçılar) kimi iki böyük ənənəvi partiyanı partladıb darmadağın etmək üçün Makron arxasını onlara söykəyir... onlar da bu iddialı gəncin sayəsində, yenidən qaynar siyasi həyata qayıdıb cavanlıqlarını yadlarına salırlar. Bundan başqa, adlı-sanlı universitetləri, institutları bitirib, onların partiyasında qoçuluq edən, yaslı nəslə hörmət etməyən, özündənrazı və eqoist orta yaşlı siyasətçilərə yaxşı dərs vermək istəyirlər. Makronla bu yaşlı nəslin ittifaqı sonralar daha çox bəhrə verəcək... Belə ki, sağçılar partiyasından olan ağır çəkili siyasətçi, keçmiş Baş nazir Jan-Pier Raffaran, prezident seçkilərinin iki turu arasında Emmanuel Makrona yaxınlaşacaq... və Baş nazir olanda – çevrəsinə yığdığı nüfuzlu şəbəkəsindəki şəxslərin hamısını bu gənc və iddialı namizədə kömək etməyə çağıracaq. Onların arasında 2002-2004-cü illər arasında Raffaranın kabinet direktoru olan – hal hazırda indiki Baş nazir Eduard Filippin kabinet direktoru – Benua Ribado-Düma, eləcə də onun müşaviri Ksavier Şino kimi ağır çəkili siyasətçilər var. Sonralar Jan-Pier Raffaranın bu keçmiş əməkdaşları, "yeni dünya" qurmaq istəyən

Makron tərəfindən yüksək vəzifələrə təyin olunacaqlar: məsələn, Paris Aeroportunun Direktoru (ADP) Oqustan dö Romanet. (Jan Pier Raffaran Baş nazir olanda, onun kabinet direktorunun keçmiş müavini.) Bir sözlə, Makronun qurduğu "yeni dünyada" elə bir yenilik gözə dəymir. Orta yaşlılar tərəfindən kənara itələnən yaşlı nəsil, yenidən geri qayıdır. "Bu bir növ uduzanların qisasıdır", – deyə əvvəllər Sosialist Partiyasında olanlardan biri kinayə ilə qeyd edir.

## AVEYRONUN MAKRON SEKTORU

"Mən Aveyron departamentini çox sevirəm" – bu sözləri Makron Centre Presse (Aveyron departamentinin Rodez şəhərində çıxan gündəlik qəzet) qəzetinə verdiyi müsahibədə deyir. Makron özünü fransızlara sadə, xalq içindən çıxan, necə deyərlər bir "kəndçi" kimi göstərmək istəyir. O, əlindən gələni edir ki, ölkədə onu nə tək Rotşild bankının investisiya bankiri kimi, nə də Tuket şəhərinin küçələrində qısaqol köynəkdə gəzən bir gədə kimi yox, həm də Fransanın hər bir bölgəsində öz çevrəsi olan siyasətçi kimi tanısınlar. V Respublikada namizədin belə bir hərəkəti təəccüblü deyil, çünki lap əzəldən, bütün prezidentlər seçki kampaniyası zamanı uzaq bölgələrə baş çəkib, imiclərini artırmaq üçün sadə kənd adamları ilə birbaşa "dialoqa" girməyi özlərinə borc biliblər; ancaq onu da etiraf etmək lazımdır ki, heç bir siyasi təcrübəsi olmayan İqtisadiyyat naziri üçün bu çox riskli addımdır…

Yerli əhali ilə bu görüş, namizədin prezident seçkilərinin ikinci turundan əvvəl Rodez şəhərində təşkil olunan axırıncı görüşdür. Bu şəhərin meri Kristian Teyssed onun ilk dəstəkçilərindən biridir və bu prefekturanın 80% əhalisi ikinci turda "Hərəkətdə!" hərəkatının namizədinə səs verəcək. Yeri gəlmişkən, merin gənc kabinet direktoru Toma Moqaraey, LREM partiyasının (Respublika Hərəkətdə Partiyası) yerli referenti sayılır. Amma Makron Aveyronu tək buna görə sevmir: məsələ burasındadır ki, onun mühafizə komandasındakı cangüdənlərin çoxu əslən bu bölgədəndirlər. Ümumiyyətlə, prezidentin komandası ilə Aveyron departamenti arasında əlaqələr çoxdur. Makronun İqtisadiyyat Nazirliyindəki keçmiş kabinet direktoru, eyni zamanda onun yaxın dostlarından biri olan iqtisadçı Mark Ferraççinin həyat yoldaşı Sofi Ferraççi da əslən bu zonadandır. 2005-ci ildə Aveyron bölgəsinin Brommat adlı kiçik bir kəndində onların toyunda iştirak edən gündən Emmanuel Makron bu ərazilərə vurulub.

Həmin il bu departamentin Millo şəhərində, gələcək prezident cütlüyü, siqaret mağazasında işləyən Əhməd Eddarraz adlı bir adamla tanış olur. Əslən Mərakeşdən olan, otuz yaşındakı bu cavan oğlan uzun müddətdir ki, Sosialist Partiyasının (PS) fəal üzvü, eləcə də şəhərin bələdiyyə idarəsində məsləhətçidir. Dominik Stros-Kanın (DSK) pərəstişkarı olan bu cavan oğlan, 2015-ci ildən "Gənclər Makron ilə" (JAM) qrupuna daxil olur və bir ildən sonra Emmanuel Makronun namizədlik kampaniyasında Brijit Makronun şəxsi əməkdaşı kimi fəaliyyət göstərir. Əhməd Eddarraz, sözün əsl mənasında, Fransız dili müəlliməsinin kölgəsinə çevrilir, Brijit hara getsə, əyalət şəhərində siqaret satan bu oğlan onu müşayiət edir, onun ailəsinin, uşaqlarının qayğısına qalır, bir sözlə Emmanuel Makronun prezident seçkilərindəki qələbəsinə qədər onun arvadının sağ əli olur. Amma Makronun qələbəsi günü La Rotonde restoranında üç saat əvvəl seçilmiş prezidentlə bir stol arxasında qədəh-qədəhə vurub qələbələrini qeyd etməsinə baxmayaraq, hətta sonra prezident Makronun Mərakeşə ilk səfəri zamanı onu müşayiət edən nüfuzlu şəxslərin arasında olsa da belə, Əhməd Eddarraza Yelisey sarayında heç bir vəzifə verilməyəcək, o yaşadığı Millo şəhərinə qayıdıb, siqaret satmağa davam edəcək. LREM partiyası (Respublika Hərəkətdə Partiyası) yaranan kimi onun üzvü olan Mərakeşli bu oğlan sonralar öz bölgəsindən deputat seçilmək arzusuna düşür.

Göründüyü kimi prezident seçkiləri zamanı namizədlə onun arvadının qulluğunda duran tək Aleksandr Benalla deyildi. Ona görə də bəzi jurnalistlərin Benallaya Makron cütlüyünün yeganə köməkçisi damğası vurmaqları reallıqla qətiyyən uyğun gəlmir...

Aveyron həm də Lüdovik Şakerin vətənidir. O, Durbi vadisində – Coss və Keven şəhərləri arasında yerləşən – San-Jan-dü-Brüel kəndində böyüyüb boya başa çatıb. Onun dostu – Yeliseydə xüsusi məsləhətçi İsmael Emelien isə Qrenobl şəhərindən gəlməyinə baxmayaraq Aveyron mənşəlidir... Onu da əlavə edək ki, Makron imperiyasının sütunlarından biri olan Milli Assambleyanın prezidenti Riçard Ferrand da 1962-ci ildə Aveyron departamentinin Rodez şəhərində anadan olub.

## FERRAND VƏ BROTAYN REGİONU

2018-ci ilin sentyabr ayında, Milli Assambleyanın sədri kimi deputatların qarşısındakı ilk çıxışını Rişard Ferrand bu sözlərlə başlayır: "Mən Aveyron kəndinin uşağıyam...". Ancaq o, siyasi karyerasına bu bölgədə başlamayıb. Bu gənc Mitterançı (o, Sosialist Partiyasının (PS) biletini 1981-ci ildə alıb) 1991-ci ildə Parisə gəlib Sosial və İnteqrasiya Məsələləri üzrə Dövlət Katibi Kofi Yamyanın Parisdəki ofisində işə düzəlir və bir müddət sonra Brotayn regionuna qayıdır. 1998-ci ildə ilk dəfə seçki mandatı alır və yuxarı vəzifədə olan bir tanışının tapşırığı ilə Finister departamentinin Karaks şəhərində, bu departamentin yerli kanton seçkilərində iştirak edir. Elə həmin il o, Brotayn regionunun Mütüel şirkətinin baş direktoru təyin edilir.

Breton torpaqlarında Rişard Ferrand heç kəsi biganə qoymur. Çünki Karaks keçmiş kommunist yuvası olduğundan, bu adamın sosialist radikallığı, respublikaçı ruhu, xəmiri regionalizm, özünüidarəetmə və solçu katolik mədəniyyəti ilə yoğurulmuş yerli siyasi ruhla ziddiyyət təşkil edir. Ona görə də Brotayn regionunun Brest şəhərində yaşamağa üstünlük verən bu nəcabətli şəxsiyyət, nə qədər cəhd eləsə də, Karaks şəhərindəki kanton seçkilərində qalib gələ bilmir. Karaks seçicilərinin əksəriyyəti şəhərin meri, 2013-cü ildə qırmızı papaqlılar hərəkatının lideri, eləcə də Vieilles Charrues musiqi festivalının həmtəsisçisi Kristian Troadekə səs verir. Karaks şəhərindəki bu məğlubiyyətinə baxmayaraq, Rişard Ferrand Brest şəhərində, Brest burjuaziyasının arasında, xüsusən də onların toplaşdığı yerli frank-mason lojunda (1783 ci ildə təşkil olunmuş Böyük Şərqin Fransası loju) özünü suda balıq kimi hiss edir. Yeri gəlmişkən, bir gün o, yerli jurnalistlərə verdiyi müsahibələrinin birində etiraf edir ki: "Mən "yeni dünya" ifadəsini bəyənmirəm... Bu ifadəni işlədən adamlardan uzağam və bu ifadənin pərəstişkarı da deyiləm...".

Kofi Yamyanın qanadının altına aldığı, hamının "çox iddialı bir adam" kimi baxdığı Rişard Ferrand 2012-ci ildəki deputat seçkilərində, hamının təəccübünə rəğmən, öz himayədarına qarşı çıxır, özü də sosialist etiketi altında! Onun 6-cı seçki dairəsi, Finister departamentinin mərkəzindən Atlantik okeanına qədər uzanır, eləcə də Lonq adasını əhatə edir. Bu zonada – Brest şəhəri yaxınlığında – yerləşən süni səkildə yaradılan yarımada isə Milli Donanmanın nüvə ballistik raket sualtı gəmiləri (SSBN) üçün baza rolunu oynayır. Bu axırıncı detaldan aydın olur ki, niyə Rişard Ferrand, bir müddət Milli Assambleyanın Müdafiə Komitəsinə sədrlik edir. (Əvvəlki prezidentin hakimiyyəti dövründə bu postu başqa bir deputat – Brest şəhərindən olan – sosialist Patrisia Adam tutmuşdu. Sonra bu qadın Sosial Məsələlər Komitəsinə təyin olundu.) Axırıncı illərdə Brotayn regionunun Mütüel şirkətinin bu ziddiyyətli prezidenti – Fransa Kommunist Partiyasının (PCF) keçmiş pərəstişkarı – çıxışlarında daha çox ekstremist solçulara dəstək verməyə başlayır. Belə ki, Sosialist Partiyasının (PS) daxilində Martin Obrini (Lil şəhərinin meri. Milli Assambleyanın deputatı. Ekstremist solçu) o qədər tərifləyir və dəstəkləyir ki, hamı onu Fransua Hollandın rəqibi sayır. Ona görə də yazıq Kofi Yamyan heç cürə başa düşə bilmir ki, nəyə Rişard Ferrand kimi sosialist və ekstremist solçulara göz-qaş oynadan bir siyasətçi, 2015-ci ildən Makron kimi çox liberal bir adama yaxınlaşır. "Mənim fikrimcə, o, (Rişard Ferrand) ideoloji cəhətdən Sosialist Partiyasına (PS) xəyanət etdi. Mən heç cürə başa düşə bilmirəm, necə ola bilər ki, bir adam, eyni zamanda həm Sosialist Partiyasının (PS) ekstremist solçu qanadında olsun, həm prezidentlə müxalifətdə olanlara simpatiya bəsləsin, həm də Sosialistlərdən çox Respublikaçılara yaxın olan Makronun partiyasına (LREM – Respublika Hərəkətdə) qoşulsun...", – deyə Mitteranın bu keçmiş naziri təəccüblə çiyinlərini çəkir.

Ancaq bir şey də var ki, Makronun beş illik prezidentlik macərasının birinci ili bu iddialı və ziddiyyətli insan üçün çox pis başladı. 2017-ci

ilin may ayında Le Canard  enchaîné qəzeti onunla bağlı qalmaqal bir məsələ üzə çıxarır: sən demə, Rişard Ferrandın daşınmaz əmlak şirkətinə rəhbərlik edən həyat yoldaşı Sandrin Dukan, 2011-ci ildən ərinin prezidenti olduğu Mütüel şirkətinin binasında bir neçə ofis kirayə edib. Bundan başqa, Rişard Ferrand 2012-ci ildən bu şirkətin prezidentliyini başqa adama təhvil versə də, Fransua Hollandın beş illik hakimiyyəti dövründə həmin şirkətdə sadə missiya meneceri kimi (ayda 1250 avro maaşla) adı gedib. Bu qalmaqal ortaya çıxandan sonra Ferrand məcbur olub, tutduğu vəzifədən istefa verir. İlkin təhqiqatlar zamanı hüquq orqanlarının ortaya çıxardıqları bir çox "qanunsuzluqlar" mətbuatda yayılandan sonra, Ferrand vəzifəsindən sui-istifadə edib "qeyri-qanuni faiz götürməkdə" şübhəli bilinən bir şəxs kimi Lil şəhərindən təyin edilmiş üç hakim tərəfindən istintaqa cəlb olunur.

Mətbuatda qanunu pozmaqda şübhəli sayılan Milli Assambleyanın sədri Rişard Ferrand Brest şəhərində "Hərəkətdə!" qrupundan olan iki nəfərin dəstəyinə bel bağlayır: biri Finister departamentinin Sosialist Partiyasının keçmiş rəhbəri Mark Koatan, o biri isə Brotayn regionunda dəniz və liman infrastrukturunun gənc vitse-prezidenti, Ferrandın Milli Assambleyada "dəniz işləri" üzrə özünə məsləhətçi təyin etdiyi Pier Karleskind. Ancaq bu iki müttəfiq, Brest metropolunun sosialist meri Fransua Qiyyandr tərəfindən vəzifələrindən uzaqlaşdırılır, çünki mer sosialist olan bu iki adamın Makronun partiyasına üzv olmaqlarını onlara bağışlamır.

Bələdiyyə seçkiləri qabağı, vaxtının çoxunu Milli Assambleyada keçirən Rişard Ferrand çulunu sudan çıxarmaq üçün Brest şəhərində gündəlik çıxan Telegram qəzetində dərc olunan bir məqalədən məharətlə istifadə edir. Bu məqalədən məlum olur ki, sən demə, "Brestdə yaşamaq" assosiasiyası, şəhərin bəzi sosialist deputatlarına ayrılan zəhmət haqqını dövlətdən gizlədirmiş. Qəzetdəki məqalədən o da aşkar oldu ki, 2018-ci ilin noyabrında Brest merinin yaxın dostu, regionun böyük

tikinti layihələri ilə məşğul olan dövlət komissiyasının vitse-prezidenti Alan Mason vəzifəsindən azad edilib: çünki məlum olub ki, bu adam deputat məvacibindən əlavə, "Brestdə yaşamaq" assosiasiyasından aldığı məbləği vergilərə bildirməyib. Bu hadisələr Sosialist Partiyasının yerli şöbəsi üçün təbii ki, çox böyük bir biabırçılıq oldu. Ancaq yerli LREM (Respublika Hərəkətdə Partiyası) və onun üzvləri sosialistlərə dəyən bu zərbədən yaxşı fayda götürdülər.

## AXŞAM MƏSLƏHƏTÇİSİ

*MİŞEL ŞARAS*

Bununla belə, dövləti idarə edən adamların dördüncüsü olan Milli Assambleyanın sədri (Rişard Ferrand) hələ də yerli siyasi fiqurların hamısını öz tərəfinə çəkməkdə çətinlik çəkir, xüsusilə ona görə ki, bu bölgədən olan digər iki makronist nazir – Jan-İv Lö Drian və Fransua dö Rüqy onunla dostluq etmirlər. Bu azmış kimi, Qimper şəhərinin keçmiş meri Bernard Puanyant öz növbəsində Fransua Hollanda sadiq qalır. Əvvəlki prezidentin dövründə Yelisey sarayının müşaviri olan bu adam Makronla yaxşı münasibət saxlayır, özü də o vaxt prezident sarayında onların kabineti eyni mərtəbədə yerləşirdi. Bundan əlavə, 2017-ci il yanvarın 16-da Bernard Puanyant mer olduğu Qimper şəhərində Makronun seçicilərlə görüşünü geniş şəkildə təşkil etmişdi. Görüşdən bir neçə saat əvvəl Makron ona zəng vurub: "Zəhmət olmasa, mənə Qimper şəhəri və Brotayn regionu haqqında geniş məlumat ver...", – deyə xahiş etmişdi. Bernard Puanyant cavab verir ki: "Qimper Breton dilində "su qovşağı" deməkdir... ya da "iki şeyin bir nöqtədə kəsişməsi..." və bu ifadələr sənə çox yaraşır...". Sonra bu qoca qurd (Bernard Puanyant) Makrona xəbərdarlıq edir: "Bilirsən, sən indi coşmusan, gözün ayağının altını görmür... amma ehtiyatlı ol, cəmiyyət səni məhv edə bilər". Daha sonra əlavə edir: "Sən hələ çox cavansan, Napoleon Bonapartdan da cavansan... uğur qazanmaq üçün, gərək sən cəmiyyətin gözündə model olasan, necə deyərlər, Fransa ilə evlənəsən, Fransa ilə ailə qurasan...". Və Makron cavabında deyir: "İnan ki, elə mən hal hazırda bununla məşğulam".

Makrona bu əcdadlardan qalma məsləhəti, həm də keçmiş büdcə naziri, Konstitusiya Şurasındakı mandatını yenicə başa vuran Mişel Şaras da verir. Vaxtilə Fransua Mitteranın silahdaşı olan bu adam, o qədər də Makronun təklif etdiyi "yeni dünya"nın adamı deyil. 1981-ci il

mayın 10-da seçilən prezidentin (Mitteran) çox intim dostu olan Mişel Şaras, dövlət sirlərinin cikini də bilir, bikini də. O, sözün əsl mənasında V Respublikanın yaddaş diskidir. Ona görə də heç də təəccüblü deyil ki, Şirak da, Sarkozi də prezident olanda, onun məsləhətlərini su kimi içirdilər. Ancaq Fransua Holland Yelisey sarayında ağalıq edəndə, ona qətiyyən etibar eləmirdi, əksinə ondan uzaq qaçırdı. Çünki Mitteranın xüsusi məsləhətçi olan Şaras, Yelisey sarayının altını da bilirdi, üstünü də. Özü də Mitteranın zibil işlərinin hamısından xəbəri vardı. Ona görə də Fransua Mitteranın hakimiyyətinin axırıncı illərində o, Şarl Paskua və o zamankı sağçılar partiyasından olan Baş nazir Eduard Balladür tərəfə daha çox yaxınlaşdı. Məhz elə o zaman Mitteranın bu xüsusi məsləhətçisi Nikola Sarkozi ilə tanış olur və elə tanışlığının ilk günündən ona qarşı simpatiyası yaranır. Həmin dövrdə o, Aleksandr Djurinin, eləcə də Veolia şirkətinin kommunikatorlarından biri olan Loran Obadianın yaxın adamı, keçmiş hüquqşünas Alan Marso ilə də tanış olur. Son illər Mişel Şaras ancaq və ancaq "yaxın dostları" ilə oturub-durur. O, müntəzəm olaraq sağçılar partiyasından olan tanışları Alain Marso, mətbuat rəhbəri Jan Miot, Serj Dassonun sağ əli Jan-Pier Beşter, hüquqşünas Jan-Klod Maran, hətta 2012-ci ildə Sarkozinin kampaniyasının qeyri-qanuni maliyyələşdirilməsi məsələsində ittiham olunan deputat Filip Briand kimi adamlarla nahar edir. Bu adamların hamısı Mişel Şaras kimi lazım gələndə dostlarına əl tutan, onlara arxa olan adamlardır...

2016-cı ildə Charles jurnalında silah gəzdirmək üçün lisenziyaya malik olduğunu elan edən və buna görə də üstündə silah gəzdirən şəxs, bir axşam Emmanuel Makronun yaxın məsləhətçisinə çevrilir. Məhz o şəxs prezidentə məsləhət görür ki, onun Konstitusiya Şurasındakı keçmiş həmkarı Nikol Bellubeti Ədliyyə naziri təyin etsin. Makron kimi bu keçmiş nazir və keçmiş senator da Sosialist Partiyasına dərindən nifrət edir. (Xüsusilə 2008-ci ildə Sosialist Partiyasından biabırçı şəkildə xaric edildiyinə görə) O, Sosialist Partiyasını lağca "Əyalət adamlarının

partiyası" adlandırır. Ağır xəstəliyə düçar olub uzun müddət xəstəxanada yatmağına baxmayaraq, Mişel Şaras hazırkı prezidentlə daim əlaqə saxlayır.

2018-ci ilin yanvar ayında Davos forumdan qayıdandan az sonra, dövlət başçısı Overyn bölgəsindəki fermerlərə yeni il arzularını çatdırmağa getdi. Səfərinin birinci günü Şamalier şəhərində keçmiş prezident Valeri Jiskard d'Estan-la görüşüb çay içir. Sonra telekameralardan uzaq və jurnalistlərdən xəbərsiz, prezident, Mişel Şaras ilə birlikdə, onun dəniz səviyyəsindən 1162 metr yüksəklikdə yerləşən Şovet gölünün kənarındakı dağ evinə qalxır. Deyilənə görə, Fransua Mitteran da bu yerləri çox sevirmiş və 1977-ci ildən 1996-cı ilə qədər mütəmadi olaraq bura istirahət etməyə gələrmiş. Mişel Şarasın gölün yaxınlığında yerləşən 54 hektarlıq dağ evində Emmanuel Makron bir qrup adamla nahar edir. Qonaqların arasında Mişel Şarasın zəndeyi-zəhləsi getdiyi nazir Jak Mezard, eləcə də Bess şəhərinin keçmiş meri Andre Qay, Püy-dö Dom şəhərinin meri Jan-İv Qüttebel və La Montagne mətbuat qrupun rəhbəri Alan Vedrin də var. Prezidenti bura gətirən Puma markalı iki vertolyot gölün kənarında yerə enəndə, bir qrup jandarm, o dağlarda yaşayan adamlara və fotoqraflara dövlət başçısına yaxınlaşmağı qadağan edir. Çünki prezidentin, dostunun gölün kənarındakı bu dağ evində bu adamlarla görüşü və nahar etməsi, rəsmi proqrama daxil deyildi. Makron şəxsi sirlərini mətbuata açmağı sevmir.

# YELİSEY SARAYININ KLANI

May 2017. Emmanuel Makron iri addımlarla Yelisey sarayına daxil olur. Fransua Hollandın keçmiş İqtisadiyyat naziri, nəhayət, istədiyinə çatdı: 40 yaşı tamam olmamış Respublika Prezidenti seçildi. Onun düşmənləri panika içindədirlər: görəsən, indi onların başına nə gələcək? V Respublika məğlub olanlara qarşı amansızdır. Onun lehinə olanlar, onu dəstəkləyənlər, onun saysız-hesabsız "dostları" isə sevinc içindədir. Bu adamların hər biri ayrı-ayrılıqda inanır ki, nəhayət, bütün arzularına çatacaqlar. Onların hər biri əmindir ki, Emmanuel Makronu yaxşı tanıyırlar və hər biri özünü onun "yaxın" dostu kimi qələmə verir. Ancaq onlar yanılırlar, hər şey heç də onların fikirləşdiyi kimi deyil. Çoxunun Napoleon Bonaparta bənzətdiyi bu gənc prezident elə hesab edir ki, onun heç kimə borcu yoxdur – o bu siyasi zirvəyə öz bacarığı, öz ağlı ilə heç kimin köməyi olmadan qalxıb. Elə ilk gündən Makron bunu hamıya hiss etdirəcək...

Fransua Hollandın prezidentliyi dövründə Makrona həmişə əl tutan, onu hər yerdə dəstəkləyən Yelisey sarayının keçmiş baş katibi Jan-Pier Juyet artıq onun gözündən düşüb. Bütün siyasi elita bilir ki, Jan-Pier Makrona həmişə bir ata kimi məsləhət verib, onu qoruyub. Buna baxmayaraq, Makron otuz ildən bəri Fransua Hollandla dostluq edən bu adama indi etibar eləmir. Niyə? Çünki o əmindir ki, Holland ondan qisas almaq istəyir, özü də Jan-Pier Juyetin əli ilə. (?) Ona görə də Yeli-

sey sarayına prezident kimi daxil olan gündən, onu həmişə dəstəkləyən himayədarı ilə ünsiyyəti kəsir. Hal-hazırda Fransanın Londondakı səfiri, Paris siyasi səhnəsindən çox-çox uzaqda olan Jan-Pier Juyet, bir vaxtlar oğlu kimi sevdiyi, arxasında durduğu Makronun, istəyinə çatandan sonra onu saymamasından narahat olub, təzə prezidentə dəfələrlə SMS və e-mail göndərir. Ancaq onun bütün cəhdləri boşa çıxır. Makron nə onun zənglərinə cavab verir, nə mesajlarına. Makron artıq oynamır. Onun üçün Juyet artıq bədənsiz ruhdur.

Beləliklə, heç bir xəbərdarlıq etmədən, gənc prezident Emmanuel Makron, bütün enerjisini ona sərf edən adamla birdən-birə bütün əlaqələrinə son qoyur. Ən çox zəif adamların at oynatdığı sosial şəbəkələr dövründə hər şey mümkündür və heç nə ayıb deyil. Ona görə də belə bir nankor dövrdə Makron möcüzələr yaradır. O özünü sevdirir, onu sevənlərdən bol-bol istifadə edir, sonra da onları lazımsız bir şey kimi kənara atır. Özü də heç bir vicdan əzabı çəkmədən. Təbii ki, qoca Jan-Pier, Makronun ona qarşı bu soyuq münasibətinin, onunla əlaqələrinin birdən-birə kəsməyinin səbəblərini başa düşmür. 2012-ci ildə Emmanuel Makronun Yelisey sarayının Baş katibinin müavini təyin olunmasını məhz Jan-Pier Juyet prezident Hollanddan xahiş etmişdi. İki il sonra 2014-cü ilin avqust ayında Makronun İqtisadiyyat naziri təyin edilməsini də prezidentə Jan-Pier Juyet təklif etmişdi.

Bunlar nə tez Makronun yadından çıxdı? Makron nə tez unutdu ki, 2015-ci ilin payızından başlayaraq Jan-Pier Juyet hamıdan gizlin, tez-tez onun yanına – İqtisadiyyat nazirliyinə gəlib gənc nazirin gələcək siyasi arzularını dəstəkləyir, ona dəyərli məsləhətlər verirdi? 2016-cı ilin dekabr ayında Fransua Holland yenidən prezidentliyə namizədliyindən imtina edəndən sonra Jan-Pier Juyet həyat yoldaşı Brijit Tettinjer ilə birlikdə Emmanuel Makronun Tuket şəhərindəki evinə gəlib onlarda qonaq qalmamışdımı? Daha sonra o, öz cibindən xeyli pul verib Makronun yaratdığı "Hərəkətdə!" hərəkatına maliyyə dəstəyi olmamışdımı? Hələ öz yaxın dostlarına, ailə üzvlərinə, qohumlarına da tapşırmışdı

ki, Makronun siyasi hərəkatına onun kimi şəxsi büdcələrindən maliyyə dəstəyi versinlər... Necə oldu ki, Emmanuel ona arxa olan, ona çətin günlərində kömək əli uzadan belə bir adamı sonra saymadı? Prezident olandan sonra onun Jan-Pier Juyetin zənglərinə, mesajlarına, elektron məktublarına cavab verməməsinə necə haqq qazandırmaq olar? Bəlkə, Makron Fransua Hollandı xatırladan hər şeyin üstündən birdəfəlik xətt çəkmək istəyir?

Seçkidən sonrakı aylarda da Makrondan xəbər çıxmır. Jan-Pier Juyet onun bu sükutundan narahat olsa da, "Makron təzə seçilmiş prezidentdir, çox güman ki, başı çox qarışıqdır", – deyə öz-özünə təsəlli verir. Sonra bu geniş ürək sahibi dostlarına qohumlarına şikayət etməyə başlayır. Jan-Pier Juyetin Makrona göndərdiyi SMS mesajlarının, e-maillərin sayı getdikcə artsa da, gənc prezidentdən xəbər çıxmır. Ata kimi sevdiyi bir adamın bu biganəliyi, qoca Jan-Pierin çox xətrinə dəyir. Makronun saymamazlığı onu bərk incitsə də, hələ də ümid edir, hələ də inanır ki, prezidentin başı bir az işdən ayrılandan sonra ona cavab verəcək. Ancaq aylar keçir, Makrondan səs çıxmır. Axırda Jan-Pier Juyet məcbur olub Yelisey sarayının baş katibi Aleksi Kohlerlə əlaqə saxlamağa çalışır. Lakin Aleksi Kohler də nə onun SMS mesajlarına, nə də elektron məktublarına cavab verir. Halbuki prezidentdən sonra dövlətin ikinci ən vacib adamı olan bu məmur Makronla belə yaxın olmağında, onun sağ əlinə çevrilməyində ancaq və ancaq Jan-Pier Juyetə borcludur. Çünki 2014-cü ilin avqustunda Jan-Pier Yelisey sarayının baş katibi olanda, yeni İqtisadiyyat naziri Emmanuel Makrona məhz o məsləhət görmüşdü ki, Aleksi Kohleri özünə kabinet direktoru götürsün... Görünür, Aleksi Kohlerin də yaddaşı Makronunku kimi zəifdir.

2018-ci ilin yanvar ayının 18-də Londonda təşkil olunacaq Fransa-Britaniya sammitini hazırlamaq üçün Yelisey sarayına gələn Fransanın İngiltərədəki səfiri Jan-Pier Juyet, bu fürsətdən istifadə edib, Makronun ona qarşı bu soyuq münasibətini anlamağa çalışır. Həmin gün Respublika Prezidenti rəsmi olaraq Fransanın İngiltərədəki səfiri-

ni öz kabinetində qəbul edir. "Hə, necədir sənin yeni vəzifən? Xoşuna gəlirmi?", – deyə dövlət başçısı riyakar təbəssümlə ona sual verir. Səfir Jan-Pier Juyet onun bu sualına müsbət cavab verəndən sonra söhbətə dəyişir: "Bir dəqiqə Emmanuel... mən sənə o qədər SMS, e-mail göndərmişəm... Ancaq sən heç birisinə cavab vermədin. Mən başa düşmürəm...". Makron onun sözünü kəsir: "Nə SMS? Nə e-mail? Mən heç nə almamışam...". Juyet sözünə davam edir: "Mən eyni e-mailləri Aleksi Kohlerə göndərmişəm...". Elə bu vaxt Yelisey sarayının Baş katibi otağa daxil olur. Makron onu özünə şahid çəkir: "Aleksi, heç bilirsən Jan mənə nə dedi? Deyir ki, bəs mən sizə SMS mesajları, xeyli e-mail göndərmişəm, ancaq siz cavab verməmisiniz... Bu nə deməkdir? Axı biz heç nə almamışıq... elə deyil? Nə SMS nə də e-mail...". Yelisey sarayının Baş katibi də prezidentin dediklərini təsdiqləyir. Bu sözlərdən sonra Juyet onlara inanmağa hazırdır: "Hə, başa düşdüm... indi ürəyim sakit oldu. Mən də elə bilirdim ki, siz daha mənimlə danışmaq istəmirsiniz...".

Ancaq Brijit Makron Jan-Pier Juyetin həyat yoldaşı Brijit Tettinjer ilə dostluğunu saxlayıb. Onlar mütəmadi olaraq telefonla danışır, bir-birindən hal-əhval tuturlar. Brijit Makronun rəfiqəsinin həyat yoldaşına – ərinin keçmiş himayədarına – qarşı diqqətsizliyindən, saymazlığından çox gözəl xəbəri var və onun bu hərəkətini tez-tez məzəmmət edir. Brijit hesab edir ki, ərinin Jan-Pier Juyetə qarşı belə açıq-aşkar saymazlıq etməsi, özünü bu qədər təkəbbürlü aparması ona zərər verə bilər... Ancaq bu mövzuda Emmanuel Makron arvadına qulaq asmır.

## "YALANÇI" ATTALİ

Jan-Pier Juyet Makronu seçki kampaniyası zamanı dəstəkləyən, ona maddi və mənəvi kömək göstərən, onun qələbəsindən sonra isə unudulan adamların uzun siyahısında yalnız birincidir. Başqa bir ağır çəkili siyasətçi – İqtisadiyyat Nazirliyinə tez-tez gəlib Makrona dəyərli məsləhətlər verən, FMİ-in (Beynəlxalq Valyuta Fondu) keçmiş rəhbəri, Dominik Stros-Kan da prezidentin istifadə edib, sonra unutduğu adamlardandır. Makron, seçki kampaniyası zamanı ondan, xüsusilə onun şəbəkələrindən yaxşıca istifadə etdi. Ancaq prezident seçiləndən sonra onu yaddaşından sildi. Düz 2017-ci ilin may ayından bəri Dominik Stros-Kan nə Makronu görüb, nə də onunla telefonla danışıb.

Başqa bir şəxsiyyətin də Emmanuel Makronun prezident seçilməsində böyük köməyi olub, ancaq onun da yeni prezidentdən o qədər də xəbəri yoxdur: Jak Attali. Onu da etiraf etmək lazımdır ki, bu adamların ikisinin də yüksək dərəcəli eqoları var – ikisi də bir-birinin tayıdır, ikisi də necə deyərlər, "nə yardan doyur nə əldən qoyur". Məsələ burasındadır ki, Fransua Mitteranın keçmiş müşaviri Attali, həmişə üzdə, diqqət mərkəzində olmaq istəyir. Ancaq bu sahədə o, Makrona çata bilməz, Makron özünü gözə soxmaqda çox mahirdir. Sarkozinin vaxtında 2007-ci ildə Jak Attalinin başçılıq etdiyi və onun adını daşıyan "Attali komissiyası"nın üzvü olanda, Makron təbəssümü, danışıq tərzi və ideyaları ilə bütün komissiya üzvlərinin simpatiyasını qazanmışdı. "Onun rolu ancaq yazmaq idi", – deyə Attali bir neçə ildən sonra, Makronun onun komissiyasındakı işini tərifləyənlərə quru-quru cavab verir. Bundan sonra, onların arası tədricən sərinləməyə başlayır və nəhayət, 2015-ci ilin yayında münasibətləri tamamilə pozulur. Ona görə də Jak Attali qərara gəlir ki, prezident seçkilərində Makronu yox, Manuel Vallsı dəstəkləsin. Makron bunu eşidəndə ironiya ilə gülür. İqtisadiyyat naziri olanda,

müsahibələrinin birində bütün Fransa mətbuatının onun müəllimi və vaxtilə onu qanadının altına alan bir adam kimi təqdim etdiyi Jak Attali haqqında, Makron bu sözləri deyir "O yalançıdır!". Düzdür, Makron prezident seçiləndən sonra Attali onunla barışmağa can atacaq və bu məqsədlə ona cəmiyyətdəki bərabərsizlikləri üzə çıxarmaq üçün yeni komissiya yaratmaq təklif edəcək... Lakin Yelisey sarayı ona daha heç bir missiya tapşırmayacaq.

## MƏRKƏZLƏŞMƏ PROSEDURU VƏ ONUN ZİYANI

2018-ci ilin əvvəlində hər sahədə uğur qazanmağa çalışan prezidentin komandasının hələ ağlına gəlmir ki, tələsən təndirə düşər. Biz sanki "yumurtaların üstündə gəzirik!", – deyə Emmanuel Makronun yaxın məsləhətçilərindən biri təşvişlə etiraf edir. Prezidentin komandası elə hesab edir ki, Makronun siyasi rəqiblərinin heç biri onun dırnağı da ola bilməz. Yelisey sarayında hər şeyi prezident Makron ilə baş katib Kohler idarə edir. Hər şeyə onlar qərar verir və əlbəttə ki, nazirləri, prefektləri, səfirləri, eləcə də ölkənin bütün idarəetmə orqanlarının rəhbərlərini ancaq özləri təyin edirlər.

... Nəticədə sistem bloka düşüb tormozlanır. Bu vəzifələrə can atan çoxsaylı namizədləri bir-bir qəbul edib onlarla söhbət etmək, hansının bu vəzifəyə yararlı olub-olmamasına qərar vermək, təbii ki, çox vaxt aparır. Ona görə də departamentlərin çoxunun prefekturasına hələ nə prefekt təyin olunub, nə də xarici ölkələrə səfirlər. Prezidentlik kampaniyası zamanı Emmanuel Makron bəyan etmişdi ki, əgər prezident seçilsə, ölkənin idarəetmə orqanlarına rəhbər təyin etmək məsələsində Amerikada tətbiq olunan spolis system üsulundan istifadə edəcək. Di gəl prezident seçiləndən sonra fikrini dəyişdi. Amma 2017-ci ilin yayında o, hökumətin baş katibi Mark Qiyyomu öz vəzifəsində saxlamaq qərarına gəldi – baxmayaraq ki, onu bu vəzifəyə Hollandın prezidentliyi dövründə, Baş nazir Manuel Valls təyin etmişdi...

Beləliklə, Contexte saytında "Vitse Baş nazir" kimi təqdim olunan Mark Qiyyom, nazirliklərarası görüşlərə rəhbərlik edir, eləcə də nazirlər Şurasına təyin olunacaq namizədlərlə görüşüb onların arasında seçim edir. Ona görə də hamı ona, hökumətin bir növ nəzarət qülləsi kimi baxır. Yeri gəlmişkən, 52 yaşlı bu adam, düz səkkiz il Konstitusiya Şurasının katibi olub. Bu da o deməkdir ki, Qiyyom dövlət aparatının

bütün sirlərini çox yaxşı bilir. Məhz elə buna görə, xüsusən də dövlət administrasiyasında istədiyini etmək üçün Makron onu öz vəzifəsində saxlamağa qərar verir. Onunla əlaqəni daha da möhkəmləndirmək üçün Makron ilə Brijit, hətta Mark Qiyyomu həyat yoldaşı ilə birlikdə evlərinə şam yeməyinə dəvət edirlər.

Hər şeyi öz nəzarəti altında saxlamaq, hər bir işə qarışmaq, lazım gəldi-gəlmədi hər bir məsələyə öz münasibətini bildirmək tez bir zamanda Emmanuel Makronu hamıdan təcrid edəcək. Dövlətin idarəetmə orqanlarındakı məmurları ixtisar etməkdə Nikola Sarkozidən daha betər olan Makron, nazirlər kabinetinin işçilərinin sayını azaldıb on nəfərə endirir. Ümumiyyətlə, Yelisey sarayı nazirlərə çox nadir hallarda məsləhətçilər götürməyə səlahiyyət verir, xüsusən də maliyyə sahəsində. Təbii ki, bundan sonra nazirlər idarə etdikləri nazirliklərin büdcə məsələsinə özləri qərar verə bilmirlər. (!) Bundan başqa, nazirlər kabinetində texniki məsləhətçilərin sayını məhdudlaşdırmaqla Makron, dövlət administrasiyalarında nazirlərinin siyasi çəkilərini azaldır.

Müxtəlif nazirliklərdə ixtisara saldığı təcrübəli mütəxəssislərin çatışmazlığını kompensasiya etmək üçün prezident Yelisey sarayında və Baş nazirin kabinetində rəsmi və qeyri-rəsmi məsləhətçilərin saylarını artırır. Dövlət fərmanlarının nəşr olunduğu rəsmi qəzetin yazdığına görə, onların sayı altmışa (!) qalxır, hətta bəziləri eyni zamanda həm prezident aparatında, həm də Baş nazirin kabinetində fəaliyyət göstərirlər. Bu, konformizm okeanında Makronun yaratdığı daha bir "yenilikdir". Çünki onların çoxu İqtisadiyyat Nazirliyində büdcə sahəsində çalışmış maliyyə müfəttişləridir. Bir sözlə, Makronun ətrafındakıların təşkilat inqilabi kimi təqdim etdikləri bu məsələ, əslində, təmiz fransız texnokratiyasıdır.

Makronun prezident kampaniyasında birbaşa və ya dolayısı ilə iştirak edənlər indi özlərini onun tərəfindən tərk olunmuş hiss edirlər. 2017-ci ilin iyul ayında məşhur iqtisadçı Eli Kohen Challenges jurnalına verdiyi müsahibəsində belə deyir: "Emmanuel Makron onun layihə-

sinin inkişafında böyük rol oynamış iqtisadçıların hamısını özündən uzaqlaşdırdı... İndi hətta Yelisey sarayının Baş katibinin belə İqtisadiyyat Nazirliyindən gələn bu texnokratların nöqteyi-nəzərlərini qəbul etmək və ya inkar etmək bacarığı yoxdur".

Prezident seçiləndən cəmisi bir neçə ay sonra Makron özündən elə bir super-prezident imici yaradır ki, nazirlərin heç biri qorxusundan onun yanında ağzını açıb bir söz deyə bilmirlər. Makron iclaslarda hətta bəzən onları təhqir də edir, sözlərini kobudcasına kəsir, təkliflərinə rişxənd edir. O, müxtəlif administrasiyaların direktorlarını birbaşa Yelisey sarayına çağırmaqdan da çəkinmir. Nə prezident aparatında, nə də nazirlər kabinetində onun sözünün qarşısında heç kim bir söz deyə bilmir. İqtisadiyyat nazir Brüno Lö Mer Le Monde qəzetinə böyük bir müsahibə verəndən sonra dərhal Yelisey sarayının Baş katibi Kohler tərəfindən tənbeh olunur. Makronun özünü super-prezident kimi aparması kənardan yaxşı görünsə də, praktikada özünü doğrultmur: dövləti idarə edən nazir və məmurlar onun bu hoqqalarına çətinliklə dözürlər.

Makron əməkdaşlarına daim təzyiq göstərir. Gecə və gündüz. Hamı bu gərginliyi hiss edir – həm prezident aparatında, həm də Baş nazirin iqamətgahında. Makron bircə dəqiqə də olsun nə özü boş oturur, nə də başqalarına imkan verir. Nəticədə, o prezident seçiləndən on səkkiz ay sonra prezidentin ətrafındakı müşavirlər, məsləhətçilər hamısı yorulub əldən düşür. Hər şeyə şəxsən özü nəzarət edən, gecə-gündüz işləyən, hətta gecələr də yatmayan bir prezident kimi təqdim edilən Makron, istəsə də bütün işlərin öhdəsindən gələ bilmir. Buna baxmayaraq, prezident hətta ona ünvanlanan bütün məktubları şəxsən özü açıb oxuyur. Nəticədə, işlər üst-üstə yığılıb qalır, vacib sənədlərə cavab verməyə nə vaxt qalır, nə də imkan.

## ÖZÜNƏ GÜVƏNİB HÖKMRANLIQ EDƏN TEXNOKRAT

Gənc prezident ətrafına təxminən özü yaşda müşavirlər və məsləhətçilər yığıb. Onların hamısı bir yerdə, qəhrəmanlarının şan-şöhrəti üçün əllərindən gələn hər şeyi edirlər. Tarixçi Patrik Buşeron onu, "hakimiyyətə can atan bir dəstə cavan oğlanı başına toplayıb, siyasət aparan" Makiavelli ilə müqayisə edir. Aleksi Kohler (Yelisey sarayının Baş katibi) ilə Makron eyni zövqə malikdirlər – ikisi də hakimiyyətə susayan adamlardır.

Şahmat taxtasında ən vacib fiqur vəzir olduğu kimi, Yelisey sarayında ən vacib fiqur Baş katibdir – dövlət texnokratiyasının xalis məhsulu olan Aleksi Kohler! Milli idarəetmə məktəbinin məzunu olmaqla bərabər, o, həm də çox nüfuzlu biznes məktəbini (Essec) bitirib. Nazirlər kabinetinə daxil olmamışdan əvvəl İqtisadiyyat Nazirliyinin Dövlət Xəzinə Agentliyində (APE) fəaliyyət göstərib. Əsli Alzasdan olan bu adam, üç il Beynəlxalq Valyuta Fondunda (BVF) işləyəndən sonra İqtisadiyyat Nazirliyində Pier Moskoviçinin kabinet direktorunun müavini təyin olunub. "O, çox təkəbbürlü və özündən razı bir texnokratdır. Belələri, Milli idarəetmə məktəbinin qəliblərində hazırlanan vafliyə oxşayır", – deyə keçmiş İqtisadiyyat naziri Arno Monteburqun komandasının üzvlərindən biri narazılıqla donquldanır.

Əvvəllər Aleksi Kohler və Emmanuel Makron bir-birini tanımırdılar. "Aleksinin timsalında o, ikinci özünü tapıb", – deyə bir vaxtlar Brijit hamının yanında sevinə-sevinə etiraf edirdi. Amma çox keçmir ki, birinci xanım bu texnokratda hakimiyyətə, hökmranlıq etməyə xüsusi bir iştaha aşkar edir və bundan sonra Kohler onun gözündən düşür. "Aleksinin özünü ərimlə bir səviyyəyə qoyması mənim heç xoşuma gəlmir", – deyə Brijit rəfiqələrindən birinə şikayətlənir. Doğrudan da, Ye-

lisey sarayında Kohler özünü dəryada balıq kimi hiss edir. Bu baş katib Baş nazir Eduard Philippi gözəl tanıyır. İkisi də bir vaxtlar – tələbəlik dövründə Mişel Rokardın (1988-1991-ci illərdə Baş nazir) təbliğatçısı olublar. O, həm də Brüno Lö Merin kabinet direktoru və Nikola Sarkozinin keçmiş iqtisadi müşaviri, Emmanuel Mulanın da yaxın adamıdır. Olar Siyasi Elmlər İnstitutunda bir yerdə oxuyublar. İqtisadiyyat Nazirliyində Makronun keçmiş müşavirlərindən birinin dediyinə görə "Kohler xidmət işlərində çox liberaldır, həm də vergi məsələlərində sağçılar partiyasının ideyalarına daha yaxındır". Makronun prezidentlik kampaniyası zamanı o, varlı səhmdarların artıq vergi ödəməklərinin ləğv olunması təklifini dəstəkləmişdi, halbuki Filip Marta və Jan Pisani-Ferri kimi iqtisadi ekspertlər bu təklifi rədd etmişdilər. Bu təklifi balanslaşdırmaq üçün Filip Marta məcbur olub, daşınmaz əmlakın miras verildiyi adamların vergilərinin artırılmasını təklif edir. Yeri gəlmişkən, bu təklifi vaxtilə ilk dəfə Attali komissiyasının gənc üzvü Emmanuel Makron irəli sürmüşdü... Ancaq bu ideya rəy araşdırmalarından sonra tez bir zamanda rədd edildi, çünki kampaniyanın rəhbərləri hiss etdilər ki, bu seçicilərin narazılığına səbəb olacaq!

Prezidenti kimi Kohler də özündənrazı, hamıya yuxarıdan aşağı baxan, təkəbbürlü bir adamdır. "Onda da eynilə Makron olduğu kimi yumor hissi var", – deyə Kohlerin tabeliyində olan adamlardan biri etiraf edir. Yadımdadır ki, bir dəfə hansısa iclasda çıxış edəndən sonra "kimin sualı var?", – deyə bizə müraciət etdi. Heç kimdən səs çıxmadı. Kohler başını bulayıb dedi: "Bəli, ağıllı adam ağzını açanda hamını heyrətə gətirir. Ona sual verməyə heç kim cəsarət eləmir...". İqtisadiyyat Nazirliyində Aleksi Kohler həmsöhbətlərindən birinə çəkinmədən demişdi ki: "Burda nazir mənəm! Halbuki nazir Makron idi".

Makron ilə Kohler arasındakı bu sarsılmaz müttəfiqlik, İqtisadiyyat Nazirliyindən başlamışdı. Makron lovğalığı və ünsiyyət effektləriylə,

Kohler isə sənaye məsələlərindəki təcrübəsi ilə fərqlənirdi. Bundan başqa, o vaxt nazir Makron yaxşı bilirdi ki, o, Brüsselə qarşı heç bir manevr edə bilməyəcək, ona görə də bütün vacib dosyeləri Kohlerin əli ilə Maliyyə naziri Mişel Sapana ötürürdü. Makron onu da bilirdi ki, o, İqtisadiyyat Nazirliyində "müvəqqətidir", ona görə də bütün fikrini gələcək prezident seçkilərinə cəmləmişdi. 2015-ci ilin yazından başlayaraq onun diqqət və enerjisinin yalnız bir hədəfi vardı: prezident seçkiləri!

## İQTİSADİYYAT NAZİRLİYİNİN YALANÇILARI

İqtisadiyyat Nazirliyində mühüm məsələlərin çoxunu kabinet direktoru Kohler özü həll edir. Makron nazirliyin bu ikinci adamına tam azadlıq verir. Elə olur ki, hətta özünün o qədər də dərindən bilmədiyi və ya o qədər də xəbəri olmadığı işləri Kohlerin razılığı ilə qəbul edir. Ona görə də Makron ilə Kohler – üzdə hərəsi öz rolunu oynasa da – arxada bütün qərarları bir yerdə qəbul edir və lazım gələndə bir-birini müdafiə edirlər. Kiçik eynəkli və boz kostyumlu bu kabinet direktoru, heç kimə nazirinin əsl ambisiyalarını görməyə imkan vermir.

Makronun ən yaxın əməkdaşı kimi bu yüksək dövlət məmuru, ali dövlət orqanlarında bilərəkdən hamıya yalan danışır ki, nazirinin siyasi layihəsindən, eləcə də onun kabinetinin real fəaliyyətindən heç kəsin xəbəri olmasın. İqtisadiyyat Nazirliyinin bu saf məhsulu ilə gələcək prezident seçkilərinin qalibi arasındakı yaxınlıq məhz bu orijinal yalandan doğulur. Bəlkə də, elə buna görə 2016-cı ilin avqustunda, Makron Aleksi Kohler üçün zəmanət verir ki, o, dəniz yolu ilə daşınmalarda dünyada ikinci yeri tutan Aralıq Dənizi Gəmiçiliyi Şirkətinin (MSC) maliyyə direktoru olsun. Makron onu da bilir ki, əvvəllər Kohler bir müddət Aralıq Dənizi Gəmiçiliyi Şirkətini (MSC) gəmilərlə təchiz edən San-Nazar tərsanəsində də çalışıb. Bundan başqa, Kohlerlər ailəsinin İtaliyada və İsveçrədə gəmiçilik şirkətinə rəhbərlik edən Apontlar ailəsi ilə lap qədimlərdən yaxın əlaqələri var.

O dövrdə bir sıra digər şəxslər də bu orijinal yalanda iştirak edib, Makron-Kohler cütlüyü ilə əməkdaşlıq edəcəklər... hətta onlarla bir yerdə prezident Fransua Hollanda qarşı xəyanətdə də iştirak edəcəklər. Onlardın biri İsmael Emeliendir. Milyarder Vənsan Bolloreyə məxsus olan çox məşhur Havas kommunikasiya agentliyində çalışan otuz yaşlı

bu cavan oğlana, elə həmin şirkəti idarə edənlərdən biri Jil Finşelşteyn himayədarlıq edir. Bu sonuncu, həm də Sosialist Partiyasının tarixi mərkəzlərindən biri olan Jan-Jores Fondunun baş direktorudur. Bu fondun prezidenti isə Emmanuel Makronun çox yaxın bir adamı, keçmiş nazir, 1988-ci ildə Fransua Mitteranın kampaniyasının xəzinədarı olmuş Henri Nalletdir.

İqtisadiyyat nazirliyində İsmael Emelien "xüsusi məsləhətçi" titulu daşıyırdı. O bu titulu Yelisey sarayında da saxlayacaq. Prezidentin ətrafında olan adamların bəziləri onu "yekəxana", "sinik", "sərt və qapalı" bir adam kimi təqdim edirlər. 2015-ci ilin payızından bu gənc və təkəbbürlü oğlan Makronun gələcək prezident kampaniyasının hazırlığına başlayır. İqtisadiyyat Nazirliyində Makronun yaxın çevrəsi tam sürətlə fəaliyyət göstərir. Gələcək namizəd prezident seçilməmişdən bir il əvvəl əhali arasındakı sorğulara 325 643 avro pul xərcləyir. Nazir istefa verməmişdən əvvəl dövlət tərəfindən onun üçün ayrılmış nümayəndəlik xərclərinin 80%-i də (təxminən 120 000 avro) bu sorğulara xərcləyir. 2016-cı ilin yanvarında Makron Las-Veqasda keçirilən French Tech Night tədbirində iştirak edir. Havas agentliyi tərəfindən gələcək əmək naziri Müriel Penikonun rəhbərlik etdiyi, eyni zamanda həm İqtisadiyyat Nazirliyinə (Makron), həm də Xarici İşlər Nazirliyinə (Fabiüs) tabe olan Biznes Frans üçün hazırlanan bu tədbirdə məqsəd, Fransa şirkətlərini xaricdə tanıtdırmaqdır. Las Veqasın The Linq Hotel sarayında təşkil edilən bu tədbirdə Emmanuel Makron ətrafına toplaşan gənc sahibkarlardan prezidentlik ambisiyalarını gizlətmir. Havas tərəfindən təşkil olunan bu tədbirin "məsləhət" tərəfinə 118054,50 avro, texniki "xərclərinə" isə 147217,75 avro pul xərclənir.

Onu da qeyd etmək lazımdır ki, Havas agentliyi İqtisadiyyat Nazirliyində özünü öz evindəki kimi hiss edir. Challenges qəzetinin yazdığına görə Jil Finşelşteyn hələ 2012-ci ildə Büdcə üzrə nazir

müşaviri Jerom Kauzak  və ovaxtkı İqtisadiyyat naziri Pier Moskoviçi üçün ödənişli missiyalar təşkil etmişdi. 2013-cü ildə isə İqtisadiyyat Nazirliyinin yeddi nümayəndəsinə biznes üzrə məsləhət vermək üçün səkkiz məşhur agentlikdən ibarət bir qrup yaratmışdı. Təbii ki, Havas agentliyi də bu səkkiz agentliyin arasında idi. 2016-cı ilin yazında bu şübhəli işlərdə ittiham olunmaqdan qaçmaq üçün İsmael Emelien Havas agentliyindəki vəzifəsindən istefa verib bütün bacarığını və enerjisini Makronun yaratmaqda olduğu "Hərəkətdə!" hərəkatına yönəldir.

## PLANŞ BANDASI PUATİYE ŞƏHƏRİNİN BANDASINA QARŞI

Əlindən hər iş gələn, çevik, bir yerdə qərar tuta bilməyən İsmael Emelien Makronun ətrafında bərqərar olan müxtəlif dairələrdə heç də yekdilliklə qəbul olunmur. Yelisey sarayının gələcək "xüsusi məsləhətçisi" 2015-ci ilin iyununda fəaliyyətə başlayan "Gənclər Makron ilə" (JAM) qrupu ilə rəqabət aparır. Bu qrupun (JAM) üzvləri iyirmi yaşlarında, üzləri tər-təmiz təraş edilmiş, əyinlərində həmişə qara kostyumlar olan Puatiye şəhərinin hüquq fakültəsinin keçmiş tələbələridir. Gənc Sosialist Hərəkatının (MJS) keçmiş fəalları, Dominik Stros-Kan (DSK) meylli, 2016-cı ildə anti-CPE (26 yaşdan aşağı olan gənclərin ilk əmək müqaviləsi) tətillərində iştirak edən bu gənclər, hüquq fakültəsində təhsil alan dövrdə bir yataqxanada yaşayıblar.

Puatiye şəhərinin hüquq fakültəsində təhsil almış bu iddialı gənclər arasında, Pier Person və Saşa Hulie kimi deputatlar, İqtisadiyyat Nazirliyində Makronun parlament müşaviri olmuş Stefan Sejurne və Milli Assambleyanın prezidentinin müşaviri Florian Hümez də var. Onlar Gənc Sosialist Hərəkatında, (MJS) eləcə də tələbələr birliyində siyasi texnikaları mükəmməl mənimsəyiblər. Ona görə də Dominik Stros-Kanın (DSK) bu keçmiş pərəstişkarları Sosialist Partiyasının mədəniyyətinə yaxşı bələddirlər. Onların siyasi rəqibləri, mütəmadi olaraq Parisin Planş küçəsindəki qərargahda yığışan, nüfuzlu Siyasi Elmlər İnstitutunun və Ali Kommersiya məktəbinin məzunları isə öz növbələrində texnokrat Pier Moskoviçiyə meyllidirlər. Göründüyü kimi Planş bandası ilə Puatiye bandası arasındakı rəqabət yalnız eqo və ya ambisiyadan irəli gəlmir, həm də onların bitirdikləri siyasi məktəblərin fərqindən, eləcə də tərbiyə aldıqları sosial mühitdən də irəli gəlir.

Puatiye bandasını dəstəkləyən Emmanuel Makronun İqtisadiyyat

Nazirliyində ilk kabinet direktoru olmuş Anna Rubinşteyndir. 2014-cü ilin oktyabrında Stefan Sejurneni məhz bu qadın parlament müşaviri təyin etmişdi. Sosialist Partiyasının tarixi fəalı, Loran Fabiüsa yaxın olan Anna Rubinşteyn Stefan Sejurne ilə, eləcə də LREM partiyasının gələcək deputatı Qiyyom Şişlə Fransa adaşı bölgəsinin ovaxtkı prezidenti Jan-Pol Üşonun ofisində tanış olmuşdu. Puatiye bandasının uşaqları bu qadına o qədər yaxındırlar ki, onu o qədər sevib hörmət edirlər ki, hərdən ona “maman” deyə müraciət edirlər. 2016-cı ildə bu bandaya Stefan Sejurnenin dəstəyi ilə Ot-dö-Sen departamentinin gələcək deputatı Qabriel Attali da qoşulacaq. Bu adamların hamısı “Gənclər Makron ilə” (JAM) qrupunda böyük fəaliyyətə başlayacaqlar.

“Gənclər Makron ilə” (JAM) qrupu milyonçu Henri Hermand tərəfindən də dəstəklənir. O, 2016-cı ilin yayında, sevimli namizədi Makrona xəbər göndərir ki, “Mən “Gənclər Makron ilə” qrupunun üzvləri ilə işləyirəm. Onlar, doğrudan da, çox böyük işlər görürlər. Mən də öz tərəfimdən mümkün qədər onlara kömək edirəm və ümidvaram ki, sənin yaxın çevrəndəki adamlar bu cavanlara ilişməyəcəklər...”. Bu sözlərlə Hermand, əlbəttə ki, Emelieni və Planş bandasının uşaqlarını nəzərdə tutur. 2016-cı ilin baharından başlayaraq Pier Person bu multi-milyonçu ilə bir neçə dəfə görüşür. Bu görüşlərin birinə hazırlıq qeydində hiss olunur ki, “Gənclər Makron ilə” (JAM) bandası ilə İsmaël Emelienin şəbəkəsi arasında problem var: “İsmaël Emelien bizə yaxşı gözlə baxmır... xüsusən də bizim Emmanuel Makrona olan müsbət təsirimizi, eləcə də onun bizim gördüyümüz işlərə dəyər verməsini qısqanır...”. Onlar (Gənclər Makron ilə) təəssüflə şikayətlənirlər ki: “Hərəkətdə! hərəkatının ofisində həddindən artıq kommunukant var, özü də onların çoxu özlərindənrazı və təcrübəsiz adamlardır. Belə olmaz. Peşəkarlığın və təcrübənin olmaması o dəqiqə hiss olunur. Emmanuelin gücü siyasi reallığa təsir etməkdir, amma onun komandasında bunun tam əksini görürük...”.

Planş “klanının” üzvləri bunu yaddan çıxarmayacaqlar və 2018-ci ilin payızında "Hərəkətdə!" hərəkatının rəhbərlik kampaniyası zamanı onlar qisas alacaqlar. "Hərəkətdə!" hərəkatı LREM partiyasına çevriləndən sonra bu partiyanın baş katibliyinə namizədliyini irəli sürən Parisli gənc deputat Pier Personun həyatını cəhənnəmə döndərəcəklər. Ona olmazın təzyiq göstərəcəklər ki, namizədliyini geri götürsün... onu dəstəkləyənlərə belə zəng vurub hədə-qorxu gələcəklər. Sedrik O., eləcə də Yelisey sarayının mətbuat xidmətinin katibi Benjamin Qrivo belə fikirləşirlər ki, LREM partiyasına lider olmağa ən yaxşı namizəd onların dostu və tələbə yoldaşları Stanislas Qerinidir. Prezident aparatının xüsusi məsləhətçi İsmaël Emelien də onların fikrini dəstəkləyir. LREM partiyasına onun bandasının keçmiş bir üzvünün liderlik etməsi, əlbəttə ki, onun ürəyincədir.

## HERMANDIN VƏSİYYƏTİ

2016-cı ilin may ayında Henri Hermand axırıncı dəfə köhnə dostu, keçmiş Baş nazir Mişel Rokardla şam yeməyi yeyir. (Mişel Rokard bir neçə həftədən sonra vəfat edəcək). 92 yaşlı bu qoca kişi, təcrübəli siyasətçi, dostu Makronun onu kənara atıb otuz yaşlı cavan oğlanların məsləhətləri ilə oturub-durmağından bərk narahatdır. Bu məqsədlə o, dostunu sual atəşinə tutur. Qoca siyasətçi sadəcə olaraq başa düşmək istəyir ki, bu otuz yaşlı cavanlardan ibarət bandanın profili necədir: onlar "müşavirlərdir", yoxsa "muzdlu" əsgərlər. Təbii ki, bu sualları verəndə, o, başlıca olaraq Lüdovik Şakeri nəzərdə tutur, çünki bu adam "Hərəkətdə!" hərəkatının baş katibi İsmael Emelienə çox yaxındır. Henri Hermand ona cavab versə də, fikri tamamilə başqa yerdədir. Onun əsas məqsədi odur ki, Emmanuel Makron nə qədər gec deyil İqtisadiyyat naziri vəzifəsindən istefa verib prezidentliyə namizədliyini irəli sürsün.

Henri Hermand 2016-cı ilin noyabr ayının əvvəlində, Makronun prezident seçkilərindəki qələbəsini görmədən dünyasını dəyişir. Ölümündən bir neçə gün əvvəl, aylardan bəri onunla qətiyyən maraqlanmayan Makron, nəhayət, xəstəxanaya ona baş çəkməyə gəlir. Ancaq Makronun ətrafındakı müşavirlərlərin, xüsusilə də İsmael Emelienin Hermandı görməyə gözü yoxdur. Qoca milyonçunun mətbuatda özünü Makronun məsləhətçisi kimi qələmə verməyi onların xoşuna gəlmir. 2016-cı ilin yanvarında Les Échos qəzeti onun haqqında bir məqalə çap edir. Başlığı "Henri Hermand – Makronu prezident etmək istəyən adam" olan bu məqalə gələcək prezidentin ətrafında dolanan adamların xoşlarına gəlmir. Onlar hər vasitə ilə Makronu milyonçudan uzaqlaşdırmağa çalışırlar. Makron da onların sözü ilə qoca dostundan aralanır. Gənc dostunun ona qarşı birdən-birə belə soyuqlaşması təbii ki,

milyonçunun xətrinə dəyir. İş o yerə çatır ki, dostunun bu hərəkətindən qəlbi qırılan Hermand, həmin ilin sentyabr ayında Le Figaro qəzetinə verdiyi müsahibəsində onu kəskin tənqid edir: "Makrona bir az diqqətli və bir az da ciddi olmaq lazımdır. Paris Match jurnalına verdiyi müsahibə, eləcə də jurnalın üz qabığındakı şəkli artıq şeydir. Bu çox səhv bir addım idi. Mən bunu onun özünə də dedim. O jurnal ciddi bir jurnal deyil, səviyyəsiz adamların oxuduğu  sarı mətbuatdır. [...] Püy dü Fu şəhərinə səfəri də tamamilə artıq bir şey idi. Makrona o şəhərdə Filip dö Viliye ilə görüşüb şəkil çəkdirmək lazım deyildi. Bu adamın hamı ilə görüşmək, hamının əlini sıxmaq arzusu təəssüf doğurur. O, havayı yerə vaxt itirir... onun bu hərəkətləri gülüncdür...".

Prezident kampaniyası Makronun ətrafındakı müxtəlif dairələrdə də öz təsirini göstərir. Bu adam dövlət başçısı seçiləndən bir neçə ay sonra Yelisey sarayının texnokratları ilə müşavirləri arasındakı ittifaq, Makronçular tərəfindən tənqid hədəfinə çevrilir. Nazirlər, deputatlar, eləcə də prezidentin köhnə dostları İsmael Emelien ilə Aleksi Kohlerin özlərini aparmaqlarından, onlarla rəftarından çox şikayətlənirlər, ancaq hələ ki daldada. Aylar keçir və onların hərəkətlərindən cana gələn Makronçular pessimizmə qapılırlar. Gələcək onlara qaranlıq görünür və hər biri özünə bu sualı verir: Amerikada Havas şirkəti tərəfindən təşkil olunan Biznes Frans görüşləri zamanı xərclənən pullarla bağlı qaldırılan məhkəmə işinə görə prezidentin bu iki favoriti Yelisey sarayını tərk edəcəkmi? Onlar cinayət məsuliyyətinə cəlb olunacaqmı?

2018-ci ilin əvvəlində hələ heç kim Emmanuel Makronun bu iki ən sadiq və ən yaxın xidmətçilərinə açıq şəkildə irad tutmağa cəsarət etmir. Bu iki adam – özlərini "mormonlar" adlandıran İsmael Emelien ilə Aleksi Kohler – dövlət başçısına müqəddəs adam kimi səcdə edir və onun üçün hər şeyi etməyə hazır olduqlarını bildirirlər. 2017-ci ilin iyul ayında prezidentin mətbuat müşaviri Sibet Ndiay L'Express jurnalına

verdiyi müsahibədə açıq şəkildə deyir ki: "Mən tamamilə səmimi etiraf edirəm ki, prezidenti qorumaq üçün yalan da danışıram". Liderləri kimi bu gənc məsləhətçilər də səhərdən axşama kimi yorulmadan işləyirlər... və çox nadir hallarda Yelisey sarayının idman zalında bir balaca istirahət edirlər. Onların hamısına sanki adrenalin iynəsi vurulub. Birjadakı traydərlər kimi yorulmaq bilmədən bütün günü ora-bura qaçırlar.

## “MÜŞKETYORLAR” VƏ “KARDİNALIN MÜHAFİZƏÇİLƏRİ”

2018-ci ilin yazında Yelisey sarayının sistemində bir çox zəiflik əlamətləri gözə çarpır. Prezident aparatında atmosfer o qədər korlanır ki, nəfəs almaq belə çətinləşir. Paranoya ən yüksək nöqtəsinə çatır. Taxt-tacın ətrafında biri-birinə düşmən kəsilən iki qrup formalaşır. Bir tərəfdən Brijit Makronun ətrafındakı məsləhətçilər, o cümlədən birinci xanımın kabinet direktoru Pier-Oliviye Kosta, onun kabinet şefi Tristan Bromet və mətbuat müşaviri Brüno Roje-Peti; digər tərəfdən prezidentin mətbuat müşaviri Sibet Ndiay, prezidentin çıxışlarının məsləhətçisi və cavabdehi Silvan Fort, eləcə də İsmael Emelien və onun Planş bandasındakı yoldaşları: prezidentin müşavirləri Sedric O. və Emmanuel Miqel, bir də Yelisey sarayının baş katibi Aleksi Kohler. Bir tərəfdən birinci xanım Brijit Makron, digər tərəfdən onun zəhləsi getdiyi “klan”, “sekta”. Birincilər, məktəb uşaqları kimi özlərini “müşketyorlar” adlandırırlar, rəqiblərinə isə istehza ilə “kardinalın mühafizəçiləri” deyirlər. Yelisey sarayının ürəyində yerləşən bu iki klanın düşmənçiliyi bir gün özünü daha qabarıq göstərir: dövlət başçısı tərəfindən təşkil olunmuş Versal Konqresində Kohler ilə Emelien prezidentin çıxışının surətini, protokola görə kabinetin ikinci adamı sayılan Patrik Strzodaya göndərmirlər. (!)

Makron bu iki qrupun bir-biri ilə düşmənçiliyindən qəti narahat olmur, onların bir-birini tənqid etmələrini qulaq ardına vurur. Müdrik bir padşah kimi, o, hər iki düşmən qrupun üzvlərinə səbirlə izah edir ki, onların arasındakı rəqabət “o qədər də vacib bir şey deyil”. Brijit ona İsmael Emelien haqqında danışanda, Emmanuel emosiyalara qapılmır: “Sən onu sevmirsən”, – deyə arvadının sözünü kəsir. Çünki Makron yaxşı bilir ki, onun komandasında “təzə qana” ehtiyac çoxdur. 2018-ci ilin əvvəlindən prezident çalışır ki, onun kölgədə olan sadiq məsləhətçisi

Filip Qranjon Yelisey sarayına gəlib onun komandasına qoşulsun. Sosialist Partiyasının keçmiş aktivisti hal-hazırda CFDT (Fransa Demokratik Əmək Konfederasiyası) təşkilatında fəaliyyət göstərən bu adamın siyasi təcrübəsi, həqiqətən, əvəzolunmazdır. Əvvəllər Sosialist Partiyasından olan müxtəlif nazirlərin kabinetində çalışan, sonradan Parisin meri Bertran Delanyönün məsləhətçisi olan bu adamı Makron çox yüksək qiymətləndirir. Əslində, Filip Qranjonu öz yanına – Yelisey sarayına gətirməyi Makron yanvar ayından arzulayır. İlin birinci ayında prezident ona sadiq bu adama təklif edir ki, bütün funksiyalarını atıb Yelisey sarayına gəlsin və onun "xüsusi məsləhətçisi" olsun. Lakin Qranjon özünü bu işə hazır saymadığından, prezidentin təklifini qəbil etmir. O, saraydan və saray münaqişələrindən kənarda qalmağa üstünlük verir – Cap gemini informatika şirkətində administrator vəzifəsində fəaliyyətini davam etdirir.

Ancaq aylar keçdikcə Yelisey sarayında Filip Qranjonun adı hallanmaqda davam edir və iş o yerə çatır ki, mətbuatda bir neçə dəfə onun tezliklə Yelisey sarayına gəlib prezidentin komandasına qoşulacağı barədə yazılar gedir. Filip Qranjon isə öz növbəsində verdiyi müsahibələrdə Makronun beşillik prezidentliyi müddətində "sosial dönüş nöqtəsi" yaratmaq arzusunu dəfələrlə qeyd edir, eləcə də "texnokrat" Eduard Filippi (Baş nazir) tənqid edir. Bir şeyi də qeyd etmək lazımdır ki, iyun ayında Filip Qranjon jurnalistlərə şikayət edir ki, Fransanı seçki kampaniyasında olduğu kimi "komando rejimində" idarə etmək olmaz. Heç şübhə yoxdur ki, o bu sözlərlə açıq şəkildə İsmael Emelieni və Aleksi Kohleri, eləcə də onların kiçik çevrəsini hədəfə alır. Qranjon jurnalistlərə onu da etiraf edir ki, o, əvvəlcədən nə hər şeyi bilə bilərdi, nə də hər şeyi idarə edə bilərdi. Onun bu sözlərindən xəbər tutan prezident öz növbəsində komandasının üzvlərinə istehza ilə deyir ki, "qorxmayın, özünüzü heç kəsdən gizlətməyin...". Paradoksaldır, ya yox ?

## YELİSEY SARAYININ DÖYÜŞ OTAĞI

Ancaq prezidentin klanının fəaliyyəti yayın əvvəllərində daha da pisləşməyə başlayacaq. Le Monde qəzetində "Benalla məsələsinin" alovlanmasından sonra Makron qorxuya düşüb keçmiş kampaniya komandasına üz tutur. Mayın 1-də başlanan bu skandalı söndürməyi, prezident, İsmael Emelienə həvalə edir. Və bu adam, doğrudan da, bu böhranın yatmasında baş rolu oynayacaq. Yelisey sarayının bu xüsusi məsləhətçisi, 1 May bayramından bir gün sonra Aleksandr Benallanın Parisin Contrescarpe meydanında çıxardığı hoqqaları örtbasdır edəcək. Aparat rəhbəri Patrik Strzodadan sonra ikinci yeri tutan Yelisey sarayının xüsusi məsləhətçi ona (Aleksandr Benalla) minimum sanksiya verməklə işə xitam verəcək... hələlik.

Sarayın özündə belə Aleksandr Benallaya qarşı bu yumşaq rəftar hamının böyük marağına səbəb olur. Nə əcəb Aleksandr Benallaya qarşı heç bir ciddi tədbir görülmədi? Axı rəsmi olaraq bu "missiya meneceri" təxminən on beş gün işindən tamamilə kənarlaşdırılmışdı... Buna baxmayaraq, nəinki ona layiq olduğu cəza verilmədi, hətta onun aldığı maaşdan da heç bir qəpik də kəsilmədi. On beş gündən sonra heç nə olmamış kimi Yelisey sarayına qayıdıb öz əvvəlki işinə davam etdi. Prezident aparatının komandasında heç kim "Benalla haqqında sual" verməyə cəsarət etmir. Sanki bu suala tabu qoyulub. Ancaq iyulun 18-də Le Monde qəzetində çap olunan məqalədən sonra bu tabu partlayacaq. Yalnız Pier-Oliviye Kosta – Brijit Makronun kabinet direktoru – hiss edir ki, bu işlərin axırı dövlət başçısı üçün yaxşı qurtarmayacaq. Ona görə də təşəbbüsü ələ alıb Aleksandr Benalla ilə şəxsən görüşür. Təkbətək söhbət zamanı, Kosta Benallaya məsləhət görür ki, növbəti skandaldan yayınmaq üçün könüllü olaraq istefa verib Yelisey sarayını birdəfəlik

tərk etsin. Benalla da öz növbəsində burnunun altında donquldanır ki, Yelisey sarayında heç kim onun burdan getməyini istəmir. "Mənə prezident dedi ki...", – deyə özünə haqq qazandırır.

Öz növbəsində İsmael Emelien mayın 1-də baş verən hadisələri minimuma endirməkdə davam edir. Onun sözlərinə görə, əgər mətbuat on beş gün ərzində Aleksandr Benalla haqqında heç nə yazmayacaqsa,

onda Yelisey sarayı bu təhlükədən sovuşacaq. Sarayın xüsusi məsləhətçisinin belə "məsuliyyətli" sözlərindən sonra hamı sakitləşir, daha heç kim bu problemə fikir vermir. Hələ bu harasıdır, hamı o qədər arxayınlaşır, komandada birinin də ağlına gəlmir ki, əgər birdən bu skandal yenidən üzə çıxsa, hansı strategiyanı götürsün. Beləliklə, əvvəlcədən gələcəkdə yarana biləcək suallara heç bir cavab hazırlanmır. Taleyin ironiyasına bax ki, skandal yenidən başlayır və elə bu yeni böhranın ilk saatlarından Yelisey sarayı əməlli başlı panikaya düşür. Nə prezident, nə də onun komandasının üzvləri mətbuatda gedən məqalələrə reaksiya verməyə cəsarət etmirlər. Yalnız bir neçə gün sonra Milli Assambleyanın binasının iki addımlığında yerləşən Latın Amerikası Evinin bağçasındakı çıxışında, Makron, auditoriyanın qarşısında Aleksandr Benallaya fəaliyyətinə görə təşəkkür edir və axırda da oğru-quldur bandasına rəhbərlik edən quldurbaşı kimi iddia ilə deyir: "Qoy gəlsinlər... Mən burdayam!".

Yayda Yelisey klanı fırtınaya düşən gəmi heyəti kimi əlindən gələn hər şeyi edir ki, gəmi batmasın. Bu manevrin başında Sibet Ndiay və Silvan Fort durur. Onlar fürsətdən istifadə edib indiyə kimi prezident aparatının mətbuatla əlaqə şöbəsinin müdiri, keçmiş jurnalist Brüno Roger-Petinin arxasından dəyirlər. (Le Monde qəzetində qalmaqal doğuran məqalə dərc olunandan bir gün sonra Emelien ona tapşırır ki, televiziyada Yelisey sarayının adından rəsmi şərh versin və bu hadisəni bacardığı qədər yumşaltsın). Bir həftə sonra Yelisey sarayının ədliyyə müşaviri,

keçmiş majistr Sonya Jemni-Vaqner də vəzifəsindən uzaqlaşdırılır. Nəticədə, yalnız Respublika prezidentinin ən sadiq və ən yaxın məsləhətçiləri işin içində qalır. Avqust ayının əvvəlində Le Figaro qəzeti “Yelisey sarayının müharibə otağının sirri” başlığı altında prezidentin klanı haqqında məqalə dərc edir və klanın bu böhrandan necə məharətlə çıxmağını işıqlandırır. Yaxşı deyiblər, dostunu göstər, deyim sən kimsən.

## LÜDOVİK ŞAKER

İndi ədalət məhkəməsini başqa bir şey maraqlandırır: bu işdə İsmael Emelienin və onun dostu – Yelisey sarayının başqa bir "missiya meneceri" olan – Lüdovik Şakerin rolu nədən ibarət olub? İstintaq zamanı bu iki prezident məsləhətçisinin mobil telefonu vasitəsilə kiminlə və vaxt yazışdıqlarını araşdıran polis işçiləri qəribə bir şey ortaya çıxardırlar: İyulun 18-dən 19-na keçən gecə, saat 02:28-ə qədər İsmael Emelien və Aleksandr Benalla bir-birlərinə xeyli SMS göndəriblər. Bir neçə saat pauzadan sonra səhər saat 5-də yenidən SMS vasitəsilə xeyli yazışıblar. Daha sonra – yenə qısa bir fasilə – səhər saat 08:28-dən başlayaraq İsmael ilə Aleksandr arasında yenidən SMS vasitəsilə yazışma başlayıb.

Ancaq həmin gecə Benalla tək İsmael Emelienlə yox, həm də Lüdovik Şakerlə də SMS-ləşib. Ertəsi gün Makronun prezident kampaniyası zamanı "xüsusi əməliyyatlarla" məşğul, indi isə Yelisey sarayında "xüsusi dövlət missiyalarına" cavabdeh olan bu adam Aleksandr Benallanın arvadı Myriam B. ilə onun körpəsini jurnalistlərdən qorumaq üçün Parisin 16-cı rayonunun Foş prospektində yerləşən mənzillərindən götürüb başqa yerə aparır.

İstintaqın birinci günü ilk sorğu-sual zamanı Benalla müstəntiqlərə etiraf edir ki: "İyulun 19-da yoldaşım mənə zəng edib dedi ki, binanın qabağında və bizim mənzilin yerləşdiyi dəhlizdə çoxlu jurnalist var...". Sonra da əlavə edir ki, "mən bir dostumdan xahiş etdim

ki, arvadımı, uşağımı, eləcə də evdəki qiymətli əşyaları, xüsusilə mənim silahlarmı götürüb təhlükəsiz bir yerə aparsın...". Bu dost da Lüdovik Şakerdir.

Bu adam da Benalla məsələsində baş rollardan birini oynayır – ancaq başqa bir epizodda... və qəribədir ki, prokurorluq bu epizodu araşdırmaqdan imtina edir. Məsələ burasındadır ki, iyulun 21-də Aleksandr Benallanın evindəki seyf müəmmalı şəkildə yoxa çıxır – özü də

polislərin onun evində axtarış aparmağa gəlmələrindən bir qədər əvvəl. Polislər ilk dəfə onun evinə axtarış aparmağa gələndə, mənzilə daxil ola bilmirlər. Benalla iddia edir ki, açarlar üstündə deyil, polislərin də əlində kifayət qədər güclü alətləri yoxdur ki, qalın dəmirdən hazırlanmış qapını sındırsınlar. "Axtarış zamanı hiss etdim ki, polisləri müşayiət edən müstəntiqlər narazıdırlar. Çünki onlar mənim qanuni şəkildə əldə etdiyim şəxsi silahlarımı saxladığım seyfi tapa bilməmişdilər...", – deyə Benalla məhkəmədə hakimlərin qarşısında izah edir. Bu, əslində, Şakerin işi idi. Bu adam kampaniya zamanı qeyri-rəsmi olaraq onlara kömək edən bir neçə keçmiş hərbi qulluqçunu göndərmişdi ki, Benallaya kömək əli uzatsınlar – onun evindəki seyfi başqa bir yerə aparsınlar ki, polis tapa bilməsin. Burdan aydın olur niyə prokurorluq bu epizodu araşdırmaqdan imtina edir.

## MAYIN İKİSİNDƏ HAZIRLANAN VİDEOLAR

Benalla məsələsinin başqa bir qaranlıq məqamı da var: İyul ayının 19-da Yelisey sarayı Parisin polis prefekturasına məxsus olan video görüntülərini sosial şəbəkələrdə yayır. Bu videoda mayın 1-də Parisin Contrescarpe meydanında baş verən hadisələr təsvir olunur. Təsvirdə, hər şeydən əvvəl, tamaşaçının diqqətini polislərin üstünə partlayıcı maddələr atan cütlük (Benalla onları dəyənəklə döyməmişdən bir neçə dəqiqə əvvəl) çəkir. Bu videonun sosial şəbəkələrdə yaymaqda Yelisey sarayının məqsədi Benallanın dəyənəklə döydüyü cütlüyü əhalinin gözündən salmaq, eləcə də hamıya sübut etməkdir ki, baxın, Benalla onları əbəs yerə vurmayıb, sadəcə olaraq asayişi qoruyan polis işçilərini müdafiə etmək üçün bu hərəkəti edib. Qısası, zərərçəkən cütlük günahsız deyil, etdikləri qanunsuz hərəkətin qurbanlarıdır. İyulun 19-da LREM (Respublika hərəkətdə partiyası) partiyasının əməkdaşı Pier Lö Teksie tərəfindən idarə olunan anonim @FrenchPolitic X profilində bu başıbəlalı video yayımlanır. Bir neçə saatdan sonra Makronun dəstəyi ilə jurnalistlər də bu görüntülərdən xəbər tutur. Daha bir neçə saat sonra Paris polis prefekturası Yelisey sarayının kabinet direktoru Patrik Strzodaya zəng vurub onu bu məsələdən hali edir. Bu zəngdən sonra hər şey birdən-birə dayanır.

Polislər bu videonun yayılmasında İsmael Emelienin əli olduğundan şübhələnirlər. O da heç nəyi inkar etmir. Yelisey sarayının bu xüsusi müşaviri IGPN (Milli Polisin Baş Müfəttişliyi) polisinin əməkdaşlarına etiraf edir ki, bu videonu qeyri-qanuni şəkildə şəxsən özü yayıb. (!) "Mən bunu cənab Benallanın şəxsi müdafiəsi üçün etməmişəm, əksinə, Respublika prezidentini qorumaqdan ötəri etmişəm. Çünki onun da adı bu məsələdə hallanır...", – deyə özünə haqq qazandırır. Ancaq bununla

belə müstəntiqlərin topladığı versiyalar ziddiyyətlidir. Paris prefekturasının bəzi əməkdaşları bu videonun surətini çıxarıb CD-ROM diskinə köçürməkdə günahlandırılır. İyulun 18-dən 19-a keçən gecə Yelisey sarayı ilə Paris polis prefekturasının arasındakı əlaqə zabiti Jan-İv Huno, bu CD-ROM diskini Aleksandr Benallaya gətirir. Həmin vaxt Benalla Yelisey sarayından bir neçə küçə aralıda yerləşən Damas kafesində həmkarı Vənsan Qras ilə sulu qəlyan çəkir. Missiya meneceri (Benalla) istintaq zamanı müstəntiqlərə deyir ki, o, diskə baxmayıb, evinə qayıdıb yatıb, yalnız sabahı gün səhər saat 08:30-da onu aparıb Yelisey sarayında İsmael Emelienə verib. Ancaq ola bilər ki, hadisələr tamam başqa bir şəkildə cərəyan edib. Çünki bizim əlimizdə olan məlumata görə bu video görüntülər iyulun 19-da, səhər saat 8:30-da Yelisey sarayına gətirilməyib, xeyli əvvəl mayın 2-də Parisin Contrescarpe meydanında baş verən hadisənin səhəri günü gətirilib. Yaxşı, əgər bu versiya düzgündürsə, onda bütün bu müddət ərzində nə baş verib ki, video xeyli müddət sonra sosial şəbəkələrdə yayılıb? CD-ROM Yelisey sarayında kimə verilib? Məhkəmə materiallarından aydın olur ki, bu məşhur video Paris prefekturasının kompüter servisində may ayının 2-də CD-ROM diskinə köçürülüb. IGPN (Milli Polisin Baş Müfəttişliyi) polislərinin qarşısında, Emelien etiraf edir ki, doğrudan da, onun bu videodan çoxdan xəbəri varmış – daha doğrusu, mayın 2-dən. Emelienin dediyinə görə, tanışları ona zəng vurub xəbər veriblər ki, sosial şəbəkələrdə yayılan bir videoda cənab Benallanı görmüşük. Elə həmin gün, cənab Benalla onun ofisinə gəlib, ona başqa bir video göstərib və deyib ki, bu video internetdən lentə alınıb. Bu videoda Benallanın dəyənəklə döydüyü, nümayiş zamanı asayişin xidmətində olanlara qarşı zorakılıq göstərən bir şəxs görünür. Benalla deyir ki, mən bu adamı ona görə vurdum ki, o polislərin üstünə partlayıcı maddə ilə dolu şüşələr atırdı. Bu yalandır. Ancaq buna baxmayaraq, bu görüntülər də montaj vasitəsilə döyülən

cütlüyün polislərə qarşı müqavimət göstərdiyi videoya əlavə olunacaq və iyulun 19-da LREM (Respublika hərəkətdə partiyası) partiyasının əməkdaşı Pier Lö Teksie tərəfindən idarə olunan anonim @FrenchPolitic X profilində sosial şəbəkələrə yayılacaq. Bir müddət sonra televiziyaya verdiyi müsahibəsində İsmael Emelien etdiklərinə haqq qazandıracaq.

## YELİSEY SARAYININ "TƏSLİM OLANLARI"

Mayın 1-də baş verən hadisələrlə bağlı Le Monde qəzetində dərc olunan məqalədən sonra Makron tamamilə şoka düşür. Yelisey sarayına bir neçə gün lazım olacaq ki, makronistlərə mətbuatda nə demək lazım olduğu tövsiyə edilsin. Ən başlıcası isə jurnalistlərə izah etsinlər ki, bu hadisə "Dövlət qalmaqalı deyil", "Yay qalmaqalıdır". Ancaq hər şey bunun əksini göstərir. Əvvəlcə, heç Brijit Makron bu qalmaqalın miqyasını hiss etmir. Le Monde qəzetində dərc olunan məqalədən bir gün sonra birinci xanım komandası ilə nahar edir və stol arxasında gənc missiya menecerini (Benalla) müdafiə etməkdə davam edir. Həmçinin dostlarından birinə izah edir ki, Benalla həmişə "mümkün olmayan bir işi, mümkün olan bir işə çevirməyə qadir olan bir oğlandır".

Yay ərzində Emmanuel Makron bu məsələ haqqında hər hansı bir rəsmi bəyanat verməkdən imtina edir. Zirehli prezident maşınının tünd şüşələrinin arxasında gizlənib jurnalistlərdən qaçır. Payızda gənc prezident yorğun-arğın, tamamilə əldən düşmüş kimi görünür. Hətta onun ətrafındakı həmkarları da onun bu görkəmindən heyrətə gəlirlər. Makron, demək olar ki, gecələr qəti yatmır; o qədər arıqlayır ki, paltarlarının içində üzür. Yorğunluqdan sifətində ləkələr əmələ gəlir. Bu ləkələri gizlətmək üçün prezident hər səhər üz-gözünü makiyaj edir. Ən başlıcası isə Makron hamıdan qaçır, heç kəslə dialoqa girmir. Daxili İşlər naziri Jerard Kollomb bu vəzifədən getməyindən bir neçə gün əvvəl La Dépêche du Midi qəzetinin jurnalistləri ilə müsahibəsində etiraf edir ki: "Bizim aramızda onunla danışmağa şansı olan adamlar çox azdır. […] Əgər hamı onun qarşısında diz çökməkdə davam eləsə, o hamıdan təcrid olunacaq... çünki təcrid olunmaq Yelisey sarayanın qanındadır".

Bu azmış kimi, həmin dövrdə prezidentin komandasında da gərginlik artır. Prezident aparatının mətbuatla əlaqə şöbəsinin müdiri,

keçmiş jurnalist Brüno Rojer-Peti işdən çıxarılandan sonra prezident aparatının beynəlxalq mətbuat üzrə məsləhətçisi Barbara Früjiye “yay skandalının” zibilinə düşür. Hələ iyul ayında Aleksi Kohler ona eyham vurmuşdu ki, “sən gələcəkdə nələr olacağını indidən düşünməlisən...”, ancaq dəqiq heç nə deməmişdi. Kohler əməkdaşları ilə söhbətlərdə həmişə çəkinmədən deyir ki: “Barbara Früjiye “yelbeyindir””. Prezident aparatındakı atmosferə bax! Bilmirsən, güləsən, yoxsa ağlayasan...

Avqustun ortalarında məzuniyyətdən qayıdanda, beynəlxalq mətbuat üzrə məsləhətçi xəbər tutur ki, o, bir aydan sonra prezidentin BMT-yə rəsmi səfər heyətinin tərkibində deyil. Təəccüblüsü də burasıdır ki, heç kim onu xəbərdar etməyib. Nəhayət, Sibet Ndiay ona bu xəbəri çatdırır və əlavə edir ki, o, prezident aparatından getməlidir. Barbara başa düşür ki, onun Yelisey sarayının klanında qalmasını artıq istəmirlər. Hər işini canla-başla görən, bütün vaxtını, enerjisini hətta şəxsi həyatını işinə qurban verən bu qadın eşitdiklərindən şoka düşür. Ona görə də prezidentin qəbuluna yazılıb onunla görüşməyi xahiş edir. Dövlət başçısı ilə söhbətdə beynəlxalq mətbuat üzrə əvəzolunmaz məsləhətçi kövrəlir, sonra özünü saxlaya bilməyib hönkürtü ilə ağlayır. Ürəyi yumşalan Makron qərar verir ki, Barbara Früjiye öz vəzifəsində qalsın və onu da əlavə edir ki, daha Rəsmi Dövlət Jurnalına yeni adamlar qəbul olunmasın.

Bununla belə, jurnalistlərin nəzərinə çatdırılır ki, indiyə qədər prezidentin çıxışlarına cavabdeh olan Silvan Fort Yelisey sarayının mətbuat xidmətinin rəhbəri təyin olunur. Bu yerdəyişməyə baxmayaraq, sarayda ümumi gərginlik azalmır. İndi hamıya elə gəlir ki, prezident artıq heç kimə qulaq asmır, hətta ona ən yaxın olanlara da...

Çoxdan gözlənilən nazirlər kabinetindəki dəyişikliyin elanından əvvəl, Makron oktyabrın 16-da gözlənilmədən televiziya ilə çıxış etmək qərarına gəlir. Sibet Ndiay ilə Silvan Fort prezidentin bu təşəbbüsünə etiraz edirlər. Onlar artıq telekanallarla danışıqlar aparıblar, hər şeyi hazırlayıblar ki, prezident bir həftədən sonra xalqa müraciət etsin. Amma

Makron iki ayağını bir başmağa dirəyib israr edir ki, o, mütləq bu axşam efirə çıxmalıdır. Benalla məsələsi ilə bağlı skandal başlayandan, prezident rəsmi olaraq efirə çıxıb xalqa müraciət etməyib. İndi onun birdənbirə belə qərara gəlməsində məqsəd, fransızlara göstərməkdir ki, dövləti idarə edən odur – Baş nazir Eduard Filip deyil. Amma texniki cəhətdən heç nə hazır deyil. Çünki nə Silvan Fort, nə də Sibet Ndiay əvvəlcədən heç nəyi planlaşdırmayıb. Ona görə də televiziyanın çəkiliş qrupunu, eləcə də texniki komandanı Yelisey sarayına çağırmaq mümkün deyil. Artıq gecdir. Ona görə də Silvan Fort ilə Sibet Ndiay məcbur olub improvizasiya edirlər. Nəticədə, TF1 telekanalından bir operator tapırlar. 18:30-da başlayacaq çəkilişdən cəmisi ikicə saat əvvəl, operator özünü Yelisey sarayına çatdırıb təkbaşına işıq qurmağa başlayır. Ancaq bu payız ayında gün tez batdığından və qaranlıq tez düşdüyündən operatorun qurduğu işıqlar və kameraların yerləşdiyi nöqtələr o qədər də qənaətbəxş olmur. Bundan başqa, hər şey tez-tələsik, əlimyandıda qurulduğundan, çıxış vaxtı dövlət başçısının sifəti normal işıqlandırılmır. Hələ bu harasıdır? Çəkilmiş material telekanala satellitlə yox, avtomobillə göndərilir. TF1 telekanalının prezidenti Terri Tüyyiye çəkilmiş materiala baxanda, daş atıb başını tutur. O, ətrafındakılara etiraf edir ki, bu yayımdan sonra kanalın reputasiyası aşağı düşəcək. Ancaq hamı yaxşı bilir ki, bu biabırçılıq onlarlıq deyil, hamısı Yelisey sarayının, daha doğrusu, prezidentin günahıdır. Ertəsi gün mətbuat xalqa müraciəti zamanı sifəti normal işıqlandırılmayan dövlət başçısını lağa qoyur...

Təəccüblü burasındadır ki, nazirlər kabinetindəki dəyişikliklərə üç gün qalmış, İsmael Emelien Bordo şəhərindən bir neçə kilometr aralıda yerləşən Jiskur qalasında özünə böyük, təmtəraqlı bir toy edir. Toyda deputat Qabriel Attali, siyasi müşavir Stefan Sejurne, Aleksi Kohler, nazir Jülien Denormandi, eləcə də Jil Finşelşteyn iştirak edirlər.

Şən toy mərasiminə baxmayaraq, onların hamısının fikri başqa yerdədir. İsmael isə tamamilə ayrı şey düşünür. O, üç həftəlik bal ayına getməyi planlaşdırıb – Yelisey sarayından uzaqlara... Xüsusi müşavir

respublika prezidentindən uzaq qaçmağa çalışır... O da prezidentin gözündən düşüb, görəsən?

Noyabr ayında sarı jiletlilər hərəkatı Fransanın, demək olar ki, hər yerinə yayılır. Parisdə onların nümayişləri ara vermir. Sarı jiletlilər tərəfindən mühasirəyə alınmış Yelisey sarayında hamı panika içindədir. Bundan sonra Makron daha çox özünə qapılır. Makronistlərin arasında dövlət başçısını və onun klanını məzəmmət edənlərin sayı artır. LREM (Respublika hərəkətdə partiyası) partiyasından olan deputatlar, İsmael Emelieni və Aleksi Kohleri daha açıq şəkildə tənqid etməyə başlayırlar. Prezidentin mətbuat xidməti bir neçə dəfə quş buraxandan sonra Silvan Fort da şələ-şüləsini yığışdırmağa başlayır. Emmanuel Makronun Petan haqqında mübahisəli bəyanatlarından sonra ölkədə yenidən çaxnaşma düşür. (Petan – 1940-1944 illərdə Fransanın dövlət başçısı. Hərbiçi, diplomat və siyasi xadim. 1918-ci ildə Fransa marşalı rütbəsi alıb, 1945-ci ildə Hitlerin çaldığı ilə oynamaqda ittiham olunub və bütün hərbi rütbələrindən məhrum edilib.)

Prezidentin sarı jiletlilərlə bağlı anonsu gərginliyi daha da artırır. Bütün bu işlərdən cana yığılan Mişel Şaras (Fransa Konstitusiya Şurasının üzvü) telefonu götürüb Makrona zəng vurur və onun nümayişçilər qarşısında "təslim olan" klanını kəskin tənqid edir.

Milad bayramı ərəfəsində Benalla məsələsinin ikinci seriyası başlayır. Bu dəfə söhbət onun diplomatik pasportlarından və prezidentlə SMS vasitəsi ilə yazışmalarından gedir. Bu dəfə artıq canı boğazına yığılan Silvan Fort, yanvar ayının əvvəlində ərizə yazıb könüllü olaraq vəzifəsini tərk edir. Emmanuel Makron dostları ilə söhbətlərinin birində gileylənir ki: "Onsuz da, bu Fort "sadiq adam deyildi" və onun ətrafında həmişə "məqsədləri nə olduğu bilinməyən şübhəli adamlar" dolaşırdı". (!) Bu o deməkdir Fort artıq onun gözündə lütfdən düşüb. Biabırçılıq!.. Benalla da öz növbəsində Mediapart jurnalistlərinə Yelisey sarayının "texnokratlarından" danışır və açıq-aşkar deyir ki: "... onlar mafiyadan da betərdirlər. Hər biri karyerası üçün başqasına borcludur. Onlar heç

kəsə kömək etməyən (Makronu nəzərdə tutur) insanların arxetipləridir. Onlar axmaq məsləhətləri ilə onu (Makronu) pis qərarlar verməyə məcbur edirlər...”. Bu sözlərlə o, təbii ki, Patrik Strzodanı və Aleksi Kohleri nəzərdə tutur.

“Amma onu düz deyir”, – deyə makronistlərin bəziləri üzdə olmasa da, arxada onu dəstəkləyirlər. Beləliklə, Yelisey sarayında qanqren başlayır. Bir neçə müşavir, o cümlədən İsmael Emelien prezident aparatını tərk etməyə hazırlaşır. Hələ bu harasıdır, Makron yaya qədər Aleksi Kohleri də özündən uzaqlaşdırmağı planlaşdırır. Artıq prezident bayquş kimi tamamilə təkdir və bunun da günahı yalnız özündədir.

# VƏZİFƏ PAYLANIŞI

"Bir neçə gündən sonra hər şey istədiyim kimi də olacaq...", Fransanın Müdafiə naziri Jan-İv Lö Drian tamamilə əmindir ki, Emmanuel Makronun prezident seçkilərində qələbəsindən sonra da o, öz vəzifəsində qalacaq. Siyasi həyata başlayandan, Lorian şəhərinin bu keçmiş meri bütün enerjisini müdafiə məsələlərinə həsr edib. Hollandın prezidentliyi dövründə düz beş dəfə Müdafiə naziri vəzifəsində qalan, əsli Broton olan Jan-İv Lö Drian tamamilə əmindir ki, yeni prezident Makron da onu bu vəzifəsində saxlayacaq. Kampaniya zamanı Makron dişlərini ağarda-ağarda ona söz vermişdi ki, prezident seçilsə, ona dəyməyəcək. 2017-ci ilin martından Makronu dəstəkləyən Lö Drian, yəqin, öz-özünə deyir ki, bu ədalətli və məntiqi bir mükafatdır. Otuz ildən  çoxdur Sosialist Partiyasının sütunlarından biri olan bu adamın qəti şübhəsi yoxdur ki, yeni prezidentin dövründə də Müdafiə Nazirliyində işini davam etdirəcək.

Makronun prezidentlik dövrünün ilk parlamentinə nazirlərin təyin olunmasından iki gün əvvəl, daha dəqiq desək, bazar ertəsi 15 may 2017-ci ildə Lö Driana yeni prezidentdən zəng gəlir: "Jan-İv, ortaya bir problem çıxıb. Natali Kosiysko-Morizet iki ayağını bir başmağa dirəyib ki, mən Müdafiə Nazirliyini istəyirəm. Sabah gəl yanıma görək neynəyirik...". Fransua Hollandın keçmiş naziri baş üstə deyib dəstəyi asır. Tərbiyəli və əlaçı bir şagird müəllliminə tabe olduğu kimi, o da  prezidentin

səlahiyyətinə tabedir. V Respublikanın üzünə də, astarına da yaxşı bələd olan Lö Drian, yeni və cavan respublikaçı monarxın qarşısında özünü üzüyola uşaq kimi aparmaqda çətinlik çəkmir. Ancaq Yelisey sarayına daxil olandan sonra səbrinin basıb xeyli gözləməyə məcbur olur. Saatlar keçir, ancaq prezidentdən səs-soraq çıxmır. Gözləmə otağındakı narahat skamyanın üstündə neçə saatdan bəri oturub gözləyən Lö Drian öz-özünə dəfələrlə eyni sualı verir: məni burda saatlarla gözlətməklə yeni prezident nə demək istəyir, görəsən?

Qapı birdən-birə, cırıltı ilə açılır. Hələ də qələbəsinin havası başından çıxmamış Makron təntənə ilə içəri soxulur. Lö Drian onu salamlamaq üçün ayağa qalxır, ancaq ağzını acmağa macal tapmamış, prezident onun gözlərinin içinə baxıb: “Xarici İşlər Nazirliyi necədir sənin üçün?”, – deyə sual verir. Gözləmədiyi təklifdən özünü itirən Lö Drian nə deyəcəyini bilmədən yüngülcə başını tərpədir, nəsə demək istəyir, ancaq Makron tez çönüb gəldiyi kimi gurultu ilə otaqdan çıxır. Bir müddət sonra Lö Drianın yaxın dostlarından biri Fransis Russeli acı-acı deyəcək ki, onun dostu “bir qarın yemək üçün özünü Makrona satdı”. Holland da onun haqqında eyni fikirdədir.

## MÜDAFİƏ NAZİRLİYİNDƏ BÖYÜK MANEVRLƏR

Lö Drian elə bilirdi ki, Makronu asanlıqla qatlayıb cibinə qoya biləcək. Yanıldı... Bu iki nəfər bir-birinə çoxdan yaxınlaşmışdılar. 2016-cı il avqustun sonunda bu güclü və qüdrətli Müdafiə naziri, prezident Fransua Hollanda çox əsəbiləşmişdi. Məsələ burasındadır ki, sentyabr ayına bir neçə gün qalmış Le Monde qəzeti iki jurnalistin – Jerard Davet və Fabris Lomun bir neçə uzun məqaləsini dərc edir. Bu məqalələrdə jurnalistlər bir yerdə yazdıqları, yaxınlarda satışa buraxılacaq  Prezident belə söz deməz... kitabı haqqında oxuculara məlumat verirlər. Müdafiə naziri Lö Drianın qəti xoşuna gəlmir ki, bu jurnalistlər Le Monde qəzetindəki məqalələrində Yelisey sarayı ilə Ağ Ev arasındakı müzakirələrdən, ABŞ ilə Fransanın Suriyaya qarşı birgə hərbi müdaxiləsi haqqında məxfi sənədlərdən də söhbət açırlar.

Lö Drian artıq Fransua Hollandla bütün əlaqələrini kəsib... özü də boş bir şeyə görə yox. Onlar ikisi də çoxdan siyasətdədirlər və illərdir dostluq edirlər. 1990-cı illərin əvvəllərində onlar ikisi də bir yerdə Jak Deloru dəstəkləmək üçün Lorian Şahid Klubu yaratmışdılar. Bundan başqa Lö Drian bəzi böyük arqumentlərə malikdir: onun Müdafiə sənayesində güclü şəbəkəsi, həmçinin Afrikada və Yaxın Şərqdə yüksək vəzifəli məmurlarla yaxın əlaqəsi var. Kampaniya zamanı təbii ki, belə əlaqələrin çox xeyri olur.

Oktyabr ayı ərəfəsində Baş nazir Manuel Valls Prezident belə söz deməz... kitabının qəhrəmanı Fransua Hollanda qarşı hücumlara başlayanda, mətbuatda bəzi jurnalistlər yazırlar ki, Lö Drian prezident seçkilərində Emmanuel Makronu dəstəkləyəcək... Ancaq bu xəbər Müdafiə nazirinin ətrafındakılar tərəfindən inkar edilir. O vaxt Fransua Holland ikinci dəfə prezidentliyə namizədliyini verib-verməyəcəyi haqqında hələ heç bir qərara gəlməmişdi. O bu qərarı dekabr ayında

verəcək və Hollandın bir daha prezident olmaq istəmədiyini görən Lö Drian üzvü olduğu Sosialist Partiyasına sadiqliyini göstərmək üçün partiya adından prezidentliyə namizədliyini irəli sürən Manuel Vallsa dəstək olacaq. Ancaq bu münasibətlə yanvar ayında Manuel Vallsla Brotayn bölgəsinə seçicilərlə görüşə gedəndə, Müdafiə naziri başa düşür ki, özünü boş yerə əziyyətə verir. Bölgənin Lambal şəhərinin sakinləri gələcək namizədi çox pis qarşılayırlar. Bir gənc hətta cəsarət edib camaatın içində Manuel Vallsa şillə vurur.

Beləliklə, kiçik addımlarla Lö Drianın komandaları Makronun komandalarına yaxınlaşmağa başlayır... “Ancaq Makron elə hesab edir ki, onun dəstəyi səmimi deyil”, – deyə namizədin yaxın dostlarından biri etiraf edir. Makron həmişə başqalarından “səmimilik” tələb edir. Onun özündə səmimilik deyilən heç bir şey yoxdur, onun yeganə üsulu güc tətbiq etməkdir. Ancaq Makronun Lö Drian haqqında dediyi “onun dəstəyi səmimi deyil...” sözlərində bir az həqiqət də var. Çünki Lö Drianın komandası, eyni zamanda başqa bir namizədin – Fiyyonun komandasına da yaxınlaşır. Onun bu ikibaşlı oyunu təbii ki, Makronun gözündən qaçmır.

Ehtiyatlı tərpənən Lö Drian 2017-ci ilin mart ayının əvvəlinə qədər gözləyir və seçkilərin birinci turuna ay yarım qalmış Makrona dəstəyini rəsmiləşdirir. Bir neçə həftə sonra "Hərəkətdə!" qrupunun namizədi Arts et Metiers de Paris hotelində Le Drianın Müdafiə Nazirliyindəki kabinet direktoru Sedrik Levandovski və onun xüsusi müşaviri Jan-Klod Malle tərəfindən yazılmış müdafiə mövzusunda geniş çıxış edir. Müdafiə Nazirliyinin sütunları olan bu iki adam Makronun, eləcə də onun komandasında olanların xoşlarına gəlməyə çalışırlar. Malle hətta zəmanət alır ki, Makron prezident seçilsə, o, Milli Kəşfiyyat Koordinatoru təyin olunacaq. Ancaq onun arzusu ürəyində qalır – Makron prezident seçilsə də, o heç vaxt Milli Kəşfiyyat Koordinatoru olmayacaq. Ondan daha çoxbilmiş və bic olan Levandovski isə çox can atır ki, Holland onu seçkilərdən əvvəl xarici kəşfiyyatın (DGSE) rəhbəri təyin eləsin. Amma getməkdə

olan prezident qərara gəlir ki, bu vəzifəyə yeni rəhbəri onu əvəz edəcək prezident özü təyin eləsin. Lö Drianın kabinet direktoru onda başa düşür ki, Makronun komandası onu qəbul etməyəcək. Ona görə də təcili çıxış yolu axtarır. Bəziləri hətta onun Areva şirkətinə rəhbər göndəriləcəyini də ehtimal edirlər.

## HAMI "DÖVLƏT DAXİLİNDƏKİ DÖVLƏTƏ" QARŞI ÇIXIR

Makron Lö Drianı Xarici İşlər Nazirliyinə təyin edəndə, onun qarşısına şərt qoyur: Levandovski onu müşayiət etməyəcək. Prezident onu təcili olaraq EDF (Fransanın Elektriki) kampaniyasına göndərmək istəyir, çünki Levandovski əvvəllər orada altı il bu kampaniyanın rəhbəri Fransua Russeyin kabinet direktoru olub və bu iş üzrə əsl mütəxəssisdir.

Lion şəhərində doğulub boya-başa çatan Levandovski nə böyük bir mühəndislik məktəbində oxuyub, nə də Milli İdarəetmə Məktəbində. Siyasi Elmlər İnstitutunu bitirəndən sonra o, bir müddət universitetdə araşdırma işləri aparıb və Paris VIII universitetində geosiyasət üzrə Təkmilləşdirmə Diplomu (DEA) əldə edib. 1990-cı illərdə isə Milli Assambleyada sosialistlər qrupunun müşaviri vəzifəsində çalışıb.

Hollandın prezidentliyi dövründə Levandovski həm hədə-qorxuya məruz qalır, həm də tənqidlərə. Müdafiə Nazirliyinin V Respublikada xüsusi hörməti və sanbalı var. Ancaq buna baxmayaraq onlar həmişə hamıya təkrar edirlər ki, ordunun Ali Baş Komandanı ancaq prezidentdir!

Levandovski həm də yüksək dövlət texnokratları tərəfindən tənqid edilir. Ancaq bu inadkar adam İqtisadiyyat Nazirliyi ilə büdcə çəkişmələrində həmişə qalib çıxır. Bu çəkişmələrdə Holland özü də Müdafiə Nazirliyini İqtisadiyyat Nazirliyindən daha çox dəstəkləyir. 2015-ci ildə hərbi proqramlaşdırma qanununun hazırlanması zamanı məsələ ciddiləşir. Müdafiə Nazirliyinin kabinet direktoru Levandovski ilə İqtisadiyyat naziri Emmanuel Makron və onun kabinet direktoru Aleksi Kohler arasında böyük gərginlik yaranır. Bu gərginlik tezliklə şəxsi münaqişəyə çevrilir. Kohler çığır-bağır salır ki, Müdafiə Nazirliyində Lö Drian "dövlət daxilində dövlət" yaradıb. Ancaq buna baxmayaraq,

Yelisey sarayını idarə edən prezident Holland, eləcə də onun Baş naziri, Müdafiə nazirini dəstəkləyir. İqtisadiyyat Nazirliyinin Müdafiə Nazirliyinə etdiyi həmlələr hamısı boşa çıxır. Makronla Kohler hər dəfə gülünc vəziyyətdə qalırlar...

Levandovskinin bacarığı, danışıq mədəniyyəti, başladığı işi uğurla başa çatdırmaq qabiliyyəti ona prezident Hollandla və Baş nazir Manuel Vallsla birbaşa əlaqə saxlamağa imkan verir. Ona görə də bu adam dövləti idarə edənlərlə yaxın əlaqəsindən istifadə edib, nazirlər kabinetindəki iclaslara gəlməyi özünə sığışdırmır, müavinini göndərməyə üstünlük verir. Fransua Hollandın beş illik hakimiyyəti dövründə Sedrik Levandovski ilə DGSE-nin (Xarici kəşfiyyat) direktoru Bernard Bajole arasındakı əlaqələr tamamilə bərbad hala düşür. Bu sonuncu da köhnə dostu Hollandla birbaşa əlaqə saxlayır, halbuki DGSE (Xarici kəşfiyyat) Müdafiə Nazirliyinə – Lö Drian ilə Levandovskiyə tabedir. 2017-ci ilin yazında Makron prezident seçiləndən bir-iki həftə sonra DGSE-nin (Xarici kəşfiyyat) direktoru Bernard Bajole, yeni seçilmiş prezidentin qulağına pıçıldayır ki, Levandovski Hollandın vaxtında çox qudurmuşdu, heç kəsi saymırdı... indi onun əl-ayağını yığmaq lazımdır.

## "ŞEF" MAKRON MÖVQE TUTUR

Makron çox gözəl bilir ki, onun siyasətini saxlayan sütunlarından biri müdafiədir. 39 yaşında dövlət başçısı seçilən bu adam Fransanın tarixində ilk prezidentdir ki, hərbi xidmət keçməyib. Ona görə də gənc prezident həm fransızlara, həm də orduya göstərmək istəyir ki, hərbi işdə təcrübəsiz olmasına baxmayaraq, ölkədə Ali Baş Komandan odur. Bu məqsədlə o, şahmat oyununda olduğu kimi, Xarici İşlər Nazirliyi ilə Müdafiə Nazirliyi arasında elə bir kombinasiya qurur ki, hər ikisini öz əlində saxlaya bilsin.

Beləliklə, Lö Drian Müdafiə Nazirliyindəki sadiq komandasından zorla ayrılıb, yaxşı tanımadığı Xarici İşlər Nazirliyinə göndərilir. Müdafiə Nazirliyinə isə Emmanuel Makron real siyasi çəkisi olmayan piyadalarını təyin edir: birinci Silvi Qulard – keçmiş Avropa deputatı, poliqlot – yeri gəlmişkən, onu Xarici İşlər Nazirliyinə göndərmək daha məqsədəuyğun olardı – ancaq ordudan, hərbdən qətiyyən başı çıxmayan bir adam Müdafiə naziri təyin olunur. Bu qadın qısa bir müddətdən sonra öz xahişi ilə istefa verən kimi prezident onun yerinə keçmiş İqtisadiyyat naziri Loran Fabiüsün keçmiş büdcə müşaviri, texnokrat Florans Parlini təyin edir. Hər şey daha aydın olsun deyə Makron qərara alır ki, Müdafiə Nazirliyinin adını dəyişib "Silahlı Qüvvələr Nazirliyi" qoysun və bununla da hamıya göstərsin ki, Şarl De Qolun dövründə olduğu kimi müdafiə məsələlərinə ancaq və ancaq Yelisey sarayı qərar verir və Ali Baş Komandan da onun özüdür.

2017-ci il may ayının 14-də yeni prezidentin andiçmə mərasimi günü Emmanuel Makron Yelisey tarlalarında Zəfər Tağına doğru irəliləyən hərbi maşında farağat komandası almış hərbiçi kimi dayanır. Sonra Persi hərbi hospitalına gedib yaralı əsgərlərə baş çəkir. Hara baxsan prezident ordadır: gedib Afrika ölkələrində cihadistlərə qarşı mübarizə aparan Barkhane əməliyyatında iştirak edən hərbçilərlə də görüşür,

sonra əyninə yaşıl pilot kostyumu geyinib kameraların qarşısında sualtı nüvə gəmisinin ekipajı ilə görüşür.

Müdafiə Nazirliyində Levandovski yeni padşah Makronun yeganə qurbanı deyil. 2017-ci ilin iyul ayından etibarən Fransa silahlı qüvvələrin baş qərargah rəisi Pier dö Villiye də vəzifəsindən azad edilir. Əvvəlcə, Makron qərara almışdı ki, onu bir il öz vəzifəsində saxlasın, və yerinə sanballı adam tapandan sonra Levandovski kimi dalından dəysin. Amma bu çox yüksək rütbəli baş zabit, Milli Assambleyanın Müdafiə komitəsi qarşısında, prezidenti hərbi büdcəyə lazımi qədər vəsait ayırmadığı üçün tənqid edir. Bu iclas bağlı qapılar arxasında məxfi keçirilsə də, orada gedən söhbətlər hansı yollasa mətbuata sızır və beləliklə, Yelisey sarayının qəzəbinə səbəb olur. İyulun 14-də, Fransanın Milli bayramı günü, Müdafiə Nazirliyinin bağçasında, Makron ordu rəhbərlərinin qarşısındakı ilk çıxışında, Pier dö Villiyeni “yerinə otuzdurur” və kobud şəkildə davakar uşaq kimi ona deyir: “Yaddan çıxarmayın ki, mən sizin şefinizəm!”.

Bir neçə gün sonra Pier dö Villiye prezident tərəfindən vəzifəsindən qovulur. Makron onun yerinə general Fransua Lekuantrı təyin edir. Bu 56 yaşlı yüksək rütbəli zabit, əvvəllər İraqda, Somalidə, Ruanda xidmət göstərəndən sonra, ona çox strateji bir iş – əvvəlki prezidentin hakimiyyəti dövründə – Baş nazirin hərbi kabinetinin rəhbərliyi tapşırılır.

Makron Fransua Lekuantrı hələ prezident seçkilərindən əvvəl tanıyırdı və onu 2018-ci ildən etibarən Fransa silahlı qüvvələrinin baş qərargah rəisi təyin etməyi planlaşdırırdı. Onları hüquqşünas və yazıçı Fransua Süro tanış etmişdi. General Lekuantrın, Makronun xoşuna gələn başqa bir üstün cəhəti də var: o, Baş nazir Eduard Filippi yaxşı tanıyır – onlar Milli İdarəetmə Məktəbində bir dövrdə oxuyublar.

Əvvəlcə, Makron istəyirdi ki, prezident seçilən kimi bütün hərbi rəhbərləri dəyişdirsin, ancaq sonra bu fikrindən vaz keçdi. Bununla belə o, polis və daxili təhlükəsizlik məsələləri ilə o qədər də maraqlanmasa da, orduda və müdafiə məsələlərində heç nəyi əldən buraxmaq istəmir.

## SƏNAYEÇİLƏRƏ QARŞI ŞİDDƏTLİ VƏ KƏSKİN TƏNQİD

14 iyul böhranından sonra dövlət başçısı hərbiçilərə olan sevgisini hamıya sübut etməyə çalışır. 2015-ci ilin yanvar ayındakı terrorist hücumlarından sonra o, Sentinelle missiyasının yenidən təşkil olunduğunu elan edir və o cümlədən, bu missiyanın hərbiçilərini tədricən üç yerə bölür. Ən əsas da ordunun gələcək büdcəsini 2025-ci ilə qədər təsdiqləyir və çıxışlarında bu məsələləri dəfələrlə vurğulayır. Ancaq ümumbəşəri hərbi xidmət layihəsindən danışanda, hərbi iyerarxiyanı narahat edir.

2017-ci ilin sentyabrında Makron Yelisey sarayının bayram zalında, LREM (Respublika Hərəkətdə partiyası) partiyasından olan deputatları, eləcə də müdafiə və kəşfiyyat sahəsinin bir neçə yüksək rütbəli rəhbərlərini qəbul edir. Sarayın qızılı tavanı altında, prezident hərbi məsələlərlə bağlı "öz" konsepsiyasını, eləcə də şəxsi geostrateji baxışlarını onlara təqdim etmək üçün uzun bir monoloqa başlayır. Makron diplomatik qaydalara əməl etmədən, demək istədiklərini natiqlik süzgəcindən keçirmədən gözünü yumub ağzını açır: "Mən müzakirə və dialoq tərəfdarıyam... amma çərçivə içərisində. Mən silahlı qüvvələrin baş qərargah rəisini işdən çıxaranda, hamı elə fikirləşdi ki, prezident müzakirə və dialoq tərəfdarı deyil. Bu yanlış fikirdir! Mən dialoqdayam, amma əmr edən də mənəm; mənim prezident kimi sizə ehtiyacım olsa da, siz ancaq mən dediyimi etməlisiniz...". Sonra Makron silah istehsalçılarına qarşı şiddətli və kəskin tənqidə başlayır: "Məndən əvvəlkilər hərbi doktrina sahəsinə xeyli sərmayə qoydular – niyə? Çünki silah sənayeçilərinin çaldıqları ilə oynadılar. Mənimlə o dövr bitdi. İndi bizi ehtiyacımız olmayan materialları almağa heç kim məcbur etməyəcək...".

Onun bu hay-küylü danışığı ancaq naşıları heyran edir. Nəticədə, institut auditoriyasında olduğu kimi, Makron, demək olar ki, qırx beş

dəqiqə ərzində dayanmadan mühazirə oxuyur. Köhnə hərbiçilərdən biri təəssüflə başını bulayıb burnunun altında narazılıqla donquldanır: “Makron ümumi formaya yaxşı bələddir, amma bu formanı təfərrüatlara izah etməyə başlayanda axmaqlayır. Danışdıqları A-dan Z-yə qədər cəfəngiyyatdır... SOS!”. Nitqindən sonra, həmişə olduğu kimi, Makron bu dəfə də deputatlarının verdiyi hər bir suala uzun-uzadı cavab verir, onlara nə etmək lazım olduğunu, harada nəyi necə demək lazım olduğunu ətraflı başa salır... Makronun danışığında ideoloji korpus və dərin mənalı fikirlər tapmayan iclas iştirakçılarına elə gəlir ki, prezident onlara Siyasi Elmlər İnstitutunda olduğu kimi “düşünmək tələb etməyən yüngül və hazır ideyalar çatdırır...”. Neynəmək olar, Yelisey sarayında bəzən çox az şeylə də kifayətlənirlər.

## HƏRBİ SƏNAYE KOMPLEKSİ

Makronun fikrində ancaq bir şey var: qırx ildən bəri Respublikanın bütün sirlərinin xəzinəsi olan Fransız Hərbi Sənaye kompleksi. Ona görə də Makron üçün bu sektorda öz mövqeyini möhkəmlətmək böyük strateji və həyati əhəmiyyət kəsb edir. Fransa silahlı qüvvələrin baş qərargah rəisi Pier dö Villiyeni vəzifəsindən azad edəndən üç həftə sonra Makron ilə Kohler bu dəfə də Baş Silahlanma İdarəsinin (DGA) rəhbəri Lorant Kollet-Biyyonu işdən çıxarmaq qərarına gəlirlər. Bu məsələ mətbuatda sensasiya doğurmasa da, çox vacib bir əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, Baş Silahlanma İdarəsi (DGA) hərbi sənaye kompleksinin döyünən ürəyidir. 67 yaşlı Lorant Kollet-Biyyon doqquz il nöqsansız xidmətdən sonra general Pier dö Villiye kimi Lö Driana yaxın olmağının cəzasını çəkir. Onun yerinə karyerasının bir hissəsini kosmos sənayesində keçirən, 64 yaşlı Joel Barrey təyin olunur. Təxminən 9800 işçisi olan Baş Silahlanma İdarəsi (DGA), ordunu silahla təchiz etmək üçün sifarişlər almaqla, texniki testlər keçirməklə, sınaq tədqiqatları aparmaqla, eləcə də hərbi texnikanı modernləşdirməklə məşğuldur. Onu da qeyd etmək lazımdır ki, Fransız ordusu Baş Silahlanma İdarəsinə (DGA) hər il 15 milyardlıq sifariş verir.

Ona görə də Makron müdafiə sənayesində ancaq və ancaq öz istədiyini etməyi heç kəsdən gizlətmir. Gənc prezident onu da yaddan çıxarmır ki, Rafal markalı Fransız döyüş təyyarələrini xaricə satmağa ilk dəfə Fransua Holland ilə Lö Drian müvəffəq olublar. Özü də hara? Qətərə, Misirə və Hindistana! Rafal təyyarə zavodunun rəhbəri, eləcə də Le Figaro qəzetinin sponsoru Serj Dasso bunu unutmur. 2016-cı ilin yanvarında o, Senatda etdiyi çıxışında demişdi ki: "Fransua Holland ilə Müdafiə naziri bizim təyyarələrimizin satışında çox böyük rol oynadılar...". Sonra da əlavə etmişdi ki, "Fransada hələ indiyə qədər Jan-İv Lö Drian kimi bacarıqlı Müdafiə naziri olmayıb". Axırda da belə yekunlaşdırır: "Çox sağ olun, cənab Lö Drian, çox sağ olun, cənab Holland...

sizə dərindən təşəkkür edirəm... tək özümə görə yox, Fransız təyyarələrini xaricə satdığınıza görə...”. Makronun prezident seçkilərində qələbəsindən bir neçə ay sonra da Serj Dasso arzulayır ki, Müdafiə məsələləri ilə bağlı sualları ancaq Lö Drian ilə həll etsin... Ancaq qoca, Yelisey sarayının yeni Baş katibi Kohleri yaxşı tanımır. O, yazıq bir də Yelisey sarayına qayıda bilməyəcək və 2018-ci ilin mayında vəfat edəcək...

## LÖ DRİAN DƏRD ÇƏKİR

Xarici İşlər Nazirliyində Lö Drian əsəbindən dodaqlarını çeynəyir. Onun Makronla münasibətləri prezident beşilliyinin ilk aylarından korlanmağa başlayıb. Nazirin tezliklə istefa verəcəyini, onun ətrafındakılar təsdiq etməsələr də, inkar da etmirlər. Rəsmi olaraq prezident Makronla Xarici İşlər naziri Lö Drian çox gözəl münasibətdədirlər. Ancaq Vatikana səfəri zamanı, Makron naziri haqqında yersiz bir zarafat edir: "Bretonlar Fransız mafiyasıdırlar...". Roma Papası Fransuanın, jurnalistlərin və kameraların qarşısında edilən bu şit zarafata, Breton Lö Drian dərhal belə reaksiya verir: "Ola bilər, ancaq bizim heç olmasa əxlaqımız var...".

Görəsən, bu sözləri deyəndə, Xarici İşlər naziri prezidenti nəzərdə tuturdu? Hər halda hiss olunur ki, Emmanuel Makronun bu zarafatında Lö Drian gülməli heç nə görmür. Nazirin ətrafındakılar onu könüllü olaraq istefa vermək fikrindən daşındırmaq istəyirlər. Hamısı bir ağızdan deyir ki, gözlə qoy özü (Makron) səni işdən çıxarsın. EDF (Fransa Elektriki) kampaniyasında oturan Sedrik Levandovski uzaqdan da olsa, keçmiş müdirinin qayğısına qalır. Lö Drianın klanı onun dəyərlərini yüksək qiymətləndirir və əmindirlər ki, bir gün Makronun onun qabiliyyətinə ehtiyacı olacaq... Ancaq hələ ki, Yelisey sarayında Makron tez-tez arvadı Brijitin sevimlisi, 2018-ci ilin sentyabrına qədər Daxili İşlər naziri olan, Jerard Kollombu qəbul edir və onunla təkbətək söhbət edir. O ki qaldı Xarici İşlər Nazirliyinə, oranın da əsas işlərini Yelisey sarayı özü həll edir, özü də prezident aparatında diplomatik korpusa rəhbərlik edən Filip Etiənin əli ilə. Ümumiyyətlə, bu V Respublikada bir ənənədir – xarici ölkələrlə bağlı bütün qərarlar Yelisey sarayında qəbul edilir. Bundan əlavə, Makron xarici dövlət başçıları ilə şəxsi əlaqələr qurmağı daha çox xoşlayır və onlarla tez-tez mesajlaşır. Yəni nə Xarici İşlər Na-

zirliyi, nə də Xarici İşlər nazirinin özü, onun üçün o qədər də əhəmiyyət daşımır. Təbii ki, belə bir şəraitdə Xarici İşlər nazirinin əli-qolu bağlı qalır – o, sərbəst heç bir qərar qəbul edə bilmir. Bu azmış kimi Makron hansısa bir nazirliklə əlaqə saxlamaq istəyəndə, birbaşa nazirin özünə yox, prezident aparatının diplomatı, general Moris Qurdolt-Montayna müraciət edir. (?) Hətta hərdən elə də olur ki, nazirlər Yelisey sarayında qəbul olunan qərardan ancaq rəsmi dövlət qəzeti vasitəsilə xəbər tuturlar... (!) halbuki bu qərarı onlara şəxsən prezident özü çatdırmalıdır...

# AFRİKA ƏLAQƏLƏRİ

Paris böyük bir kənddir – burda hamı-hamını tanıyır, hamının hamıdan xəbəri var, hamının hamıya haradasa işi düşür. Brijit Makron da bu kənddə gəzməkdən, rəfiqələri ilə nahar etməkdən, yeni-yeni adamlarla tanış olmaqdan ləzzət alır. 2016-cı ildə, bu qadın ərinə prezident seçkilərində kömək etmək üçün böyük fəaliyyətə başlayır. O vaxtlar Brijit Fransua Hollandın frankofoniya üzrə nazir nümayəndəsi, prodüser Yamina Benqiqi ilə bir neçə dəfə nahar edir. Onları Veronik Morali – Fimalac Developpement şirkətinin prezidenti – tanış edib. Bu sonuncunun əri, milyarder Mark Ladret dö Laşarrie, vaxtilə Yamina Benqiqi ilə birlikdə, multikultural cəmiyyəti ekranda daha yaxşı təmsil etmək üçün bir kino şirkəti (Elemiah) yaratmışdı.

Bu iki qadın başqa cür də tanış ola bilərdilər, çünki onların bir neçə ortaq dostları var: məsələn, keçmiş televiziya aparıcısı Bernard Montiel. Bu adam Yamina Benqiqi ilə yaxın dostdur, müntəzəm olaraq onunla bir yerdə istirahətə gedir və kiçik ekranın bir çox nümayəndələri kimi Makron klanına yaxın adamdır. Prodüser Benqiqi, həmçinin Makron dünyasına yenicə qədəm basan, Bestimage foto agentliyinin rəhbəri Mimi Marşand ilə də yaxın rəfiqədir. Onlar birlikdə məşhur kino ulduzu, aktrisa İzabel Adjaninin imicini qoruyurlar. Mimi Marşand başqa bir televiziya jurnalisti, homoseksual Mark-Oliviye Fojiel ilə də dostluq edir.

## AFRİKA HAQQINDA KİÇİK MƏSLƏHƏT

2016-cı il həm də Brijit Makronun, keçmiş jurnalist Beatris Şönberq ilə tanış olduğu ildir. O vaxt bu sonuncu, telejurnalist və prodüser Emmanuel Şen ilə birlikdə, Brijit Makronun ərinin siyasi yüksəlişindən bəhs edən Emmanuel Makron – bir meteorun strategiyası adlı sənədli filminin üzərində işləyirdi. Rejissor Pier Hürelin çəkdiyi bu film 2016-cı ilin noyabrında "France 3" telekanalında, Emmanuel Makronun prezidentliyə namizədliyinin rəsmi elanından bir neçə gün sonra nümayiş ediləcək. Brijit Makron bu sənədli filmdə uzun-uzadı müsahibə verir. Burda da Paris yenə böyük kəndə bənzəyir: Beatris Şönberqin əri Jan-Lui Borlo, yaratdığı "Afrika üçün Enerji" fondunun prezidentidir. Bu fondun məqsədi Afrika qitəsini elektriklə təmin etməkdir və bu assosiasiyanın vitse-prezidenti də başqası yox, məhz Yamina Benqiqidir.

Ancaq bütün bunlara baxmayaraq, çox adam bu prodüserə bəzən

yuxarıdan aşağı baxır. Yamina Benqiqi ona qarşı olan bu münasibəti zarafatla "neokolonializm" adlandırır. Bununla belə, bu qadının Afrikada çox güclü şəbəkəsi var. Uzun müddətdir ki, bu nəhəng iş qadını, dünyanın bir çox siyasət, iqtisadiyyat və mədəniyyət adamları ilə oturub durur. Yamina Lil şəhərində anadan olub. Valideynləri Əlcəzairlidir. Atası, vaxtilə Əlcəzair Milli Hərəkatının (MNA) üzvlərindən biri olub. 1980-ci illərin sonunda, televiziyada ilk debütündən sonra Yamina, prezident Fransua Mitteranın həyat yoldaşı Daniell Mitteranla tanış olur və bu tanışlıq onun həyatını tamamilə dəyişir. Çünki on dörd il prezident olan bir adamın İnsan hüquqlarını qorumaqla məşğul olan arvadı, onu əlaqədə olduğu bir çox fransız və xarici diplomatlarla tanış edəcək. 1994-cü ildən başlayaraq Yamina Benqiqi Daniell Mitteranın France Libertés

fondunda fəal iştirak edir. Bu fəaliyyəti ona hətta Nelson Mandela ilə görüşməyə belə imkan verir. Afrikadakı əlaqələri sayəsində Yamina bir çox dövlət başçıları ilə görüşür. Bu qadın, həmçinin Konqo-Brazzavilin əvəzolunmaz prezidenti Denis Sassu N'Qesso ilə də dostluq edir.

Prezident seçkilərinə bir neçə ay qalmış, Yamina Brijit Makron ilə görüşəndə, ona uşaqlığını keçirdiyi Pikardi departamentindən, oradakı gənclərin iş tapmaqda çətinliklərindən, həm də Afrika ölkələrinin 21-ci əsrdəki vəziyyətindən söhbət açır. Prodüser gələcək birinci xanıma Əlcəzairdən, onun digər Afrika dövlətləri ilə müqayisədə Fransa üçün mühüm rolundan, eləcə də Mərakeşin Əlcəzairə qarşı yeritdiyi diplomatiyadan söhbət açır. Yamina Afrikada Çinin, Rusiyanın və Amerikanın nüfuzunun artmasından narahatlığını da bildirir. Söhbət əsnasında Yamina gələcək birinci xanıma bu qitədə frankofoniyanın strateji rolunu xatırladır və proqnoz verir ki, 2050-ci ildə Afrikada 850 milyona yaxın insan Fransız dilində danışacaq. Onun danışıqları, Brijit Makronu, sözün əsl mənasında, valeh edir. Çünki Makronlar Afrika haqqında çox az şey bilirlər. Düzdür, 2002-ci ilin əvvəlində Emmanuel Makron ENA (Milli Administrasiya Məktəbi) stajını Fransanın Nigeriyadakı səfirliyində keçirmişdi. Düz altı ay o, səfir Jan-Mark Simonun yanında qalmışdı. Daha sonra Rotşild bankında, franko-beninli iş adamı Lionel Zinzou ilə tanış olmuşdu. Bu adam 2015-ci ildə bir neçə ay Beninin Baş naziri olacaq və sonra prezident seçkilərində uduzacaq.

Yelisey sarayına prezident kimi qədəm basandan az sonra Makron ENA (Milli Administrasiya Məktəbi) məktəbindəki sinif yoldaşlarının üç nəfərini Afrika üçün səfərbər edir: Orelian Leşevalliye, Frank Paris və Jüli-Armand Aniambossu. Beləliklə, Afrika ilə Fransa arasındakı əlaqələri möhkəmləndirməkdən ötəri prezident üç nəfər iş adamı seçir.

## ƏLCƏZAİR
## YENİDƏN OYUNA GİRİR

Makronun Afrika şəbəkələri zəifdir. Bir çox başqa mövzular kimi Afrika da onun qarşısında ağ bir kağız səhifəsinə bənzəyir. Bu onun həm gücü, həm də zəifliyidir. Ona görə də Yamina Benqiqi Brijit Makronla görüşdə ona təklif edir ki, əgər istəyirsə, onun ərinin Afrika qitəsində şəbəkələrini genişləndirməyə kömək edə bilər. Makronlar həmişəki kimi bu təklifi nəzakətlə qəbul edir. Əvvəla, onlar prezident seçkilərinə bir neçə ay qalmış özlərinə düşmən qazanmaq istəmirlər. İkincisi də yeni dostlar qazanmaq həmişə xoşdur, xüsusilə əgər bu yeni dostların geniş şəbəkələri varsa. Onların həmişə köməyi dəyə bilər. Brijit Makrondan razılıq alandan sonra Yamina Benqiqi hamıdan gizlin prezidentliyə namizədin Əlcəzairə səfərini hazırlamağa başlayır.

Bu məqsədlə 2016-cı ilin payızında Yamina Jan-Lui Borlo ilə birlikdə "Afrika üçün enerji" fondunun tərkibində iki dəfə Əlcəzairə səyahət edir. Birinci dəfə noyabrın 8-də, ikinci dəfə dekabrın 3-də.

Əlcəzairdə Yamina Benqiqi gələcək xarici işlər naziri Abdelkader Messaheli yaxşı tanıyır. O zamanlar bu adam Maqreb, Afrika Birliyi və Ərəb Dövlətləri Liqası üzrə nazir idi. Əvvəllər, La Republique d'Oran qəzetində jurnalist kimi fəaliyyətə başlayan Abdelkader Messahel, sonralar Əlcəzairin gizli kəşfiyyat xidmətlərində çalışıb. Buteflikanın yaxın adamı olan bu nazir Saharanı, xüsusilə də islamçılara qarşı döyüş getdiyi Liviya Saharasını ovcunun içi kimi tanıyır.

Bu da lap yerinə düşür, çünki Emmanuel Makron 2017-ci ilin fevral ayında Əlcəzairdə səfərdə olanda, ona Malidə və Liviyada vəziyyəti normallaşdırmaq istəyini bildirir. Bu o deməkdir ki, hələ prezidentlik kampaniyasında gələcək prezident Liviya məsələsinə müdaxilə etmək üçün əlaqələr axtarırmış. Çünki 2011-ci ildə Nikola Sarkozi amerikalılarla Liviyaya Qərbin silahlı qüvvələrini yeridəndən bəri orada əsl

xaos hökm sürür. O vaxt Qərbin silahlı qüvvələrinin Liviyaya hücumu diktator Müəmmər Qəddafinin süqutu ilə nəticələndi. Daha sonra ölkə parçalandı və bundan da ən çox islamçılar mənfəət götürdülər. Əlcəzair də öz növbəsində bu Liviyanı odun üstündə olan süd kimi izləyir, ordusunu gizlicə Tunisə göndərir ki, lazım gəlsə, onun bu gənc demokratik qonşusu öz sərhədlərini Liviyadan qoruya bilsin.

2016-cı ilin payızından Yamina Benqiqi Liviya ilə əlaqə qurmaq üçün aktiv fəaliyyətə başlayır. Əslində, o bu ölkəni heç də yaxşı tanımır. Bəzi həmsöhbətlərinə Yamina özünü Emmanuel Makron üçün işləyən bir adam kimi təqdim edir. Onun tanışlarından biri bizə etiraf etdi ki: "Makronun Əlcəzairə dəvəti onun sayəsində oldu. Yamina hamıya deyirdi ki, Makronun Əlcəzairdə sağ əli özüm olacam... prezident seçiləndən sonra isə mən Liviyada onun sağ əli olacam...".

Niyə bu qadın özünə bu qədər arxayındır? Bu gün prodüser heç bir şeyi boynuna almır. Deyir ki, Makronun Əlcəzairə səfərində mənim heç bir rolum olmayıb. Yelisey sarayının müşavirlərindən birinin dediyinə görə, bizim suallarımıza cavab verəndən sonra Yamina tez Brijit Makrona zəng vurub deyib ki, bəs ərin haqqında kitab yazırlar. Bu xəbər Yelisey sarayında hamını panikaya salır və deyilənə görə, prezidentin özünü də "narahat" edir.

## XARİCİ İŞLƏR NAZİRLİYİ OYUNDANKƏNAR VƏZİYYƏTDƏDİR

Emmanuel Makron prezident seçiləndən sonra xarici vasitəçilər Liviyaya müdaxilə etmək üçün basabas salacaqlar. Ölkənin şərqinə nəzarət edən Liviya Milli Ordusunun baş komandanı marşal Xəlifə Haftara və Misir tərəfindən dəstəklənən Abu Dabiyə xeyli müraciətlər olunacaq. Bu kontekstdə Yamina Benqiqi Brüsseldə "Robert-Şüman İnstitutu Avropa üçün" adlanan, əməli heç kimə dəqiq bəlli olmayan bir qrupun prezidenti olur. Bu qrupu idarə edənlərin arasında Əbdüləziz Buteflikanın yaxın bir adamı Əlcəzairli Sumeya Abdelatif da var. Bu sonuncu, əsasən, diplomatik dairələrlə kəşfiyyat dairələri arasında fırlanır. Əslində, "Robert-Şüman İnstitutu Avropa üçün" qrupundan başlıca olaraq Denis Sassu N'Qesso istifadə edir ki, Avropada öz nöqteyi-nəzərini ifadə edə bilsin. Bir sözlə, bu Robert-Şüman İnstitutu

Konqo-Brazzavil padşahının əlində güclü bir silahdır.

Bu qəribə qrupun daxilində Yamina Benqiqi Benabderrahman Tayeb adlı bir tanışını "Afrika və Yaxın Şərq üzrə məsləhətçisi" təyin edəcək. Bu adam Makron prezident seçiləndən az sonra onun Afrikadakı xüsusi elçisi olacaq...

Paralel olaraq Tayeb həm də başqa bir qrupun – "Geopolitik Klubu"nun prezidenti kimi də fəaliyyət göstərir. 2017-ci ildə o, dəfələrlə Konqo-Brazzavilə, Tunisə, eləcə də Yaxın Şərqə səfərlər edəcək. Bu səfərlərdə əsas məqsəd, bir vaxtlar Müəmmər Qəddafi tərəfindən yaradılmış Afrika Birliyinin əli ilə Liviyada sülh yaratmaqdır.

Hakimiyyətə gələn gündən prezident Emmanuel Makron Liviyada "sülhməramlı" rol oynamağı arzulayır. Bunun üçün o, çox məxfi şəkildə bir neçə yaxın adamı ilə Yelisey sarayında Afrikanın həyatını dəyişəcək "diplomatik zərbə" hazırlayır. Onun arzusu Liviya böhranının əsas

qəhrəmanlarını bir stol arxasına yığmaqdır. Diplomatik planetdə hələ boşluqdur: Amerika Birləşmiş Ştatlarının könüllü olaraq Avropanın və Afrikanın siyasi səhnəsindən çəkilməsi, eləcə də İtaliyanın Tripolini (Livan) dəstəkləməsini dayandırması, əslində, Makronun xeyrinədir. Ona görə də 40 yaşına çatmamış prezident seçilən Emmanuel dan ulduzu kimi parıldayır. Beynəlxalq mətbuat onun prezidentlikdə atdığı ilk addımları yüksək qiymətləndirir. The New York Times və Washington Post qəzetlərində Makron liberal Donald Trampa rəqib kimi təqdim olunur. Bu təriflərdən vəcdə gələn Makron indi də Afrikaya böyük siyasi bir zərbə vurmağı planlaşdırır. Ancaq burda da yeni dövlət başçısı kampaniyada zamanı olduğu kimi hər şeyi gizlin idarə edir, yəni həmsöhbətlərinin sayını çoxaldır, ancaq heç birinə əsl niyyətini açmır... Makron həmişə başqaları ilə öz arasında divar çəkir. Onun xisləti belədir. Hətta seçki kampaniyası zamanı onun sirlərinin bir hissəsindən xəbərdar olan sadiq xidmətçiləri belə, indinin özündə də Yelisey sarayında onun gizlilik kultunu davam etdirirlər...

## LİVİYA İLƏ BAĞLI MÜƏMMALAR

2017-ci il iyul ayının axırında Yelisey sarayı Parisdən 12 kilometr aralıda yerləşən La Cel-San-Klou (İvlin) şəhərində Liviya ilə bağlı diplomatik konfrans keçiriləcəyini elan edəndə, Xarici İşlər Nazirliyində panika düşür. İnanılmaz görünsə də, nazirlikdə heç kəsin, hətta Xarici İşlər naziri Jan-İv Le Drianın özünün bu məsələdən xəbəri yoxdur. Düzdür, protokol xatirinə Xarici İşlər naziri bu konferansa dəvət olunur, ancaq nə onun fikrini soruşan olur, nə də ona söz verən. "Mən orda sadəcə olaraq müqəvva kimi bir şey idim", – deyə nazir acı-acı bir dostuna şikayət edir. Xarici İşlər Nazirliyinin başqa bir diplomatı təəssüflə etiraf edir ki: "Liviya məsələsində biz ancaq icraçı idik...". Onları başa düşmək olar. Prezident tərəfindən Xarici İşlər nazirinə qarşı bu saymazlıq onun ətrafındakı diplomatlara çox pis təsir edir. Ona görə bu konferansdan bir neçə ay sonra diplomatlar Yelisey sarayından acıq çıxmaq üçün hər yerdə səs-küy salırlar ki, bəs "Liviya məsələsini həll edən Xarici İşlər naziri Lö Drian olub!". Nazirliyin nüfuzlu diplomatları şikayətlənirlər ki, prezident və onun ətrafı onların işinə qarışır və Xarici İşlər Nazirliyi ilə "paralel diplomatiya" aparır.

## AFRİKA BİZNESİ DAVAM EDİR

Makronun Afrikadakı "diplomatik zərbələri" davam edir. Belə ki, Fransanın dövlət başçısı 2018-ci ilin oktyabrında Beynəlxalq Frankofoniya Təşkilatına (OIF) rəhbərlik etmək üçün Ruandalı Luis Müşikivadonu təklif edir. Qəribə burasındadır ki, Ruanda məktəblərində Fransız dili yox, İngilis dili tədris olunur... Bundan başqa, 2017-ci ildə 98,7% səslə yenidən Ruandanın prezidenti seçilən Pol Kaqam mütəmadi olaraq insan hüquqlarını pozmaqda günahlandırılır.

Makron üçün bütün bunlar o qədər də böyük əhəmiyyət kəsb eləmir. Onu əsas maraqlandıran soyqırımından iyirmi beş il sonra Ruanda ilə münasibətləri sabitləşdirməkdir. Bundan başqa, Fransa prezidenti Afrikanın ingilisdilli ölkələrinin qapılarını Fransız şirkətlərinə açmağa can atır. Xarici İşlər Nazirliyinin təcrübəli bir diplomatı təəssüflə qeyd edir ki: "Makronun Afrika siyasəti yoxdur. Onun Afrika ölkələri ilə bağlı planları sinizm xarakteri daşıyır. Makron və onun ətrafı üçün ancaq bir şey vacibdir – "biznes". Afrika ölkələrində insan hüquqlarının pozulması onların heç vecinə də deyil". Diktatorlara da elə lazımdır. (Sinizm əxlaq normalarını, mədəni və mənəvi dəyərləri qətiyyətlə rədd edən, ümumi qəbul edilmiş əxlaq normalarına mənfi və nihilist münasibətdir.)

Makronu Afrikada ancaq "biznes" maraqlandırdığı, onun 2017-ci ilin noyabrında Burkina Fasoda Uaqaduqu universitetinin səkkiz yüz tələbəsi qarşısındakı uzun-uzadı çıxışında daha çox nəzərə çarpır. Nitqinin əvvəlində Fransanın prezidenti iddia edir ki, "Fransanın Afrika siyasəti artıq yoxdur. Mən bura sizə dərs verməyə gəlməmişəm. Afrika ölkələrində azad seçkilər necə təşkil olunmalıdır, konstitusiya necə yazılmalıdır... bunları sizə Fransa Respublikasının Prezidenti öyrətməli deyil...".

Çıxışından sonra Fransa prezidenti tələbələrin suallarına cavab verir və cavablarında hətta onlara ata kimi nəsihətlər də verir. Tələbələrdən

biri ona Liviyadakı xaosdan sonra gündən-günə artan köləlik haqqında sual verəndə, Makron belə cavab verir: “Onları kölə vəziyyətinə salan kimlərdir? Afrikalıların özləridir də dostum...”.

Başqa bir tələbə qız Burkinada çoxlu Fransız əsgərlərinin olduğunu tənqid edəndə, Makron onun sözünü kəsir: “Siz fransız əsgərlərinin ölkənizdə olmasını ancaq və ancaq alqışlamalısınz!..”. Sonra bu görüşdə kondisionerlə bağlı xoşagəlməz bir hadisə baş verir. Məsələ burasındadır ki, Makronun tələbələrlə görüşü zamanı, prezidentə isti olmasın deyə Fransa səfirliyi zala iki böyük kondisioner gətirib qoşmuşdu. Tələbə qızlardan biri ondan soruşur ki, “siz bu görüşdən gedəndən sonra kondisionerləri də özünüzlə aparacaqsınız, yoxsa onlar bizim üçün qalacaq?”. Bu sualdan sonra Burkina Fasonun prezidenti Kabore nə üçünsə zaldan çıxanda, Fransa prezidenti onun arxasınca baxıb gülür: “Baxın, o elə kondisioner məsələsini həll etməyə getdi!..”.

Düzdür görüşdən sonra hər iki tərəf iddia edir ki, burda heç bir diplomatik qəza baş verməyib... Makron da RFİ radiosuna verdiyi müsahibəsində bəyan edir ki, “yumor bizim münasibətlərimizin yaxşı olduğuna bir işarədir”.

## **DGSE** *(Xarici kəşfiyyat)* **AFRİKADA**

Açıq şəkildə reaksiya verməyə cəsarət etməsələr də, Fransa prezidentinin özünü belə aparması, eləcə də onlara qarşı münasibəti Afrika dövlət başçılarının xoşlarına gəlmir. "Afrika liderləri Makronun sinik məntiqinə alışmayıblar. Bu onlarda belə bir hiss yaradır ki, sanki Afrika ölkələri Fransanın filiallarıdır", – deyə Afrikada yaşayan bir Fransız iş adamı bizə etiraf etdi. Prezident aparatına yaxın olan başqa bir diplomat əlavə etdi ki: "Onlar Makronu başa düşə bilmirlər. Bu 80 yaşlı Afrika liderləri ilə Makronun arasında qırx il yaş fərqi var. Belə bir münasibət onların, əlbəttə ki, xoşlarına gəlmir".

Yelisey sarayının Afrika üzrə məsləhətçiləri Orelian Leşevalliye və Frank Paris Makronun prezidentlik mandatının ilk ilindən tez-tez bu qitəyə səfər edirlər. Onların məqsədi Fransa ilə Afrikanın müxtəlif dövlət başçıları arasında əlaqə yaratmaq və onların etibarını qazanmaqdır. Çünki ötən illər ərzində Afrikadakı Fransız diplomatlarının yerini yavaş-yavaş DGSE-nin (Fransanın Xarici Kəşfiyyat İdarəsi) casusları tutub.

Fransa prezidenti də öz növbəsində Afrika dövlət başçıları ilə şəxsi əlaqələr saxlamağa can atır. Burkina Fasonun prezidenti Pol Kabore ilə yanaşı, Makron Seneqalın prezidenti Maski Sall ilə də yaxın münasibətdədir. Amma digər Afrika liderlərinin Fransanın bu gənc prezidentini görməyə gözləri yoxdur. Məsələn, Qvineyanın prezidenti Fransua Hollandın fanatıdır və ancaq ona sadiqdir. Fil Dişi Sahilinin lideri Alassan Uattara Nikol Sarkozi ilə çox yaxındır. Mövcud prezidentin əleyhdarlarından biri olan Loran Qbaqonun kürəkəni Stefan Kipre seçki kampaniyası zamanı Makrona maliyyə baxımından yardım etmişdi. 2018-ci ildə yeni nəsillər ittifaqının (UNG) prezidenti Kipre Parisdə prezident aparatının mətbuat katibi Benjama Qrivo ilə görüşür ki, Makron onunla bağlı xoş xatirələrini unutmasın.

# MEDİA STRESSDƏDİR

Telerama jurnalının yazdığına görə, 2017-ci ilin dekabr ayının əvvəlində dövlət başçısı LREM partiyasının (Respublika Hərəkətdə partiyası) deputatlarının və Mədəniyyət Məsələləri Komitəsi üzvlərinin qarşısında bəyan etdi ki, o, televiziya sahəsində inqilab etmək arzusundadır: "İctimai televiziya bizim ayıb yerimizdir, bizim həmvətənlərimizin ayıb yeridir; ictimai televiziya idarəçilik baxımından çox pis gündədir; keçən bir neçə həftə ərzində fikir verdim ki, ictimai televiziyanın rəhbərləri işlərinin öhdəsindən lazımınca gələ bilmirlər...".

Bu kəskin tənqiddə prezidentin əsl hədəfi Fransa Televiziyasının prezidenti Delfin Ernottdur. Bu qadın bir neçə həftə əvvəl 2018-ci ilin büdcəsi üçün 4 əsas telekanalın (TF1, France 2, France 3, Canal +) tələb etdiyi 50 milyon avronu 30 milyona endirmişdi. İctimai televiziyanın direktorunun bu ideyasını LREM partiyasının bəzi deputatları da dəstəkləmişdi. Bundan başqa, o, Baş nazirin kabinetindən, eləcə də Mədəniyyət Nazirliyi tərəfindən də dəstək almışdı. Delfin Ernottun bu layihəsinə, hətta Yelisey sarayından Ismael Emelien da razılıq vermişdi. Bundan başqa Mark Şvartz, eləcə də Mədəniyyət nazirinin ovaxtkı kabinet direktoru Fransuaz Nissen də bu məsələyə yaşıl işıq vermişdilər. Ancaq Makron bundan xəbər tutanda bərk qəzəblənir, çünki qorxur ki, Milli Assambleyada bu ideyaya qarşı üsyankar bir fenomen peyda olsun. Prezident onu da yaxşı bilir ki, Milli Assambleyada onun partiyasından

olan deputatların əksəriyyəti mərkəz solçulara meyl edir... bu da təbii ki, onun xoşuna gəlmir, çünki Makron belə hesab edir ki, onun tətbiq etdiyi iqtisadi siyasət daha liberaldır... Ona görə də Makron təcili olaraq Delfin Ernottun bu layihəsinə, eləcə də öz doğma deputatlarına qarşı əks hücuma başlayır. Makron belə hesab edir ki, bu layihə qəbul olunsa, nəticəsi çox uğursuz olacaq...

Makronun bu çıxışından sonra Fransa Televiziyasında panika yaranır. Rəhbərlik elə bilirdi ki, onların təklifi Makronun partiyası tərəfindən qəbul ediləcək, çünki deputatların çoxu bu təklifin qəbul olunacağına zəmanət vermişdilər. Büdcə məsələsi tezliklə telekanalların xəbərlər proqramında bütün ölkəyə çatdırılır. Mətbuatda bu məsələ ilə bağlı polemikalar yaranır. Əlavə istintaq və Xüsusi nümayəndə verilişlərinin yaradıcı heyətləri şoka düşür. Televiziya jurnalist Elis Lücetin adı mediada hallanır. Delfin Ernott mətbuatda güclü tənqid atəşinə tutulur. Makron televiziya jurnalistlərini tənqid atəşinə tutur. Nəhayət, prezidenti sakitləşdirmək və bu skandalı yatırtmaq üçün Fransa Televiziyasının informasiya direktoru Yannik Letranşan elan edir ki, “Telejurnalist Loran Deloss saat 19-da başlayan xəbərlər proqramını təkmilləşdirməyə səy göstərəcək...”. Məsələ burasındadır ki, bu məşhur telejurnalist dövlət başçısını yaxşı tanıyır. Onlar ikisi də Amiən şəhərindəndirlər və ikisi də eyni məktəbdə təhsil alıblar. Yannik Letranşanın bu elanından cəmisi bir neçə gün sonra Delfin Ernotta acıq vermək üçün prezident Makron Loran Delossa uzun müsahibə verir... özü də indiyə qədər görünməmiş xüsusi bir formatda: qırx dəqiqə ərzində dövlət başçısı Yelisey sarayının dəhlizlərində gəzə-gəzə jurnalistin suallarını cavablandırır. Prezidentlə bu şəkildə müsahibə ertəsi günü bəzi qəzetlərin səhifələrində lağa qoyulur.

Amma bununla belə Fransa Televiziyası günlərini sayır. Yelisey sarayında da, Baş nazirin kabinetində də texnokratlar qollarını çırmalayıb işə başlayırlar. Onların hədəfində Fransa Televiziyasının 3 milyard

avroluq sərmayəsidir. Baş nazir Eduard Filip Fəaliyyət Komitəsinin direktoru, vaxtilə Fransa Televiziyasının prezidenti olmuş Mark Tessiyeyə tapşırıq verir ki, 2022-ci ilə qədər dövlətin ictimai televiziyaya çəkdiyi xərclərə 60 milyard avro qənaət etsin. Büdcəni azaltmaq üçün hətta bəzi telekanalları birləşdirmək ideyası da irəli sürülür. Hətta digər "mütəxəssislər" teleyayımda vahid prezidentlik ideyasını da ortaya atırlar. Bir sözlə, televiziya və onun proqramlarından başqa ağıllarına gələn hər şeydən danışırlar. Bu azmış kimi Yelisey sarayının kabinet direktoru Aleksi Kohler Fransa Televiziyasına xalqa mənəvi sərvət gətirən ictimai bir müəssisə kimi yox, əbəs yerə milyonlarla pul səpələnən uçurum kimi baxır. Bu hələ harasıdır, Yelisey sarayının kabinet direktoru olan bu yüksək vəzifəli dövlət məmuru belə hesab edir ki, ictimai televiziya onun əmri ilə idarə olunmalıdır. (!)

## YAZILI MƏTBUAT DA KƏNARDA QALMIR

Makron media dünyasını yaxşı tanıyır və çox gözəl bilir ki, bu dünyada kiçik bir qığılcım böyük miqyaslı yanğına səbəb ola bilər. Rotşild bankında olanda, o, mətbuata aid olan bir neçə məsələlərin üzərində işləmişdi, xüsusilə də 2010-cu ildə Le Monde qəzetinin satışının təşkilində. Elə həmin il o, Le Parisien qəzetini almağa cəhd edən bankir Qrequar Şertoka da kömək əli uzatmışdı. Ancaq nəticədə, bu satış qəzetin sahibi Mari-Odil Amori tərəfindən ləğv edildi. Makron həmçinin Lagardère qrupunun bəzi beynəlxalq qəzet və jurnallarının satışında da fəal iştirak etmişdi.

2018-ci il Fransız mətbuatı üçün çətin bir il oldu. Yanvarın əvvəlində həftəlik jurnal L'Obs üz qabığında miqrantların vəziyyəti ilə bağlı hamını şoka salan bir foto çap etdi. Montaj olunmuş bir fotoda tikanlı məftillərin arxasında dayanmış, əynində ağ-qara rəngdə paltar olan Emmanuel Makron təsvir olunur. Fotonun altında isə iri hərflərə yığılmış belə bir başlıq verilir: "Miqrantlar, insan hüquqları ölkəsinə xoş gəlmisiniz...".

Bir neçə həftə sonra jurnalın direktoru səhmdarlar tərəfindən işindən qovulur. Bəziləri burda Makronun əli olduğundan da şübhələnirlər. Digərləri isə iddia edir ki, onsuz da, direktor jurnalın zəif satışına görə vəzifəsindən getməli idi. Ola bilsin ki, bu fərziyyə doğrudur, amma prezidentin onun işdən qovulmasında rolu olduğu haqqında da söhbətlər dayanmır. Bunda da günah onun özündədir. Çünki Makron ölkədə elə bir klimat yaradıb ki, hansısa qalmaqallı bir işdə prezidentin əli olduğunu görməmək mümkün deyil.

Fransa Televiziyası ilə bağlı mübahisələr soyumamış, Makron başlayır yazılı mətbuata ilişməyə. Jurnalistlərə hörmətlə yanaşdığını

qeyd etməklə bərabər, o, çıxışında "fake news" yayan qəzet və jurnallara qarşı mübarizə aparmağın vacibliyindən danışır, hətta utanmaz-utanmaz jurnalistlərə bir sıra "ağıllı" məsləhətlər də verir.

Payızda Nouveau Magazine littéraire (yeni ədəbiyyat jurnalı) jurnalının səhmdarları, prezidentə olan sevgisini heç vaxt gizlətməyən Klod Perdriel də başda olmaqla, altıca ay qabaq özlərinin direktor təyin elədikləri Rafael Qlüksmanın işindən qovulmasına qərar verirlər. Le Monde qəzeti də yazır ki: "Nouveau Magazine littéraire (yeni ədəbiyyat jurnalı) jurnalının direktoru Rafael Qlüksman, prezident Makronu tənqid etdiyinə görə işdən qovulur". Məsələ burasındadır ki, gündəlik Le Monde qəzeti ilə Yelisey sarayının arasındakı əlaqələr çox gərgindir. Özü də bu təzə söhbət deyil, əksinə Makronun seçki kampaniyasından miras qalan bir düşmənçilikdir. O vaxt gələcək prezidentin komandasının bir dəstə üzvü Le Monde qəzetinin redaksiyasına hücum çəkib rəhbərliklə və siyasi şöbə ilə görüş tələb etmişdilər... nədir-nədir niyə gündəlik qəzet birinci səhifəsində onların lideri (Makron) haqqında tənqidi məqalə verib?!

2018-ci ildə jurnalistlərlə hakimiyyət arasındakı belə bir qarışıq kontekstdə, Fransanın media dünyasında yeni bir maqnat – Daniel Kretinski peyda olur. EPH qrupunun rəhbəri olan bu qırx yaşlı çex milyarderi var-dövlətini Mərkəzi Avropanın enerji sektorunda qazanıb. Fransanı və fransız mədəniyyətini çox sevən, Fransız dilində sərbəst danışan, ancaq Fransada heç kimin tanımadığı bu iş adamı, təxminən 60 milyon avroya Lagardère qrupunun yeddi məşhur jurnalını, (Elle, Version Femina, Art & Decoration, TV 7 jours, France Dimanche, Ici Paris, Public) eləcə də Marianne siyasi jurnalını satın alır.

Böhran vəziyyətində olan Fransanın media dünyasındakı bu qəfil alqı-satı məsələsi hamıda sürpriz yaradır... və paralel olaraq ölkədə bir şayiə yayılır: deyirlər ki, guya sərvətini enerji, xüsusilə daş kömür və

qaz sayəsində əldə edən oliqarx Kretinski, Putinə və Kremlə çox yaxın adamdır. Bir neçə həftə sonra bu söz-söhbət Le Canard enchaîné qəzetində də təkrarlanır. Ancaq qəribə burasındadır ki, Makron və onun klanı ağız-ağıza verib səhərdən axşama qədər Putini, Rusiyanı və onun Fransaya pis təsirini tənqid etsələr də, bu dəfə səslərini də çıxarmırlar. Ancaq mətbuatda gedən bir neçə qısa xəbərə görə, nə rəsmi, nə də qeyri-rəsmi reaksiya verməsə də, Yelisey sarayı bu söhbətdən narahat olur.

# HAQQ-HESAB SAATI

Bütün ölkənin, xüsusilə də siyasi jurnalistlərin çoxdan gözlədiyi vaxta – nazirlərin dəyişdirilməsi gününə – iki gün qalıb. Ekologiya naziri Nikola Hülo ilə Daxili İşlər naziri Jerard Kollomb istefa verib gedəndən sonra Emmanuel Makron gecə-gündüz kimi hansı nazirliyə göndərmək barəsində fikirləşir. O bu seçimini mesaj kimi mediaya da çatdırmaq istəyir. Düzdür, gənc prezident ona əxlaq dərsi keçənlərə, ona nəyi necə etmək haqqında məsləhət edənlərə nifrət edir, lakin indi hiss olunur ki, o, bərk narahatdır və məsləhətə ehtiyacı var. Əslində, dövlət başçısı nazirləri belə tez dəyişməyi planlaşdırmamışdı, hər halda, Avropa seçkilərindən əvvəl yox. Lakin gözlənilmədən ortaya çıxan Benalla məsələsi həm ictimai fikirlərdə, həm də Yelisey sarayının dəhlizlərində dərin iz buraxdı. Doğrudan da, bu məsələdə prezidentin bəxti heç gətirmədi.

İndi bütün ölkədə, bütün ailələrdə şam yeməyi zamanı söhbət ancaq prezident Makrondan, onun zəifliyindən və onun hakimiyyətdəki tənhalığından gedir. Bir müddət qartal kimi qanad açıb göylərdə süzən Makron indi hamının tənqid hədəfinə çevrilib. Dövlət başçısı o böyük Yelisey sarayında tənhalığa qapılıb. Bununla belə Makronçular arasında hələ də heç kim ictimai yerlərdə və ya mediada prezident haqqında tənqidi bir söz deməyə cəsarət etmir. Fransada hələ ki, hər şey bu monarxın əlindədir və onun ətrafında dövr edir. V Respublikada pre-

zidentin səlahiyyətlərinin sayı çox olsa da, onun gərginliyi də çoxdur. Amma seçki kampaniyası zamanı müxtəlif şəbəkələrin və müxtəlif siyasi şəxsiyyətlərin birləşib ona kömək etdikləri dövr artıq geridə qalıb. İndi hamı öz başının hayındadır. Hamı özünə sual verir ki, niyə o vaxt mən elə yox, belə elədim? Niyə mən o vaxt bu macəraya qoşuldum? Niyə o vaxt mən buna (Makron) səs verdim?.. Bu məsələ ilə bağlı bizim verdiyimiz suallara çoxları belə cavab verdi: "Bu dəqiqə ölkədə siyasi vəziyyət çox pis gündədir... ona görə hələlik sizinlə bu barədə danışmaq istəmirəm...".

Prezidentdən məyus olanlar arasında Jan-Lui Borlo xüsusi bir yer tutur. Bu mərkəzçi partiyasından olan keçmiş nazir, Makronun ona həvalə elədiyi şəhərətrafı qəsəbələrdəki sosial vəziyyətlə bağlı hesabatından sonra məruz qaldığı təhqirləri hələ də həzm etməyib. Telekameralardan və jurnalistlərdən kənarda Nikola Sarkozinin bu keçmiş naziri prezident Makronun ona qarşı pis davranışından şikayətlənir. Xüsusilə də Afrika ölkələri ilə bağlı məsələlərdə. Dominik dö Villpənt də dövlət başçısının ona qarşı soyuq münasibətindən gileylənir. Onların özləri, onların dostları, onların şəbəkələri, prezident seçkiləri zamanı bu gənc namizədə kömək etməmişdilərmi? Etmişdilər!.. Niyə bəs Makron onların köməyini belə tez unudur? "Biz onun üçün nələr eləmədik... ancaq əvəzini görmədik. Prezident seçiləndən sonra o bizi unutdu. Elə advokat Jan-Mişel Darruanı götürək. O yazıq seçki kampaniyasında Makron üçün əlindən gələni etdi, Rotşild bankında, eləcə də Nestlé firmasında ona maliyyə köməyi tapdı. Ancaq Makron hər şeyi unutdu. Prezident seçiləndən bəri bircə dəfə də olsun ona zəng vurmadı. Amma Parisdə belə şeylər keçmir. "...əgər yuxarı qalxanda sənə kömək edən insanları sonra saymırsansa, yıxılanda sənə əl uzadan olmayacaq", – deyə Parisli bir iş adamı dodaqaltı deyinir. Heç digərləri də, xüsusən Sosialist Partiyasından olanlar da bu ikibaşlı danışan, məntiqsiz hərəkətlər edən cənab Makronu anlamırlar. "Biz ona Barak Obama kimi, Jüstan Trüdo kimi baxırdıq... Nə oldu bəs? Əvəzində Nikola Sarkozi ilə dostluq edən,

sağa-sola liberalist qanunlar səpələyən və siyasi məmurlara hörmətsizlik göstərən bir adam gördük...”. Hətta Yelisey sarayının özündə belə prezident kabinetinin üzvlərindən biri cəsarət edib bizə dedi ki: “Biz fikirləşirdik ki, dövlətin başına yeni bir Napoleon Bonapart gəlib, ancaq əvəzində Sarkozinin minə bölünmüş versiyasını gördük”.

Onun ən yaxın çevrəsindəki əməkdaşları arasında belə çox az adam onunla ünsiyyətə girə bilir. İsmael Emelienin kiçik klanında qapanıb qalan prezident haqqında makroniyanın özündə belə qəribə söz-söhbətlər gəzir: “Benalla Makronun məşuqu deyil, çamadan daşıyandır...”. Bəziləri də deyir ki, “Prezidentin hamıdan qaçmağının səbəbi şəxsən özüdür...”. Təbii ki, bütün bunlar arxada, gizlin, pıçıltı ilə deyilir. Onun haqqında gəzən şayiələrin heç doğru olub-olmamasını sübut etmək mümkün olmasa da, dedi-qodu durmadan artır. Suallar getdikcə çoxalır. Nə üçün Aleksandr Benallanın ətrafında bu qədər Afrikalı iş adamı var? Nə üçün indi də onun yanında oliqarxlar peyda olub? Necə oldu ki, sadə bir “missiya müşaviri”, may ayının 1-də etdiyi hərəkətlə bütün dövlət aparatını iflic vəziyyətinə saldı? Niyə prezident də, onun ətrafı da Benallanı belə canfəşanlıqla qorudular? Bəlkə, kimsə prezidenti şantaj edir?

## BENALLA QALEREYANI ƏYLƏNDİRİR

O da bir həqiqətdir ki, bu payız keçmiş "missiya müşaviri" Aleksandr Benalla ölkədə, bəlkə də, ən məşhur adamdır. Bir gün onu paytaxtın adlı-sanlı Fuquet's restoranında, bir başqa gün Foburq-San-Onore küçəsində, Yelisey sarayının iki addımlığında yerləşən beş ulduzlu məşhur Bristol hotelinin barında görürlər. Onun Parisin 8-ci rayonunda çox dəbdəbəli Piaf restoranında keçirilən JDD jurnalının 70 illik yubiley mərasimində peyda olması əsl sensasiyaya səbəb olur. Benalla tez-tez Nikola Sarkozinin büdcə naziri olmuş Jerard Darmanan, məşhur advokat Terri Herzoq, Fransua Baruan, Valeri Pekress, Ramzi Kirun, Denis Oliven kimi adlı-sanlı adamlara görüşüb söhbət edir. Yanvar ayında senatorların qarşısında ikinci dəfə dindiriləndən sonra Benalla hər gün vəkili Jaklin Lafonla birlikdə Parisin 6-cı rayonunda, Odeon Teatrının yaxınlığındakı məşhur Hibou kafesində nahar edir. Fevral ayında həbsxanadan çıxandan sonra qəsdən hər axşam Bristol hotelinin barına gəlir. Benallanı görən kimi hamı dərhal yaxınlaşıb onunla selfi çəkdirir, ya da heç özündən icazə də almadan kənardan onun şəkilini çəkirlər. Əlbəttə, artıq heç kim onun vaxtilə prezidentin sadə bir "cangüdəni" olduğuna inanmır.

Benallanın Çad ölkəsinə səfəri mediada yayılandan sonra Yelisey sarayı əks hücuma keçdi. Prezidentin mətbuat xidməti elan etdi ki: "Benalla heç bir diplomatik söhbətlərdə iştirak eləmir; o, prezidentin elçisi deyil və xarici dövlət başçıları ilə heç bir rəsmi danışıqlar aparmır". Bu yay hələ heç kim Yelisey sarayından Benallaya qarşı belə bir münasibət gözləmirdi. Burdan aydın görünür ki, Benalla Yelisey sarayını tərk edəndən sonra da çox yüksək səviyyədə dəstəklənib və çox yüksək səviyyədə də qorunub. Xüsusilə prezidentin kölgəsindəki İsmael Emelien ilə Lüdovik Şaker hər şey edirdilər ki, Benalla heç nədən korluq çəkməsin.

Ancaq Milad bayramı ərəfəsində, onun diplomatik pasportları ilə bağlı məsələlər, eləcə də keçmiş "missiya müşavirinin" rus oliqarxları ilə yaxınlığı mediada yayılanda, Yelisey sarayında yenidən panika yarandı. Əvvəlcə, prezidentin mətbuat xidməti iddia etdi ki, Benalla Yelisey sarayını tərk edəndən sonra prezident onunla Teleqram proqramı vasitəsilə mesajlaşmayıb. Ancaq bir müddət sonra prezidentin elə həmin mətbuat xidmətində jurnalistlərə etiraf etdilər ki, prezident, həqiqətən də, Aleksandr Benalladan bir neçə mesaj alıb və bəzilərinə cavab verib. (?) Çünki bir neçə həftə əvvəl Valeurs actuelles jurnalı yazmışdı ki, İsmael Emelien ona zəng vurmaqda davam edir və Benallanın özünün dediyinə görə, hətta prezidentin özü də ona zəng vurur.

Yanvar ayının əvvəlində Yelisey sarayında sanki bomba partlayır. Hamının təəccübünə rəğmən prezident aparatının mətbuat xidmətinin direktoru Silvan Fort istefa verib işdən çıxır. Bəzi makronistlərin dediyinə görə, "Prezidentin Benalla ilə Teleqram proqramı vasitəsilə mesajlaşması epizodu" onun səbir kasasını doldurdu. Onun dalınca beynəlxalq mətbuat müşaviri Barbara Früjiye də könüllü olaraq istefa verib gedir. Hələ bu harasıdır, deputatlarla əlaqələr üzrə məsul məsləhətçi Stefan Sejurne də istefa ərizəsini verib Yelisey sarayından uzaqlaşır. Yanvar ayının ortalarında prezident aparatının məsul işçiləri öz aralarında pıçıldaşır ki, çox güman ki, növbəti istefa verən mətbuatda prezidentin "beyni" adlandırılan xüsusi məsləhətçi İsmael Emelien olacaq. Bu adamın mayın 1-də baş verən hadisələrdən sonra dostu Aleksandr Benallanı qorumaq üçün etdiyi qanunsuz hərəkətlər ona baha başa gələcək...

Ancaq hələ ki, nə bu xüsusi məsləhətçi, nə də onun dostu Lüdovik Şaker senatorlar tərəfindən sorğu-sual edilməyiblər. Buna baxmayaraq, Yelisey sarayında da, nazirlər kabinetində də Aleksandr Benalla məsələsi ilə yaxından-uzaqdan əlaqəsi olan hər kəs öz başının hayındadır. Senat komissiyası qarşısında hamı öz çulunu sudan çıxarmağa səy edir. İş o yerə çatır ki, lətifə kimi görünsə də istintaq zamanı iki nazirin – Jan-

Yv Lö Drian (Xarici İşlər) və Kristof Kastaner (Daxili İşlər) – Benallanın xarici pasportları və Çad səfəri haqqında dedikləri bir-biri ilə ziddiyyət təşkil edir. (?)

Fransız xalqı heyrət içində bu "siyasi serialı" izləyən zaman Yelisey sarayı əlimyandıda istefa verən mətbuat xidmətinin direktoru Silvan Fortun yerinə adam axtarır. Mətbuatda müxtəlif adlar hallanır. Onların çoxunu Yelisey sarayına dəvət edib söhbət aparırlar. Ancaq hələ ki, müraciət olunanlardan heç biri bu vəzifəyə gəlməyə ürək eləmir. Çünki hamı yaxşı bilir ki, prezidentin mətbuat xidmətinin direktorunun kreslosu təhlükəli kreslodur, bir balaca səhv etdin işin bitdi. Eyni zamanda, Makron təzədən özünü qabağa verir, televiziyada, radioda, yazılı mətbuatda çıxışlarının, müsahibələrinin sayını artırır. Prezident çox yaxşı bilir ki, artıq ölkədə heç kəs Benalla məsələsinə adi bir şey kimi baxmır. Hamı hiss edir ki, bu işin arxasında çoxlu sirlər gizlənir. Ona görə də Makron çalışır ki, ictimaiyyətin fikrini başqa səmtə yönəltsin. Ancaq bu qeyri-mümkün bir missiyadır. Dövlət başçısının bütün səylərinə baxmayaraq, bir neçə həftə prezident aparatı fırtınaya düşmüş gəmi kimi löngər vurur.

## BRİJİT MAKRON HİKKƏSİNDƏN PARTLAYIR

Bütün bunlara baxmayaraq, sentyabr ayının əvvəlində "klanlar" həmişəkindən daha güclü görünür. Kənardan! Daxildə isə Aleksi Kohlerin "Kardinalın mühafizəçilər" klanı ilə Brijit Makronun "Muşketyorlar" klanı arasındakı müharibə hələ də davam edir. Prezidentin mətbuat xidmətinin direktoru Silvan Fort hələ istefa verməmişdən əvvəl İsmael Emelien ilə birlikdə əlindən gələni etmişdi ki, birinci xanım, dövlət başçısının nə Nyu-York səfərində, nə də San-Marta adasına səfərində iştirak etməsin. Çox mübahisələrdən sonra onlar təklif edirlər ki, yaxşı qoy birinci xanım yalnız Nyu York səfərində prezidenti müşayiət eləsin. Vəssalam. Bundan xəbər tutan Brijit qəzəbindən cin atına minir. Hikkə ilə onların üstünə çımxırır ki: "Mənə qulaq asmamağınız sizə baha başa gələcək!". Paralel olaraq birinci xanım iddia edir ki, onun prezidentin bütün səfərlərində müşayiət etməyə ixtiyarı var. Bu səfərlərdə o, bir həyat yoldaşı kimi ərinə kömək etməlidir, onun qayğısını çəkməlidir, onun yeməyinə-içməyinə fikir verməlidir, onun istirahətini təmin eləməlidir ki, prezident yorulub əldən düşməsin. Valeurs actuelles jurnalına verdiyi müsahibədə Aleksandr Benalla birinci xanımın, həqiqətən də, bu sözləri dediyini bir daha təsdiqləyir.

Bu söhbətlərdən bir müddət sonra Makronlar cütlüyünün şəkilləri yenidən sarı mətbuatın səhifələrində peyda olur. Jurnalların, qəzetlərin üz qabıqlarında, prezidentin ailəsində gərgin böhran olması haqqında başlıqlar dərc olunur. Sarı mətbuatın jurnalistləri xəbər verir ki, Brijit Makronla Emmanuel Makronun arasındakı münasibət tamamilə pozulub. Birinci xanımın yaxın rəfiqələrindən biri deyir ki: "İsmael [Emelien], Silvan [Fort], Sibet [Ndiay] və Yelisey sarayının kabinet direktoru Aleksi [Kohler] onların boşanmasını arzulayırlar. Onlar istəyirlər ki, Emmanuel Makron tək qalsın və onu istədikləri kimi idarə etsinlər".

Sentyabrın əvvəlində birinci xanım prezident sarayındakı evinin bir çox əşyalarını Parisin 7-ci rayonunda, Klerk küçəsindəki mənzilinə gətirir. Bu küçədə yerləşən mağazaların, restoran və barların işçiləri binanın qarşısında dayanan yük maşının şahidi olurlar. Bütün Paris prezident cütlüyünün ayrılmasından danışır. Bu dedi-qodunun qarşısını almaq üçün ər-arvad qərara gəlir ki, Müqəddəs Tussant bayramını bir yerdə keçirsinlər. Bundan ötəri Emmanuel Makron, hətta Nazirlər Şurasının iclasını bir gün qabağa çəkir, belə bir şey hələ V Respublikanın tarixində görünməmişdi. (!) Beləliklə, Emmanuel ilə Brijit bir neçə günlüyə Kalvados departamentinin Honfleur şəhərində yerləşən Relais et Châteaux hotelinə istirahətə gedir. Ancaq az sonra onların istirahəti burunlarından gələcək. On beş gündən sonra ölkədə sarı jiletlilər hərəkatı başlayacaq...

Ancaq noyabrın əvvəlində Parisə qayıdan Makron cütlüyünün hələ də fransızların həyat səviyyəsinin qayğısına qalmağa vaxtı yoxdur. Bu arada Benalla məsələsindən sonra Yelisey sarayının qapısından qovulan sarı mətbuat nümayəndəsi Mimi Marşand pəncərədən geri qayıtmağa can atır. Onun dostu, televiziya jurnalisti, homoseksual Mark-Oliviye Fojiel öz başını xilas etmək üçün yenidən Brijit Makrona girişir. Birinci xanımın komandası prezident cütlüyü üçün dəbdəbəli nahar təşkil edir. Masanın ətrafında cütlükdən başqa Brijitin kabinet direktoru Pier-Oliviye Kosta, kabinetin şefi Tristan Bromet və birinci xanımın "yaddaş" məsləhətçisi təyin edilən Brüno Roje-Peti də əyləşir. Bu yığıncaqda məqsəd nədir? Makronlar ailəsindəki problemin kimin tərəfindən mətbuata xəbər verilməsini tapıb öyrənmək! Əlbəttə, hamı ilk növbədə tarixi düşmənlərindən – İsmael Emeliendən və onun komandasından şübhələnir. Birinci xanımın adını bildirmək istəmədiyi bir rəfiqəsi jurnalistlərə etiraf edir ki: "Onlar hamısının (İsmael Emelien, Silvan Fort, Sibet Ndiay, Aleksi Kohler) arzusu budur ki, Brijit Makron ölsün, Emmanuel dul qalsın. Onda hər şey əla olar. Onlar hamısı Emmanuelə

aşiq olublar. Gecələr yatanda belə onu (Brijit Makron) necə yox etməyi düşünürlər...”. Prezident aparatında gedən söhbətlərə bax...

Noyabrın 14-də Emmanuel Makron fransızların ürəyini almaq üçün yeni bir vasitəyə əl atır: Charles-de-Gaulle təyyarədaşıyan gəmisinin göyərtəsindən TF1 telekanalına müsahibə verir. Bu dəfə hər şey əvvəlcədən professional şəkildə təşkil olunub: texniki vasitələr, projektorlar, mikrofonlar, kameralar... qısası, Hollivud filmlərinə layiq bir çəkiliş meydançası hazırlanıb. Prezident Fransanın məşhur Rafale qırıcı təyyarəsinin yanında oturub jurnalistlərin suallarına cavab verir. Ancaq bütün bu səhnələşdirməyə baxmayaraq, Makron heç də prezidentliyinin ilk aylarındakı kimi enerjili, coşqun, cəsarətli görünmür. Hətta ekranda belə hiss olunur ki, dövlət başçısı xeyli arıqlayıb... Yorğun prezident həmin axşam Charles-de-Gaulle gəmisində yatacaq. O, gecə yarısına qədər gəminin mətbəxində oturub aşpazlarla söhbət edir... amma hamı hiss edir ki, onun fikri tamamilə başqa yerdədir.

... İki gündən sonra Fransanın, demək olar ki, hər yerində sarı jiletlilər hərəkatı başlayır.

# SON SÖZ

Emmanuel Makron Rotşild bankında işləyəndə də, Fransua Hollandın rəhbərliyi altında Yelisey sarayının baş katibinin müavini olanda da mütləq vaxt tapıb iki ölkənin elitasının iştirakı ilə Fransada ya da İngiltərədə keçirilən üç günlük Franko-Britaniya Konfransında iştirak edirdi. 2017-ci ilin yanvar ayında seçki kampaniyasının qızğın dövründə Versalda keçirilən növbəti konfransda prezidentliyə namizəd iştirak edə bilmir. Amma onu dəstəkləyən Fransa iş adamları birliyinin müşaviri Alan Mink bu konfransda ikibaşlı bir cümlə işlədir: "Biz yaxşı bilirik ki, xalq deyilən bir şey yoxdur".

Fransız texnokratiyasının təmiz məhsulu olan Emmanuel Makron, bütün gücünü, enerjisini, vaxtını sərf elədi ki, mediada onu sadəcə bir bankir və ya adi dövlət qulluqçusu səviyyəsinə endirməsinlər. O zaman təzəcə İqtisadiyyat naziri təyin olunmuş Fransua Hollandın bu keçmiş əməkdaşı siyasət dünyasına "yenilik" gətirməyi arzulayırdı. Parisdə bu iddialı gəncin çoxlu "dostları" da var idi. Ancaq onların arasında çox az adam dərk edirdi ki, Makronun arzuladığı hakimiyyətin əsas konsepsiyası, birmənalı şəkildə monarxiyadır! Bu gün Paris elitasının mərkəzində o vaxt Makrona olan simpatiyanın yerini təəssüf və peşmanlıq tutub. "Makron prezident seçiləndən sonra monarx oldu və bütün dostlarını unutdu", – deyə onun keçmiş tərəfdarlarından biri acı-acı etiraf edir.

Hətta Makronun tətbiq etdiyi vergi siyasətindən xeyli fayda götürən böyük şirkət rəhbərlərinin də ona qarşı münasibətləri dəyişdi. Ona görə

ki, Makron artıq hamıya əl tutan, mülayim təbiətli baş katib müavini, Fransua Hollandın kölgəsində özünə şəbəkə toplayan adam deyil. Hələ 2013-cü ildən Total şirkətinin baş direktoru və prezidenti Krostof Marqeri Makronun hamının xoşuna gəlmək strategiyasına rişxənd edirdi: "Makronda adamı təəccübləndirən odur ki, bu adam heç vaxt heç kəsə "yox" demir, həmişə hamıya "bəli" deyir!".

Prezident seçiləndən sonra bu yeni dövlət başçısı ilə ölkənin keçmiş siyasi liderləri arasında bütün münasibətlər pozuldu; onun illər boyu bir-bir ətrafına yığdığı böyük şirkət sahibləri ilə əlaqələri kəsildi. Çünki onlar gec də olsa, başa düşdülər ki, hələ V Respublikanın tarixində ölkəyə belə bir qəribə lider başçılıq etməyib. Yeri gəlmişkən, 2017-ci ilin mayında hakimiyyətə gələndə, gənc prezident Lionel Jospanın vaxtında nazir olan Hüber Vedrinə zəng vurub ona Xarici İşlər Nazirliyini təklif etmişdi. Yeni prezidentin bu təklifi keçmiş nazirin xoşuna gəlsə də, etiket xatirinə o dəqiqə "hə" demir, xahiş edir ki, ona fikirləşmək üçün iyirmi dörd saat möhlət versin. Bu, əlahəzrət Makronun xoşuna gəlmir O, bir də heç vaxt Hüber Vedrinə təkrar zəng vurmayacaq və bir daha ona heç bir vəzifə təklif etməyəcək.

O da heç kəsin nəzərindən qaçmır ki, super-prezident statusu arxasında Makron hələ də özünü bankir kimi aparmaqda davam edir. Prezident seçildiyi gündən o, Yelisey sarayının Baş katibi ilə birlikdə müxtəlif sənaye sahələrinə birbaşa müdaxilə edir. Enerji, özəlləşdirmə, media, ədliyyə, müdafiə, silahlanma... bütün bu həssas sahələrlə bağlı məsələləri prezident Yelisey sarayının qızılı rəngli qapıları arxasında şəxsən özü həll edir. Bu mövzular heç vaxt nə ictimaiyyət qarşısında, nə mediada, nə də parlamentdə müzakirə olunur. Halbuki bütün bu məsələlər ölkənin gələcəyində, xalqın rifahında həlledici rollar oynayır. Milli Assambleya, ümumiyyətlə, Makronun vaxtında səsyazma sexinə çevrilib. Onun "gözəl" çıxışlarının, "gözəl" sözlərinin arxasında tez-

tez müxtəlif lobbilərin istəklərinə uyğun olan ideyalar durur. Əslində, dərindən baxanda Makronun siyasi planetində yeni heç bir şey yoxdur.

Hakimiyyətə gəlmək üçün Makron ağına-bozuna baxmadan bütün imkanlardan, bütün şəbəkələrdən istifadə etdi. Dövlət başçısı keçəndən sonra isə onun siyasi praktikasının qeyri-şəffaflığı hamını çaşdırdı. Bu adamın yalnız bir məqsədi var: kütlənin simpatiyasını qazanmaqla qalib gəlmək... prezident olmaq üçün Makron özündən əvvəlki dövlət başçılarının texnikasını tətbiq etdi. Benalla məsələsi ilə sarı jiletlilər hərəkatı az qaldı onu hakimiyyətdən devirsin. Altı ayın içində ölkədə hər şey çökdü. Prezident funksiyasını bərpa etmək istəyən prezident gözlənilmədən üzü üstə yerə sərildi. "Makronun nəzarəti itirməkdən zəhləsi gedir... bundan başqa, o qorxur ki, ətrafındakıların gözündən düşsün. Ölkədə vəziyyət acınacaqlıdır, çünki nə nəticə var, nə istək, nə də hörmət. O adam hər şeyi məhv etdi...", – deyə Rotşild bankında Makronun keçmiş həmkarlarından biri bu məsələ ilə bağlı öz fikrini bildirir.

Bu gənc, prezident olandan sonra da xalqın xoşuna gəlmək üçün kampaniya vaxtında olduğu kimi media qarşısında artist kimi şou göstərməyə başladı. Ona dövlətin ən yüksək vəzifəsinə yüksəlməyə qabiliyyət və bacarıq verən tale, görəsən, ona dövləti normal idarə etmək üçün də qabiliyyət və bacarıq verəcəkmi?

Bununla belə, onun tək şəxsi ambisiyası ölkədə itmiş imicini bərpa etmək üçün kifayət etməyəcək. Çünki prezidentdə hər şeydən əvvəl kollektiv ambisiya daşımaq qabiliyyəti olmalıdır. Və azad seçkilər olan demokratik bir ölkədə, şəbəkələr heç də hər şeyi həll etmir. 1994-cü ilin noyabrında prezident Mitteran Fransa merlərinin qurultayında tribunadan bu sözləri demişdi: "Dövlət başçısı Fransızları sevməlidir, və Fransızlar da hiss etməlidirlər ki, dövlət başçısı onları sevir. Xalqla prezidentin arasındakı bu emosional əlaqə çox vacibdir... Fransızlar

biəməlidirlər, hiss etməlidirlər ki, onlara rəhbərlik edən və onları təmsil edənlər tərəfindən sevilirlər...".

2017-ci ildə, doğrudan da, Makronun bəxti gətirdi, çünki gələcəyi rəqiblərindən daha aydın görə bildi. Görəsən, prezident olduğu dövrdə də gələcəyi rəqiblərindən daha aydın görə biləcəkmi? Əgər səhv addım atsa, onun "domino daşlarından qurulmuş binaya" bənzəyən hakimiyyəti barmaq vuran kimi uçub dağılacaq...

"Makron illüziyadır...", – deyə makronizmdən məyus olanlardan biri acı-acı etiraf edir, – "o, hakimiyyətdən gedəndən sonra nə bir dostu qalacaq, nə də bir şəbəkəsi".